**113. Avropa İttifaqı -** 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niqerlandiya, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maaştrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına Avstriya, Finlandiya daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını,malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildə vahid valyuta-avro işlənir, vahid pul-kredit siyasəti aparılır. **C.20**- 172.

**114. Avropa-Qafqaz-Asiya** nəqliyyat dəhlizi - bax: Transqafqaz nəqliyyat dəhlizi.

**115. Avropa Parlamenti** (AP) - Avropa Şurasının orqanlarından biri. İştirakçı ölkələrin əhalisinə görə ümumi səsvermə yolu ilə 5 il müddətinə seçilir. AP aylıq sessiyaları Strasburqda, fövqəladə iclasları AP-nin komitələri işləyən Brüsseldə, Katibliyi isə Lüksemburqdadır. Azərbaycan 2001-ci ildən Avropa Parlamentinin üzvüdür. **C.14**- 9, 316; **C.21**- 49; **C.25-** 205-220.

**116. Avropa Şurası** (AŞ) - Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə təşkil olunmuşdur. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nin əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını qorumaq, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nin ali orqanları Nazirlər Komitəsi, Məsləhət assambleyası, Sahə nazirliklərinin müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən AŞ-nin üzvüdür. **C.10-** 291; **C.12-** 189, 204, 205, 227, 279-325; **C.13-** 245, 259; **C.14-** 9, 157, 163, 317, 323; **C.15**- 137-151, 186, 190, 191, 192, 193, 195, 196, 202, 353-360, 405; **C.16**- 155, 262, 350, 356, 440, 482; **C.17**- 182, 195-208, 435; **C.18**- 34, 39, 404, 450; **C.19**- 26, 121; **C.20**- 285, 327, 374, 440, 446; **C.21**- 55, 57, 272, 361, 374-381; **C.22**- 368, 382; **C.23**- 301, 310, 340-359, 362, 363, 365, 367, 385; **C.24**- 165; **C.25-** 206, 207, 208, 224, 225, 349, 350, 358, 374; **C.26-** 29, 51, 340-349, 424; **C.27**- 18, 23, 130, 133, 134, 433, 434; **C.28**- 65, 135, 450.

**117. Avropa Şurasının Parlament** Assambleyası (Avroparlament) - 2004-cü ildə təşkil olunmuşdur. Avroparlamentin işində 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. **C.17**- 196, 198, 207; **C.21**- 374-387; **C.22-** 37; **C.23**- 340-359, 367; **C.28**- 130, 135, 150.

**118. Avropa Təhlükəsizlik və** Əməkdaşlıq Təşkilatı **-** bax: ATƏT.

**119. Avropa Yenidənqurma və** İnkişaf Bankı - Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 57 üzvü var, həmçinin Avropa İnvestisiya Bankı ora daxildir. **C.13**- 409, 464; **C.14**- 282; **C.16**- 329-331, 357-359, 393; **C.17**- 185, 275; **C.21**- 374-38; **C.21**- 7, 230; **C.22**- 130; **C.24**- 20, 57, 152, 214; **C.25**- 385; **C.27**- 267, 269, 271, 337, 351.

**120. Avropada adi silahlar** haqqında müqavilə - 1990-cı il noyabrın 19-da NATO ilə Varşava Müqaviləsi Təşkilatı arasında imzalanmışdır. Onun əsasını 5 kateqoriya üzrə silahların və texnikanın (döyüş tankları, zirehli döyüş maşınları, 100 mm-dən yuxarı kalibrli artilleriya sistemləri, döyüş təyyarələri və zərbəçi vertolyotlar) hər bir iştirakçı dövlət üçün Müqavilə ilə icazə verilmiş maksimum səviyyəsinədək azaldılması və onların məhdudlaşdırılmasına sonrakı nəzarəti təşkil edir. SSRİ dağıldıqdan sonra 1992-ci il mayın 15-də Daşkənddə bu Müqavilə üzrə hüquqverici olan 8 müstəqil dövlət arasında (Azərbaycan, Belarus, Qazaxıstan, Ermənistan, Gürcüstan, Moldova, Rusiya, Ukrayna) Müqavilənin yerinə yetirilməsi prinsipləri haqqında saziş və adi silahların və texnikanın maksimum səviyyələri haqqında protokol imzalandı.Bu protokola uyğun olaraq Cənubi Qafqazın üç dövlətinin hər biri üçün Müqailə ilə müəyyən edilmiş məhdudlaşdırılmalar Azərbaycanın zərərinə olaraq onun hərbi-siyasi parametrlərindəki fərqi nəzərə almır. Hazırda Vyanada Avropada adi silahlar haqqında Müqavilənin birgə məsləhət qrupu çərçivəsində Müqavlənin müasir reallıqlara uyğunlaşdırılması barədə danışıqlar gedir.

**C.11-** 221; **C.16**- 355; **C.23**- 81, 89, 175, 184, 210, 229, 309; **C.28**- 237.

**121. Avstraliya,** Avstraliya İttifaqı - Avstraliya qitəsində Dövlət. Millətlər Birliyininı tərkibindədir. Ərazisi 7,7 milyon km$^2$, əhalisi 18.3 milyon nəfərdir. Avstraliya İttifaqı inzibati cəhətdən 6 ştata və iki əraziyə bölünür. Dövlət başçısı Böyük Britaniya Kraliçasıdır. Ölkədə Kraliçanı general-qubernator təmsil edir. Qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr palatası) parlamentdir. Paytaxtı-Kanberradır. **C.24**- 304, 305.

**122. Avstriya,** Avstriya Respublikası - Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,1 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Parlamentdir. Paytaxtı Vyanadır. **C.20**- 436-447; **C.25**- 222.

**123. Ayaz Mütəllibov**, Ayaz Niyazi oğlu Mütəllibov (d.1938) - 1989-1990-cı illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədri, 1990-1992-ci illərdə Azərbaycan KP MK-nın birinci katibi, Azərbaycan Respublikasının Prezidenti olmuşdur. **C.10**- 238, 287, 288, 319, 320, 321, 349, 365; **C.13**- 14, 43, 269; **C.14**- 86, 128, 144; **C.15**- 160, 161; **C.18**- 239;**C.20**- 323; **C.21**- 86, 87; **C.22**- 211, 251; **C.23**- 84, 86, 90, 136, 137, 138, 175, 187; **C.24**- 47, 49, 53; **C.25-** 353, 409, 420, 422, 423; **C.28**- 272.

**124. Aybəniz Vəkilova**, Aybəniz Səməd qızı Vəkilova (d.1937) - ədəbiyyatçı. Azərbaycanın Xalq şairi Səməd Vurğunun qızı. Hazırda Səməd Vurğunun ev-muzeyinin baş mühafizidir. **C.12**- 276.

**125. Ayətüllah Xamnei**, Hüseyn Xamnei Seyid Əli (d. 1939) - İranın dini və dövlət xadimi. 1981-1989-cu illərdə İranın Prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının dini rəhbəridir. **C.13**- 358-360, 379, 386, 388; **C.14**- 236; **C.19**- 141; **C.20**- 294; **C.21**- 130; **C.25-** 29; **C.28**- 98-99.

**126. "Ayna"-"Zerkalo"** - ictimai-siyasi qəzet. 1990-cı ildən nəşrə başlayıb. Əvvəllər həftədə 1 dəfə, 1992-ci ildən isə

həftədə 3 dəfə nəşr olunub. 1999-cu ildən “Zerkalo”, 2004-cü ildən isə “Ayna” gündəlik çıxır. Hal-hazırda fərqli qəzetlər kimi nəşr olunur. **C.18**- 43.

**127. Aynur Sofiyeva** (d.1970) - Azərbaycan şahmatçısı. Beynəlxalq dərəcəli qrossmeyster. Milli Məclisin deputatı olmuşdur. Hazırda Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsində çalışır. C.**14**- 305.

**128. “Azad Avropa”,** “Azadlıq” radiostansiyası - Şərqi Avropanın və başqa regionların bəzi ölkələrində verilişlər aparan ABŞ-ın dövlət radiostansiyası. İlkin Mənzil-qərargahı Münhendədir. “Azad Avropa” verilişlərə 1950-ci ildən, “Azadlıq” isə 1953-cü ildən başlamışdır. **C.15**- 34-35; **C.18**- 41; **C.25-** 379.

**129. Azad Mirzəcanzadə,** Azad Xəlil oğlu Mirzəcanzadə (1928-2006) - tətbiqi mexanika və neft-mədən işləri sahəsində alim, texnika elmləri doktoru, professor. Azərbaycan MEA-nın akademiki. Tədqiqatları tətbiqi mexanika, neft və qazkondensat yataqlarının işlənilməsinə həsr olunmuşdur. 1992-2002-ci illərdə Azərbaycan Ali Attestasiya komissiyasının sədri olmuşdur. Azərbaycan Dövlət mükafatı laureatıdır. Azərbaycan Respublikasının “İstiqlal” ordeni ilə təltif olunmuşdur. **C.18**-384.

**130. Azər Mustafazadə,** Azər Abdulla oğlu Mustafazadə (d.1939) - tərcüməçi və naşir. Rusiya Federasiyasının Əməkdar mədəniyyət işçisi. Hazırda Azərbaycan Dövlət Nəşriyyatının (“Azərnəşr”) direktorudur (1990-cı ildən). Bədii tərcümə ilə ardıcıl məşğul olur. **C.13**- 50.

**131. Azər Zeynalov,** Azər Zeynalabdin oğlu Zeynalov (d.1964) - müğənni. Azərbaycan Respublikasının Xalq artisti. **C.18**- 224, 225; **C.27**- 432.

**132. AzərTAc** - Azərbaycanda dövlət informasiya orqanı. 1920-cı ildə yaradılmışdır. Əvvəllər Azərinform kimi, 1992-cu ildən isə AzərTAc kimi fəaliyyət göstərir. Respublikanın həyatı haqqında ölkədə və xaricdə yaymaq üçün informasiya hazırlayır. **C.18**- 25; **C.19**- 46-51; **C.25-** 202-203.

**133. "Azərbaycan"** - aylıq ədəbi-bədii və ictimai-siyasi jurnal. 1923-cü ildən Bakıda nəşr olunur. Azərbaycan Yazıçılar Birliyinin orqanıdır. Müxtəlif vaxtlarda "Maarif və mədəniyyət", "İnqilab və mədəniyyət", "Revolyusiya və kultura", "Vətən uğrunda" adı ilə nəşr edilmişdir. 1953-cü ildən "Azərbaycan" adı ilə çıxır. Azərbaycan yazıçılarının yeni əsərlərinin çoxu ilk dəfə bu jurnalda dərc olunur. Jurnal oxucularını klassik Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümunələri ilə müntəzəm tanış edir. Azərbaycan ədəbiyyatının, ədəbi-tənqid və ədəbiyyatşünaslığının inkişafında "Azərbaycan"ın xüsusi xidməti var. **C.13**- 8, 24, 50, 52, 73, 75, 87, 93, 126, 226.

**134. "Azərbaycan"** - Azərbaycan Respublikasında gündəlik, siyasi, ictimai qəzet. Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur. 1992-ci ildən yenidən nəşr edilir. Azərbaycan Respublikası Milli Məclisinin orqanıdır. **C.16-** 198; **C.17-** 299-300; **C.19**- 59; **C.26-** 91; **C.27**- 211-218.

**135. Azərbaycan Beynəlxalq Bankı** (ABB) - 1992-ci ildə Xarici İqtisadi Bankının əsasında yaradılmışdır. ABB beynəlxalq və daxili bazarda mövcud olan bütün bank xidmətlərini yerinə yetirir. **C.17**- 450, 451; **C.19**- 59; **C.24**- 360.

**136. Azərbaycan Demokratik Respublikası** (ADR) - bax: Azərbaycan Xalq Cümhuriyyəti .

**137. Azərbaycan Dövlət Akademik** Milli Dram Teatrı - Azərbaycanın ən böyük dram teatrı. Tarixi 1873-cü ildə Bakıda səhnəyə qoyulmuş M.F.Axundovun "Lənkəran xanının vəziri" və "Hacı Qara" komediyalarının tamaşası ilə başlanır. 1880-1890-cı illərdə C.Zeynalovun ev tamaşaları, H.Mahmudbəyovun və N.B. Zərdabinin teatr truppaları Azərbaycan teatr sənətinin inkişafında mühüm rol oynamışdır. Azərbaycan XKS-nin 1920-ci il 1 iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı yaradıldı və buraya bütün teatr truppaları daxil oldu. 1922-ci ildə dram truppası Birləşmiş Dövlət Teatrından ayrılaraq müstəqil fəaliyyət göstərməyə başladı. **C.10-** 52-57; **C.12-** 154-155; **C.13**- 167-175.

**138. Azərbaycan Dövlət Musiqili** Komediya Teatrı - keçmiş Ş. Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrı-respublikanın ən böyük müsiqili teatrlarından biri. 1938-ci ilə qədər müsiqili komediyalar Azərbaycan Opera və Balet Teatrında oynanılırdı. 1938-ci ildə müstəqil musiqili komediya teatrı yaradıldı. **C.18**- 17-22, 325-332.

**139. Azərbaycan Dövlət Muzeyi** - Burada R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi nəzərdə tutulur. 1936-cı ildə Azərbaycan Dövlət Muzeyinin incəsənət şöbəsi əsasında yaradılmış və 1937-ci ildə açılmışdır. Muzeyin fondunda on minə qədər incəsənət əsəri qorunub saxlanılır. Ekspozisiyasında Azərbaycan, rus sənətkarlarının, Qərbi Avropa və Şərq ölkələrinin boyakarlıq, qrafika, heykəltəraşlıq və s. əsərləri nümayiş etdirilir. **C.10**- 126.

**140. Azərbaycan Dövlət Neft** Sənayesi Elmi-Tədqiqat və Layihə İnstitutu (AzNSETLİ) - Azərbaycan Respublikası Neft Sənayesi Nazirliyinin "Azərneft" istehsalat birliyi nəzdində elmi-tədqiqat institutu. 1929-cu ildə Bakıda yaradılmışdır. İnstitut ilk əvvəllər Azərbaycan Elmi-Tədqiqat Neft İnstitutu adlandırılmış, neftçıxarma və neftayırma üzrə tədqiqatlar aparmışdır. 1945-ci ildə iki müstəqil instituta (neftçıxarma və neftayırma üzrə) ayrılmışdır. 1970-ci ildən AzNSETLİ adlanır. İnstitutun əsas tədqiqat problemləri: neft yataqlarının geologiyası və işlənilməsi, qazımanın texnika və texnologiyası, quruda və dənizdə neft və qaz çıxarılması. İnstitutun elmi tədqiqatlarının nəticələrindən ölkənin neft sənayesində geniş istifadə edilir. **C.19**- 215-216.

**141. Azərbaycan Dövlət Opera** və Balet Teatrı - Respublikanın ən böyük musiqili teatrı. Azərbaycan XKS-nin 1920-ci il 1 iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı yaradılmışdı. 1924-cü ildə opera truppası bu teatrdan ayrılaraq müstəqil opera və balet teatrına çevrilmişdir. 1928-ci ildə teatra M.F.Axundovun adı verilmişdir. 1959-cu ildən Akademik Opera və Balet Teatrı adlanır. **C.10-** 35; **C.13**- 293, 303; **C.14**- 310; **C.15**- 318, 342, 343; **C.18**- 220-226; **C.23**- 343; **C.25-** 325, 327; **C.26-** 437-440.

**142. Azərbaycan Dövlət Tibb** Universiteti - respublikada tibb mütəxəssisləri hazırlayan ali təhsil ocağı. 1919-cu ildə Bakı universitetinin nəzdində tibb fakültəsi, 1920-ci ildə isə həmin fakültənin əsasında müstəqil Tibb İnstitutu yaradılmışdır. Universitetin 8 fakültəsi var. Universitetdə 6700 tələbə təhsil alır. **C.15-** 38; **C.17-** 361, 370-379; **C.19-** 298, 324; **C.25-** 49; **C.26-** 354, 355; **C.28-** 171-172, 196-209.

**143. Azərbaycan Dövlət Universiteti,** bax: Bakı Dövlət Universiteti.

**144. Azərbaycan Milli Elmlər** Akademiyası - respublikanın ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Aşağıdakı bölmələri vardır: fizika-riyaziyyat və texnika elmləri; kimya elmləri; Yer elmləri; biologiya elmləri; humanitar və ictimai elmlər. **C.10-** 204; **C.15-** 366; **C.17-** 326, 327, 372; **C.18-** 361, 382; **C.24-** 119; **C.25-** 35; **C.26-** 315.

**145. Azərbaycan Ədəbiyyatı Muzeyi -** Azərbaycan Respublikası MEA Nizami adına Azərbaycan Dövlət Ədəbiyyatı Muzeyi-1945-ci ildə Nizaminin həyat və yaradıcılığını əks etdirən muzey kimi Bakıda yaradılmışdır. Muzeydə ən qədim zamanlardan müasir dövrədək Azərbaycan əbədiyyatının inkişaf yolu əks etdirilir. Muzeyin ekspozisiyasında 4 mindən çox əlyazması, nadir kitab, yazıçıların xatirə əşyaları, portret, heykəl, illüstrasiya, miniatür, bədii işləmə və s. eksponatlar nümayiş etdirilir. Nizaminin "İsgəndərnamə" poemasının 1413-cü ildə, Füzulinin "Bəngü-Badə" əsərinin 1569-cu ildə köçürülmüş əlyazma nüsxələri ən qiymətli eksponatlardır. Muzeyin qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı, 19-20-ci illər Azərbaycan ədəbiyyatı ekspozisiyaları və elmi fondlar, bədii tərtibat, elmi-kütləvi şöbələri var. Elmi fondlar şöbəsində 70 minə yaxın qiymətli əşya qorunub saxlanılır. **C.19-** 278.

**146. Azərbaycan Xalq Cəbhəsi** (AXC) - ictimai-siyasi təşkilat. 1989-cu ildə təsis konfransı keçirilmiş, Proqram və Nizamnaməsi qəbul olunmuşdur. İyun 1992- iyun 1993-cü illərdə hakimiyyətdə olmuşdur. 1995-ci il iyulun 25-də keçirilmiş

qurultayın qərarı ilə Azərbaycan Xalq Cəbhəsi Partiyası adlandırılmışdır. **C.10-** 115, 139, 166, 213, 320, 349, 350; **C.12**- 88, 90, 93; **C.13**- 39, 40, 41, 42, 43, 44, 266, 268, 269, 279, 280, 283, 284; **C.14**- 88, 134, 135, 153, 207; **C.15**- 157,266; **C.17**- 26, 47, 67-70, 83, 447; **C.18**- 238; **C.21**- 6; **C.22**- 209, 210, 211, 214, 274, 275, 276, 277, 278, 279, 280, 281, 282, 283; **C.23**- 84, 88, 89, 90, 136, 175, 187, 236; **C.24**- 24, 47, 48, 49, 50; **C.25-** 196, 353; **C.27**- 214, 371; **C.28**- 272.

**147. Azərbaycan Xalq Cümhuriyyəti** - Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış,1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun-17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr-1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk dili elan edildi. İctimai həyatın digər sahələrinin milliləşdirilməsi sahəsində xeyli iş görüldü. Azərbaycan respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919-1920-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlıgın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı-Batum neft kəməri bərpa edildi. **C.10-** 5-8, 331, 332; **C.12-** 43, 178; **C.14**- 6, 76; **C.15**- 108, 174, 175, 258, 259, 371, 372, 378-383, 386, 389-413, 417, 421; **C.16**- 81, 84, 85, 167, 170, 236, 401; **C.17**-

189, 214, 307, 342, 347; **C.18**- 95, 280; **C.19**- 144, 292, 407; **C.20**- 281-289; **C.21**- 102, 244; **C.22**- 6, 104, 205, 206, 307, 322, 383; **C.24**- 115, 119, 369; **C.25-** 35, 202, 312; **C.26-** 91; **C.27**- 205, 336, 356, 368-398; **C.28**- 323.

**148. Azərbaycan Liberal Partiyası** - 1995-ci ildən fəaliyyət göstərir. ALP-nin əsas məqsədi liberal iqtisadiyyatı inkişaf etdirmək, hüquqi dövlətçiliyin qurulmasıdır. Partiyanın ali orqanı qurultaydır. **C.17**- 67-70, 83.

**149. Azərbaycan Mədəniyyətinin Dostları -** xeyriyyə fondu. 1995-ci ildə xeyriyyəçi, ictimai və siyasi xadim Mehriban xanım Əliyeva tərəfindən yaradılmışdır. Fəaliyyətə başladığı ilk günlərdən fond milli mədəniyyətimizin təbliği, inkişafı, tanınması üçün çox böyük işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə təbliğ etmək üçün Azərbaycan, rus, ingilis dillərində "Azərbaycan-irs" jurnalını təsis etmişdir. **C.26-** 373-374.

**150. Azərbaycan Mərkəzi Bankı** - Azərbaycan Dövlət Milli Bankı-Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas vəzifəsi qiymətlərin sabitliyinin təmin edilməsi, xarici dönərli valyutalara nisbətən milli valyutanın kursunun möhkəmləndirilməsi, həmçinin ölkə bank sisteminin sabitliyinin qorunmasıdır. AMB valyuta tənzimlənməsi və nəzarətini həyata keçirir, xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyən edir, xarici valyuta ehtiyatlarını idarə edir. AMB, həmçinin Azərbaycan Respublikasının ödəmə-hesabat balansının tərtibinə rəhbərlik edir. **C.17**- 438-453; **C.18**- 190; **C.19**- 12, 13; **C.24**- 90, 151, 389, 392; **C.27**- 63.

**151. Azərbaycan Milli İstiqlal** Partiyası - 1991-ci ildə yaranıb. Sağ-mərkəz təmayüllü partiyadır. **C.17**- 67, 68, 83; **C.18**- 40.

**152. Azərbaycan Milli Şurası** - Rusiyada Fevral inqilabından (1917) sonra Cənubi Qafqazın türk-müsəlman əhalisi tərəfindən Ümumrusiya Məclisi-Müəssisanına (Parlamentinə) seçilmiş deputatlardan ibarət qanunvericilik səlahiyyətinə malik hakimiyyət orqanı. Zaqafqaziya Seyminin Müsəlman

fraksiyası əsasında formalaşmışdı. 1918-ci il mayın 27-də Zaqafqaziya seyminin müsəlman fraksiyasının bütün üzvləri Azərbaycanın istiqlaliyyətini elan etmək və müstəqil dövlət yaratmaq məqsədilə Tiflisdə toplaşaraq Azərbaycanın idarəsini öz üzərinə götürmək qərarına gəldilər və Azərbaycan Milli Şurasının yarandığını elan etdilər. Milli Şuranın Rəyasət Heyətinə Məhəmməd Əmin Rəsulzadə, Həsən bəy Ağayev, Məmməd Həsən Hacınski, Nəsib bəy Yusifbəyli, Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlik Aslanov, Camo bəy Hacınski, Əkbər ağa Şeyxülislamov, Xosrov Paşa bəy Sultanov daxil oldular. M.Ə.Rəsulzadə Milli Şuranın sədri (bu zaman o, Batumda türklərlə danışıqlar aparırdı), doktor H.Ağayev isə onun müavini seçildilər. 1918-ci il dekabrın 7-də AXC-nin qanunverici orqanı olan Parlamentin işə başlaması ilə Milli Şuranın fəaliyyətinə xitam verildi. **C.15-** 391, 394.

**153. Azərbaycan Respublikası Dövlət** Neft Şirkəti - Respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. **C. 10-** 42, 239, 244, 252, 313, 374; **C.11-** 223, 233, 236, 297, 304, 383; **C.12-** 51, 191, 195, 199, 200, 209, 212, 229, 249, 259, 380; **C.14-** 64, 67, 68, 69, 70, 335, 387, 398, 448, 453; **C.15-** 47, 50, 424-431; **C.13-** 181, 182, 231, 253, 417, 426, 429, 430; **C.16-** 6, 22, 293, 310, 311, 316, 339, 354, 358, 363, 370, 373, 374, 379, 391, 396, 462, 491; **C.17-** 232, 234, 235; **C.18-** 37, 116, 145, 156, 159, 164, 165, 166, 200, 412, 414, 434, 435, 436, 437, 438, 449, 462-469; **C.19-** 179, 201, 389, 392, 446; **C.20-** 15, 17, 141, 149, 150, 151, 204, 208, 243, 282, 283, 330, 352, 461, 462, 463, 465, 468, 469, 471, 472; **C.21-** 7, 31, 54, 193, 330, 409; **C.22-** 9, 14, 15, 16, 19, 21, 39, 46, 94, 100, 101, 105, 146, 271; **C.23-** 52, 67, 213, 226, 419; **C.24-** 75; **C.25-** 32, 82,

91, 145, 188, 190, 200, 287, 292, 294, 295; **C.26-** 17, 24; **C.27-** 198, 256, 405; **C.28-** 31, 34, 35, 39, 40, 43, 50, 240, 394.

**154. Azərbaycan Sovet Sosialist** Respublikası (Azərb. SSR) - 1920-1922-ci illərdə müstəqil respublika kimi fəaliyyət göstərmiş, 1922-1991-ci illərdə SSRİ-nin tərkibində olmuşdur.**C.10-**8.

**155. Azərbaycan Ticarət-Sənaye** Palatası - 1960-cı ildən fəaliyyət göstərir. Azərbaycanın dünyanın müxtəlif ölkələrilə ticarət, iqtisadi və elmi-texniki əlaqələrinin inkişafına kömək edir. 1980-ci ildə palata istehsalın və beynəlxalq əməkdaşlığın inkişafında əldə etdiyi müvəffəqiyyətlərə görə "Qızıl Merkuri" beynəlxalq mükafatına layiq görülmüşdür. **C.10-** 44; **C.12-** 56, 152; **C.28-** 30-45.

**156. Azərbaycan Yazıçılar Birliyi** (AYB) - könüllü ictimai təşkilat, Azərbaycan yazıçılarının yaradıcılıq birliyi. 1932-ci ildən 1990-cı ilə kimi Azərbaycan Yazıçılar İttifaqı adı altında fəaliyyət göstərmişdir. AYB-nin 1200 nəfərdən çox üzvü var. AYB müstəqillik, milli-mənəvi azadlıq və sərbəstlik şəraitində fəaliyyət göstərir. AYB-nin ali orqanı qurultaydır**. C.10-** 7-61, 64-137, 218, 226.

**157. Azərbaycanda soyqırım -** 1905-1918-ci illər soyqrımı - çarizmin fəal köməyi ilə erməni-daşnak silahlı birləşmələrinin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı törətdiyi genişmiqyaslı qanlı aksiyalar. Ermənilərin 1905-ci ilin fevralında Bakıdan başlanan vəhşilikləri bütün Azərbaycanı və indi Ermənistan adlanan Qərbi Azərbaycan ərazisindəki yaşayış məntəqələrini əhatə etdi. Yüzlərlə Azərbaycan kəndi dağıdıldı, yüz minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi, xalqımıza məxsus çoxlu milli mədəniyyət abidələri məhv və talan olundu. Bütün bu vəhşiliklər ermənilərin vaxtilə yerləşdirildikləri, lakin əhalinin milli tərkibində azlıq təşkil etdikləri Azərbaycan torpaqlarını zorla erməniləşdirmək, bədnam "azərbaycanlılarsız Ermənistan" kimi qeyri-insani planlarını azərbaycanlıların soyqırımı hesabına həyata keçirmək niyyətindən xəbər verir. **C.26-** 98-102, 190.

**158. Azərbaycanın ilk parlamenti -** 1995-ci ilin noyabrında ümumxalq referendumu yolu ilə müstəqil Azərbaycan Res-

publikasının ilk konstitusiyası qəbul edilmişdir.Bu konstitusiya əsasında 1995-ci ilin noyabrında Azərbaycanın ilk parlamentinə seçkilər keçirilmişdir. **C.10-** 16, 98, 158.

**159. Azərneftyağ İstehsalat Birliyi** - yanacaq və yağlar istehsal edən neft emalı birliyi, 1994-cü ildə yaradılmışdır. Birlik 20-dən çox neft məhsulları, o cümlədən, standart və texniki müqavilə şərtlərinə uyğun gələn dizel yanacağı, aviakerosin, odluq mazut, həmçinin müxtəlif markalı sürtgü yağları, bitum və s. hasil edir. **C.28-** 5-18.

**160. Azərsun holdinq** - ticarət mərkəzı. 1997-ci ildə təsis olunub. "Azərsun holdinq"in istehsal etdiyi məhsullar MDB ölkələrinə və Avropaya ixrac edilir. **C.18-** 473.

**161. Babək,** Babək əl-Xürrəmi (təqr.795/798-838) - Xürrəmilər hərəkatının rəhbəri, görkəmli Azərbaycan sərkərdəsi və siyasi xadimi. Babək Azərbaycan xalqının ərəb istilaçılarına və Xilafətə qarşı azadlıq müharibəsinə başçılıq etmişdir.Babəkin rəhbərliyi ilə xürrəmilər 20 ildən çox yadellilərə qarşı mübarizə aparmışlar. Babək hərəkatı Abbasilər xilafəti üçün ciddi təhlükəyə çevrilmişdi. Buna görə də Babək hərəkatının getdikcə güclənməsindən qorxuya düşən xəlifə Mütəsim Bizans dövləti ilə sülh bağladı və Xilafətin bütün hərbi qüvvələrini xürrəmilərə qarşı göndərdi. 838-ci ildə xəyanət nəticəsində Babəki ələ keçirdilər və işgəncə ilə öldürdülər. **C.14-** 5; **C.16-** 82.

**162. Bağdad** - İraqın paytaxtı. Bağdadın əsası 762-ci ildə qoyulmuşdur. Abbasilər dövlətinin mərkəzi olmuşdur. IX-X əsrlərdə Yaxın Şərqin ən böyük iqtisadi və mədəni mərkəzi olmuşdur. 1921-1958-ci illərdə İraq krallığının, 1958-ci ildən isə İraq Respublikasının paytaxtıdır. **C.18-** 374.

**163. Bakatin Vadim Viktoroviç** (d.1937) - 1989-1990-cı illərdə SSRİ Daxili İşlər naziri, 1991-1992-ci illərdə SSRİ DTK-nin sədri və Rusiya Federasiyası Təhlükəsizlik İdarəsinin direktoru işləmişdir. Bakatin 1990-cı ilin yanvarında Bakıda baş verən Qanlı Yanvar faciəsinin təşkilatçılarından biridir. **C.17-** 46; **C.19-** 66; **C.28-** 224.

**164. Bakı Dövlət Universiteti** (BDU) - Azərbaycanda elmi-pedaqoji kadrlar hazırlayan ən böyük ali təhsil ocağı, elmi-tədqiqat müəssisəsi. 1919-cu ildə yaradılmışdır. İlk vaxtlar tibb və tarix-filologiya fakültələri fəaliyyət göstərmişdir. Hazırda BDU-nun 17 fakültəsi, onlarla kafedrası, elmi-tədqiqat laboratoriyası və s. var. Universitetdə 43 ixtisas üzrə 13 minə yaxın tələbə təhsil alır. **C.10-** 10; **C.13**- 232-238, 239; **C.15**- 38, 320-323; **C.17**- 213, 214, 217, 218, 342, 347, 348, 361, 370; **C.18**- 361, 384; **C.19**- 194, 292; **C.21**- 216, 245; **C.22**- 184; **C.24**- 75, 119; **C.25-** 35-56; **C.26-** 213, 214, 226, 353, 432; **C.27**- 402, 403; **C.28**- 197, 250, 356.

**165. Bakı Musiqi Akademiyası** - Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası 1921-ci ildə yaradılıb. Bakı Musiqi Akademiyası Azərbaycanda ilk musiqi tədris müəssisəsidir. 4 fakültəsi var. Təhsil iki pilləlidir-bakalavr və magistratura. Bakı Musiqi Akademiyasının tərkibində Opera studiyası və musiqi məktəb studiyası fəaliyyət göstərir. **C.14**- 310; **C.16**- 41, 56; **C.19**- 198.

**166. Bakı-Novorossiysk neft** kəməri - 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası hökumətinin xarici neft şirkətləri ilə imzaladığı "Əsrin müqaviləsi"nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı-Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. **C.20**- 17, 21, 69, 94, 104, 137, 148, 243, 277, 283, 461; **C.22**- 26, 27, 426; **C.23**- 30, 165, 222, 307, 315, 316, 419, 420; **C.24**-331; **C.25-** 92, 118, 125, 126, 145; **C.26-** 121; **C.27**- 376; **C.28**- 32, 61, 94, 156.

**167. Bakı-Supsa neft kəməri** - 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı"Əsrin müqaviləsi"nin həyata keçirilməsinin mühüm bir vasiləsi Bakı-Supsa neft kəməridir.Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan dörd terminal tikilmişdir.

Aprelin 17-də Supsada ilkin Xəzər neftinin Qərb istiqamətində nəqli üçün Bakı-Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. **C.19**- 181-182, 188, 388, 396, 397, 418, 420, 423, 424, 425, 426, 427, 445, 446, 452; **C.20**- 15-22, 57, 69, 77, 81, 91, 94, 109, 137, 144, 148, 243, 260, 277, 283, 461-462; **C.21**- 209, 364; **C.22**- 9, 44, 113, 153, 337, 340, 353, 354, 355, 356; **C.23**- 32, 165, 200, 201, 222, 223, 224, 307, 315, 316, 420; **C.24**- 308, 316, 331; **C.25-** 92, 118, 125, 126, 145, 372, 393; **C.26-** 45, 67, 121; **C.27**- 376, 404; **C.28**- 32, 94, 156.

**168. Bakı-Tbilisi-Ceyhan** neft kəməri - 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan Prezidentləri və ABŞ-ın Energetika naziri Bakı-Tbilisi-Ceyhan marşrutunu müdafiə edən "Ankara bəyannaməsini" imzalamışlar. Uzunluğu 1695 km olan Bakı-Tbilisi-Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. **C.20**- 19, 20, 56, 69, 110, 241, 243, 246, 250, 255, 259, 260, 261, 277, 278, 283, 462; **C.21**- 31, 273, 364-365, 373, 383, 412; **C.22**- 47, 114, 315, 316, 318, 338, 339, 340, 354, 397, 398, 401, 426, 427; **C.23**- 9, 14, 51, 81, 82, 106, 135, 136, 148, 149, 150, 151, 55, 159, 160, 161, 166, 177, 178, 179, 180, 190, 200, 206, 210, 211, 213, 214, 216, 222, 223, 224, 226, 228, 237, 251, 264, 294, 300, 307, 315, 316, 331, 335, 415; **C.24**- 141, 156, 165, 166, 173, 178, 184, 187, 229, 231, 232, 233, 239, 240, 241, 242, 255, 261, 262, 267, 324, 328, 331, 332, 340, 341, 342, 343, 347, 349, 351, 352, 356, 358, 359, 360, 362, 367, 372, 445; **C.25-** 27, 64, 66, 67, 69, 70, 71, 72, 74, 75, 76, 82, 92, 93, 95, 113, 118, 124, 125, 126, 137, 140, 141, 146, 160, 162, 163, 175, 192, 199, 365, 393; **C.26-** 17, 20, 23, 24, 29, 68, 69, 80, 81, 82, 118, 121, 122, 129, 134, 152, 159, 167, 201, 234, 364, 379, 380, 395, 396; **C.27**- 128, 142, 376, 403, 404, 405, 406; **C.28**- 33, 34, 39, 44, 57, 58, 94, 131, 132, 136, 154, 155, 156, 157, 214, 395.

**169. Bakıxanovlar sülaləsi** - Bakıxanovlar nəslindən olan hərbçilər. Bu nəsildən XIX əsrdə 17 hərbçi olub. Bunlar-

dan Cəfərqulu ağa Bakıxanov (1799-1867) general-leytenant, Həsən ağa Bakıxanov (1834-?) general-mayor, Abdulla ağa Bakıxanov (?-1878) general rütbəsinə qədər yüksəlmişlər. **C.16**- 83.

**170. "Bakinski raboçi"** - ilk nömrəsi rus dilində 1906-cı ilin mayında Bakıda gizli nəşr olunmuşdur. "Bakinski raboçi" Sovetlər Birliyində Azərbaycan KP, Azərbaycan SSR Ali Soveti və Nazirlər Sovetinin orqanı olmuşdur. 1993-cü ildən isə "Bakinski raboçi"nin təsisçiləri Prezidentin İşlər İdarəsinin və qəzetin redaksiya heyətidir. **C.27**- 213; **C.28**- 354, 379.

**171. "Bakinskiye izvestiya" -** bu adda müxtəlif vaxtda 3 qəzet nəşr edilmişdir: Rusiya texnika cəmiyyəti Bakı şöbəsinin həftədə iki dəfə çıxan qəzeti (1876-1987), gündəlik ictimai, siyasi və ədəbi qəzet (1902-1905, 1907), gündəlik axşam qəzeti (1915). **C.26-** 88.

**172. Balaş Azəroğlu**, Abizadə Balaş Allahbaxış oğlu (d. 1921) - şair, ədəbiyyatşünas, Azərbaycanın Xalq şairi. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.13**- 12,36; **C.17**- 148.

**173. Balkan böhranı -** bax: Yuqoslaviya böhranı.

**174. Baltik ölkələri** - bax: Baltikyanı respublikalar – burada Latviya, Litva və Estoniya respublikaları nəzərdə tutulur. **C.18-** 318, 319, 323; **C.24-** 369.

**175. Barat Şəkinskaya,** Barat Həbib qızı Şəkinskaya (1914-1999) - aktrisa. Azərbaycan Respublikasının Xalq artisti. Onun yaratdığı obrazlar yüksək aktyorluq məharəti, səmimiliyi, temperamenti ilə fərqlənmişdir. Şəkinskaya lirik, dramatik rollarla yanaşı, komik, xarakterik rolların ifaçısı kimi də tanınmışdır. **C.17**- 190; **C.25-** 313.

**176. Bartold Vasili Vladimiroviç** (1869-1930) - şərqşünas, akademik. Bartold rus şərqşünaslıq məktəbinin banilərindəndir. Başlıca əsərləri Orta Asiya, İran, Ərəb xəlifəliyi, islam və şərqşünaslıq tarixinə aiddir. Azərbaycan tarixi, folkloru və ədəbiyyatı haqqında da tədqiqatları var. **C.25-** 333; **C.26-** 362.

**177. Bastiliyanın alınması** - Parisdə qala, 1370-1382-ci illərdə tikilmişdir. XV əsrdən həm də dövlət həbsxanası idi. Bastiliyada əsasən siyasi dustaqlar saxlanılırdı. 1789-cu il iyulun 14-də Paris üsyançıları Bastiliyanın hücumla aldılar. Bu, Böyük Fransa inqilabının başlanğıcı idi. Bastiliyanın alındığı gün Fransanın milli bayramı (1880) kimi qeyd olunur. **C.16-** 262-265; **C.21**- 21-23.

**178. Batalov Aleksey Vladimiroviç** (d.l928) - rus kino aktyoru və rejissoru. SSRİ Xalq artisti. 1954-cü ildən kinoya çəkilir. Batalov surətlərin psixologiyasını, mənəvi aləmini, daxili gözəlliyini ustalıqla açır. **C.22-** 141.

**179. Baybakov Nikolay Konstantinoviç** (1911-2008) - Rusiya dövlət xadimi. Bakı yaxınlığındakı Sabunçu qəsəbəsində doğulmuşdur. Lenin mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı. 1965-1990-cı illədə SSRİ Nazirlər Soveti sədrinin müavini və SSRİ Dövlət Plan Komitəsinin sədri olmuşdur. O, harada olursa-olsun doğma Azərbaycanla əlaqəsini kəsməmiş, Azərbaycanın iqtisadiyyatının inkişafına köməyini əsirgəməmişdir. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir. **C.10**- 270, 272, 273; **C.22-** 18; **C.23**- 24, 26.

**180. Baykal-Amur magistralı** (BAM) - Rusiyanın Şərqi Sibirdə və Uzaq Şərqdə Sakit okeana çıxan dəmir yol magistralı. Ümumi uzunluğu 4300 km-dir. Tikintisinə 1940-cı ildən başlanmışdır. 1989-cu ildə istifadəyə verilmişdir. **C.18**- 335; **C.20**- 432-433; **C.22**- 61, 62, 63, 64; **C.24**- 85, 91, 92.

**181. Beatriks II** (d.1938) - 1980-ci ildən Niderlandiyanın kraliçası. **C.27**- 31, 159.

**182. Behbud Ağa Şahtaxtinski** (1881-1924) - diplomat. 1917-1918-ci illərdə Bakı Soveti İcraiyyə Komitəsinin, Bakı XKS fövqəladə komissiyasının üzvü, "Hümmət" təşkilatı Mərkəzi Komitəsinin sədri olmuşdur. Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra (1920) xalq ədliyyə komissarı, eyni zamanda Azərbaycan SSR-in RSFSR-də fövqəladə numayəndəsi idi. Naxçıvan diyarının Azərbaycanın tərkibində muxtariyyət statusu qazanmasında mühüm mərhələ - Moskva və Qars

müqavilələrinin (1921) bağlanmasında Şahtaxtinskinin böyük xidməti olmuşdur. **C.14**- 78; **C.19**- 153.

**183. Bella Mixaylovna Davidoviç** (d.1928) - pianoçu. Bakıda musiqiçilər ailəsində doğulmuşdur. Azərbaycan Respublikasının Əməkdar artisti. Şopen adına Beynəlxalq mükafatı laureatı. ABŞ-a mühacirət edən Bella Davidoviç orada ifaçılıq sənətinin zirvələrinə yüksəlmiş və beynəlxalq miqyasda tanınmışdır. Məşhur pianoçu "Azərbaycan mədəniyyətinin dostları" fondunun və "Bi-Pi"-"Statoyl" alyansının dəvətilə 1998-ci ilin sentyabrında Bakıda konsert vermişdir. **C.17**- 293-295.

**184. Belçika,** Belçika Krallığı - Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı Kral, qanunverici orqanı ikipalatalı Parlamentdir. Paytaxtı Brüsseldir. **C.15**- 186-188, 189-196, 197-199, 200-202, 203-205.

**185. Belovej razılığı,** (08.12.1991) - Sovet Sosialist Respublikaları İttifaqının beynəlxalq subyekt kimi varlığına son qoyulması barədə RSFSR, Belorusiya və Ukrayna tərəfindən imzalanmış saziş. Onlar burada Müstəqil Dövlətlər Birliyinin (MDB) yaranmasını elan etdilər. **C.18**- 243.

**186. Bencamin Gilman** (d.06.12.1922, Taukpsi ş.) - 1943-1945-ci illərdə orduda xidmət etmiş, 1946-cı ildə Pensilvaniya universitetini ( bakalavr), 1950-ci ildə Nyu-York hüquq məktəbini bitirmişdir. 1953-1955-ci illərdə Nyu-York qubernatorunun köməkçisi işləmiş, 1967-1973-cü illərdə Nyu-York assambleyasının əməkdaşı olmuşdur. 1972-ci ildən ABŞ Konqresi Nümayəndələr Palatasının üzvüdür. Numayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin sədri olmuşdur. Respublikaçıdır. **C.11-** 159, 274, 275, 289, 344, 356, 363.

**187. Benyamin Netanyamı** (d.1949) - İsrailin siyasi və dövlət xadimi. 1988-ci ildən "Likud" partiyasından Knessetə deputat seçilmişdir. 1993-cü ildə "Likud" partiyasının sədri seçilmişdir. 1996-1999-cu illərdə İsrailin Baş Naziri idi. **C.12**- 102-110, 124, 125; **C.20**- 63.

**188. Berezovski Boris Abramoviç** (d.1946) - texnika elmləri doktoru, Rusiya EA-nın müxbir üzvü. Rusiyanın ən böyük oliqarxlarından biri. Hazırda mühacirətdə-İngiltərədə yaşayır. **C.17**- 98-99, 104, 105; **C.18**- 76; **C.19**- 240-248.

**189. Beriya Lavrenti Pavloviç** (1899-1953) - 1938-1953-cü illərdə SSRİ Xalq Dövlət Təhlükəsizliyi Komitəsinin sədri və SSRİ Xalq Nazirlər Soveti sədrinin müavini olmuşdur. Stalinin "etibarlı cəlladı" adını almış Beriya öz fəaliyyəti ilə həmin dövrdə bütün Cənubi Qafqazda olduğu kimi Azərbaycanda da "əks-inqilabçı", "xalq düşməni" damğası ilə partiya, sovet, təsərrüfat kadrlarının, məşhur mədəniyyət və elm xadimlərinin məhvinə rəvac vermişdir. **C.10**- 337.

**190. Berlin divarı** - Almaniyada faşizm darmadağın (1945) edildikdən sonra Berlin 4 işğal zonasına (SSRİ, ABŞ, Böyük Britaniya və Fransa) bölündü. Qərb dövlətləri Berlində Parlament seçkiləri keçirdilər. Berlinin şərq hissəsində isə ADR elan edildi və Şərqi Berlin ADR-nin paytaxtı elan edildi. 1961-ci ildə ADR əhalisinin kütləvi surətdə Qərbə getməsinin qarşısını almaq üçün Berlin divarı tikildi (1990-cı ildə isə söküldü), 1990-cı il 3 oktyabrda ADR ilə AFR birləşdikdən sonra Berlin birləşmiş Almaniyanın federal paytaxtı elan edildi. **C.22**- 109, 110, 382.

**191. Beynəlxalq Atatürk Sülh** mükafatı - Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün "Yurdda sülh, cahanda sülh" prinsiplərinə uyğun olaraq regionda, beynəlxalq aləmdə və ölkələrarası münasibətlərdə sülh, dostluq, anlaşma və xoş məramlı əməkdaşlıq yaradılmasına xidmət edən görkəmli şəxsiyyətlərə verilir. Mükafat 1986-cı ildə təsis edilmişdir. Sülh mükafatı Atatürkün qızıl suyuna salınmış gümüş barelyefi, qızıl döş nişanı, diplom və miqdarı hər il müəyyən edilən maddi mükafatdan ibarətdir. **C.20**- 10, 11, 13, 225, 231, 241, 256, 257; **C.22**- 320, 418-434, 455, 457, 458; **C.23**- 5-10, 12, 16, 17, 51, 64, 65, 130, 259, 261, 264, 408, 409; **C.25**- 24, 25, 53, 54; **C.26**- 209, 212, 217, 369.

**192. Beynəlxalq Qızıl Xaç** Cəmiyyəti - Qızıl Xaç Liqasını, Beynəlxalq qızıl Xaç Cəmiyyətini də Qızıl Xaç Liqasının ictimai təşkilatlarını birləşdirən beynəlxalq ictimai təşkilat. 1863-cü ildə əsası qoyulan bu təşkilat İsveçrə vətəndaşlarının hərbi münaqişələrdə zərər çəkənlərə yardım etməkdir. **C.23**-358; **C.28**- 65.

**193. Beynəlxalq Valyuta Fondu** - BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-cü ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur **C.10-** 25, 386; **C.11-** 8, 81; **C. 12-** 53, 66, 94, 379; **C.14**- 9, 96, 301, 360; **C.16**- 289, 393, 394, 397, 443; **C.18**- 65, 317-324, 421, 481; **C.19**- 114, 287, 288; **C.20**- 128, 133, 134; **C.23**- 87, 327; **C.24**- 15, 20, 57, 152, 384-389; **C.25-** 7, 96, 120, 145, 148, 200, 385; **C.26-** 94, 402; **C.27**- 62-64, 79, 361.

**194. Beyrut** - Livan Respublikasının paytaxtı. Eramızdan əvvəl XVIII əsrdən Berut, Berit adı ilə məlumdur. VII əsrdə Xulafətə daxil edilmiş. XIV-XV əsrlərdə Misir məmlüklərinin, 1516-1918-ci illərdə Osmanlı imperiyasının tərkibində, 1920-1943-cü illərdə Fransa mandatında, 1943-cü ildən Livan Respublikasının paytaxtıdır. **C.14**- 232.

**195. Bəhmənyar Əbülhəsən ibn** Mərzban (?-1066) - Azərbaycan filosofu, İbn Sinanın şagirdi və davamçısı. Bəhmənyara görə hər şeyin əsasını ən ümumi mənada varlıq təşkil edir. Orta əsrlərdə Müsəlman Şərqində fəlsəfi fikrin inkişafında böyük rolu olmuşdur. **C.14**- 5; **C.17**- 342.

**196. Bəxtiyar Vahabzadə,** Bəxtiyar Mahmud oğlu Vahabzadə (1925-02.13.2009) - Azərbaycanın Xalq şairi, dramaturq, ədəbiyyatşünas. Azərbaycan Dövlət mükafatı laure-

atı, 1991-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Milli EA-nın akademiki olmuşdur. Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif olunmuşdur. **C.10-** 342; **C.13-** 24, 60, 70, 104, 120, 121, 125, 128, 167-175; **C.14-** 86, 87; **C.18-** 380; **C.19-** 81, 82, 83, 128; **C.22-** 202, 333; **C.23-** 63-108; **C.24-** 223; **C.25-** 413; **C.26-** 18, 299-336; **C.27-** 91-97.

**197. Bəkir Nəbiyev,** Bəkir Əhməd oğlu Nəbiyev (d. 1930) - ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor, Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının həqiqi üzvü. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.15-** 99; **C.19-** 325.

**198. Bəktaşi Tofiq Heydər** oğlu (1912-1995) - riyaziyyatçı. Fizika-riyaziyyat elmləri doktoru, professor. Diferensial tənliklər sisteminə, zərbə nəzəriyyəsinə, nəzəri mexanikaya dair tədqiqatların, elmi-metodik və tədris metodikası məsələlərinə dair əsərlərin müəllifidir. **C.22-** 200.

**199. Bərşadlı Valeh,** Valeh Əyyub oğlu Bərşadlı (1927-2003) - tank qoşunları general-leytenantı. SSRİ Silahlı Qüvvələrində komandirlik fəaliyyəti göstərmişdir. 1991-ci ildə Azərbaycan Respublikasının Müdafiə naziri, 1992-ci ildə isə Müdafiə Nazirliyi Baş Qərargahının rəisi vəzifələrində calışmışdır. Azərbaycan Ali Sovetinin deputatı olmuşdur. **C.16-** 90.

**200. Bəşir Səfər oğlu** (1925-1969) - aktyor. Azərbaycan Respublikasının Xalq artisti. 1942-ci ildən Azərbaycan Dövlət Musiqili Komediya Teatrında işləmişdir. B.Səfəroğlu yaratdığı obrazlarda nadanlığı, geriliyi, riyakarlığı qamçılamış, səhnə realizminə sadiq olmuşdur. Onun ifasına incə yumor, mənalı gülüş, zəngin mimika və s. cəhətlər xas idi. **C.17-** 190.

**201. Bibiheybət ziyarətgahı** - Bakının Şıx kəndində türbə. Rəvayətə görə, türbədə şiələrin yeddinci imamı Museyi Kazımın qızı Hökumə və onun Heybət adlı nökəri dəfn olunmuşdur. "Bibiheybət" adının da buradan yarandığı güman edilir. Başqa rəvayətə görə, səkkizinci imam Rzanın qızı və bacısı Bakı

yaxınlığında məskən salmış, burada da vəfat etmişlər. Onların dəfn olunduğu yerdə türbə, onun yanında isə 20 metrlik minarəsi olan məscid tikilmişdi. Məscidin XIII əsrin sonunda tikildiyi ehtimal edilir. **C.15**- 171; **C.16**- 229-235; **C.17**- 394, 449; **C.19**- 364-371; **C.21**- 131.

**202. Bi-Bi-Si,** Britiş Brodkastinq Korporeyşen - Böyük Britaniya radioverilişləri korporasiyası. Əsası 1927-ci ildə Londonda qoyulmuşdur. 1936-cı ildə televiziya ilə verilişlərə başlamışdır. 1932-ci ildən xarici verilişlər şöbəsi bütün sutka ərzində ingilis və 37 xarici dildə dünyanın hər yerinə xəbərlər yayır. **C.16**- 373-374; **C.20**- 231-233.

**203. Bill Klinton**, Uilyam Ceferson Blayd (d.1946) - ABŞ-ın 42-ci Prezidenti (1992-2000). 1964-cü ildə Corctaun universitetinə daxil olmuş, 1968-ci ildə oranı bitirərək beynəlxalq məsələlər üzrə politoloq ixtisası almışdır. Sonralar İngiltərənin Oksford universitetində təhsil almış, 1970-ci ildə ABŞ-ın Vel universitetinə daxil olmuş, 1973-cü ildə oranı bitirdikdən sonra hüquqçu diplomu almışdır. 1976-cı ildə Arkanzas ştatının əvvəlcə prokuroru, sonra baş prokuroru, 1978-ci ildə qubernatoru seçilmişdir. 1992 və 1996-cı illərdə Demokratlar Partiyasından birinci və ikinci müddətə ABŞ Prezidenti seçilmiş, xarici siyasətində SSRİ dağıldıqdan sonra yeni müstəqillik qazanmış dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasına mühüm əhəmiyyət vermişdir. **C. 10**- 21, 45, 46, 233, 245, 412, 413; **C.11-** 5, 18, 21, 39, 40, 85, 92, 111, 206, 219, 227, 261, 265, 285, 301, 403; **C.12-** 17, 18, 69, 87, 94, 96, 103, 104, 123, 170, 347; **C.13**- 286, 289, 290, 382; **C.14**- 415, 454; **C.16**- 118, 128, 184, 186; **C.17**- 79; **C.18**- 114, 115, 130, 131, 213, 214, 411, 412, 413; **C.19**- 18, 21, 36, 37, 134-138, 199-202; **C.20**- 21, 30, 56, 77-78, 87, 115,123, 149, 167, 180, 182, 197, 203-205, 213, 214, 216, 218, 219, 221, 242, 243, 249, 253, 273, 274, 276, 285, 286, 287, 300, 307, 327, 328, 337, 349, 350, 351, 353, 383, 426, 427; **C.21**- 35, 195, 197, 198, 276; **C.22**- 9, 44, 113, 153; **C.23**- 20, 77, 79, 89, 148, 149, 161-163, 171, 177, 178,

180, 182, 190, 198, 201, 203, 207, 208, 224, 228, 235, 236, 244, 262, 266, 267, 415; **C.24**- 7, 19, 183, 194, 227, 230,231, 232, 233, 235, 240, 255, 257, 324, 328, 340, 341, 342, 351, 359, 360, 367, 370, 372, 377, 379, 405, 444, 445; **C.25-** 32, 62, 63, 64, 66, 68-70, 71, 73, 83, 93, 106, 109, 110, 111, 119, 122, 126, 128, 134, 137, 138, 141, 157, 158, 167, 174-176, 187, 189, 191, 192, 199, 218, 229, 243, 244, 247, 286, 299, 309, 364, 365, 366; **C.26-** 80, 83; **C.27**- 113, 115, 116, 118, 407, 410; **C.28**- 34, 58, 59, 261, 262, 392, 394, 395, 396.

**204. "Bi-Pi" şirkəti -** bax: "Britiş Petroleum".

**205. "Bi-Pi-AMOKO"** - dünyada ən böyük neft və neft-kimya korporasiyalarından biri. "Bi-Pi-AMOKO" dünyada neft-qaz hasilatı, xam neft satışı, neftin emalı və neft məmulatlarının ticarəti, həmçinin neft-kimya məhsulları istehsalı və satışı üzrə ixtisaslaşmış nəhəng şirkətdir. **C.28**- 42.

**206. Birinci cahan müharibəsi** – bax: Birinci Dünya müharibəsi.

**207. Birinci Dünya müharibəsi** (1914-1918) - iki böyük dövlətlərin koalisiyası arasında müharibə-Mərkəzi böyük dövlətlər (Almaniya, Avstriya-Macarıstan, Türkiyə, Bolqarıstan) və Antanta (Rusiya, Fransa, Böyük Britaniya, Serbiya, sonradan Yaponiya, İtaliya, Rumıniya, ABŞ və başqaları, hamısı 34 dövlət). 1914-ci il iyunun 15-də serb millətçisi tərəfindən Avstriya-Macarıstan Şahzadəsi Frans Ferdinandın öldürülməsi müharibənin başlanmasına səbəb oldu. 1914-1917-ci illərdə hər iki tərəf böyük itki vermələrinə baxmayaraq, qarşılarına qoyduqları məqsədə nail ola bilmədilər.

1917-ci ilin əvvəlində ABŞ-ın Almaniyaya qarşı müharibəyə girməsi Almaniya blokunu zəiflətdi. 1918-ci ildə Sovet Rusiyası müharibədən çıxdı və Brest sülh müqaviləsi imzalandı. Almaniyanın vəziyyəti get-gedə pisləşdiyinə görə Antanta ilə Kompyen barışığı imzalandı. Birinci Dünya müharibəsi Almaniya və onun müttəfiqlərinin tam məğlubiyyəti ilə başa çatdı. **C.25-** 305.

**208. Birləşmiş Ərəb Əmirlikləri** (BƏƏ) - Cənubi Asiyada dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 2,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı-Federal Milli Şuradır ki, Prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. **C.23**- 290.

**209. Birləşmiş Krallıq** - bax: Böyük Britaniya, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı.

**210. Birləşmiş Millətlər Təşkilatı** (BMT) - Müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 192 dövlət daxildir. BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir. 1992-ci ildən Azərbaycan Respublikası BMT-nin üzvüdür. **C.10-** 92, 175, 269, 307; **C11**- 5, 32, 40, 48, 54, 69, 393; **C.12-** 36, 70, 227; **C.14**- 9, 182, 315, 317, 318, 364, 386; **C.15**-206-209, 320, 340-341,405; **C.16**- 60, 111, 146, 154, 155, 160, 203, 205, 267, 269-272, 340, 350, 407, 426, 434, 483; **C.18**- 70, 142, 303-316, 364-370, 417; **C.19**- 14, 27-30; **C.20**- 78, 119, 319, 327, 429- 431; **C.21**- 60, 150, 194, 208, 263, 300, 340-349; **C.22**- 88, 177, 329, 348; **C.22**- 88, 177, 329, 348; **C.23-** 37, 105, 112, 116, 120, 126, 231, 341, 414; **C.24**- 6, 9, 15, 20, 21, 22, 23, 205, 256, 364; **C.25-** 7, 251, 298, 316; **C.26-** 29, 30, 157, 160, 161, 233, 404; **C.27**- 134, 170, 173, 236, 318, 408; **C.28**- 49, 50, 51, 67, 79, 104-105, 253, 290.

**211. Birləşmiş Millətlər Təşkilatının** Baş Məclisi - BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə tövsiyələr vermək səlahiyyəti var.

Baş Məclisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. **C.22**- 49; **C.23**- 105.

**212. Birləşmiş Millətlər Təşkilatının** Təhlükəsizlik Şurası (BMTTŞ) - BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. **C.14**- 278, 367, 389, 409; **C.16**- 72, 262, 482; **C.17**- 52, 73, 172, 177, 243, 274, 331, 392; **C.19**- 134; **C.20**- 25; **C.21**- 300, 343, 380; **C.22**- 88, 89, 341, 348; **C.23**- 232; **C.26-** 160, 169; **C.27**- 134; **C.28**- 291, 297, 302, 306.

**213. Bjezinski Zbiqnev** (d.l928) - Amerikanın siyasi və dövlət xadimi, politoloq. 1966-1988-ci illərdə Dövlət Departamentinin Siyasi Planlaşdırma Şurasının üzvü olmuşdur. 1977-1981-ci illərdə ABŞ Prezidentinin Milli Təhlükəsizlik üzrə müşaviri, Təhlükəsizlik Şurasının əməkdaşı olmuşdur. 1981-ci ildən Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzinin rəhbəridir. 1987-1991-ci illərdə ABŞ Prezidentinin Xarici Kəşfiyyat üzrə müşavirlər komitəsinin üzvü olmuşdur. 1989-cu ildən Con Norkins universitetinm Nitse adına Dərinləşdirilmiş Beynəlxalq Tədqiqatlar Mərkəzinin rəhbəri, Amerika-Azərbaycan Ticarət Palatasının fəxri müşaviridir. **C.22**- 106; **C.23**- 235; **C.25-** 98, 112-113, 134, 139-151, 191, 218, 297, 364.

**214. “Bleyer haus” iqamətgahı** - ABŞ-da məşhur tarixi binalardan sayılır. Burada bir əsrə yaxındır ki, ABŞ-ın rəsmi qonaqları yaşamış və yaşamaqdadır. 1824-ci ildə iki mərtəbəli bina kimi tikilmiş, ondan 118 il şəxsi ev kimi istifadə olunmuşdur. Sonradan bu binanın üzərində daha iki mərtəbə tikilmişdir. 1960-cı ildə ona bitişik olan binaların hesabına daha da genişləndirilmişdir. Gözəlliyi, əzəməti, cazibədarlığı ilə digər bina-

lardan seçilir. Gözəl memarlıq üslubu ilə diqqəti cəlb edən bu binada indiyədək ABŞ-a rəsmi səfərə gəlmiş dövlət başçılarından yalnız bir neçəsinə iqamətgah (həm də daha çox iki günlüyə) verilmişdir. Azərbaycan Prezidenti Heydər Əliyevə xüsusi hörmət əlaməti olaraq, o, bu tarixi binada dörd gün qalmış və çox dəyərli görüşlər keçirmişdir. **C. 11-** 187, 189, 190, 192, 217, 241.

**215. Bloxin Nikolay Nikolayeviç** (1912-1993) - cərrah-onkoloq, akademik, 1960-1968, 1977-1987-ci illərdə TEA-nın prezidenti, Sosialist Əməyi Qəhrəmanı. Əsərləri, əsasən, plastik və bərpa cərrahlığına, travmatologiya və onkologiyaya aiddir. **C.22**- 236; **C.25-** 256.

**216. Blok Aleksandr Aleksandroviç** (1880-1921) - görkəmli rus şairi. Rus simvolizminin nümayəndəsi. 1905-1907-ci illərdə yazdığı əsərlərdə həyatın kəskin ziddiyyətləri, insanın faciəsi əks olunmuşdur. Blok lirikasında rus mədəniyyəti və vətənin taleyi haqqında dərin düşüncələr mühüm yer tutur ("Rusiya", "Kulikovo çolündə"). **C.22**- 71.

**217. BMT-nin Ümumdünya** Ərzaq Proqramı - ərzaq məhsullarının istehsalında və ticarətdə beynəlxalq əməkdaşlığı koordinasiya etmək məqsədilə BMT-nin tərkibində yaradılmış orqan. 1975-ci ildən fəaliyyət göstərir. Katibliyi Roma şəhərindədir. **C.19**- 27-30.

**218. Boqolyubov Nikolay Nikolayeviç** (1909-1981) - riyaziyyatçı, fizik. SSRİ EA akademiki, Sosialist Əməyi Qəhrəmanı, iki dəfə SSRİ Dövlət və Lenin mükafatları laureatı. **C.10-** 264.

**219. Bolqarıstan,** Bolqarıstan Respublikası - Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min $km^2$, əhalisi 8,4 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı-birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. **C.23**- 287, 293-328.

**220. Borçalı** - tarixi mahal. Gürcüstan Respublikasında yerləşir. Borçalıya erkən orta əsrlərdə türkdilli tayfalar, XVI-

XVII əsrlərdə isə kütləvi surətdə azərbaycanlılar köçmüşdü. Borçalı mahalı Azərbaycan, bəzən də gürcü feodallarının vassallığına çevrilsə də çox zaman müstəqilliyini saxlaya bilmişdi. Borçalı mahalını 1736-cı ildə İran Şahı Nadir Qazax mahalı ilə birlikdə Gəncə bəylərbəyliyindən alıb Kartli-Kaxeti çarının tabeliyinə verdi.

Azərbaycanlılar yaşayan ərazilər arasında Rusiya ilk dəfə Borçalı sultanlığını (1801) işğal etmişdir. XIX əsrin ortalarında Borçalı mahalı qəzaya çevrildi. Qəza isə 1929-cu ildə ləğv edilib üç rayona bölündü. Borçalı rayonu 1950-ci ildən Marneuli adlanır. **C.15**- 348; **C.18**- 46, 453, 454; **C.21**- 84; **C.24**- 431, 432; **C.26-** 16.

**221. Boris Nikolayeviç Pastuxov** - Rusiyanın siyasi və dövlət xadimi. 1977-1986-cı illərdə ÜİLKGİ MK - nın birinci katibi, 1986-1992-ci illərdə diplomatik işdə, 1992-1996-cı illərdə Rusiya Federasiyası Xarici İşlər nazirinin birinci müavini, 1998-1999-cu illərdə MDB üzrə nazir. **C.17**- 5-20, 25, 39; **C.18**- 76;

**222. Boris Nikolayeviç Polevoy** (1908-1981) - rus yazıçısı. Sosialist Əməyi Qəhrəmanı. Böyük Vətən müharibəsi haqqında yazdıqları əsərləri ("Əsl insan haqqında povest") və gündəlikləri ona şöhrət qazandırmışdır. SSRİ Dövlət mükafatı laureatı. **C.28**- 344.

**223. Boris Nikolayeviç Yeltsin** (1931-2007) - Rusiyanın siyasi və dövlət xadimi. 1990-2000-ci illərdə Rusiya Federasiyasının ilk Prezidenti. **C.10-** 21, 58, 95, 121-122, 147-149, 168, 235, 236, 245, 250, 268, 269, 271, 275-279, 282, 285, 290, 293, 301-303, 306-310, 321, 373, 412, 413; **12-** 20, 69, 104, 170, 274, 316, 330, 347, 369; **C.13**- 123, 145, 286, 308, 369; **C.14**- 166, 406, 407, 414, 423, 444, 449, 455; **C.15**- 161, 353, 355; **C.16**- 9, 209, 213, 217, 218, 219, 220, 288, 290; **C.17**- 175; **C.18**- 214; **C.19**- 184, 381, 383, 401; **C.20**- 30, 31, 47, 56, 87, 112, 124, 125, 242, 244, 348, 399; **C.21**- 158, 280, 282, 283, 285, 292; **C.22**- 29, 31, 32, 41; **C.23**- 29, 30, 31, 33, 36, 37, 75, 273,

277, 278, 295; **C.24**- 7, 19, 267, 281-297, 298; **C.25-** 119, 133; **C.27**- 24; **C.28**- 152, 235, 236.

**224. Boris Yefimoviç Nemtsov** (d.1959) - Rusiya Federasiyasının ictimai və dövlət xadimi. 1997-1998-ci illərdə Rusiya Federasiyası Baş nazirinin müavini olmuşdur. Hazırda Rusiya Dövlət Dumasının deputatıdır. **C.10-** 249-254, 255, 258, 297, 313, 314, 329, 385.

**225. Borusan makina** - boru istehsalı, neft kəmərlərinin çəkilişi və istismarı sahəsində ixtisaslaşmış şirkət. Türkiyədəki filialı 1997-ci ilin yanvarından Xəzər neftinin nəqli üçün Azərbaycanda və Gürcüstanda boru xəttinin çəkilişinə başlamışdır. "Katerpillar" şirkəti ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərir. **C.11-** 373.

**226. Bosfor** - Avropa ilə Kiçik Asiya arasında boğaz. Qara və Mərmərə dənizlərini birləşdirir. Uzunluğu təqribən 30 km, eni 750 m-dən 3,7 km-dək, dərinliyi ən dayaz yerdə 33 m-dir. Qara dənizdən yeganə çıxış yolu olan Bosforun mühüm iqtisadi və strateji əhəmiyyəti var. **C.18**- 116; **C.23**- 226, 345.

**227. Bosniya-Hersorovina,** Bosniya-Hersoqovina Respublikası - Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 51,1 min km$^2$, əhalisi 3,2 milyon nəfərdir. Dövlət başçısı Prezident, ali qanunverici orqanı İkipalatalı Parlamentdir. Paytaxtı Sarayevo şəhəridir. **C.18**- 373; **C.23**-174; **C.25-** 221.

**228. Botev Xristo** (1848-1876) - bolqar şairi, publisist. Bolqar ədəbi tənqidinin əsasını qoyanlardan biri. **C.23**- 321.

**229. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı - Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. **C.12-** 9, 131, 132, 194; **C.16-** 71-73, 197, 212, 277-491; **C.17**- 6, 14, 31, 32, 109, 129, 181-186, 276, 386; **C.19**- 178-

182, 189; **C.20**- 96, 115, 213-234; **C.21**- 6, 50, 143, 181, 230, 361, 388, 410; **C.22**- 80, 81, 96, 101, 123, 124, 311, 312; **C.24**- 99, 108, 208-212, 213-215; **C.28**- 305, 52-56, 146, 147, 238.

**230. Böyük qardaş** - SSRİ vaxtında müttəfiq respublika xalqları ruslara "böyük qardaş" deyirdilər. **C.27**- 217.

**231. Böyük Millət Məclisi** (BMM) - bax:Türkiyə Böyük Millət Məclisi.

**232. Böyük Oktyabr sosialist** inqilabı - müasir tarixşünaslıqda Oktyabr çevrilişi də adlanır. 1917-ci il oktyabrın 24-dən 25-nə (noyabrın 6-dan 7-nə) keçən gecə V.İ.Leninin başçılığı ilə bolşeviklər silahlı üsyan edərək Müvəqqəti hökuməti devirdilər. Bunun nəticəsində V.İ.Lenin başda olmaqla Rusiyada Sovet hökuməti - Xalq Komissarları Soveti yarandı. **C.11-** 5; **C.13**- 65, 90, 101; **C.14**- 75, 378; **C.15**- 174, 390. **C.19**- 407; **C.24**- 368; **C.25-** 84, 262; **C.28**- 194.

**233. Böyük Teatr** - Rusiya Federasıyasında Dövlət Akademik Böyük Teatr. Əsası 1775-ci ildə Moskvada qoyulmuşdur. Burada xarici və ilk rus operaları və baletləri tamaşaya qoyulur. XX əsrin əvvəllərindən teatrda çalışan vokalistlər və balet ustaları dünya şöhrəti qazanmışlar. **C.15**- 368; **C.19**- 166; **C.21**- 73; **C.28**- 352.

**234. Böyük Vətən müharibəsi** - bax: İkinci Dünya müharibəsi.

**235. Böyükağa Mirzəzadə,** Böyük ağa Məşədi oğlu Mirzəzadə (d.1921) - Azərbaycanın Xalq rəssamı. Azərbaycan Dövlət mükafatı laureatı. Yaradıcılığı boyu tematik tablolar çəkmişdir. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.14**- 312; **C.17**- 157, 158, 159.

**236. Böyükkişi Ağayev,** Böyükkişi Ağa oğlu Ağayev (d.1928) - cərrah, tibb elmləri doktoru, professor. Azərbaycan MEA-nın akademiki. Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur. Tədqiqatları qarın həzm sisteminə (qastroentenrologiya), onkologiyaya, ümumi cərrahiyyəyə həsr olunmuşdur. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir. **C.18**- 387.

**237. Bredli Şerman** (d.24.10.1954, Los-Anceles ş.) - 1974-cü ildə Kaliforniya universitetini (bakalavr), 1979-cü ildə Harvard universitetini (hüquq doktoru) bitirmişdir. 1991-1997-ci illərdə Kaliforniya irqi məsələlər üzrə dövlət palatasında işləmişdir. 1996-cı ildən Kaliforniya ştatından ABŞ Konqresi Nümayəndələr Palatasına üzv seçilmişdir. Demokratdır. **C.11-** 159.

**238. Brejnev Leonid İliç** (1906-1982) - partiya və dövlət xadimi 1964-1982-ci illərdə Sov.İKP MK-nın Baş katibi, 1977-ci ildən həmçinin SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri olmuşdur. L.İ.Brejnev SSRİ-nin beynəlxalq mövqelərini möhkəmlətmiş, yeni dünya müharibəsi təhlükəsini zəiflətmək sahəsində xeyli iş görmüşdür. **C.10-** 341; **C.13-** 347; **C.17-** 49, 108, 109, 110; **C.20-** 345, 346; **C.23-** 93, 96, 267, 352; **C.24-** 69, 101; **C.25-** 81; **C.27-** 307.

**239. Brent Skoukroft** (d.19.03.1925) - ABŞ-dakı Beynəlxalq Xarici Siyasət Forumunun prezidenti, ehtiyatda olan aviasiya general-leytenantı. "Pennzoyl" şirkətinin direktorlar şurasının üzvüdür. **C.11-** 116, 131, 274; **C.20-** 89-92.

**240. Britiş Petroleum** (Bi-Pi) - Dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən dünyanın bir çox ölkələrində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğuldur. Bi-Pi 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. **C.10-** 231, 250, 271, 313; **C.11-** 120, 204; **C.17-** 31, 183, 185, 234; **C.15-** 133-136, 154; **C.16-** 72, 286, 327, 342, 353, 363-364, 367, 373, 379, 387, 390, 398, 437-439, 447, 463, 472, 484, 488, 490, 491; **C.18-** 116, 434; **C.20-** 137, 214; **C.21-** 379, 384; **C.24-** 367, 371; **C.28-** 52, 55.

**241. Broz Tito,** İosip Tito (1892-1980) - 1953-1980-ci illərdə Yuqoslaviyanın Prezidenti, marşal. 1941-1945-ci illərdə Yuqoslaviyada milli-azadlıq müharibəsi zamanı Xalq azadlıq ordusunun baş komandanı olmuşdu. 1945-ci ilin martında Yuqoslaviya Demokratik Federativ Müvəqqəti hökumətinin sədri, avqustunda isə Yuqoslaviya Federativ Xalq Respublikası

hökumətinin başçısı seçilmişdi. Tito bloklara qoşulmamaq hərəkatının liderlərindən biri olmuşdur. **C.23**- 267.

**242. Bruney,** Bruney Sultanlığı - Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 5,8 min $km^2$, əhalisi 300 min nəfərdir. Bruney konstitusion-monarxiyadır. Dövlət başçısı Sultandır. Paytaxtı Bandar-Seri-Beqavandır. **C.25-** 180.

**243. Brüssel şəhəri** - Belçika Krallığının paytaxtı. Haqqında ilk məlumata XI əsr sənədlərində rast gəlinir. 1830-cu ildən Belçikanın paytaxtı, ölkənin iqtisadi, siyasi və mədəni mərkəzidir. **C.10**- 298, 367.

**244. Burkina Faso** (1984-cu ilə qədər Yuxarı Volta Respublikası) - Qərbi Afrikada dövlət. Sahəsi 274,4 min $km^2$, əhalisi 10,6 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Xalq deputatları Assambleyasıdır. Paytaxtı-Uaqaduqu şəhəridir. **C.23**- 368.

**245. Burqas** - Bolqarıstanda şəhər və liman. Qara dəniz sahilində inzibati mərkəzdir. **C.23**- 305, 318.

**246. Butros Qali** (d.1922) - 1992-1996-cı illərdə BMT-nin Baş katibi olmuşdur. **C.23**- 105.

**247. Bülbül,** Murtuza Məşədi Rza oğlu Məmmədov (1897-1961) - Azərbaycan vokal məktəbinin banisi. SSRİ Xalq artisti və SSRİ Dövlət mükafatı laureatı idi. Bülbülün ifasında Koroğlu partiyası müasir Azərbaycan müsiqili teatrı tarixində mühüm bir mərhələ təşkil edir. Onun yaradıcılığı Azərbaycan vokal sənətinin inkişafında mühüm rol oynayır. **C.12**- 357, 361; **C.13**- 212-213, 296-305; **C.14**- 186; **C.15**- 178, 210, 331; **C.16**- 59; **C.17**- 191; **C.19**- 130, 173; **C.21**- 176, 179; **C.22**- 262; **C.24**- 433; **C.26-** 110, 326.

**248. Bülənd Ecevit** (1925-2006) - Türkiyənin siyasi və dövlət xadimi. 1974, 1978-1979 və 1997-2003-cü illərdə Türkiyə Respublikasının Baş naziri olmuşdur. 1972-1980-ci illərdə Respublika Xalq Partiyasının, 1978-1988-ci illərdə Türkiyə Demokrat Sol Partiyasının Baş katibi olmuşdur. **C.19**- 40-41, 47, 52, 62; **C.20**- 13-14, 240-244, 252, 267, 278, 288, 296,

358; **C.23**- 8 -9, 17, 379, 386, 405; **C.24**- 179, 184, 186, 347, 380, 381; **C.25-** 159, 163, 200; **C.26-** 366, 367, 368; **C.27**- 402.

**249. Cabbar Qaryağdı**, Cabbar Məşədi İsmayıl oğlu Qaryağdı (1861-1944) - Azərbaycan xanəndəsi, musiqi xadimi. Azərbaycan xanəndəlik sənətinin ən görkəmli nümayəndələrindən biri. Azərbaycan Respublikasının Xalq artisti. Cabbar Qaryağdı fitri istedada, zil və olduqca güclü, gözəl tembrli, geniş diapozonlu səsə, qeyri-adi musiqi hafızəsinə malik sənətkar idi. **C.17**- 191.

**250. Cahangir Cahangirov,** Cahangir Şirgəşt oğlu Cahangirov (1921-1992) - Azərbaycan bəstəkarı. Azərbaycan Respublikasının Xalq artisti. SSRİ Dövlət mükafatı laureatı idi; **C.12-** 357.

**251. Cahangir Əsgərov,** Cahangir Cəlal oğlu Əsgərov (d.1950) - təyyarəçi. 1991-1993-cü illərdə Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1993-1996-cı illərdə Dövlət Konserninin Türkiyədə baş nümayəndəsi vəzifələrində işləmişdir. 1996-cı ildən "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktorudur. **C.19**- 251; **C.21**- 14-15; **C.26-** 239-296.

**252. Cahangir Qəhrəmanov,** Cahangir Vahid oğlu Qəhrəmanov (1927-1995) - filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi. C.Qəhrəmanov qədim Azərbaycan əlyazmalarının tədqiqi və nəşrə hazırlanması, linqvistik, mənbəşünaslıq və Azərbaycan dili tarixi üzrə mütəxəssis olmuşdur. **C.18**- 360.

**253. Cahangir Zeynalov,** Cahangir Məşədi Rza oğlu Zeynalov (1865-1918) - Azərbaycan aktyoru, teatr xadimi, pedaqoq, Azərbaycan professional teatrının banilərindən biri. Aktrisa Nəsibə Zeynalovanın atası. Komik rolların mahir ifaçısı olan C.Zeynalov dramatik obrazları da eyni müvəffəqiyyətlə yaratmışdır. C.Zeynalov Azərbaycan teatr sənətinin inkişafında mühüm rol oynamışdır. **C.17**- 189.

**254. Cauşesku Nikolaye** (1918-1989) - 1974-1989-cu illərdə Rumıniya Prezidenti. 1955-ci ildən Rumıniya Kommunist

Partiyasının rəhbəri olmuşdur. Ölkədə diktatura rejimi qurmuşdu. 1989-cu ildə xalq üsyanı nəticəsində devrilmiş və dekabrda güllələnmişdir. **C.28**- 133.

**255. Cavad Heyət,** Cavad Əli oğlu Heyət (d.1925) - dünya şöhrətli həkim, filosof, istedadlı dilçi, görkəmli ədəbiyyatşünas və publisist. C. Heyət, əsasən cərrahlıqla məşğul olur, elmi-təcrübi araşdırmalar aparır, müasir cərrahlıqda bir sıra nadir cərrahi əməliyyatları uğurla başa çatdırmışdır. O, 1979-cu ildən İran İslam Respublikasında Azərbaycan dilində "Varlıq" jurnalını nəşr edir. Cavad Heyət Paris Cərrahlıq Akademiyasının, Azərbaycan Milli Elmlər Akademiyasının üzvüdür. **C.26-** 321.

**256. Cavad xan** (?-1804) - Gəncə xanı. Azərbaycanın istiqlalı uğrunda ömrünün axırına qədər mübarizə aparmışdır. Çar generalı D.Sisianovun Gəncəyə hücumu zamanı döyüşdə öldürülmüşdü. **C.12**- 160.

**257. Cavanşir** (təqribən 616-680/81) - dövlət xadimi, sərkərdə. Cavanşir sasani ordusunun tərkibində ərəblərə qarşı vuruşan alban hərbi hissəsinin komandanı kimi döyüşlərdə fərqlənmişdi. Cavanşirin hakimiyyəti dövründə qədim Albaniyada iqtisadi həyat nisbətən dirçəlmiş, elm və mədəniyyət inkişaf etmişdi. **C.14**- 5.

**258. Cenevrə -** İsveçrədə şəhər, Cenevrə kantonunun inzibati mərkəzi. Bir çox beynəlxalq təşkilatlar burada yerləşir. **C.21**- 30-33, 34, 36, 95, 199-203, 204, 218, 266, 268, 277, 292, 398; **C.23**- 355.

**259. Cesika Metyus** - əvvəllər Beynəlxalq Əlaqələr Şurasında elmi işçi, Dövlət Departamentində və Milli Təhlükəsizlik Şurasında işləmişdir. Hazırda "Sülh Uğrunda Karnegi Fondu"nun prezidentidir. "Vaşinqton post" qəzetində məqalələrlə çıxış edir. **C.11-** 116.

**260. Ceyhan limanı** - Aralıq dənizi sahilində liman. Uzunluğu 1695 km olaraq Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi nəzərdə tutulmuş, 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan Prezi-

dentləri və ABŞ-ın Energetika naziri Bakı-Tbilisi-Ceyhan marşrutunu müdafiə edən "Ankara bəyannaməsi"ni imzalamışlar. **C.10-** 60, 139; **C11-** 26, 44, 45, 197, 255, 320, 343; **C.13-** 193, 313; **C.14-** 24, 226, 250, 258, 271, 278, 282, 283, 379, 395, 396, 419, 420, 444, 454; **C.15-** 225, 233, 301, 307, 308, 427, 451; **C.16-** 14, 22, 23, 32, 138, 142, 286, 326, 343, 358, 364, 432, 433, 472, 490; **C.17-** 41, 86, 385, 386; **C.18-** 35, 36, 40, 107, 113, 114, 115, 116, 121, 123, 125, 126, 130, 131, 140, 144, 145, 146, 147, 151, 152, 153, 156, 157, 159, 160, 162, 163, 205, 206, 235, 239, 411, 412, 413, 414, 415, 435, 477; **C.19-** 22, 37, 38, 70, 189, 190, 191, 201, 204, 350, 423, 424.

**261. Ceyms Vulfinson** (d.1933) - Dünya Bankının prezidenti. Avstraliyada anadan olmuş, hazırda ABŞ vətəndaşıdır. Dünya Bankına işə keçməzdən əvvəl "Ceyms Vulfinson" şirkətinin prezidenti olmuşdur. Ceyms Vulfinson 1995-ci il iyunun 1-də Dünya Bankının 5 il müddətinə prezidenti təyin edilmişdi. **C.11-** 207, 208; **C.12-** 379; **C.20-** 290-291.

**262. Cəbrayıl** - Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1050 km$^2$, əhalisi 45,8 min nəfər idi. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. **C.21-** 116, 122; **C.23-** 101; **C.28-** 269.

**263. Cəfər Cabbarlı,** Cəfər Qafar oğlu Cabbarlı (1899-1934) - böyük Azərbaycan yazıçısı, dramaturq. Cabbarlı yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişafına böyük təsir göstərmiş, istedadlı dramaturqlar nəslinin yetişməsində mühüm rol oynamışdır. Cabbarlının zəngin irsi Azərbaycan ədəbiyyatı tarixində layiqli yer tutur. **C.13-** 83, 125, 174; **C.17-** 146, 163, 189, 191; **C.18-** 221; **C.21-** 102; **C.22-** 262, 264; **C.27-** 91-97; **C.28-** 311.

**264. Cəfər Vəliyev,** Cəfər Cəbrayıl oğlu Vəliyev (d. 1930) - hüquqşünas. 1953-1978-ci illərdə müxtəlif məsul vəzifələrdə çalışmışdır. 1979-1987-ci illərdə Azərbaycan Respublikasının Daxili İşlər naziri olmuşdur. 1992-1999-cu illərdə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri

vəzifəsində çalışmışdır. **C.16**- 261; **C.25-** 35, 438, 439, 441, 443, 444, 446, 449.

**265. Cəfərqulu xan** (?-?) - Naxçıvan xanı. 1783-cü ildə xoylu Əhməd xanın dəstəyi sayəsində Naxçıvan xanlığının hakimi olmuşdur. Cəfərqulu xan ilk gündən xalqı incitmiş, hətta iş o yerə çatmışdı ki, naxçıvanlıların bir çoxu doğma ocaqlarını tərk etmiş, başqa yerlərə köçməyə məcbur olmuşdular. **C.22**- 204.

**266. Cəfərquliyev Mirağa Əşrəf** oğlu (d.1940) - III dərəcəli Dövlət müşaviri. 1985-1992-ci illərdə Azərbaycan Respublikası Baş prokurorunun müavini olmuşdur. **C.10-** 365.

**267. Cəlal Əliyev,** Cəlal Əlırza oğlu Əliyev (d.1928) - bitki fizioloqu, elm təşkilatçısı, ictimai xadim. Azərbaycan Milli EA-nın akademiki, Əməkdar elm xadimi, Rusiya Kənd Təsərrüfatı EA-nın həqiqi üzvü, Ukrayna və Belarus Aqrar EA-larının əcnəbi üzvü, Beynəlxalq Elmi İnkişaf Şurasının-Beynəlxalq EA Azərbaycan Bölməsinin fəxri prezidentidir. Azərbaycan MEA-nın Botanika İnstitutunda məhsuldarlıq proseslərinin molekulyar-genetik əsasları şöbəsinin müdiri vəzifəsində çalışır. Azərbaycan MEA Rəyasət Heyətinin üzvüdür.

Cəlal Əliyevin başçılığı ilə respublikada genetik ehtiyatların öyrənilməsi üzrə və "Biomüxtəliflik" milli proqramları həyata keçirilir. C.Əliyev həm də vətənimizin ərazi bütövlüyü, ölkəmizdə müstəqil, demokratik, hüquqi dövlət quruculuğu uğrunda mübarizə aparan görkəmli ictimai xadimdir. Azərbaycan Respublikası Milli Məclisinin (1995-ci ildən) deputatıdır. Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif olunmuşdur. **C.15**- 320; **C.18**- 382; **C.19**- 58.

**268. Cəlil Məmmədquluzadə,** Mirzə Cəlil Hüseynqulu oğlu Məmmədquluzadə (ədəbi təxəllüsü Molla Nəsrəddin; 1866-1932) - böyük Azərbaycan yazıçısı, jurnalist, ictimai xadim. Mirzə Cəlilin ictimai-ədəbi fəaliyyəti XIX əsrin 80-ci illərinin axırından XX əsrin 30-cu illərinə qədərki böyük tarixi dövrü əhatə edir. 40 illik yaradıcılığı boyu müxtəlif janrlarda yazdığı əsərləri ilə Mirzə Cəlil Azərbaycan realist ədəbiy-

yatının yüksək pilləyə qalxmasında müstəsna rol oynamışdır. 1906-cı il aprelin 7-də çıxan “Molla Nəsrəddin” jurnalının nəşrinə başlamaqla Mirzə Cəlil Azərbaycanda, eləcə də Yaxın Şərqdə satirik jurnalistikanın əsasını qoymuşdur. Bu zamandan Mirzə Cəlil Molla Nəsrəddin adı ilə məşhur oldu. **C.15**- 53, 152, 282, 391; **C.17**- 146, 163, 189; **C.22**- 197, 259-266; **C.26**- 55, 89, 305, 314; **C.27**- 214, 369; **C.28**- 314, 315.

**269. Cəmil Əliyev,** Cəmil Əziz oğlu Əliyev (d.1946) - həkim, tibb elmləri doktoru, professor, Azərbaycan MEA-nın akademiki. Rusiya Təbiyyat EA və Tibb EA-nın həqiqi üzvü, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. 1990-cı ildən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin (MOM) direktoru, 1994-cü ildən eyni zamanda Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu Onkologiya kafedrasının müdiri, Respublika Səhiyyə Nazirliyinin baş onkoloqudur. Onkologiyanın aktual və praktik problemlərinə - bəd xassəli şiş törəmələrinin epidimiologiyası, müalicəsi və reabilitasiyasına dair tədqiqatların müəllifidir. C. Əliyev tədqiqatları nəticəsində dünyada ilk dəfə olaraq süd vəzi xərçəngi olan xəstələrdə gizli keçən B viruslu hepatit olmasının belə xəstələrdə müalicə proqnozuna xeyli dərəcədə mənfi təsir göstərdiyini sübut etmişdir. **C.19**- 53, 58.

**270. Cəmil Quliyev,** Cəmil Bahadur oğlu Quliyev (d. 1927) - tarixçi. Tarix elmləri doktoru, professor, Azərbaycan MEA-nın akademiki, Azərbaycan Respublikası Dövdət mükafatı laureatı. Müxtəlif illərdə Azərbaycan Respublikası Tarix İnstitutunun direktoru, Azərbaycan Sovet Ensiklopediyasının baş redaktoru, Azərbaycan Respublikası MEA-nın prezident müavini vəzifəsində işləmişdir. Azərbaycan Respublikasının “Şöhrət” ordeni ilə təltif olunmuşdur. **C.17**- 156.

**271. Cəmşid xan Səfərqulu** oğlu Naxçıvanski (1895-1935) - hərbi xadim, briqada komandiri. Birinci Dünya müharibəsində müsəlmanlardan təşkil olunmuş süvari eskadronun komandiri olmuş, sücaətlə vuruşmuş, dördüncü dərəcəli “Müqəddəs Georgi” ordeni ilə təltif olunmuşdur. Azərbaycanın

müstəqilliyi uğrunda Cəmşid xan inamla vuruşmuşdur. 1920-ci ilin martında onun alayı Qarabağda daşnaklara qarşı döyüş əməliyyatlarında fəal iştirak etmişdir. 28 aprel (1920) çevrilişindən sonar Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri təyin olunmuş, yüksək ixtisaslı kadr hazırlığında mühüm rol oynamışdır. 30-cu illərin axırlarında Cəmşid xan guya başçılıq etdiyi "casus təxribatçı dəstəsi" ilə mühacirətdə olan qardaşları (İran) ilə əlaqə saxlamaqda təqsirləndirilərək repressiya qurbanı olmuşdur. **C.16**- 83, 85; **C.22**- 251-258.

**272. Cənnətxanım,** Səlimova Cənnətxanım Əlibəy qızı (d.1940) - rejissor. Azərbaycan Respublikasının Xalq artisti. **C.10-** 54; **C.14**- 18; **C.18**- 326; **C.24**- 199.

**273. Cənubi Karolina -** ABŞ-ın cənub-şərqində ştat. Sahəsi 80,6 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. İnzibati mərkəzi Kolumbiyadır. **C.25-** 153.

**274. Cənubi Qafqaz dövlətləri -** burada Azərbaycan, Gürcüstan, Ermənistan respublikaları nəzərdə tutulur.

**275. Ci-Pi-Morqan** - dünyada aparıcı qlobal maliyyə qurumlarından biri. 1938-ci ildə yaradılmışdır. İş dairəsinə kapital qoyuluşu, maliyyə vasitələri ilə iş, aktivlərin idarə olunması, strateji məsləhətlər kimi fəaliyyət növləri daxildir. Dünyanın 33 ölkəsində fəaliyyət göstərir. **C.11-** 79, 81, 405.

**276. Cibuti,** Cibuti Respublikası - Şimal-Şərqi Afrikada Dövlət. Sahəsi 22 min km$^2$, əhalisi 603,6 min nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət və hökumət başçısı Prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Cibutididir. **C.28**- 370.

**277. Co Barton** (d.1949, Vako ş.) - 1972-ci ildə Texas universitetini (bakalavr), 1973-cü ildə Perdyu universitetini (magistr) bitirmişdir. 1993-cü ildə Senata seçkilərdə Respublikaçılar partiyasından namizəd göstərilmişdir. 1984-cü ildən ABŞ Konqresi Numayəndələr Palatasına üzv seçilmişdir. Respublikaçıdır. **C.11-** 159.

**278. Co Nollenberq** (d.1933) - 1955-cı ildə Şərqi İllinoys universitetini (elmlər bakalavri) bitirmişdir. 1955-1957-ci

illərdə orduda xidmət etmişdir. 1978-1986-cı illərdə Respublikaçılar partiyasının Oklend-Kaunti şəhərindəki təşkilatının sədri olmuşdur. 1992-ci ildən ABŞ Konqresi Nümayəndələr Palatasının Miçiqan ştatının üzvüdür. Respublikaçıdır. **C.11-** 164, 239.

**279. Con Braun** (d.1948) - "Britis Petroleum" şirkətinin prezidenti. 1969-1983-cü illərdə Alyaskada, Nyu-Yorkda, Londonda neft və qazın çıxarılmasında və kəşfiyyatında müxtəlif vəzifələrdə çalışmışdır. Bütün tapşırıqları əla yerinə yetirdiyinə görə 36 yaşında "Bi-Pİ" qrupunun xəzinədən və "Bi-Pi" şirkətinin Finance İnternationalının Baş direktoru təyin edilir. 1987-ci ildən isə Standard Oil of Ohio "Bi-Pi" ilə iş birliyindən "Bi-Pi" Amerika təmsilçisi üzrə maliyyə üzrə vitse prezidenti və Standard Oil of Ohiyonun başçısı təyin edilir. **C.24-** 367, 371.

**280. Con Kennedi Fidcerald** (1917-1963) - ABŞ-ın 35-ci Prezidenti (1961-1963). Prezident olduğu zaman bir sıra sosial-iqtisadi reformalar irəli sürmüş. Hərbi blokların və ABŞ hərbi qüvvələrinin möhkəmlənməsinə çalışırdı. Dallasda öldürülmüşdür. **C.25-** 112, 113.

**281. Con Hovard** (d.1939) - 1996-cı ildən Avstraliyanın Baş naziri. Avstraliya Liberal partiyasının liderı. **C.24-** 304.

**282. Con Porter** (d.01.06.1935, Evantson ş.) - 1953-1954-cü illərdə Massaçusets Texnologiya İnstitutunda oxumuşdur. 1957-ci ildə Şimal-Qərb Universitetini (bakalavr), 1961-ci ildə Miçiqan Universitetini (hüquq doktoru) bitirmişdir. 1978-1979-cu illərdə ABŞ-ın İllinoys ştatından ABŞ Konqresi Nümayəndələr Palatasına seçkilərdə Respublikaçılar partiyasından namizəd göstərilmişdir. 1980-ci ildən İllinoys ştatından ABŞ Konqresi Nümayəndələr Palatasının üzvüdür. Respublikaçıdır. **C.11-** 164, 373.

**283. Corc Buş** - ABŞ-ın 43-cü Prezidenti (2000-ci ildən). ABŞ-ın keçmiş Prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistrı)

bitirmişdir. "Speaktrum-7 Enerci Korporeyşn" firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. Respublikaçıdır. **C.11-** 282.

**284. Corc Buş Herbert** (d.12.06.1924) - ABŞ-ın görkəmli dövlət xadimi. 1980-1989-cu illərdə ABŞ-ın vitse-prezidenti, 1989-1992-ci illərdə ABŞ-ın 41-ci Prezidenti olmuşdur. 1993-cü ildən təqaüddədir. **C.11-** 274; **C.25-** 133.

**285. Corc Enqayer** - tanınmış siyasi icmalçı. Mühafizəkarlığı və antikommunist çıxışları ilə şöhrət qazanmışdır. Çinə və Rusiyaya xeyli dərəcədə mənfi münasibət bəsləyir.**C.10-** 116.

**286. Corc Robertson** (d.1946) - İngiltərənin siyasi və dövlət xadimi. Müxtəlif illərdə 6 dəfə parlamentə deputat seçilib. 1999-2004-cü illərdə NATO-nun Baş katibi olmuşdur. **C.16**- 360-362; **C.21**- 143; **C.27**- 29.

**287. Corc Vaşinqton** (1732-1799) - Şimali Amerikada istiqlaliyyət müharibəsi (1775-1783) zamanı Amerika ordusunun Baş komandanı, ABŞ-ın ilk Prezidenti (1789-1797). Varlı plantasiya sahibi ailəsində doğulmuş, üsyançı ordusunda komandirlik etmiş, 1759-cu ildə polkovnik rütbəsində istefaya çıxmış, 1759-1774-cü illərdə Virciniya qanunvericilik məclisinin deputatı olmuşdur. 1775-ci il iyunun 15-də üsyançı ordunun Baş komandanı seçilmiş və nizami ordu yaradaraq İngiltərə ordusunu məğlubiyyətə uğratmışdır. 1787-ci ildə C.Vaşinqtonun sədrliyi ilə ABŞ Konstitusiyası hazırlanmışdı (bəzi düzəlişlərlə indi də qüvvədədir); ABŞ-da ikipartiyalı sistemin yaradıcılarındandır. C.Vaşinqton köləliyin tədricən ləğvinin tərəfdarı olmuş və şəxsən özünə məxsus qulların azad edilməsini vəsiyyət etmişdir**. C.11**- 217.

**288. Corctaun universiteti -** Dünyanın ən böyük və nüfuzlu təhsil ocaqlarından biri. Kiçik kollec kimi fəaliyyətə 1789-cu ildən başlamışdır. Əsasını Con Karroll qoymuş, ilk prezidenti olmuş və onun işini açıq dialoq, həqiqətə sədaqət ruhunda qurmuşdur. Burada 40 minə yaxın tələbə təhsil alır, 14 min adam doktoranturada oxuyur. Tədris bir neçə dildə aparılır.

Universitetin 61 təhsil binası, tələbə yataqxanaları, idman qurğuları və laboratoriyaları var. Universitetdə bir neçə azərbaycanlı tələbə təhsil alır. **C.11-** 133, 155.

**289. Covhər Dudayev,** Cövhər Musa oğlu Dudayev (1944-1996) - general-mayor. 1991-ci ildən tanınmamış İçkeriya Respublikasının (Çeçenistan) Prezidenti. **C.17**- 139; **C.17**- 152, 164.

**290. Cövdət Hacıyev,** Əhməd Cövdət İsmayıl oğlu Hacıyev (1917-2002) - Azərbaycan bəstəkarı, pedaqoq. Azərbaycan Respublikasının Xalq artisti. İki dəfə SSRİ Dövlət mükafatı laureatı.**C.10-** 164; **C.12-** 357; **C.15**- 385; **C.21**- 103.

**291. Cüzeppe Verdi** (1813-1901) - italyan bəstəkarı. Verdinin yaradıcılığı İtaliyada milli azadlıq mübarizəsi ilə sıx bağlıdır. "Trubadur" (1852), "Traviata" (1853), "Kameliyalı qadın", "Bal-maskarad" (1859) operaları ona geniş şöhrət qazandırmışdır. 1870-ci ildə Süveyş kanalının açılışı münasibəti ilə Qahirə teatrının sifarişi ilə dünya opera sənətinin incilərindən olan "Aida" operasını yaratmışdır. **C.21**- 76.

**292. Çado** ("Çay dəstgahı") - yaponlar arasında geniş yayılmış çayiçmə mərasimi. Çado zamanı hörmətli qonağa verilən yaşıl çayı Yaponiyaya XIII əsrdə Çindən rahiblər gətirmişlər. Sonralar Çado mərasimi yapon mədəniyyətini zənginləşdirən sənət səviyyəsinə yüksəlmişdir. **C.14**- 462.

**293. Çarli Çaplin,** Çapli Spenser Çaplin (1889-1977) - məşhur amerikan artisti, rejissor və ssenarist. Çaplinin yaradıcılığında qrotesk və parodiya üslubları, eləcə də pantomima, xalq teatrı, müzik-holl və sirk sənətlərinin ifadə vasitələri əhəmiyyətli yer tutmuşdur. Onun filmlərində komiklik faciəliklə qovuşur, onun qəhrəmanları yoxsullar dünyasını təcəssüm etdirir. Dramatik, lirik və yumoristik səhnələrin və vəziyyətlərin üzvi uyarlığı Çaplin filmlərinin ən diqqətəlayiq cəhətlərindəndir. Dahi artist, rejissor, humanist olan Çaplin dünya kinosunun inkişafına böyük təsir göstərmişdir. **C.15**- 249; **C.16**- 65.

**294. Çaykovski Pyotr İliç** (1840-1893) - böyük rus bəstəkarı. Çaykovski musiqili dramaturgiyada zərif psixoloq, ustad

simfoniyaçıdır. O, musiqidə insanın daxili aləmini açmış, operada, baletdə, simfoniyada məşhur obrazlar yaratmışdır. Onun "Füsunkar qadın", "Yevgeni Onegin", "Mazepa", "İolanta" operaları, "Yatmış gözəl", "Qu gölü", "Şelkunçik" baletləri və bir sıra simfoniyaları onu dünyada məşhurlaşdırmışdır. **C.21**- 76.

**295. Çazov Yevgeni İvanoviç** (d.1929) - rus terapevti. REA-nın akademiki. İnfarkt, miokard, ürək-damar sisteminin və klinik kardiologiyanın müxtəlif problemlərini müalicə edir. SSRİ və Lenin mükafatları laureatıdır. **C.20-** 344.

**296. Çeçenistan (İçkeriya)** - Rusiya Federasiyasında respublika. Paytaxtı Qroznı şəhəridir.

Orta əsrlərin əvvəllərində Çeçenistanın xeyli hissəsi Alan dövlətinin tərkibində idi. XIX əsrdə Rusiya Şimali Qafqazı işğal etməyə başladı. Çeçenlər öz torpaqlarından çıxarılır, onların yerinə burada kazaklar yerləşdirilirdi. Bu da Çeçenistanda milli azadlıq hərəkatının başlanmasına səbəb oldu. Dağlıların bu hərəkatı (1817-1864) 1859-cu ildə Şeyx Şamil təslim olduqdan sonra yatırıldı və Çeçenistan tamamilə Rusiyaya birləşdirildi. 1991-1992-ci illərdə Rusiya Federasiyası tərkibində müstəqil Çeçenistan Respublikası yaradıldı. **C.22**- 15, 17, 26, 27, 29, 30, 33, 34; **C.23**- 31, 32, 34, 35, 36, 38, 40, 43, 103, 232, 233, 234, 346, 414, 417, 419, 420, 421; **C.24**- 61, 166, 272, 334, 379, 411; **C.25-** 41, 90, 92, 93, 103, 118, 126, 228, 230, 231, 249, 251, 261, 273, 274, 379, 380, 381; **C.27**- 17, 18, 20, 22, 25, 217; **C.28**- 26, 27, 81, 160, 161, 170, 175, 177, 228, 229, 233, 353.

**297. Çexiya,** Çexiya Respublikası - Mərkəzi Avropada dövlət. 1918-ci ildən 1993-cü ilə qədər Çexoslovakiya adlanıb. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,3 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı President, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar palatası) Parlamentdir. Paytaxtı Praqadır. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. **C.24**- 402, 404, 406, 410.

**298. Çexov Anton Pavloviç** (1860-1904) - böyük rus yazıçısı. Yaradıcılığa felyetonlar və kiçik yumoristik hekayələrlə başlamışdır. Ziyalıların xalq qarşısında məsuliyyəti, xalq taleyinə etinasızlıq, meşşanlıq, xüdpəsəndlik, qına çəkilmək kimi mənəvi eybəcərliklərin tənqidi, obıvatel mühitinin insani keyfiyyətləri, müsbət idealları puç etməsi Çexov yaradıcılığının əsas leytmotividir. Onun baş qəhrəmanı öz gündəlik işlərinə və qayğılarına başı qarışan adi insandır. **C.15**- 44.

**299. Çernenko Konstantin Ustinoviç** (1911-1985) - SSRİ-in partiya və dövlət xadimi. 1978-ci ildən Sov. MK Siyasi Bürosunun üzvü, 1984-cü ildə Sov. İKP MK-nın Baş katibi və SSRİ Ali Sovetinin sədri olmuşdur. **C.17**- 110; **C.24**- 70.

**300. Çernobıl hadisələri** - 1986-cı ilin aprel ayında Çernobıl AES-nin 4-cü enerji blokunda avariya baş verdi. Bunun nəticəsində Ukrayna ərazisinin xeyli hissəsi, həmçinin Belorusiya və Rusiya Federasiyasının Bryansk və Kaluqa əyalətləri də radiaktiv çirklənməyə məruz qaldı.Bunun nəticəsində AES-nin 30 km-ndə yaşayan əhalisi bu zonadan köçürüldü. 1986-cı ilin noyabrında 4-cü blok ləğv edildi. **C.14**- 400; **C.27**- 288.

**301. Çernomırdin Viktor Stepanoviç** (d.1938) - Rusiya Federasiyasının dövlət xadimi, diplomat. 1992-1998-ci illər Rusiya Federasiyasının Baş naziri olmuş, hazırda isə Rusiya Federasiyasının Ukrayna Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir. **C.10-** 147, 148, 237, 244, 257, 297, 302, 313, 314, 325; **C.14**- 449; **C.15**- 183; **C.16**- 315; **C.20**- 33-49, 51; **C.22**- 25, 26, 29. **C.23**- 31, 75; **C.25-** 279.

**302. Çikaqo** - ABŞ-da, İllinoys ştatında şəhər. İqtisadi əhəmiyyətinə və əhalisinin sayına görə ölkədə 2-ci yeri tutur. Şəhər kimi əsası XIX əsrin əvvəllərində qoyulmuşdur. 1883-cü ildən şəhər statusu almışdır. Çikaqo ABŞ-ın mühüm nəqliyyat qovşağı və qara metallurgiya mərkəzidir. **C.11-** 5, 16, 317, 324, 331, 345, 377, 378, 384, 388, 392, 401.

**303. Çikaqo Əmtəə-Xammal** Birjası - ABŞ-ın, eləcə də dünyanın ən böyük birjalarından biri. Birjada hər gün 750 milyard dollar həcmində əməliyyatlar aparılır. Birjada, eyni

zamanda, həm sənaye, həm də kənd təsərrüfatı məhsullarını əhatə edən alqı-satqı əməliyyatları da aparılır. **C.11-** 379.

**304. Çikaqo klubu** - klubda iri maliyyə korporasiyalarının, bankların, investisiya fondlarının nümayəndələri toplaşırlar. 100 illik tarixi var. **C.11-** 382.

**305. Çili Respublikası** - Gənubi Amerikanın cənubqərbində dövlət. Sahəsi 756,9 min km$^2$, əhalisi 14,4 milyon nəfərdir. İnzibati ərazi bölgüsü 13 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Santyaqo şəhəridir. **C.24**- 216.

**306. Çin Xalq Respublikası,** ÇXR - Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1219 milyon nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı-Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekindır. **C.22**- 85-90; **C.28**- 17, 18, 49, 115, 280, 285-307, 364.

**307. Çingiz Abdullayev** (d.1959) - Azərbaycan yazıçısı. Hüquq elmləri doktoru. Onlarla detektiv roman və povestlərin müəllifidir. Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin katibidir. 1992-ci ildən Azərbaycan Respublikası PEN klubunun vitse prezidentidir. **C.13**- 47.

**308. Çingiz Aytmatov** (1928-1928) - görkəmli qızğız yazıçısı. Qırğızıstan Respublikasının Xalq yazıçısı. Qırğızıstan və SSRİ Dövlət mükafatları laureatı. SSRİ Yazıçılar İttifaqının (1976-1990) katibi, SSRİ Ali Sovetinin deputatı olmuşdur. İncə lirizm, dərin ictimai psixologizm, obrazın daxili aləminə nüfuz etmək Aytmatovun yaradıcılığının xarakterik xüsusiyyətləridir. İnsan və cəmiyyət problemi yaradıcılığının əsas mövzusudur. **C.18**- 341; **C.19**- 349.

**309. Çingiz Hüseynzadə,** Çingiz Muxtar oğlu Hüseynzadə (d.l951) - şərqşünas.Azərbaycan Atletika federasiyasının prezidenti. 1997-ildən Azərbaycan Milli Olimpiya Komitəsinin

vitse-prezidenti. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.24**- 420-432.

**310. Çingiz xan** (təqribən 1155-1227) - vahid monqol dövlətinin banisi, sərkərdə. 1183-1204-cü illərdə hakimiyyət uğrunda mübarizədə əsas rəqiblərini məğlub etmiş, çoxsaylı qəbilə-tayfa birliklərinin yaşadığı böyük ərazini ələ keçirmişdi. 1206-cı ildə monqol noyonlarının (feodalların) qurultayında Çingiz xan adı ilə bütün tayfaların böyük xanı seçilmişdi. Çingiz xan daim monqol tayfalarını birləşdirmək və mərkəzi hakimiyyəti möhkəmlətmək siyasəti yeritmişdir. **C.14**- 74; **C.22**- 192.

**311. Çingiz Sadıqov** (d.1927) - pianoçu. Azərbaycan Respublikasının Xalq artisti. **C.10-** 50; **C.12-** 357.

**312. Çimnaz Babayeva,** Çimnaz Məmməd qızı Babayeva (d.1946) - balet artisti. Azərbaycan Respublikasının Xalq artisti. 1964-1977-ci illərdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti olmuş, 1977-ci ildən isə teatrda məşqçi-baletmeysterdir. Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. **C.17**- 192.

**313. Çörçill,** Uinston Leonard Spenser (1874-1965) - Böyük Britaniyanın görkəmli dövlət, siyasi və hərbi xadimi, 1940-1945, 1951-1955-ci illərdə Böyük Britaniyanın Baş naziri. Çörçill 2-ci Dünya müharibəsi zamanı Britaniya xalqının "mətanət" rəmzi, ABŞ və SSRİ ilə antihitler koalisiyasının təşəbbüsçülərindən biri olmuşdur.Çörçill bir sıra publisistik əsərlərin və memuarların müəllifidir. Ədəbiyyat üzrə Nobel mükafatı laureatıdır. **C.13**- 179, 180; **C.17**- 109; **C.21**- 363.

**314. Çuvaşiya,** Çuvaşiya Respublikası - Rusiya Federasiyasında respublika. Sahəsi 18,3 min km$^2$, əhalisi 1358,9 min nəfərdir. Paytaxtı Çeboksarıdır. **C.28** - 183-195.

**315. Dağıstan Muxtar Respublikası** - Rusiya Federasiyası tərkibində milli-ərazi qurumu, respublika. 1921-ci il yanvarın 20-də təşkil edilmişdir. Sahəsi 50,3 min km$^2$, əhalisi 2094,6 min nəfərdir. 41 inzibati rayonu, 10 şəhəri, 18 şəhər tipli qəsəbəsi var. Paytaxtı Mahaçqala şəhəridir. Dövlət haki-

miyyətinin ali orqanı 5 il müddətinə seçilən birpalatalı Dağıstan Respublikasının Ali Sovetidir. **C.13**- 141-149; **C.15**- 324-335, 437; **C.21**- 359, 385, 386, 387; **C.22**- 17, 29, 30, 31, 32, 35, 36; **C.23**- 32, 34, 36, 41, 86, 103, 386, 414, 417, 419, 420; **C.24**- 272, 275, 441; **C.25-** 118, 231, 251, 274, 381; **C.28**- 26, 125, 173-182, 228, 233.

**316. Dağlıq Qarabağ Muxtar** Vilayəti - Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə Qarabağ separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 qətnamələrinə görə erməni işğalçıları Azərbaycan torpaqlarını qeyri-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. **C.20**- 25-28, 30, 35, 36, 40, 42, 51, 56, 67, 68, 78, 79, 86, 87, 91, 95, 96, 97, 99, 100, 102, 103, 111, 115, 116, 118, 121, 123, 156, 166, 190, 208, 213, 220, 226, 242, 246, 254, 273, 274, 288, 305, 308, 318, 327, 357, 397, 398, 399, 401, 402, 403, 404, 415, 416, 417, 418, 441, 442, 444, 446, 454; **C.21**- 17, 31, 33, 35, 37, 55, 83, 84, 85, 95, 96, 98, 103, 175, 268, 271, 272, 281, 282, 287, 288, 289, 290, 306, 307, 331, 332, 333, 335, 336, 341, 342, 343, 356, 371, 379, 381, 385, 390, 396, 398, 400, 402, 405, 406; **C.22**- 47, 49, 52, 73, 98, 133, 143, 155, 163, 176-179, 202, 213, 214, 275, 291, 292, 293, 303, 324, 329, 335, 338, 339, 353, 362, 365, 366, 367, 374, 377-384, 385, 395, 396, 397, 401, 424, 425; **C.23**- 9, 37, 38, 58, 59, 71, 75; **C.23**- 77, 88, 92, 93, 94, 95, 96, 101, 102, 104, 117, 129, 139, 144, 154, 155, 156-158, 160, 162, 164, 165, 166, 169, 176, 189, 192, 229, 231, 232, 234, 236, 252, 276, 279, 296, 324, 346, 387, 416; **C.24**- 6-20, 56, 60, 61, 62, 63, 124, 133, 147, 164, 187, 206, 217, 219, 220, 221, 229, 237, 238, 250, 256, 261, 263, 266, 275, 294, 333, 336, 337, 343, 351, 364, 378, 381, 410, 412, 413, 439, 445; **C.25-** 7, 16, 17,

40, 59, 64, 66, 68, 69, 71, 73, 83, 86, 87, 88, 89, 90, 105, 110, 117, 118, 123, 128, 129, 130, 131, 135, 137, 138, 139, 142, 143, 162, 163, 167, 174, 178, 191, 194, 209, 228, 229, 257, 259, 260, 261, 281, 282, 299, 315, 322, 352, 373, 377, 379, 380, 398; **C.26-** 14, 15, 20, 29, 34, 35, 36, 41, 42, 64, 73, 123, 124, 345, 361; **C.27**- 20, 21, 22, 118, 124, 125, 126, 149, 155, 196, 199, 220, 221, 222, 313, 314, 320, 331, 360, 372, 411, 412; **C.28**- 73, 78, 79, 80, 81, 96, 98, 101, 153, 167, 214, 215, 216, 218, 230, 231, 232, 241, 244, 245, 260, 268, 289, 291, 305, 306, 309, 329, 340, 396, 402, 405, 416.

**317. Daq Henderson** (d.1949) - 1987-ci ildən Britaniya parlamentində Leyboristlər partiyasından deputat. 1995-1997-ci illərdə Parlamentdə müxalifətin lideri olmuşdur. 1998-ci ildə Böyük Britaniya Xarici İşlər naziri olmuşdur. **C.16-** 303-305, 396, 453-457, 473, 482.

**318. Dal Vladimir İvanoviç** (1801-1872) - rus yazıçısı, lüğətşünas, etnoqraf. 53 il ərzində tərtib etdiyi 200 000 sözdən ibarət "Canlı rus dilinin izahlı lüğəti" bugünədək öz əhəmiyyətini itirməmişdir. Kazak Luqanski təxəllüsü ilə hekayə, povest və etnoqrafik oçerklər yazmışdır. **C.26-** 312.

**319. Dardanel** - Türkiyədə Avropa ilə Asiya arasında boğaz. Egey və Mərmərə dənizlərini birləşdirir. Uzunluğu 120 km, eni 1,3-2,7 km, dərinliyi 29-153 metrdir. Dardanelin böyük strateji və ticarət əhəmiyyəti var. Portları Asiya sahillərində Çanaqqala, Avropa sahillərində Geliboludur. **C.23**- 345.

**320. Daşkənd**-Orta Asiyada qədim şəhərlərdən biri. Şəhər yaşayış yeri kimi IV-V əsrlərdən mövcuddur. 1930-cu ildən Özbəkistan Respublikasının paytaxtıdır. **C.10-** 167, 200, 201-217, 223, 224, 282, 309.

**321. Davos şəhərində iqtisadi** forum - İsveçrənin kurort şəhəri Davosda hər il Ümumdünya iqtisadi forumu keçirilir. 1995-ci il yanvarın 26-30-da Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyəti bu forumda iştirak etmişdir. **C.10-** 385, 389; **C.24**- 323-381, 403; **C.28**- 47.

**322. Dauninq-Strit** - Londonda küçə, Böyük Britaniyanın Baş nazirinin iqamətgahı və Xarici İşlər Nazirliyi bu küçədə yerləşir. **C.16**- 352-356.

**323. Demokratlar partiyası** - ABŞ-ın iki əsas partiyasından biri. Əsası 1828-ci ildə qoyulmuşdur. XIX əsrin birinci yarısında Cənub plantasiyaçılarının və bankirlərin mənafeyini müdafiə edirdi. 1829-1841, 1845-1849, 1853-1861, 1885-1889, 1893-1897, 1913-1921, 1933-1953, 1961-1969, 1977-1981, 1993-2001-cı illərdə hakimiyyətdə olmuşlar. **C.24**- 77.

**324. Denver** - ABŞ-da şəhər. Kolorado ştatının inzibati mərkəzi. Saut-Platt çayı sahilindədir. 1997-ci il iyulun 20-də Denver şəhərində Rusiya, ABŞ və Fransa Prezidentləri görüşmüş və Ermənistan-Azərbaycan münaqişəsini sülh yolu ilə həll edilməsinə kömək etmək barədə birgə bəyanat imzalamışlar. **C. 10**- 236, 268, 306, 240, 377, 412; **C.11**- 34, 38, 42, 52, 92, 103, 139, 224, 322; **C.19**- 135.

**325. Denver birgə bəyanatı** - 1997-ci il iyunun 20-də Denver şəhərində Rusiya dövlət başçısının da iştirak etdiyi "Yeddilər" yığıncağında ATƏT-in Minsk konfransının həmsədrləri olan dövlətlərin Prezidentləri - Bill Klinton, Boris Yeltsin və Jak Şirak Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair birgə bəyanat imzalamışlar. Münaqişənin tarixində ilk dəfə olaraq üç dövlət başçıları açıq-aşkar bəyanat vermişlər ki, münaqişəni tezliklə aradan qaldırmaq lazımdır. **C.11**- 188, 224, 315; **C.20**- 26.

**326. Devid Vudvord** (d.1946) - neftçi-mühəndis, 1999-cu ildən "BP-Azərbaycan" şirkətinin prezidenti. Bir çox ölkələrdə - Ərəb əmirliklərində, Norveç, Rusiya və ABŞ-da "BP" şirkətinin nümayəndəsi vəzifələrində işləmişdir. İngiltərənin "Müqəddəs Mixail və Müqəddəs Çeorgi", Gürcüstanın "Şərəf", Azərbaycan Respublikasının "Şöhrət" ordenləri ilə təltif olunmuşdur. **C.19**- 445-446; **C.22**- 10; **C.25**- 284-295. **C.28**- 42.

**327. Dədə Qorqud** - bax: Kitabi-Dədə Qorqud.

**328. Dərbənd** - Rusiya Federasiyasının tabeliyində olan Dağıstan Muxtar Respublikasında şəhər. Dərbənd Qafqaz

Albaniyasının ən qədim şəhərlərindən biri olmuşdur. V əsrdə Dərbənd iqtisadi və siyasi cəhətdən Qafqaz Albaniyasının mühüm şəhərlərindən biri, həm də Sasani canişinlərinin iqamətgahı idi. Abbasilər xilafəti dövründə (750-1258) Dərbənd Avropa və Asiya ölkələri ilə ticarətdə əsas tranzit məntəqəsi idi. Dərbənd X əsrdə Şirvanşahların hakimiyyəti altına keçdi. Bundan sonra Azərbaycana yiyələnmək istəyən yadellilər arasında gedən müharibələr zamanı Dərbənd əldən-ələ keçirdi. 1509-cu ildə I Şah İsmayıl (1501-1524) Dərbəndi tutdu. Nəhayət, 1796-cı ildə V.A.Zubovun başçılığı ilə Rusiya qoşunu Dərbəndi tutdu. Gülüstan müqaviləsinə (1813) əsasən Dərbənd Rusiyaya verildi. **C.19**- 177; **C.28**-180.

**329. Dilruba Camalova,** Dilruba Cəbrayıl qızı Camalova (1938-2009) - 1993-2000-cu illərdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı, Respublika Qadın Problemləri Üzrə Dövlət Komitəsi sədrinin birinci müavini olmuşdur. **C.10-** 400, 402, 403.

**330. Dinmühəmməd Əhmədoviç Kunayev** (1912-1993) - Qazaxıstanın partiya və dövlət xadimi. Üç dəfə Sosialist Əməyi Qəhrəmanı, Qazaxıstan EA akademiki. 1964-1986-cı illərdə Qazaxıstan KP MK-nın birinci katibi olmuşdur. **C.10-** 76, 103, 105, 114, 115; **C.12-** 224.

**331. Dinamo** - Azərbaycanda ilk idman cəmiyyəti. Respublikada yayılmış bütün idman növlərinin inkişafında "Dinamo"nun mühüm rolu olmuşdur. Azərbaycan idmanının inkişafında Avropa, Dünya və Olimpiya oyunları çempionu olmuş dinamoçuların boyuk xıdmətı olmuşdur. **C.18**- 470-474; **C.27**-182.

**332. Dmitri Dmitriyeviç Şostakovic** (1906-1975) - böyük rus bəstəkarı, sənətşünaslıq elmləri doktoru-XX əsr dünya müsiqi sənətinin klassiki. Şostakoviçin yaradıcılığında simfonik musiqi başlıca yer tutur. Ən kamil əsərlərindən sayılan 7, 11, 12, 14, 15-ci simfoniyalarında həyat və ölüm mövzusu böyük emosionallıqla ifadə olunmuşdur. Bir çox dünya ölkələri-

nin milli, elm, incəsənət akademiyalarının fəxri üzvü olmuşdur. **C.18**- 278; **C.28**- 344.

**333. 416-cı Taqanroq diviziyası,** 416-cı Azərbaycan diviziyası - 1942-ci ilin mart-sentyabr aylarında Azərbaycanda yaradılmış milli diviziya. Taqanroq şəhərinin azad edilməsi uğrundakı döyüşlərdə göstərdiyi yüksək əsgəri xidmətə görə diviziyaya "Taqanroq" diviziyası fəxri adı verildi. Sovet İttifaqı marşalı D.K.Jukov diviziyanı Berlinə ilk yol açan hissələrdən biri adlandırmışdır. Diviziya Berlinin qapısı sayılan Küstrin şəhərinin alınmasında, Berlin əməliyyatında, Kayzer sarayının təmizlənməsində fəal iştirak etmişdir. **C.16**- 86.

**334. "907-ci maddə" -** ABŞ Konqresinin 1992-ci il oktyabrın 24-də erməni lobbisinin təzyiqi ilə qəbul etdiyi, "Rusiyanın və yeni müstəqillik qazanmış dövlətlərin azadlığını müdafiə aktı"na 907-ci düzəliş nəzərdə tutulur. Düzəliş ABŞ hökumətinin Azərbaycan hökumətinə yardımını qadağan edir. Buna baxmayaraq istər Bill Klinton, istərsə də ondan sonra ABŞ Prezidenti seçilən Corc Buş hökumətləri bu düzəlişin reallığı nəzərə almadığını təsdiq edərək onun ləğv edilməsi təklifini müdafiə etmişlər. C.Buş hökuməti 2002 və 2003-cü illər üçün bu düzəlişin fəaliyyətdən düşdüyünü qərara almışdır. **C.11**- 6, 23, 118, 158, 236, 237, 240; **C.12-** 122-123; **C.15**- 10, 35; **C.16**- 118, 119, 186; **C.17**- 125, 126, 127; **C.19**- 17, 18, 20, 37, 352, 448, 449, 451, 452, 457; **C.20**- 57, 58, 78, 88, 123, 138, 139, 157, 158, 159, 160, 162, 165, 213, 243, 246, 253, 286, 383, 400; **C.21**- 26; **C.23**- 153, 163, 235, 332, 334, 335, 336; **C.24**- 352, 446; **C.25-** 3, 67, 70, 71, 82, 99, 110, 111, 121, 123, 130, 134, 135, 141, 166, 167, 192, 308, 309; **C.27**- 143, 384, 385; **C.28**- 261, 262.

**335. "911" təcili yardım** mərkəzi - Çikaqo şəhərindəki təcili yardım, yanğın, polis və digər xidmətlər üzrə fəaliyyət göstərən mərkəz. Bütün operativ məlumatlar 3 min kompyuterin köməyi ilə lazımi ünvanlara çatdırılır. 140 dildə məlumat qəbul edə bilir. **C.11-** 368.

**336. Dövlət dillər,** yaxud Rus dili və Ədəbiyyatı İnstitutu. burada Bakı Dövlət Slavyan Universiteti nəzərdə tutulur. **C.15-** 39.

**337. Duxovnaya Lyudmila Semyonovna** (d.1944) - Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan Dövlət Rus Dram Teatrının aparıcı aktrisalarından biridir. "Qızıl dərviş" mükafatına layiq görülmüşdür. **C.12-** 360; **C.28-** 317, 320.

**338. Duma,** Dövlət Duması - 1906-ci ildə Rusiyada nümayəndəli qanunvericilik müəssisəsi. 17 oktyabr Manifesti əsasında yaradılmışdı. Burada qanunlar müzakirə edilərək Dövlət Şurasına təqdim edilir və çar tərəfindən təsdiq edilirdi. Duma 1917-ci il 6 oktyabra qədər fasilələrlə fəaliyyət göstərdi. 1993-cü il Rusiya Federasiyasının Konstitusiyasına əsasən Duma təzədən bərpa olundu. **C.20-** 217, 230; **C.21-** 152, 295; **C.22-** 383; **C.24-** 76, 270.

**339. Duş Santuş,** Joze Eduardu (d.1942) - Anqolanın Prezidenti və MPLA-nın sədri- 1975-ci ildən nazir vəzifələrində olmuşdur. Ordu generalıdır. Azərbaycan Neft və Kimya İnstitutunda (indiki Azərbaycan Neft Akademiyası) təhsil almışdır. **C.20-** 298, 299.

**340. Dünya Bankı** - BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton-Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial inkişafına kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. **C.10-** 25 159, 386; **C.11-** 8, 34, 81, 405; **C. 12-** 53, 66, 94, 378-380; **C.13-** 321, 464; **C.14-** 96, 271, 282, 302, 360; **C.16-** 126, 203, 204, 393, 394, 443; **C.17-** 275; **C.18-** 65, 322, 421, 481; **C.19-** 114, 287, 288, 289, 290, 292, 297, 299, 300; **C.20-** 133, 134, 183, 290-291; **C.21-** 57, 250, 345; **C.22-** 101, 130, 303; **C.23-** 327; **C.24-** 6, 9, 10, 15, 20, 57, 152, 231, 239, 256, 257, 258; **C.25-** 77, 96, 120, 144, 148, 280-283; **C.26-** 402; **C.27-** 267, 271, 351, 361, 395, 398.

**341. Dünya Səhiyyə Təşkilatı,** Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) - BMT-yə məxsus beynəlxalq dövlətlərarası təşkilat. 1946-cı ildə yaradılmışdır. Cenevrədə fəaliyyət göstərir. Nizamnaməsinə görə vəzifəsi ən təhlükəli xəstəliklərlə mübarizə, beynəlxalq sanitariya qaydalarının hazırlanması və s.-dir. **C.26-** 103-106.

**342. Ecvet Tezcan Qədri** (d.l949) - Türkiyə diplomatı. 1998-2001-ci illərdə Türkiyə Cümhuriyyətinin Azərbaycanda Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. **C.14-** 213-215; **C.20-** 356-364; **C.21-** 213-220.

**343. Edinburq** - Böyük Britaniyada, Şotlandiyanın əsas şəhəri. Mühüm nəqliyyat qovşağı. Edinburq haqqında ilk məlumat VI əsrə aiddir. II Yakovun vaxtında (1437-1460) Şotlandiyanın paytaxtına çevrildi. **C.16-** 446.

**344. Ehsan xan Kəngərli** (?-?) - Naxçıvanın sonuncu xanı. 1826-1828-ci illər Rusiya-İran müharibəsi zamanı Abbasabad qalası qarnizonunun hərbi rəislərindən biri olan Ehsan xan rusların tərəfinə keçmiş və qalanın alınmasında onlara kömək göstərmişdir. Azərbaycan şimali Rusiyaya birləşdirildikdən sonra general-mayor rütbəsi alan Ehsan xan İrəvan və Naxçıvan xanlıqlarının, Ordubad dairəsinin səlahiyyətli nümayəndəsi kimi Türkmənçay müqaviləsini (1828) imzalamışdır. Sonralar Krım müharibəsində (1853-1856) də vuruşmuş, "Müqəddəs Georgi" ordeni ilə təltif edilmişdir. Ehsan xan Kəngərlinin adı Kremlin "Georgi" salonunda qızılı hərflərlə yazılmışdır. **C.16-** 83.

**345. Ehud Barak** (d.1942) - İsrail hərbi və dövlət xadimi. 1991-1995-ci illərdə İsrail Baş ştabında rəis, 1999-2001-ci illərdə İsrailin Baş naziri olmuşdur. Azod partiyasının lideridir. **C.23-** 152-153, 330; **C.27-** 148.

**346. "Exo Moskvı" -** radiostansiya. 1990-cı ildə təşkil olunmuş və yarandığı vaxtdan müstəqil radio stansiyası kimi fəaliyyət göstərir. **C.10-** 284, 299.

**347. EKO** - İqtisadi Əməkdaşlıq Təşkilatı. Qərargahı Tehrandadır. 1992-ci ildən Azərbaycan Respublikası bu beynəlxalq

təşkilatın üzvüdür. **C.10**- 175, 176; **C.13**- 368; **C.20**- 235-236, 292, 294, 322; **C.27**- 52, 53, 54, 55, 57, 198, 200; **C.28**- 70-106.

**348. "Eksson" korporasiyası** - dünyada ən iri və ən qocaman sənaye müəssisələrindən biri. Mənzil-qərargahı Texas ştatının Dallas şəhərində yerləşir. 1882-ci ildə Con Rokfeller tərəfindən yaradılmışdır. Xaricdəki ilk filialı 100 il əvvəl təsis edilmişdir. Hazırda dünyanın 90-dan çox ölkəsində fəaliyyət göstərir. Korporasiyada 95 min adam işləyir. 18 ölkədə yerləşən 30 neftayırma müəssisəsinin tam və ya şərikli sahibidir. Neft məhsullarının gündəlik satışının həcmi 720 000 tondur. **C. 11**- 71, 120, 149, 196, 212, 223, 236, 245, 247, 256; **C.12**- 124, 191; **C.13**- 181; **C.18**- 301, 302; **C.20**- 70, 126, 141, 143, 145, 146, 149, 151, 161, 204, 208, 330, 352; **C.20**- 70, 126, 141, 143, 145, 146, 149, 151, 161, 204, 208, 330, 352; **C.24**- 100; **C.25**- 122, 145; **C.28**- 40.

**349. Ekstremizm** - siyasətdə ifrat tədbirlərə və baxışlara meyl. **C.23**- 132.

**350. Elbəy Rzaquliyev**, Elbəy Mirzə Həsən oğlu Rzaquliyev (1926-2007) - Azərbaycan boyakarı və kino rəssamı. Yaradıcılığında tarixi-inqilabi mövzular, əməyin tərənnümü, portretlər mühüm yer tutur. Elbəy Rzaquliyev kino rəssamı ("Görüş", "Ögey ana", Arşın mal alan", "Sevil", "Tütək") kimi də məşhurdur. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.16**- 69-70, 474; **C.17**- 160.

**351. Elçin Əfəndiyev,** Elçin İlyas oğlu Əfəndiyev (d. 1943) - Azərbaycan yazıçısı, ictimai və dövlət xadimi. Azərbaycan Respublikasının Xalq yazıçısı. Azərbaycan Yazıçılar Birliyinin katibi, Xaricdə Yaşayan Həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələri "Vətən" Cəmiyyətinin sədri, Azərbaycan Ali Sovetinin deputatı olmuşdur. 1993-cü ildən Azərbaycan Respublikası Baş Nazirinin müavinidir. İstanbul Yeddităpə Universitetinin (1993) "Fəxri doktoru" seçilmişdir. Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif edilmişdir. **C.13**- 9, 45-53, 64, 65, 70, 75; **C.15**- 102; **C.17**- 132, 133; **C.18**- 328,

331, 379; **C.19**- 77-78, 82, 130, 177, 435, 436; **C.25-** 329-344; **C.26-** 299-336; **C.28**- 310-322, 346.

**352. Eldar Aleksandroviç Ryazanov** (d.l927) - rus kinorejissoru, kinodramaturq. SSRİ Xalq artisti. Ryazanov filmlərinin süjeti real həyatla bağlı ekssentrik intriqalara əsaslanır. Əsasən satirik komediyalar və tragik komediyalar çəkir. Onun məşhur kinoları “Karnaval gecəsi” (1956) “Qusar balladası” (1962), “Avtomobildən qorun” (1966), “Taleyin istehzası, yaxud həmişə təmizlikdə” (1976), “İşdə sevgi macərası”dır (1977). **C.22**- 65.

**353. Eldar Həsənov,** Eldar Hümbət oğlu Həsənov (d.l955) - 1995-2000-ci illərdə Azərbaycan Respublikasının baş prokuroru olmuşdur. 2001-ci ildən Azərbaycan Respublikasının Rumıniyada Fövəladə və Səlahiyyətli səfiridir. **C.10-** 281; **C.15**- 240; **C.16-** 122; **C.18**- 186, 189, 190, 198; **C.25-** 348; **C.26-** 239-296.

**354. Eldar İbrahimov** (d.1945) - Azərbaycan Respublikası Milli Məclisinisin deputatı. 1993-cü ildə Naxçıvan MR Baş nazirinin birinci müavini, Dövlət İqtisad və Plan Komitəsinin sədri vəzifələrində işləmiqdir. **C.24**- 47.

**355. Eldar Quliyev**, Eldar Tofiq oğlu Quliyev (d.1941) - kinorejissoru. Azərbaycan Respublikasının Xalq artisti, Azərbaycan Dövlət mükafatı laureatı. **C.10**- 344; **C.13**- 127; **C.15-** 252; **C.19**- 125; **C.22**- 138; **C.28**- 319.

**356. Eldəgəzlər dövləti** - bax: Atabəylər dövləti.

**357. Eldəniz Zeynalov,** Eldəniz Məmməd oğlu Zeynalov (1937-2002) - kino və teatr aktyoru. Azərbaycan Milli Dram Teatrında çalışmışdır. Sonralar teatr, kıno, televiziya və radio tamaşalarında, “Mozalan” satirik kinojurnalında bir çox yadda qalan obrazlar yaratmışdır. Azərbaycan Respublikasının Xalq artısti və “Humay” mükafatı laureatıdır. **C.28**- 318, 320.

**358. Elf Agiten** - Fransada ən böyük şirkət. 80 ölkədə fəaliyyət göstərən 833 şirkətdən ibarətdir. Karbohidrogenlərin kəşfıyyatı, hasilatı və satışı, kimya və neft-kimya sənayesi, farmokologiya və kosmetologiya sahələri şirkətin əsas fəaliyyət istiqamətləridir. Elmi-tədqiqat fəaliyyətində 8 min elmi işçi

çalışır. **C.11-** 120, 204; **C.17**- 234; **C.20**- 463; **C.21**- 22, 53, 54, 379; **C.26-** 230; **C.27**- 252.

**359. Elman Rüstəmov,** Elman Sirac oğlu Rüstəmov (d.1952) - iqtisad elmləri namizədi. 1995-ci ildən Azərbaycan Mərkəzi Bankın İdarə Heyətinin sədridir. **C.18**- 190.

**360. Elmira Axundova,** Elmira Hüseyn qızı Axundova (d.1953) - publisist, "Literaturnaya qazeta"nın və "Azadlıq" (ABŞ) radiostansiyasının Azərbaycan üzrə xüsusi müxbiri. 1995-ci ildən Azərbaycan Prezidenti yanında əfvetmə komissiyasının üzvüdür. Həsən bəy Zərdabı mükafatı laureatı. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. Hal-hazırda Azərbaycan Respublikasının Milli Məclisinin deputatıdır**C.13**- 102, 103; **C.27**- 343.

**361. Elmira Qafarova,** Elmira Mikayıl qızı Qafarova (1934-1993) - Azərbaycanın siyasi və dövlət xadimi. Müxtəlif illərdə Respublikanın Maarif naziri, Xarici İşlər naziri, Nazirlər Soveti Sədrinin müavini, Azərbaycan Respublikası Ali Sovetinin Sədri kimi məsul vəzifələrdə çalışmışdır. **C.14**- 144.

**362. Elmira Şahtaxtinskaya,** Elmira Həbibulla qızı Şahtaxtinskaya (1930-1996) - rəssam. Azərbaycan Respublikasınn Xalq rəssamı və Əməkdar incəsənət xadimi. H.B.Şahtaxtinskinin qızıdır. Plakat və dəzgah rəsmlərinin müəllifidir. 70-ci illərdə çəkdiyi "Azərbaycan qədim mədəniyyət diyarıdır" plakat silsiləsində Azərbaycanın orta əsrlərdə yaşayıb yaratmış elm və mədəniyyət xadimlərinin (N.Tusi, M.Gəncəvi, İ.Nəsimi, M.Füzuli, Ə. Naxçıvani, S.Məhəmməd v.b.), 70-80-ci illərdə isə müasir sənətkarların (Ü. Hacıbəyov, H.Cavid, S.Vurğun, S.Bəhlulzadə, Q.Qarayev, F.Əmirov və b.) portretlər qalereyasını yaratmışdır. **C.19**- 278, 279; **C.25-** 314.

**363. Emil Konstantinesku** (d.1939) - Rumıniyanın siyasi və dövlət xadimi. 1992-1996-cı illərdə Buxarest universitetinin rektoru. 1996-cı ildən Rumıniya Respublikasının Prezidentidir. **C.12**- 309-310; **C.15**- 447-448; **C.16**- 135-166, 209, 211; **C.18**- 405; **C.28**- 127, 133.

**364. Emin Sabitoğlu,** Mahmudov Emin Sabitoğlu (1937-2000) - tanınmış bəstəkar, professor. Azərbaycanın Xalq artisti. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.13**- 389; **C.17**- 156.

**365. Eni-Acip** - İtaliyanın neft şirkətlərindən biri. Neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. **C.14**- 398, 403, 427; **C.16**- 6; **C.19-** 440; **C.23-** 165; **C.25-** 170; **C.28-** 136.

**366. Entoni (Toni) Leyk** - 1939-cu ildə Nyu-Yorkda anadan olmuşdur. 1961-ci ildə Harvard universitetini (bakalavr), 1969-cu ildə Prinston universitetini bitirmişdir. 1963-1965-ci illərdə Vyetnamda vitse-konsul, 1969-1970-cı illərdə ABŞ Prezidentinin Milli Təhlükəsizlik Məsələləri üzrə müşaviri, H.Kissincerin köməkçisi işləmişdir. 1974-cü ildə Prinston universitetində elmlər doktoru dərəcəsi almışdır. 1977-1981-ci illərdə Dövlət Departamentində siyasi planlaşdırma idarəsinin direktoru işləmişdir. 1981-1984-ci illərdə Amherst kollecinin, 1984-1992-ci illərdə Holok kollecinin beynəlxalq əlaqələr üzrə professoru olmuş, 1992-1997-ci illərdə Prezidentin Milli Təhlükəsizlik Məsələləri üzrə köməkçisi işləmişdir. Bir neçə kitabın müəllifidir. **C.11-** 116, 124.

**367. Estoniya,** Estoniya Respublikası - Şərqi Avropada dövlət. Sahəsi 45,2 min $km^2$, əhalisi 1492 min nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı-Seymdir. Paytaxtı Tallindir. **C.25-** 182.

**368. Etibar Məmmədov**, Etibar Salidar oğlu Məmmədov (d.1955) - Azərbaycan Milli İstiqlal partiyasının sədri. 1990-1995 və 1995-2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. **C.13**- 39; **C.14**- 73, 86; **C.18**- 27, 40; **C.24**- 47.

**369. Ey-Bi-Si,** Amerikan Brodkastinq Kompani - ABŞ-ın ümummilli teleradio kompaniyalarından biri. Əsası 1943-cü ildə Vaşinqtonda qoyulmuşdur. **C.21**- 100.

**370. Eynşteyn Albert** (1879-1955) - dahi alman nəzəriyyəçi-fiziki. Müasir fizikanın yaradıcılarından biri. Mühüm əsərləri molekulyar fizika, statistik fizika, kvant nəzəriyyəsi sahə-

sindədir. Eynşteyn broun hərəkətinin nəzəriyyəsini vermiş və bu nəzəriyyə sonralar materiyanın atomistik quruluşunu təsdiq edən təcrübələr aparmağa imkan vermişdir.

Eynşteynin ən mühüm elmi nailiyyəti - nisbilik nəzəriyyəsidir. Bu ona dünya şöhrəti qazandırmışdır. Eynşteyn ümumi nisbilik nəzəriyyəsini inkişaf etdirərək vahid sahə nəzəriyyəsi yaratmağa cəhd göstərmişdir. Nobel mükafatı laureatı. **C.28-** 319.

**371. Əbdu Diufa** (d.1935) - Seneqalın Prezidenti. 1981-ci ildən iqtidar partiyası-Seneqal Sosialist Partiyasının Baş katibidir. **C.26-** 111.

**372. Əbdüləzəl Dəmirçizadə,** Əbdüləzəl Məmməd oğlu Dəmirçizadə (1909-1979) - dilçi. Filologiya elmləri doktoru, professor. Azərbaycan MEA-nın müxbir üzvü. Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Azərbaycan ədəbi dili tarixinə, müasir Azərbaycan dilinin fonetikasına, üslubiyyatına və etimologiyaya dair əsərlərin müəllifidir. **C.19-** 172; **C.26-** 362.

**373. Əbdüləziz əl-Səud,** Fəhd ibn Əbdüləziz əl-Səud (d. 1922) - 1982-ci ildən iki müqəddəs ocağın xidmətçisi və Səudiyyə Ərəbistanının Kralıdır. Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif olunmuşdur. **C.15-** 127-130.

**374. Əbdülqadir Maraği,** Əbdülqadir ibn Qeybi əl-Hafiz əl-Maraği (1353-1435) - Azərbaycan musiqi nəzəriyyəçisi, bəstəkar və xanəndə. Əbdülqadir Maraği məqam və ritmlərin quruluşunu izah etmiş, orta əsr musiqişünaslığında ilk dəfə olaraq 12 əsas məqamdan törəmə, 24 şöbə sistemini elmi cəhətdən əsaslandırmış,dövrünün musiqi formalarının təsvirini vermişdir.Ə.Marağinin elmi və musiqi yaradıcılığı Yaxın və Orta Şərq musiqi mədəniyyətinin inkişafına böyük təsir göstərmişdir. **C.15-** 93, 94.

**375. Əbdürrəhimbəy Haqverdiyev,** Əbdürrəhimbəy Əsəd oğlu Haqverdiyev (1870-1933) - Azərbaycan yazıçısı, dramaturq, ictimai xadim, Əməkdar incəsənət xadimi. Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasının ilk tamaşasının

dirijoru Ə.Haqverdiyev olmuşdur. Haqverdiyevin dramaturgiyası Azərbaycan teatrının inkişafında mühüm rol oynamışdır. Ədibin məzmunca zəngin, forma və bədii sənətkarlıq cəhətdən kamil hekayələri Azərbaycan nəşrinin inkişafına güclü təsir göstərmişdir. **C.17**- 189.

**376. Əbdürrəhman Vəzirov,** Əbdürrəhman Xəlil oğlu Vəzirov (d.l930) - 1988-1990-cı ilin yanvarınadək Azərbaycan KP MK-nın birinci katibi olmuşdur. **C.10-** 345, 346; **C.12-** 88, 89, 162; **C.14**- 128, 144; **C.21**- 86; **C.23**- 99; **C.24**- 53; **C.28**- 272.

**377. Əbülfət Əliyev,** Əbülfət Əsəd oğlu Əliyev (1926-1990) - Azərbaycan müğənnisi. Azərbaycan Respublikasının Xalq artisti. Ə.Əliyev məlahətli, xoş tembrli səsə, incə lirizmə malik ifa tərzi olan sənətkar olmuşdur. **C.17**- 191.

**378. Əbülfəs Qarayev,** Əbülfəs Mürsəl oğlu Qarayev (d.1956) - ictimai və siyasi xadim, fəlsəfə elmləri namizədi. Sov.İKP MK yanında İctimai Elmlər Akademiyasını bitirmişdir. 1994-cü ildən 2006-cı ilədək Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006-cı ildən Azərbaycanın Mədəniyyət və Turizm naziridir. Respublika Olimpiya Komitəsinin birinci vitse-prezidentidir. **C.19**- 219; **C.24**- 420-432; **C.26-** 234.

**379. Əbülfəz Elçibəy,** Əliyev Əbülfəz Qədirqulu oğlu (1938-2000) - Azərbaycanın siyasi və dövlət xadimi. 1989-cu ildə yaradılan AXC-nin, sonralar AXCP-nin sədri. Azərbaycanın müstəqilliyi uğrunda xalq hərəkatının öndərlərindən biri. 1992-1993-cü illərdə Azərbaycan Respublikasının Prezidenti olmuşdur. **C.10-** 343; **C.12-** 88, 90, 93; **C.13**- 18, 43, 44, 350, 365; **C.14**- 153, 154, 207, 208; **C.15**- 157, 158; **C.17**- 27, 67-70, 82-83, 84; **C.18**- 238, 239; **C.20**- 323; **C.21**- 87; **C.22**- 211, 281, 282, 283; **C.23**- 85; **C.25-** 353, 420; **C.28**- 85, 86, 88, 273.

**380. Əbülhəsən** Ələkbərzadə, Əbülhəsən Əlibaba oğlu Ələkbərzadə (1906-1986) - Azərbaycanın Xalq yazıçısı. Azərbaycan nəsrinin görkəmli nümayəndələrindəndir. "Müharibə" roman - epopeyasında Azərbaycan xalqının Böyük Vətən

müharibəsində ön və arxa cəbhələrdə fədakarlığı və vətənpərvərliyi təsvir olunur. **C.13**- 70, 125.

**381. Əbülqazi Bahadır xan** (1603–1663) - Xivə xanı, tarixçi, şair. Urgənc hökmdarı Ərəb Məhəmməd xanın oğlu, 1643-cü ildə Aral özbəklərinin, 1644-cü ildən isə Xivənin xanı olmuşdur. Əbülqazinin "Şəcərəyi tərakimə" (1659) və "Şəcərəyi türk" (1663) əsərlərində bir sıra türk xalqlarının tarixi haqqında qiymətli məlumat, həmçinin xalq əfsanələri, rəvayətlər, atalar sözü və s. verilmişdir. **C.26-** 318.

**382. Əcəmi Əbubəkr oğlu** Naxçıvani (XII əsrin 20-ci illəri-XII əsrin sonu) - orta əsr Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi. O, Naxçıvanda Yusif ibn Küseyir türbəsini, Mömünə xatun türbəsini, böyük Cümə məscidini və mənbələrdə "Darülmülk" adlandırılan Eldəgəzlər sarayını yaratmışdır. **C.14**- 5; **C.18-** 153; **C.22**- 262, 267-271; **C.25-**311; **C.26-** 350.

**383. "Ədəbiyyat qəzeti"** - həftəlik qəzet. 1934-cü ildən çıxır. Azərbaycan Yazıçılar Birliyinin orqanı. 1953-cü ildən "Ədəbiyyat və incəsənət" adı ilə çıxmışdır. Qəzetdə Azərbaycan və xarici ölkə yazıçılarının əsərləri, ədəbiyyat və incəsənət problemlərinə dair məqalələr, publisistik yazılar dərc olunur. **C.13**- 8, 24, 50, 52, 68, 73, 75, 90, 226.

**384. Əfrasiyab Bədəlbəyli,** Əfrasiyab Bədəl oğlu Bədəlbəyli (1907-1976) - Azərbaycan bəstəkarı, dirijor, musiqişünas. Azərbaycan Respublikasının Xalq artisti. Ə.Bədəlbəyli milli Azərbaycan baleti - "Qız qalası"nın müəllifidir. **C.17**- 192; **C.26-** 437-440.

**385. Əhliman Əmiraslanov**, Əhliman Tapdıq oğlu Əmiraslanov (d.l947) - cərrah-onkoloq, tibb elmləri doktoru, professor. AMEA-nın akademik-katibi. Əməkdar elm xadimi. SSRİ Dövlət mükafatı laureatı, RF Təbiət Elmləri Akademiyasının üzvü seçilmişdir. 1992-ci ilə kimi SSRİ TEA-nun ÜOE MD-də işləyib. 1992-ci ildən N.Nərimanov adına ATU-nun rektorudur. Klinik onkologiya sahəsində tədqiqatlar aparır. "Onkologiya", "Sümük şişləri", "Bədxassəli sümük şişlərinin

xüsusi müalicəsinin proqnozları" kitablarının müəllifidir. **C.28**- 204.

**386. Əhməd bəy Ağayev** (Ağa oğlu), Əhməd bəy Mirzə Həsən oğlu Ağayev (1869-1939) - Azərbaycanda türkçülük hərəkatı ideoloqlarından biri. Görkəmli ictimai-siyasi xadim, publisist, hüquqşünas, şərqşünas-islamşünas alim. O, "Nicat", "Nəşri-maarif", "Səfa" xeyriyyə cəmiyyətlərinin təşkilində və fəaliyyətində yaxından iştirak etmişdir. XX əsrin 20-ci illərində Türkiyənin dövlət mətbuat bürosunun müdiri təyin edilən Əhməd bəy 2 dəfə Türkiyə Böyük Millət Məclisinə deputat seçilmiş, Ankara Universitetinin professoru olmuşdur. Sovet dönəmində ona qatı "panislamist", "pantürkist" damğası vurularaq adı və əsərləri qadağan edilmişdi. Həyatının və əsərlərinin geniş surətdə öyrənilməsinə son illərdə başlanılmışdır. İstanbul şəhərində vəfat etmişdir. **C.15**- 391; **C.27**- 369.

**387. Əhməd Cavad,** Axundzadə Cavad Məmmədəli oğlu (1892-1937) - şair. Yaradıcılığında mücərrəd romantizm əsas yer tutur. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. **C.10**- 360; **C.12**- 140; **C.13**- 125; **C.26**- 18.

**388. Əhməd Əhmədzadə,** Əhməd Cuma oğlu Əhmədzada (d.1945) - mühəndis hidrotexnik. 1993-cü ildən Azarbaycan Respublikası Nazirlər Kabineti yanında Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədridir. **C.27**- 278-292.

**389. Əhməd Necdət Sezər** (d.1941) - 2000-2007-ci illərdə Türkiyə Prezidenti. 1962-1983-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır.1993-cü ildə Türkiyə Kassasiya Məhkəməsinin, 1988-ci ildə isə Türkiyə Konstitusiya Məhkəməsinin üzvü seçilib. 1998-2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. **C.27**- 68, 207, 402; **C.28**- 44.

**390. Əjdər Xanbabayev,** Əjdər Rza oğlu Xanbabayev (1931-1990) - naşir, ictimai xadim. Azərbaycan Dövlət Nəşriyyatı "Azərnəşr"in direktoru olmuşdur. 1990-cı ildə Azərbaycanın müstəqilliyinin və suverenliyinin düşmənləri tərəfindən xaincəsinə qətlə yetirilmişdir. **C.10**- 353, 354; **C.22**- 67.

**391. Əjdər İbrahimov,** Əjdər Mütəllim oğlu İbrahimov (1919-1992) - kinorejissor və ssenarist. SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, Azərbaycan və Türkmənistan Respublikalarının Əməkdar incəsənət xadimi. Kino yaradıcılığına 1952-ci ildən Aşqabad kinostudiyasında başlamışdır. 1952-1959-cu illərdə Bakı kinostudiyasında fəaliyyət göstərmiş, "Bir məhəlləli iki oğlan" (1957, İ.Qurinlə birgə) "Onun böyük ürəyi" bədii filmlərini çəkmişdir. 1962-ci ildən isə "Mosfilm" kinostudiyasının rejissoru olmuşdur. **C.22**- 144.

**392. Əkinçi** - Azərbaycanda ilk milli qəzet. 1875-1877-ci illər Bakıda (iki həftədən bir) nəşr edilmişdir. İlk nömrəsi 1875-ci il iyulun 22-də çıxmışdır. Cəmi 56 nömrə (1875-ci ildə 12, 1876-cı ildə 24, 1877-ci ildə 20) buraxılmışdır. Azərbaycanda dövri mətbuatın başlanğıcı sayılan "Əkinçi"nin banisi, redaktoru, naşiri, korrektoru, bəzən də mürəttibi H.Zərdabi olmuşdur. "Əkinçi" elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriyyətinə aid materiallar dərc edirdi. "Əkinçi"nin ətrafına toplaşmış mütərəqqi ziyalılardan M.F.Axundov, S.Ə.Şirvani, Nəcəf bəy Vəzirov, Ə.Gorani və başqaları qəzetdə fəal iştirak etmiş, ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər. Çar senzurası tərəfindən təqib olunan "Əkinçi"nin nəşri 1877-ci ilin sentyabrında dayandırılmışdır. **C.26-** 87, 88, 91.

**393. Əkrəm Əylisli,** Əkrəm Nəcəf oğlu Naibov (d.1937) - Azərbaycanın Xalq yazıçısı. Azərbaycan komsomolu mükafatı laureatı, M.F.Axundov mükafatı laureatı. **C.10-** 342; **C.13**- 14-17, 18, 23, 48, 50, 70, 73, 78, 306; **C.17**- 154; **C.22**- 261, 263; **C.22**- 261, 263;

**394. Əl-Fərabi,** Fərabi Əbu Nəsr Məhəmməd ibn Məhəmməd (870-950) - Şərq filosofu, ensiklopediyaçı alim. Fərabi Aristotelin, Ptolemeyin əsərlərini şərh etmiş, orta əsr müsəlman Şərqində Aristoteldən sonra "ikinci müəllim" fəxri adını almışdır. **C.10-** 69, 107, 108, 123, 131, 203.

**395. Ələkbər Məmmədov,** Ələkbər Əmir oğlu Məmmədov (1930) - Azərbaycan futbolçusu, Əməkdar idman ustası, dörd dəfə SSRİ çempionu olmuşdur. Futbol üzrə Avropanın ilk kubokunu alan SSRİ yığma komandasının (1958) heyətində çıxış etmişdir. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.17**- 137; **C.24**- 324.

**396. Ələkbər Rzaquliyev**, Ələkbər Ələsgər oğlu Rzaquliyev (1903-1974) - Azərbaycan boyakarı və qrafiki. Yaradıcılığının erkən dövründə inqilabdan əvvəlki Azərbaycan məişətinin xarakterik səhnələri təsvir olunan boyakarlıq əsərləri çəkmişdir. Ə.Rzaquliyev qrafika sahəsində daha geniş fəaliyyət göstərmiş və misli-bərabəri olmayan linoqravüralar yaratmışdır. **C.16**- 474.

**397. Ələsgər Ələkbərov**, Ələsgər Hacağa oğlu Ələkbərov (1910-1963) - aktyor. SSRİ Xalq artisti. Yaradıcılığı Azərbaycan teatrının və kinosunun inkişafında mühüm rol oynamışdır. **C.10-** 55; **C.13**- 303; **C.17**- 190; **C.18-** 18; **C.19**- 173; **C.26-** 85; **C.27**- 94, 96, 124.

**398. Əli Əhmədov,** Əli Cavad oğlu Əhmədov (d.1953) - fəlsəfə elmləri namizədi. 1999-cu ildən YAP-ın icraçı katibi. 2005-ci ildən isə YAP-ın sədr müavini və icraçı katibidir. 2000-ci ildən Milli Məclisin üzvüdür. **C.24**- 75; **C.27**- 90.

**399. Əli Həsənov,** Əli Şamil oğlu Həsənov (d.1948) - mühəndis-mexanik, politoloq. 1998-ci ildən Azərbaycan Respublikası Baş Nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin sədridir. 1996-2000-ci illərdə Milli Məclisin üzvü olmuşdur. **C.18**- 339; **C.19**- 28; **C.24**- 102; **C.25-** 257; **C.26-** 232, 235; **C.27**- 220, 225, 230, 232, 387; **C.28**- 48.

**400. Əli Kərim,** Əli Paşa oğlu Kərimov (1931-1969) - istedadlı Azərbaycan şairi. Ə.Kərim əsasən, gənc nəslin mənəvi əxlaqi zənginliyini, vətənpərvərliyi tərənnüm etmişdir. **C.13-** 70.

**401. Əli Nağıyev** (d.1954) - Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri (1996), I çağırış

Milli Məclisinin deputatı olmuşdur.Azərbaycan Respublikasının Belorus Respublukasında səfiridir. **C.13**- 204; **C.16**- 121; **C.18**- 189, 198; **C.19**- 83; **C.21**- 310, 317, 318, 337; **C.22**- 175; **C.24**- 71, 74.

**402. Əli Nəzmi** (Əli Məmmədzadənin təxəllüsü) (1878-1946) - Azərbaycan şairi, XX əsr realist Azərbaycan ədəbiyyatının, "Molla Nəsrəddin" ədəbi məktəbinin görkəmli nümayəndələrindən biri. Satirik əsərlərini "Məşədi Sijimqulu", "Kefsiz" və s. gizli imzalarla yazmışdır. Şeirlərində çarizmin müstəmləkəçilik siyasətini, polis idarələrində süründürməçiliyi, gerilik və ətaləti kəskin satira atəşinə tutmuşdur. **C.26-** 89.

**403. Əli Səlimi** (1923-1992) - görkəmli Azərbaycan bəstəkarı, sənətşünaslıq elmləri doktoru. 1930-cu illərdə ailəsi ilə birlikdə Bakıdan İrana getmişdir. 1952-ci ildə Tehranda, 1978-ci ildə isə Təbrizdə ilk Azərbaycan xalq çalğı alətləri orkestrini yaratmışdır. 1972-ci ildə YUNESKO-da görkəmli Azərbaycan bəstəkarı adına xüsusi stend açılmışdır. Bəstəkarın 100-ə qədər mahnısı var. Onların içərisində" Ayrılıq" mahnısı xüsusi yer tutur. **C.21**- 173.

**404. Əli Sultanlı,** Əli Abdulla oğlu Sultanlı (1906-1960) - ədəbiyyatşünas, pedaqoq. Filologiya elmləri doktoru, professor. Azərbaycanda xarici ədəbiyyat üzrə ali məktəb kursunun yaradılmasında Ə.Sultanlının mühüm xidməti var. Azərbaycan dilində antik, Orta əsrlər və Penessans dövrü ədəbiyyatına dair ilk müntəxabatların və dərsliklərin müəllifidir. **C.26-** 362.

**405. Əli Vəliyev,** Əli Qara oğlu Vəliyev (1901-1983) - Azərbaycanın Xalq yazıçısı. M.F.Axundov adına Respublika mükafatı laureatı. Əli Vəliyev, həm də görkəmli jurnalist və publisist olmuşdur. **C.13**- 125.

**406. Əli Zeynalov,** Əli Yusif oğlu Zeynalov (1913-1988) - aktyor, Azərbaycan Respublikasının Xalq artisti. M.F. Axundov adına Respublika mükafatı laureatıdır. Ə.Zeynalovun yaradıcılığı üçün psixoloji dolğunluq, emosionallıq səciyyəvidir. **C.17**- 190.

**407. Əliağa Ağayev,** Əliağa İsmayıl oğlu Ağayev (1913-1983) - aktyor, Azərbaycan Respublikasının Xalq artisti. 1962-ci ildən ömrünün sonuna kimi Azərbaycan Dövlət Milli Dram Teatrının aktyoru olmuşdur. İncə yumor və şirin danışıq, mənalı gülüş Ə.Ağayev yaradıcılığı üçün səciyyəvi olmuşdur. Bir sıra kinofılmlərdə də çəkilmişdir. **C.17**- 190.

**408. Əliağa Kürçaylı,** Əliağa Həsənağa oğlu Kürçaylı (1928-1980) - şair. Azərbaycan Dövlət mükafatı laureatı. "Durnalar cənuba uçur", "Həyatın dolayları", "Dünya ovcumdadır", "Bütövlük" şeir və poema kitablarının, "Nənəmin şahlıq quşu", "Boşanaq evlənək" müsiqili komediya tamaşalarının librettolarının müəllifidir. **C.23**- 321.

**409. Əliağa Şıxlinski**, Əliağa İsmayılağa oğlu Şıxlinski (1865-1943) - hərbi xadim, artilleriya general-leytenantı. Peterburqda artilleriya məktəbini bitirmişdir. Rusiya-Yaponiya müharibəsində (1904-1905) Port-Arturun müdafiəsində göstərdiyi igidliyə görə qızıl qılıncla mükafatlandırılmışdır. 1908-ci ildə polkovnik, 1912-ci ildə isə general-mayor rütbəsi almışdır. Birinci Dünya müharibəsində (1914-1918) Petroqradın artilleriya müdafiəsi Şıxlinskiyə tapşırılmışdı. Şıxlinski Nikolay ordusunda "artilleriyanm allahı" hesab olunurdu. 1920-ci ildə Azərbaycan SSR Xalq Hərbi və Dəniz İşləri komissarının müavini işləmişdir. 1929-cu ildə istefaya çıxmışdı. **C.16**- 83, 84, 85.

**410. Əlibəy Hüseynzadə,** Əlibəy Hüseyn oğlu Hüseynzadə (1864-1940) - Azərbaycan yazıçısı, jurnalist, filosof, tərcüməçi, ictimai xadim. Rusiyada 1905-1907-ci illər inqilabının təsiri ilə çarizmi, feodal-patriarxal geriliyi, Şərq istibdadını, ətaləti və dini mövhumatı tənqid edən Ə.Hüseynzadə Azərbaycanda burjua ideologiyasının başçılarından biri, "Füyuzatçılar" ədəbi-fəlsəfi cərəyanının əsas nəzəriyyəçisi olmuşdur. Fəaliyyətində "türkləşmək, islamlaşmaq, müasirləşmək" şüarına əsaslanırdı. **C.15**-391; **C.26-** 88; **C.27**- 369.

**411. Əlikram Hümbətov,** Əlikram Ələkbər oğlu Hümbətov - 1993-cü ildə Azərbaycan Respublikasını parçalamaq

məqsədilə qanunsuz hərbi qruplaşmaya rəhbərlik etmiş, qondarma "Talış-Muğan Respublikası"nı yaratmaq cəhdi göstərmişdir. **C.10-** 351; **C.12-** 90, 91; **C.14-** 208, 264; **C.21**- 333; **C.22**- 214, 282.

**412. Əliqulu Qəmküsar,** Əliqulu Ələkbər oğlu Qəmküsar (1880-1919) - Azərbaycan şairi, jurnalist. Qəmkusar Azərbaycan ədəbiyyatı tarixinə Molla Nəsrəddinçi şair kimi daxil olmuşdur. Məhz "Molla Nəsrəddin" ədəbi mühitinin ən qabaqcıl nümayəndələrindən olan Qəmkusar 1906-cı ildən "Cüvəllağı", "Cüvəllağıbəy", "Simurq" və s. imzalarda dərc etdirdiyi satirik şeir və felyetonlarda fanatizmi, geriliyi, cəhaləti kəskin satira atəşinə tutmuşdur. **C.26-** 89.

**413. Əlimərdan bəy Topçubaşov** (1865-1934) - Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri. Görkəmli hüquqşünas, ictimai-siyasi və dövlət xadimi, diplomat. 1917-1920-ci illərdə Bakı Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin sədri, Azərbaycan parlamentinin sədri. Paris (Versal) sülh konfransında Azərbaycan nümayəndə heyətinin başçısı olmuşdur. 1934-cü ildə Parisdə vəfat etmişdir. **C.10-** 7; **C.12-** 42; **C.15**- 25, 394; **C.16-** 236, 262-263; **C.17**- 214; **C.20-** 281; **C.22-** 383; **C.24**- 369; **C.26-** 88; **C.27**- 369.

**414. Əlincəqala,** Əlincə, Alancik, Alıncaqala-Naxçıvan MR - də qala. Əlincə çayın sağ sahilində və eyniadlı dağın zirvəsindədir. Əlincənin adını tədqiqatçılar qədim türk dılində düzənlik mənasında işlədilən "alan" sözü ilə bağlayırlar. Əlincənin tikilmə tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Bəzi tədqiqatçılar qalanı təqribən 2 min il bundan əvvələ aid edir, digərləri isə Sasani padşahları zamanından (3-7-ci əsrlərdə) məlum olduğunu söyləyirlər. Əlincənin divarları Əlincə dağlarının ətəklərindən başlayaraq pillələr şəklində yuxarıya doğru ucalır və onun zirvəsini tamamilə əhatə edir.

Azərbaycan atabəyləri-Eldəgəzlərin hökmranlığı dövründə Əlincə qalanın əhəmiyyəti xüsusilə artmış, mühüm hərbi istehkam olan qala hökmdar ailəsinin təhlükəsizliyini təmin etmək üçün sığınacaq yerinə çevrilmişdi. **C.22**- 192.

**415. Əliş Ləmbəranski,** Əliş Cəmil oğlu Ləmbəranski (1914-1999) - inşaatçı-mühəndis, dövlət xadimi. Ləmbəranski müxtəlif illərdə Azərbaycan SSR Neft Sənayesi nazirinin müavini, Bakı Şəhər ZDS İcraiyyə Komitəsinin sədri, SSRİ Nazirlər Soveti yanında Mikrobiologiya Sənayesi Baş İdarəsi rəisinin birinci müavini, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin müavini vəzifələrində işləmişdir. Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. SSRİ Dövlət mükafatı laureatı idi. **C.14**- 14; **C.18**- 19, 20.

**416. Əlişir Nəvai,** Nizaməddin Mir Əlişir (1441-1501)- özbək şairi, mütəfəkkir, dövlət xadimi. Özbək dilində "Xəmsə" yaradaraq Nizami ədəbi məktəbinin ən görkəmli davamçılarından biri kimi Yaxın Şərqdə şöhrət qazanmışdır. **C.10**- 192, 199, 202; **C.26-** 151.

**417. Əlizadə Ağa Cavad** oğlu (1871-1954) - burada 2 dəfə (1918-1920, 1944-1954) Qafqaz Müsəlmanları Ruhani İdarəsinə rəhbərlik etmiş görkəmli maarifçi, ruhani və ictimai xadim, Şeyxülislam Ağa Cavad oğlu Əlizadə nəzərdə tutulur. **C.21**- 133.

**418. Əlövsət Sadıqov,** Əlövsət Şirəli oğlu Sadıqov (1906-1971) - xanəndə. Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. Ə.Sadıqov güclü zil səsə, gözəl zəngulələrə malik sənətkar idi. **C.17**- 191.

**419. Əlyazmalar İnstitutu -** Azərbaycan və Şərq ölkələrinə aid qədim, nadir əlyazmalar saxlanılan və tədqiq edilən elmi idarə. 1928-ci ildə təsis edilmişdir. İnstitutda Azərbaycan, ərəb, fars, türk, özbək, türkmən, gürcü, rus və başqa dillərdə 40 mindən artıq tarixi sənəd, nadir əlyazmalar, qədim çap kitabları toplanmışdır. İnstitutda saxlanılan ən qədim əlyazma (perqament üzərində qədim kufi əlifbası ilə yazılmış Quran surəsi) 1200 illk tarixə malikdir. **C.26-** 107-108.

**420. Əminə Dilbazi,** Əminə Paşa qızı Dilbazi (d.1919) - rəqqasə, baletmeyster və pedaqoq. Azərbaycanın Xalq artisti. 1935-ci ildən rəqqasəlik fəaliyyətinə başlamışdır. 1936-1969-cu illərdə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoni-

yası Mahnı və Rəqs Ansamblının solisti, 1939-cu ildən isə həm də müxtəlif rəqs qruplarının rəhbəri olmuşdur. Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif olunmuşdur. **C.18-** 209; **C.24-** 104-105.

**421. Əmir Teymur,** Teymurləng, Topal Teymur (1336-1405) - Orta Asiya dövlət xadimi, sərkərdə, əmir. Teymurilər imperiyasının başçısı. 1386-1400-cü illərdə dəfələrlə Azərbaycana yürüşlər etmişdir. **C.10-** 167, 192; **C.16-** 15; **C.19-** 169, 434; **C.26-** 151.

**422. Əmiri-Gur,** Gur-Əmir - Orta Asiyanın görkəmli abidələrindən biri. Səmərqənddə XV əsrin əvvəllərinə aid türbə. Teymurun əmrilə tikilmişdir. 1420-ci illərdə Uluqbəy tərəfindən genişləndirilmişdir. Teymur, Uluqbəy və b. Teymurilər burada dəfn olunmuşlar. **C.10-** 193.

**423. Ənvər Məmmədxanlı,** Ənvər Qafar oğlu Məmmədxanlı (1913-1990) - istedadlı Azərbaycan yazıçısı, nasir, dramaturq. Məmmədxanlının hekayələri Azərbaycan ədəbiyyatında lirik-romantik nəsrin inkişafında mühüm rol oynamışdır. Onun ssenariləri əsasında ("Bəxtiyar", "Fətəli xan", Mehdi Hüseynlə birlikdə "Məhəbbət dastanı", "Leyli və Məcnun", "Babək") bədii filmləri çəkilmişdir. **C.13-** 70.

**424. Ənvər Paşa** (1881-1922) - Türkiyə hərbi və siyasi xadimi. 1918-1919-cu illərdə Bakının və Qarabağın erməni işqalçılarından xilas edilməsində şəxsən istirak etmişdir. Ənvər Paşa 1922-ci ilin yazında Orta Asiyada basmaçılarla birlikdə sovet hakimiyyətinə qarşı vuruşmuş və qəhrəmancasına döyüşdə həlak olmuşdur. **C.22-** 241.

**425. Ərəblinski Balakişi** (1818-1902) - general-leytenant. B.Ərəblinski Peterburqdakı kadet korpusunu bitirmişdir. Müxtəlif hissələrdə qüsursuz xidmət edən Ərəblinski gənc ikən, podpolkovnik rütbəsində briqada komandiri kimi məsul vəzifəyə irəli çəkilmişdir. Sonralar diviziya komandiri olan general-leytenant B.Ərəblinski o vaxt Rusiyanın apardığı bütün hərbi döyüşlərdə iştirak etmişdir. Ərəblinski yazılı qılınc və 1-

ci dərəcəli "Müqəddəs Stanislav", "Müqəddəs Anna" ordenləri ilə təltif olunmuşdur. **C.16-** 83.

**426. Əsgər ağa Gorani,** Adıgözəlov Əsgər ağa Haqverdi ağa oğlu (1857-1910) - Azərbaycan yazıçısı, maarifçi, publisist, teatr xadimi və ictimai xadim. H.Zərdabi, N.Vəzirov və b. ilə yanaşı, Azərbaycan milli teatrının yaranmasında xidmətləri var. Gorani "Əkinçi" qəzetinin nəşrində fəal iştirak etmişdir. **C.26-** 87.

**427. Əsgər Akayev** (d.1944) - Qırğızıstanın siyasi və dövlət xadimi, fizik, akademik. 1989-1990-cı illərdə Qırğızıstan EA-nın prezidenti, 1990-2005-ci illərdə Qırğızıstan Respublikasının Prezidenti olmuşdur. **C.16-** 25; **C.19-** 69, 78, 349; **C.21-** 187; **C.24-** 281-297; **C.26-** 145, 156-182, 265, 285.

**428. Əsrin müqaviləsi** - 1994-cü il sentyabrın 20-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə.

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici ölkələrin aparıcı neft şirkətləri arasında üç il davam edən danışıqlardan sonra 1994-cü ildə Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay şəklində bölüşdürülməsi haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə "AMOKO Kaspian Si Petroleum Ltd", "Bi-Pi" Eksploreyşn (Kaspian Si) "Ltd", "Den Norske Stats Olyeselskar a.s.", "LUKoyl" Səhmdar Cəmiyyəti, "Makdermott Azərbaycan, ink", "Pennzoyl Kaspian Korporeyşn", "Remko Xəzər Enerji Ltd", "Türkiyə Petrolları a.o.", "Uunokal Xəzər Ltd" şirkətləri arasında Saziş imzalandı. Azəraycanın neft yataqlarının işlənməsi, istismarı, neft və qaz ixracı sahəsində ABŞ-ın, Rusiya Federasiyasının, Böyük Britaniya Krallığının, Türkiyə Cümhuriyyətinin və Norves Krallığının iri neft şirkətləri ilə bağlanmış müqavilə. Bu ilk müqavilə sonralar

"Əsrin müqaviləsi" adlandırıldı. **C.10-** 12, 100, 138, 271; **C.11-** 11, 82, 120, 200, 222, 224, 243, 254, 271, 340; **C.12-** 70, 71, 220, 379; **C.13**- 57, 178, 181, 206, 368; **C.14**- 48, 226, 282, 368, 388, 427; **C.15**- 158, 285, 301, 406; **C.16**- 31, 302, 309, 342, 358, 364, 387, 390, 430, 463, 491; **C.17**- 38, 154, 233, 236; **C.18**- 122, 140, 463; **C.19**- 181-182, 188, 388, 396, 397, 418, 420, 423, 424, 425, 426, 427, 445, 446, 451; **C.20**- 16, 17, 20, 21, 69, 88, 104, 105, 126, 128, 137, 148, 259, 283, 461, 467, 468, 472; **C.21**- 8, 181, 193, 194, 195, 236, 378, 389, 391, 409-415; **C.22**- 5, 11, 12, 13, 26, 44, 45, 46, 57, 69, 94, 100, 113, 114, 115, 116, 117, 118, 119, 120, 121, 122, 123, 316, 426; **C.23**- 35, 45, 148, 149, 161, 178, 190, 200, 205, 206, 220, 221, 222, 224, 226, 265; **C.24**- 332, 342, 371; **C.25-**26, 82, 91, 119, 122, 285, 293; **C.26-** 44, 67, 364, 396; **C.27**- 44, 375; **C.28**- 31, 33, 52, 54, 156, 396.

**429. Əzim Əzimzadə,** Əzim Aslan oğlu Əzimzadə (1880-1943) - rəssam. Ə.Əzimzadə Azərbaycan təsviri sənətində tənqidi realizmin və realist qrafika sənətinin banisidir. Satirik qrafika, illüstrasiya, siyasi plakat, teatr-dekorasiya sahəsində fəaliyyət göstərmişdir. Əzimzadənin sənətkarlığı orijinal və çoxcəhətlidir. Onun təsvir üslubunda yığcamlıq, obrazlılıq, səlislik kimi cəhətlər üstünlük təşkil edir. **C.26-** 55, 90.

**430. Əziz Əliyev,** Əziz Məmmədkərim oğlu Əliyev (1897-1962) - görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Əziz Əliyev müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə Şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə Komissarının muavini və Xalq Səhiyyə Komissarı, Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, AKP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifəsində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sove-

tinin deputatı olmuşdur. **C.15**- 324-335; **C.17**- 373; **C.28**- 180-181.

**431. Əziz Şərif,** Əziz Qurbanəli oğlu Şərifzadə (1895-1988) - Azərbaycan ədəbiyyatşünası, tərcüməçi. XIX-XX əsrlər Azərbaycan ədəbiyyatına, ədəbi əlaqələrə, teatra və tərcümə problemlərinə dair əsərlərin, ədəbi-tənqidi məqalələrin müəllifidir. **C.13**- 174; **C.26-** 305.

**432. Əzizə Cəfərzadə**, Əzizə Məmməd qızı Cəfərzadə (1921-2003) - Azərbaycan yazıçısı, ədəbiyyatşünas, elmlər doktoru, professor. XIX əsr Azərbaycan ədəbiyyatına, aşıq şeirinə dair tədqiqatları var. S.Ə.Şirvaniyə həsr olunmuş "Aləmdə səsim var mənim", Nişat Şirvanidən bəhs edən "Vətənə qayıt", M.Ə.Sabirlə A.Səhhətin dostluğundan danışan "Yad et məni" romanlarından ibarət trilogiyanın, mövzusu XVI əsr Azərbaycan tarixindən alınmış "Bakı-1501" romanının müəllifidir. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.15**- 90; **C.25-** 314.

**433. Fadeyev Aleksandr Aleksandroviç** (1901-1956) - rus yazıçısı, ictimai xadim. SSRİ Dövlət mükafatı laureatı. Fadeyev məqalə və çıxışlarında klassik və müasir Azərbaycan ədəbiyyatını, Nizami, Xaqani, M.F.Axundov, M.Ə.Sabir və b.-nın yaradıcılığını yüksək qiymətləndirmişdir. **C.13**- 30.

**434. Faiq Sücəddinov,** Faiq Miri oğlu Sücəddinov (d. 1947) - bəstəkar. Azərbaycan Respublikasının Xalq artisti. Gözəl mahnılar müəllifidir. Azərbaycan Dövlət və İncəsənət Universitetində dosent. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.22**- 334.

**435. Fatma Abdullazadə,** Fatma Hüseynqızı Abdullazadə (d.1948) - elmlər doktoru, professor. Azərbaycan Respublikası Prezident Adminstrasiyasının Humanitar Siyasət Şöbəsinin müdiri. 1995-2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. **C.13**- 74, 76, 92, 441; **C.21**- 49; **C.23**- 64, 65; **C.26-** 333, 334.

**436. Fatma xanım Kəminə** (1841-1898) - Azərbaycan şairəsi. Bilikli olduğuna görə "Mirzə Fatma xanım" adı ilə də

tanınmışdır. “Məclisi fəramuşam” və “Məclisi üns” ədəbi məclislərində fəal iştirak etmişdir. Şeirlərinin çoxu məhəbbət mövzusundadır. **C.25-** 312.

**437. Fatma Qədri,** Fatma Qədir qızı Qədri (1907-1968) - aktrisa. Azərbaycan Respublikasının Xalq artisti. **C.10-** 55; **C.17**-190; **C.18**- 18; **C.27**- 94, 96.

**438. “Faynenşl tayms”** qəzeti - Böyük Britaniya işgüzar dairələrinin gündəlik maliyyə-iqtisadi qəzeti. 1888-ci ildən Londonda təsis edilmişdir. **C.16**- 490.

**439. Fazu Əliyeva,** Fazu Həmzət qızı Əliyeva (d.1932) - avar yazıçısı. Dağıstanın Xalq şairi. **C.15-** 335.

**440. Federiko Mayor** (d.1934) - biokimyaçı. 1968-1972-ci ilə qədər Qranada universitetinin rektoru. 1972-1976-cı illərdə İspaniyanın Dövlət katibi, Təhsil və Elm naziri olmuşdur. 1981-ci ildən Avropa parlamentinin üzvü, 1987-1999-cu illərdə YUNESKO-nun Baş katibi olmuşdur. **C.18**- 405.

**441. Federiko Penya** (d.15.03.1947, Texas ştatının Laredo ş.) - 1969-cu ildə Texas universitetini (incəsənət bakalavrı) bitirmişdir. 1972-ci ildə hüquq doktoru dərəcəsi almışdır. 1973-1983-cü illərdə “Penya və Penya” hüquq firmasının partnyoru olmuşdur. 1991-1993-cü illərdə bələdiyyə rəisi işləmişdir. 1993-1997-ci illərdə ABŞ-ın Nəqliyyat naziri,1997-2000-ci illərdə isə Energetika naziri olmuşdur. **C.11-** 192, 194, 209, 267, 276, 283, 338, 394, 401; **C.13**- 200.

**442. Fevral burjua-demokratik** inqilabı (1917) - Rusiyada çar mütləqiyyətini devirmiş ikinci inqilab. Fevralın 25-də 300 min adamın iştirak etdiyi tətil başlandı. Fevralın 27-də Petroqradda ümumi siyasi tətil silahlı üsyana çevrildi və fevralın 28-də inqilabın qələbəsi ilə nəticələndi. Bunun nəticəsində Rusiyada ikihakimiyyətlilik - bir tərəfdə Müvəqqəti hökumətin hakimiyyəti, digər tərəfdə Fəhlə Deputatları Sovetinin hakimiyyəti yarandı. **C.10-** 5; **C.15**- 174.

**443. Fəhd ibn Əbdül** Əziz Al Səid (d.1922) - 1982-cı ildən Səudiyyə Ərəbistaınının Kralıdır. **C.13**- 378; **C.19**- 321-322; **C.22**- 118.

**444. Fələstin dövləti** - BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən B.Britaniya mandatlığı ləğv edilərək Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin böyük hissəsini 1948-1949-ci illərdə, 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti Fələstin muxtariyyəti yaradıldı. **C.21**- 144; **C.23**- 46.

**445. Fəraməz Maqsudov**, Fəraməz Qəzənfər oğlu Maqsudov (1930-2000) - görkəmli Azərbaycan riyaziyyatçısı, elm təşkilatçısı, siyasi xadim. 1997-2000-ci illərdə Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının prezidenti olmuşdur. Birinci cağırış Milli Məclisin deputatı seçilmişdir. Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif olunmuşdur. **C.15**- 366; **C.19**- 177, 435, 436; **C.23**- 88; **C.25-** 329-344; **C.26-** 299-336

**446. Fərəc bəy Ağayev** (1811-1891) - general-leytenant. 1837-ci ildə Qafqaz Əlahiddə Ordusunda müsəlman süvari polkunda xidmətə başlayıb. Xidmətinin yeddinci ilində Fərəc bəy eskadron komandiri kimi Peterburqa göndərilir. Peterburqda o, birinci Nikolayın xüsusi qvardiya kazak polkunda leybqvardiya komandiri vəzifəsinə təyin olunur. Fərəc bəy özünün hərbi qabiliyyəti və igidliyinə görə qızıl xəncərlə, çoxlu hərbi ordenlərlə-2 dəfə 1-ci dərəcəli "Müqəddəs Anna" ordeni ilə təltif olunmuşdur. **C.16**- 83.

**447. Fərhad Bədəlbəyli,** Fərhad Şəmsi oğlu Bədəlbəyli (d.1947) - Azərbaycan pianoçusu və musiqi xadimi. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (1991) rektoru, professor. Azərbaycan Dövlət mükafatı laureatıdır. Azərbaycan və SSRİ Xalq artistidir. B.Smetana və J.Viania da Motta adına beynəlxalq müsabiqələr laureatıdır. Azərbaycan piano məktəbini ləyaqətlə təmsil edən çoxlu sayda pianoçu yetişdirmiş istedadlı pedaqoqdur. Azərbaycan Respublikası Musiqi Xadimləri İttifaqının sədridir. Azərbaycan Respublikasının "Şöhrət" orde-

ni ilə təltif olunmuşdur. **C.14**- 12; **C.17**- 156, 163, 164; **C.18**- 222, 223.

**448. Fərhad Xəlilov,** Fərhad Qurban oğlu Xəlilov (d. 1946) - rəssam. Azərbaycan Respublikasının Xalq rəssamı. Azərbaycan Rəsamlar İttifaqının sədri. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir. **C.25-** 329-344.

**449. Fərman Kərimzadə,** Fərman İsmayıl oğlu Kərimzadə (1937-1989) - Azərbaycan yazıçısı. **C.13**- 70.

**450. Fərman Salmanov**, Fərman Qurban oğlu Salmanov (1928-2007) - mühəndis-geoloq. Lenin mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı. Qərbi Sibirdə onun bilavasitə rəhbərliyi ilə ən iri neft və qaz yataqları kəşf edilmişdir. **C.10**- 251; **C.25-** 347; **C.28**- 254, 271.

**451. Fətəli xan,** Qubalı Fətəli xan (1736-1789) - Quba xanı. Azərbaycan dövlət xadimi, diplomat, sərkərdə. Mərkəzləşdirilmiş dövlət siyasəti yeridən Fətəli xan vahid Azərbaycan dövləti yaratmaq istəyirdi. **C.12-** 160; **C.17**- 214.

**452. Fətəlixan Xoyski** (1875-1920) - Azərbaycanın görkəmli siyasi və dövlət xadimi. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri, Daxili İşlər, Ədliyyə və Xarici İşlər naziri olmuşdur. 1920-ci ildə Tiflis şəhərində muzdur qatil tərəfindən öldürülmüşdür. **C.10-** 7; **C.12-** 178; **C.14**- 76; **C.15**- 282, 394; **C.16-** 84; **C.19-** 144; **C.20-** 281; **C.24**- 369; **C.27**- 369.

**453. Fidan Qasımova,** Fidan Əkrəm qızı Qasımova (d. 1947) - Azərbaycan müğənnisi. SSRİ və Azərbaycan Respublikasının Xalq artisti. **C.10-** 165; **C.17**- 152; **C.18**- 223, 224; **C.26-** 373-374.

**454. Fidel Kastro,** Kastro Rus (d.1926) - 1960-2008-ci illərdə Kuba Respublikası Dövlət Şurası və Nazirlər Sovetinin sədri, 1965-ci ildən Kuba KP MK-nin Birinci katibi və Kuba Silahlı qüvvələrinin baş komandanı. 1953-cü ildə Batista diktaturasına qarşı silahlı üsyana başçılıq etmişdir. **C.24**- 85, 149.

**455. Fikrət Əmirov,** Fikrət Cəmil oğlu Əmirov (1922-1984) - görkəmli Azərbaycan bəstəkarı. Simfonik muğam jan-

rının yaradıcısıdır. Fikrət Əmirov instrumental konsert janrında yazan ilk Azərbaycan bəstəkarlarındandır. Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L. Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarında səslənmişdir. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı idi. SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı idi. **C.12**- 357; **C.15**- 318; **C.17**- 163, 191, 192; **C.18**- 220-226, 278; **C.27**- 323.

**456. Fikrət Qoca,** Fikrət Göyüş oğlu Qocayev (d.1935) - Azərbaycanın Xalq şairi. "Qobustan" incəsənət toplusunun baş redaktoru və Azərbaycan Yazıçılar Birliyinin katibidir. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.13**- 18, 48, 70, 73; **C.17**- 137; **C.23**- 63-108.

**457. Fikrət Sadıq**, Fikrət Abbas oğlu Sadığov (d.1930) - Azərbaycanın Xalq şairi. Azərbaycan Dövlət mükafatı laureatıdır. **C.13**- 68; **C.23**- 69; **C.27**- 40.

**458. Fikrət Yusifov,** Fikrət Hüseyn oğlu Yusifov (d. 1957) - iqtisad elmləri namizədi. 1994-1999-cu illərdə Azərbaycan Respublikasının Maliyyə naziri olmuşdur. **C.18**- 177, 190; **C.26-** 414, 415.

**459. Filippin**, Filippin Respublikası - Cənub-Şərqi Asiyada, Filippin adalarında dövlət. Sahəsi 300 min km$^2$, əhalisi 71,8 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə və 2 muxtar vilayəta bölünür. Dövlət başçısı Prezident, qanunverici orqan ikipalatalı (Senat və Nümayəndələr palatası) parlamentdir. Paytaxtı Maniladır. **C.28**- 126.

**460. Finikiya -** Aralıq dənizinin şərq sahilində qədim ölkə. Finikiyalılar dəniz və quru yollarda aktiv ticarət edir, Aralıq dənizi hövzəsində və Karfagendə koloniyalar salırdılar. E.ə. 6-cı əsrdə Finikiyanı farslar, e.ə. 332-ci ilə qədər Makedoniyalı İsgəndər işğal etmişdi. **C.20**- 446.

**461. Finlandiya,** Finlandiya Respublikası - Şimali Avropada dövlət. Sahəsi 397 min km$^2$, əhalisi 5,13 milyon nəfərdir. İnzibati ərazisi 11 lyaniyə (əyalətə) bölünür. Aland adaları isə

muxtar ərazidir. Dövlət başçısı Prezident, qanunverici orqanı Parlamentdir. Raytaxtı Helsinkidir. **C.25-** 10.

**462. Firdovsi,** Firdovsi Əbülqasim (təqr.934-1020, yaxud 1030) - böyük fars və tacik şairi. Farsdilli ədəbiyyatın monumental eposu, dünya ədəbiyyatının möhtəşəm abidələrindən olan "Şahnamə"nin müəllifidir. **C.15**- 184; **C.21**- 128, 175, 176, 178; **C.22**- 235; **C.26-** 211, 312, 314.

**463. Firəngiz Əhmədova**, Firəngiz Yusif qızı Əhmədova (d.1928) - görkəmli Azərbaycan müğənnisi, SSRİ Xalq artisti. F.Əhmədova Azərbaycan, rus və Qərbi Avropa bəstəkarlarının operalarında müvəffəqiyyətlə çıxış edib. O, kamera-vokal əsərlərin ifaçısı kimi də məşhurdur. **C.13**- 304; **C.17**- 191, 333-334; **C.18**- 222.

**464. Firəngiz Əlizadə,** Firəngiz Əliağa qızı Əlizadə (d. 1947) - pianoçu, bəstəkar. Azərbaycan Respublikasının Xalq artisti. 2007-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının sədridir. 2008-ci ildə YUNESKO tərəfindən "Dünyanın artisti" adlandırılmışdır. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir. **C.25-** 314.

**465. Firidun bəy Köçərli,** Firidun bəy Əhməd bəy oğlu Köçərli (1863-1920) - Azərbaycan ədəbiyyatşünası, pedaqoq və publisist. Qori seminariyasını bitirmiş, sonra isə orada dərs demiş, ədəbi fəaliyyətə də həmin vaxtdan əbədi-tənqidi və publisistik məqalələrlə başlamışdır. Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyat tarixi materialları" əsəri Azərbaycan əbəbiyyatı tarixinin inkişafını izləmək, ədəbi proses və tarixi ictimai həyatı qarşılıqlı əlaqədə təhlil etmək və fakt zənginliyi baxımından qiymətli mənbədir. F.Köçərli Azərbaycan ədəbi dilinin saflığı uğrunda fəal mübarizə aparmışdır. **C.27**- 369.

**466. Flavio Kotti** (d.1939) - 1994-1999-cu illərdə İsveçrə Xarici İşlər naziri olmuşdur. **C.15**- 353.

**467. "FMS" korporasiyası** - transmilli şirkət, kimyəvi maddələr, sənaye və kənd təsərrüfatı üçün maşın və mexanizmlər istehsalında dünyada birincilər sırasındadır. Şirkətə daxil olan 7 bölmədən biri energetika və nəqliyyat avadanlığı qrupu-

dur. Bu qrup neft və qaz yataqlarının kəşfiyyatı, istismarı və neft emalı üçün avadanlıqların, maşın və qurğuların istehsalında dünyada liderdir. **C.11-** 327.

**468. Frans Press** - Fransa informasiya agentliyi. Muxtar kommersiya müəssisəsidir. Havae Fransa məlumat agentliyinin (1835) varisi kimi 1944-cü ildə yaradılmışdır. Parisdə fəaliyyət göstərir. 155 ölkəyə fransız, ingilis, ispan, portuqal, alman və ərəb dillərində informasiya yayır. Bir çox ölkələri beynəlxalq informasiya ilə təchiz edən dünya agentliklərindəndir. **C.18-** 39; **C.26-** 134.

**469. Fransa,** Fransa Respublikası - Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici hakimiyyəti iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti Prezidentə və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. **C.12-** 9, 36, 47, 58, 87, 104, 108, 146, 170, 193, 198, 213, 221, 226, 240, 249, 270, 281, 283, 295, 313, 316, 317, 324, 330, 347; **C.16-** 16, 44, 93, 110, 119, 138, 143, 151, 165, 184, 185, 204, 205, 236, 237, 262-265, 282, 334, 344, 353, 402, 424, 428, 442; **C.20-** 25-28, 29-32, 39, 40, 53, 56, 67, 79-80, 91, 95, 102, 111, 115, 120, 134, 213, 220, 227, 228, 242, 273, 284, 307, 327, 328, 351, 370, 399, 414, 426, 441, 443; **C.21-** 21-23, 36, 44-58, 99, 156, 271, 273, 288, 290, 294, 295, 306, 334, 357, 361, 369, 370, 371, 379, 380, 381, 383, 395, 402; **C.25-** 41, 43, 88, 90, 119, 121, 130, 143, 193, 194, 209, 215, 254, 257, 260, 299, 382; **C.27-** 19, 38, 41, 115, 116, 132, 155, 249-252, 291, 318, 384, 407, 410, 419, 420, 426; **C.28-** 40, 73, 110, 111, 240, 241, 262, 266, 270, 305, 396, 401, 402-416.

**470. Fransa Senatı -** Fransada qanunverici orqan. **C.21-** 44-58.

**471. Fransua Mitteran** (1916-1996) - 1981-1995-ci illərdə Fransanın Prezidenti. 1971-1981-ci illərdə Fransa Sosialist Partiyasının Birinci katibi, 1965-1968-ci illərdə demokratik

və sosialist sol qüvvələri Federasiyasının lideri olmuşdur. **C.21**- 44, 48, 53; **C.25-** 382; **C.26-** 230.

**472. Frenk Pallone** (d.1951) 1973-cü ildə Midlberi kollecini (incəsənət bakalavrı), 1974-cü ildə Tafta universitetini (incəsənət magistri), 1978-ci ildə Ratgers universitetini (hüquq doktoru) bitirmişdir. 1982-1988-ci illərdə Lonq-Branç bələdıyyə şurasının, 1984-1988-ci illərdə Nyu-Cersi ştatı senatının üzvü olmuşdur. 1988-ci ildən ABŞ Konqresi Nümayəndələr Palatasına üzv seçilmişdir. Demokratdır. **C.11-** 159.

**473. Frenkel Yan Abramoviç** (1920-1985) - rus bəstəkarı. Rusiya Federasiyasının Xalq artisti. **C.10-** 47.

**474. Frontera Resoursez** - özəl beynəlxalq enerji şirkəti. Baş ofisi Hyüston şəhərindədir. Şirkət yeni meydana çıxan beynəlxalq bazarlarda energetika layihələrinin tədqiqi ilə məşğuldur. Azərbaycanda nümayəndəliyi var. Şirkət Azərbaycanda quruda yerləşən neft yataqlarının kəşfiyyatı və işlənməsi ilə də məşğul olmaq niyyətindədir. **C.15**- 430; **C.18**- 414, 434; **C.25-** 122.

**475. Fuad Ələsgərov,** Fuad Murtuz oğlu Ələsgərov (d. 1959) - hüquqşünas. 1994-cü ildən Azərbaycan Respublikası Prezidenti Adminstrasiyasının Hüquq-Mühafizə orqanları ilə iş şöbəsinin müdiridir. **C.26-** 406-431.

**476. Fuad Həsən oğlu** Əbdürrəhmanov (1915-1971) - Azərbaycan heykəltəraşı, Azərbaycan Respublikasının Xalq rəssamı, iki dəfə SSRİ Dövlət mükafatı laureatı. **C.10-** 11; **C.19**- 437.

**477. Fuad Köprülüzadə,** Köprülü Mehmet Fuad(l890-1966) - türk filoloqu, publisist və tarixçi. Türkiyə Demokrat Partiyasının yaradıcılarından biri (1946). Türkiyənin Xarici İşlər naziri (1950-1957) olmuşdur. Avropada türk ədəbiyyatşünaslığı məktəbinin yaranması Köprülünün adı ilə bağlıdır. İslam ensiklopediyasının nəşrində fəal iştirak etmiş, türk tarixi, ədəbiyyatı və mədəniyyətinə dair məqalələrin müəllifidir. Azərbaycan ədəbiyyatına, xüsusilə Füzuli yaradıcılığına həsr olunmuş əsərlər yazmışdır. **C.19**- 413.

**478. Fuad Quliyev,** Fuad Xəlil oğlu Quliyev (d.1941) - Əməkdar mühəndis. 1994-1996-cı illərdə Baş nazirin birinci müavini və Baş nazir olmuşdur. Azərbaycan Dövlət mükafatı laureatıdır. **C.15**- 19; **C.16**- 121; **C.23**- 107.

**479. Füzuli rayonu** (1959-cu ilədək Qaryagin rayonu) - Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1386 $km^2$, 80,2 min nəfərdir. 1993-cü ildə erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdir. **C.23**- 101; **C.27**- 290; **C.28**- 269.

**480. Gennadi Xazanov,** Gennadi Viktoroviç Xazanov (d.1945) - məşhur rus estrada artisti. Rusiya Federasiyasının Xalq artisti. 1987-ci ildən "Mono" (Moskva) konsert-estrada kollektivinin artist və rejissoru, 1997-ci ildən isə Moskva Estrada Teatrının bədii rəhbəridir. Rusiya Federasiyası Dövlət mükafatı laureatıdır. **C.17**- 368-369.

**481. Gennadi Nikolayeviç Seleznyov** (d.1947) - Rusiyanın ictimai və dövlət xadimi. 1995-ci ildən Rusiya Dövlət Dumasının sədridir. **C.10**- 302.

**482. Georq V** (1865-1936) - 1910-cu ildən İngilis kralı olmuşdur. Saksen-Koburq-Qot sülaləsindəndir. **C.16**- 451.

**483. Gerhard Şroder** (d.1944) - Almaniyanın ictimai və siyasi xadimi. 1980-cı ildən Almaniya Bundestaqının üzvü, 1990-1998-ci illərdə Aşağı Saksoniya vilayətinin nazir-prezidenti, 2000-2006-cı illərdə Almaniyanın federal kansleri olmuşdur. **C.23**- 167-169, 171,180, 191, 198, 200, 230, 380; **C.25**- 13.

**484. Gəncə** - Azərbaycanın qədim şəhərlərindən biri. 18 günlük Tiflis fəaliyyətindən sonra Azərbaycan Milli Şurası və hökuməti Gəncəyə köçdü. Hökumətin burada olduğu dövrdə bütövlükdə dövlət, o cümlədən şəhərin həyatına dair 120-dən çox müxtəlif qərarlar qəbul olundu. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1918-ci il 30 iyul tarixli qərarı ilə Gəncə (1804-1918-ci illərdə Yelizavetpol) şəhərinin tarixi adı yenidən özünə qaytarıldı. **C.15**- 392; **C.16**- 81; **C.20**- 320, 386, 389,

390; **C.21**- 87, 175, 179; **C.22-** 208; **C.24** - 50, 51, 245; **C.27**- 84, 87, 227, 293-366.

**485. Gəray Əsədov**, Gəray Lətif oğlu Əsədov (1923-1944) - Sovet İttifaqı Qəhrəmanı. Gəray Əsədov 1944-cü ildə Morgita (Rumıniya) şəhərindəki döyüşlərdə bədəni ilə düşmənin atəş nöqtəsini örtmüş, əsgərlərin hücuma keçməsinə şərait yaratmışdır. **C.21**- 103.

**486. Gövhər Baxşəliyeva,** Gövhər Baxşəli qızı Baxşəliyeva (d.1954) - filologiya elmləri doktoru, professor. 1997-ci ildən AMEA-da akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktorudur. 2001-2005-ci illərdə Azərbaycan Respublikasının MM-nin deputatı və sədr müavini, hazırda III çağırış MM-in deputatı, Elm və Təhsil Məsələləri daimi Komissiyasının üzvü, İslam Konfransı Təşkilatının Parlament İttifaqında nümayəndə heyətinin rəhbəridir. Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvüdür. **C.26-** 299-336.

**487. Gövhərqala** - burada Qroznı şəhəri nəzərdə tutulur. **C.24** - 167.

**488. Göyçə** - İrəvan xanlığının 15 mahalından biri. İndiki Ermənistan ərazisində qədimdən Azərbaycan turklərinin yaşadıqları bölgə. Göyçə adının ilk dəfə V əsrin sonlarında işlədildiyi güman edılir. Şah İsmayılın (1501-1524) 1510-cu ilə aid fərmanında"Göyçə mahalı" qeyd edilmişdir. Türkmənçay müqavıləsinə (1828) əsasən İrəvan xanlığının tərkıbində çar Rusiyasının tərkıbinə qatılmışdır. 1829-1832-cı illərə aid məlumata görə, Göyçə mahalında 100-dən çox yaşayış məskəni, 14.354 nəfər əhali (əsasən azərbaycanlılar, qeydə alınmışdı. Ermənilərin kütləvi şəkildə Qərbi Azərbaycana köçürülməsi Göyçə mahalının etnik tərkibini əsaslı şəkıldə dəyişdırdi və mahal erməniləşdirilməyə başlandı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə inzibatı-ərazi vahidi idi (əhalisi özünü Cümhuriyyətin tərkib hissəsi hesab edir və onun hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mübarizə aparırdı). Ermənilər bu torpaqlara iddialarını həyata keçirmək üçün azərbaycanlılara qarşı soyqırımı siyasəti yeridirdilər. Azərbay-

canda və Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sovet-bolşevik rejiminin himayəsi ilə Göyçə demək olar ki, bütünlüklə Ermənistana verildi. Mahalın Azərbaycan türklərinə məxsus yaşayış məskənlərinin adları kütləvı surətdə dəyişdirilərək erməniləşdirildi. Ermənilərin həyata keçirdikləri soyqırımları və zorakı köçürmələr nəticəsində tarixən azərbaycanlılara məxsus olan Göyçə mahalında hazırda bir nəfər də olsun azərbaycanlı qalmamışdır. **C.18**- 375.

**489. GUAM -** Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən- Gürcüsan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi "dördlər qrupu" yaradıldı ( 10 oktyabr 1997). **C.12**- 291; **C.13**- 245, 246, 247, 248, 260; **C.16**- 293, 436; **C.15**- 140, 143, 144, 440; **C.17**- 53, 54; **C.18**- 450; **C.20**- 81-82,129; **C.21**- 208, 263, 355; **C.22**- 370, 380; **C.23**- 138, 317, 318; **C.25-** 116, 231, 232, 368, 373, 393; **C.26-** 20, 129; **C.27**- 242, 247; **C.28**- 83, 84, 85.

**490. Gülər Əhmədova,** Gülər Mikayıl qızı Əhmədova (d. 1965) - riyaziyyatçı, psixologiya elmləri namizədi. Heydər Əliyev tərəfindən yaradılmış Respublika Uşaq Təşkilatının (1996) sədridir. 2000-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. **C.19**- 219.

**491. Gülhanə Hərbi Tibb** Akademiyası - Türkiyədə məşhur tibb ocaqlarından biri. 1898-ci ildən fəaliyyət göstərir. Akademiya ən müasir tibb avadanlığı ilə təmin edilmişdir. Burada həm müalicə edilir, həm də elmi tədqiqatlar aparılır. **C.19**- 33-98, 105, 106, 109, 117; **C.20**- 310, 334, 336; **C.22**- 443-459; **C.23**- 13,16; **C.26-** 359.

**492. Gülxar Həsənova,** Gülxar İbrahim qızı Həsənova (1918-2006) - müğənni. Azərbaycan Respublikasının Xalq artisti. 1942-1980-ci illərdə Azərbaycan Dövlət Akademik Opera Balet Teatrının solisti olmuşdur. 1980-ci ildən sonra isə teatrın məşqçi pedaqoqu kimi fəaliyyət göstərmişdir. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.18**- 389.

**493. Güllü Mustafayeva,** Güllü Hacağa qızı Mustafayeva (1919-1994) - Azərbaycan boyakarı. Azərbaycan Respublikasının Xalq rəssamı. Tematik tablolar və portretlər yaratmışdır. G.Mustafayeva yaradıcılığında uşaq portretləri xüsusi silsilə təşkil edir. **C.25-** 314.

**494. Gülüstan müqaviləsi** (1813) - birinci Rusiya-İran müharibəsinə son qoymuş müqavilə. Oktyabrın 12(24)-də Qarabağın Gülüstan kəndində bağlanmışdır. Rusiya-İran arasında əvvəlcə barışıq aktı, sonra isə on bir maddədən ibarət sülh müqaviləsi imzalanmışdı. Bu müqaviləyə əsasən hər iki dövlət arasında yeni sərhəd xətləri müəyyən edildi. 1814-cü il sentyabrın 15-dən qüvvəyə minən Gülüstan müqaviləsi vahid Azərbaycanın iki işğalçı dövlət tərəfindən bölüşdürülməsinin əsasını qoydu.**C.22**- 195; **C.25-** 303; **C.26-** 98.

**495. Gürcüstan Demokratik Respublikası** - Cənubi Qafqazda yaranmış müstəqil dövlət (1918-26 may, 1921-1925 fevral). Cənubi Qafqazda ali hakimiyyət orqanı olan Zaqafqaziya Seyminin (1918-1923 fevral, 26 may) gürcü fraksiyası Batumda Almaniya nümayəndəliyi ilə gizli danışıqlar aparır və Gürcüstanın müstəqilliyini elan etməyə hazırlaşır. Həmin günlərdə Seymin sosial-demokrat fraksiyasının lideri İ.Q.Sereteli Cənubi Qafqaz xalqlarının konfederasiya halında birləşmək ideyasının özünü doğrultmadığını bildirdi və Türkiyə ilə Batum danışıqlarında təklənməklərini bəhanə gətirərək, Gürcüstanın Seymdən çıxıb, müstəqil respublika elan olunmasını zəruri hesab etdi.

1918-ci il mayın 26-da Zaqafqaziya Seyminin sonuncu iclasında İ.Q.Sereteli Seymin buraxıldığını və Gürcüstanın müstəqilliyini elan etdi. **C.15**- 342-352, 361-364; **C.18**- 5-10, 46, 76, 77, 106, 107, 121, 122, 124, 125, 127, 128, 131, 144, 145, 147, 159, 163, 164, 200, 234, 307, 320, 323, 375, 450, 454; **C.26-** 13-83, 88, 122, 202, 203, 208, 244, 245, 265, 368, 395.

**496. Habil Əliyev,** Habil Mustafa oğlu Əliyev (d.1927) - məşhur kamançaçı. Azərbaycanın Xalq artisti. Azərbaycan

Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.15-** 83; **C.17-** 149.

**497. Hacı Allahşükür Paşazadə**, Allahşükür Hümmət oğlu Paşazadə (d.1949) - 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif edilmişdir. **C.10-** 417; **C.13-** 14; **C.14-** 193-196; **C.16-** 233; **C.17-** 135, 406; **C.19-** 71-74, 162, 322, 364-371; **C.21-** 211-212; **C.22-** 162, 163; **C.23-** 116-133; **C.24-** 224; **C.26-** 432-436; **C.28-** 174, 176.

**498. Hacı Hikmət** (d.1954) - din xadimi 1994-cü ildən Bibiheybət məscidinin axundudur. **C.16-** 232; **C.19-** 364.

**499. Hacı Xanməmmədov,** Hacı Dadaş oğlu Xanməmmədov (1918-2005) - Azərbaycan bəstəkarı, Təbriz Filarmoniyasının (1946) bədii rəhbəri, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının (1952-1954), Azərbaycan Dövlət Filarmoniyasının direktoru (1966-1968) olmuşdur. H.Xanməmmədov müxtəlif janrlı əsərlərin müəllifidir. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.16-** 56-57; **C.17-** 160.

**500. Hacı İsmayılov,** Hacı Məcid oğlu İsmayılov (d. 1944) - Azərbaycan Respublikasının Xalq artisti. 1970-ci ildən Azərbaycan Akademik Milli Dram Teatrında fəaliyyət göstərir. Məşhur kino və teatr aklyoru Hacı İsmayılov oynadığı rollarda gözəl dramatik və tipik obrazlar yaratmışdır. Aktyor ilk dəfə "Ad günü" filmində Mustafa rolunda çəkilib və Respublikanın Dövlət mükafatı laureatı adına layiq görülüb. **C.27-** 96.

**501. Hacı Səid Ünsizadə,** Səid Əbdülrəhman oğlu Ünsizadə (Hami) (1845-?) - "Ziya" və "Ziyayi Qafqaziyyə" qəzetlərinin naşiri və redaktoru, ruhani. "Hami" təxəllüsü ilə şeirlər yazmış, "Beytüs-Səfa" ədəbi məclisinin üzvü olmuş, 1883-cü ildə Tiflisdə nəzm ilə yazılmış qiraət kitabını nəşr etdirmişdi. **C.26-** 89.

**502. Hacı Zeynalabdin Tağıyev,** Hacı Zeynalabdin Məmmədtağı oğlu Tağıyev (1838-1924) - Məşhur messenat,

maarifpərvər, “millətin başçısı, atası”, Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda “Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti”ni, toxuculuq fabrikini, “Xəzər manifaktura cəmiyyəti”ni, “Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti”ni, yerli sahibkarlarla birlikdə Bakı Ticarət Bankını yaratmış və Bank Şurasının sədri seçilmişdi.

Savadsız olmuş Hacı savadsızlığın acısını duymuş və buna görə də vətən övladlarının, xüsusilə, kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O, öz vəsaiti ilə Yaxın Şərqdə - Bakıda ilk qızlar gimnaziyası, qadınları işlə təmin etmək üçün Bakıda toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası tikdirir. Qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin azərbaycancaya tərcümələri çap etdirir. 1905-1911-ci illər İran məşrutə hərəkatına silah və pulla yardım edir. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdı. “Kaspi”, “Həyat”, “Füyuzat” kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı.

Hacı Bakıya “Şollar suyu” borusunu çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. **C.15-** 326; **C.18-** 18, 19, 20, 221, 325; **C.22-** 6, 128, 129; **C.23-** 67; **C.26-** 88.

**503. Hacıbaba Bağırov** (1933-2006) - Respublikanın Xalq artisti. 1962-ci ildən 1988-ci ilədək Ş.Qurbanov adına Musiqili Komediya Teatrında işləyib. 1989-cu ildə “Tənqid-təbliğ” satira teatrını yaradıb. 1996-cı ildən Azərbaycan Dövlət Musiqili Komediya Teatrının direktoru və bədii rəhbəri olub. Azərbaycan Respublikasının “Şöhrət” ordeni ilə təltif olunmuşdur. **C.16-** 40; **C.17-** 160; **C.18-** 326, 330, 332.

**504. Hacıbala Abutalıbov,** Hacıbala İbrahim oğlu Abutalıbov (d.1944) - Bakı şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. **C.20**- 448, 456.

**505. Hafiz Əsəd,** Əsəd Hafiz (1930-2000) - Suriyanın siyasi, hərbi və dövlət xadimi. 1970-1971-ci illərdə isə Baş nazir, 1971-2000-ci illərdə isə Suriya Ərəb Respublikasının Prezidenti olmuşdur. **C.13**- 326, 331- 333, 370; **C.26-** 338.

**506. Hafiz Paşayev,** Hafiz Mir Cəlal oğlu Paşayev (d. 1941) diplomat. Fizika-riyaziyyat elmləri doktoru. 1992-2006-cı illərdə Amerika Birləşmiş Ştatlarında Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. 2006-cı ildən Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini və Ali Diplomatiya Akademiyasının rektorudur. **C.20**- 152; **C.22**- 47; **C.25-** 170.

**507. Hafiz,** Şəmsəddin Məhəmməd Şirazi (təqr.1325-1389, yaxud 1390) - böyük fars şairi. Mustəsna yaddaşı olan Hafiz Qurani-Kərimi əzbər bilirdi; "Hafız" ləqəbi də bununla əlaqədardır. Yaradıcılığı orta əsrlər farsdilli lirik poeziyanın ən yüksək zirvəsidir. **C.15**- 184.

**508. Harald V** (d.1937) - 1991-ci ildən Norveçin kralı. Kral V Ulafin oğlu. **C.27**- 174.

**509. Haşimi Rəfsancani,** Haşimi Əliəkbər Rəfsancani (d. 1934) - 1989-1998-ci illərdə İran İslam Respublikasının Prezidenti. **C.10-** 21; **C.21**- 125, 130; **C.22**- 164; **C.28**- 102-103.

**510. Haşimoto Ryutaro** (1937-2006) - yapon siyasi xadimi. 1996-1998-ci illərdə Yaponiyanın Baş naziri olmuşdur. **C.28**- 296.

**511. Helmut Kol** (d.1930) - Almaniyanın görkəmli siyasi və dövlət xadimi. 1973-1998-ci illərdə Xristian-Demokratlar İttifaqının sədri, 1982-1998-ci illərdə isə AFR-də Kansler olmuşdur. H.Kolun ən böyük xidməti ikiyə bölünmüş Almaniyanı birləşdirməsi olmuşdur. **C.15**- 433; **C.18-** 405; **C.25-** 382; **C.28**- 135.

**512. Helmut Şmidt** (d.1918-?) - 1974-1982-ci illərdə Almaniya Federativ Respublikasının federal kansleri. 1969-

1974-cü illərdə AFR-in Müdafiə naziri, 1968-1983-cü illərdə Almaniya Sosial Demokrat Partiyasının sədri olmuşdur. **C.27**-16.

**513. Helsinki aktı**. 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının Helsinki Müşavirəsi oldu. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə aktını imzaladılar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. **C.10-** 66, 79, 269; **C.16**- 203; **C.20**-45; **C.23**- 37, 135, 143, 173, 183, 204, 237, 267; **C.25-** 54, 88, 261; **C.26-** 157, 176; **C.27**- 414, 425, 427; **C.28**- 231.

**514. Heminquey Ernest Miller** (1899-1961) - amerikan yazıçısı, Nobel mükafatı laureatı. "Fiyesta", "Əlvida silah" romanları - müharibə, "itirilmiş nəslin" taleyinə həsr edilmişdir. Heminquey hərbi müxbir kimi İspaniya inqilabının (1936-1939) yaxın iştirakçısı olmuş "Zənglər kimin üçün çalınır" romanında ispan xalqının faşizmə qarşı mübarizəsini təsvir etmişdir. Əsərin qəhrəmanları bütün bəşəriyyətin taleyi üçün cavabdehlik hissi ilə yaşayırlar.Heminquey yaradıcılığının, bir növ yekunu olan "Qoca və dəniz" (1952) povestində insanın mətanət və iradəsinin yenilməzliyinə, onun həyat eşqinə, qələbəsinə sarsılmaz daxili inam bədii əksini tapmışdır. **C.22**- 71.

**515. Henri Kissincer** (d.27.05.1923, Almaniyanın Fyurt ş.) - 1938-ci ildə ABŞ-a köçmüş, 1943-cü ildə ABŞ vətəndaşlığını qəbul etmişdir. 1950-ci ildə Harvard universitetini (incəsənət bakalavrı) bitirmiş, 1952-ci ildə incəsənət magistri, 1954-cü ildə fəlsəfə doktoru dərəcələrini almışdır. 1951-1969-cu illərdə Beynəlxalq Harvard Seminarının icraçı direktoru olmuşdur. 1969-1975-ci illərdə Prezidentin Milli Təhlükəsizlik Məsələləri üzrə köməkçisi işləmişdir. 1973-1977-ci illərdə ABŞ-ın Dövlət Katibi olmuşdur.Beynəlxalq problemlərə dair bir sıra kitabın müəllifidir. Beynəlxalq Nobel sülh mükafatı (1973-cü il) və bir sıra digər mükafatların laureatıdır. **C.11-** 61, 63; **C.19**- 14-23; **C.20**- 86-89, 336; **C.25-** 81, 245.

**516. Heydər Hüseynov,** Heydər Nəcəf oğlu Hüseynov (1908-1950) - Azərbaycan filosofu, ictimai xadim . Azərbaycan Elmlər Akademiyasının akademiki. SSRİ Dövlət mükafatı laureatı. H.Hüseynov dialektik və tarixi materializm problemləri, fəlsəfə tarixi və s. mövzularda əsərlər yazmışdır. O, Azərbaycan mədəniyyətinin böyük nümayəndələrinin fəlsəfi irsini öyrənmişdir. Onun ədəbiyyatşünaslığa dair də əsərləri var. **C.13**- 148.

**517. Heyran xanım** ( ? - ? ) **-** Azərbaycan şairi, XVIII əsrin sonlarında Kəngərli xanları ailəsində doğulmuşdur. Əsasən, aşiqanə şeirlər-qəzəl, müxəmməs, rübai yazmışdır. Əsərlərinin 3 əlyazması məlumdur. **C.15**- 229.

**518. Həqiqət Rzayeva,** Həqiqət Əli qızı Rzayeva (1907-1969) - Azərbaycan müğənnisi. Azərbaycan Respublikasının Xalq artisti. H.Rzayeva Azərbaycan səhnəsində çıxış edən ilk azərbaycanlı qadın müğənnilərindəndir. Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. Güclü, gözəl və məlahətli səsə malik Rzayevanın yaradıcılığı üçün yüksək professionallıq, artistizm səciyyəvi olmuşdur. **C.17**- 191.

**519. Həmid Araslı,** Həmid Məhəmmədtağı oğlu Araslı (1909-1983) - əbədiyyatşünas, filologiya elmləri doktoru, professor, Azərbaycan MEA-nın akademiki, 1960-1968-ci illərdə Nizami adına Azərbaycan Əbədiyyatı Muzeyinin direktoru, 1970-ci ildən ömrünün sonuna kimi Azərbaycan Respublikası MEA-nın Yaxın və Orta Şərq Xalqları İnstitutunun direktoru olmuşdur. Araslı qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı, Nəsimi, Kişvəri, Əmani, Saib Təbrizi, Qövsi Təbrizi, Məhcur Şirvani, Vaqif, Vidadi haqqında tədqiqat əsərlərinin müəllifidir. Nizami və Füzuli irsinin öyrənilməsində xüsusilə mühüm işlər görmüşdür. Azərbaycan folklorunun, "Kitabi-Dədə Qorqud", "Koroğlu" dastanları və aşıq yaradıcılığının tədqiqi ilə də məşğul olmuşdur. **C.19**- 172; **C.25-** 333; **C.26-** 362.

**520. Həmid Qasımbəyov,** Həmid Həbib oğlu Qasımbəyov (1923-2005) - hərbi xadim, vitse-admiral. Böyük Vətən

müharibəsində istirak etmişdir. 1945-1976-cı illərdə Sakit okean, Şimal və Baltik hərbi dəniz donanmalarında müxtəlif vəzifələrdə çalışmışdır. 1977-ci ildən Xəzər Donanmasının komandanı olmuşdur. **C.16**- 90.

**521. Həmidə xanım Cavanşir,** Məmmədquluzadə Cavanşir Həmidə xanım Əhməd bəy qızı (1873-1955) - Azərbaycanın ilk maarifçi qadınlarından biri, xeyriyyəçi, C.Məmmədquluzadənin həyat yoldaşı. Kəhrizli kəndində qadınlar üçün ilk məktəb və toxuculuq emalatxanası açmışdır. Həmidə xanım Qafqaz Müsəlman Qadınları Xeyriyyə Cəmiyyətinin (1908-1917) yaradıcılarından biri olmuşdur. Həmidə xanım C. Məmmədquluzadə haqqında xatirələrini yazmışdır. **C.25-** 312.

**522. Həsən bəy Ağayev,** Həsən bəy Məşədi Hüseyn oğlu Ağayev (1875-1920) - görkəmli ictimai-siyasi xadim. Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən və rəhbərlərindən biri. 1901-ci ildə Moskva Universitetinin tibb fakültəsini bitirdikdən sonra Gəncədə həkimlik fəaliyyəti ilə yanaşı, qəzet və jurnallarda məqalələr dərc etdirir. 1914-cü ilin sonlarında Xudadat bəy Rəfibəyli ilə birlikdə Gəncədə ilk səhiyyə cəmiyyəti yaratmışdır. 1917-ci ilin sentyabrında "Müsavat"ın 1-ci qurultayında partiyanın MK-sının üzvü seçilmişdi. Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də H.B.Ağayevin sədrliyi ilə keçən iclasında Azərbaycanın müstəqilliyi haqqında İstiqlal bəyannaməsini ilk olaraq H.B.Ağayev imzalamışdır. **C.15**-394.

**523. Həsən Bin Təlal** (d.1947) - İordaniya Şahzadəsi, Kral Hüseynin qardaşı. Şahzada 1983-cü ildən beynəlxalq humanitar məsələlər üzrə Müstəqil komissiyanın sədrlərindən biri, hazırda Ərəb əqidə forumunun və Roma klubunun prezidenti, Din və mədəniyyətlərarası yeniliklər və diaioqlar forumunun yaradıcısı və sədri, Beynəlxalq böhran qrupunda himayəçi şuranın üzvüdür. **C.28**- 47-51.

**524. Həsən Əliyev,** Həsən Əlirza oğlu Əliyev (1907-1993) - torpaqşünas, ümumi əkinçilik və təbiəti mühafizə sahəsində alim, ictimai-siyasi xadim, elmlər doktoru, professor.

Azərbaycan Milli EA-nın akademiki, Azərbaycan Dövlət mükafatı laureatı. Ayrı-ayrı illərdə Azərbaycan Milli EA Botanika İnstitutunun direktoru, Azərbaycan Kənd Təsərrüfatı nazirinin birinci müavini və Azərbaycan KP MK katibi, Azərbaycan Milli EA-nın akademik katibi, Azərbaycan Milli EA Coğrafiya İnstitutunun direktoru vəzifələrində çalışmışdır. Azərbaycan SSRİ Ali Sovetinin deputatı olmuşdur. **C.15**- 320; **C.16**- 259; **C.20**- 391; **C.27**- 311.

**525. Həsən Hacınski,** Məmməd Həsən Cəfərqulu oğlu Hacınski (1875-1931) - Azərbaycanın siyasi və dövlət xadimi, mühəndis.Peterburq texnoloji institutunu (1902) bitirmişdir. "Hümmət" partiyasının yaradıcılarından biri. 1911-ci ildən "Müsavat" partiyasının üzvü olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti hökumətində Xarici İşlər, Daxili, Ticarət, Sənaye və Ərzaq naziri olmuşdur. Tiflisdə qətlə yetirilmişdir. **C.12-** 83, 84; **C.14**- 76.

**526. Həsən Həsənov,** Həsən Əzizoğlu Həsənov (d. 1940) - Azərbaycanın tanınmış ictimai və siyasi xadimi, diplomat. Ayrı-ayrı illərdə Nazirlər Sovetinin sədri, BMT-də Azərbaycan Respublikasının daimi nümayəndəsi və xarici işlər naziri olmuşdur. Hazırda Macarıstanda Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiridir. Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. **C.14**- 81, 242, 274, 284, 304, 305; **C.15**- 14,15, 16,17,18, 19, 20, 21, 22, 24, 26, 29; **C.23-** 105.

**527. Həsən Məmmədov,** Həsən Ağaməmməd oğlu Məmmədov (1938-2003) - aktyor. Azərbaycan Respublikasının Xalq artisti. SSRİ Dövlət mükafatı laureatı. **C.10-** 55; **C.18**- 259, 388.

**528. Həsən Seyidbəyli,** Həsən Mehdi oğlu Seyidbəyli (1920-1980) - Azərbaycan dramaturqu, rejissor, yazıçı. Azərbaycanın Xalq artisti. Azərbaycan Kinematoqrafçılar İttifaqı İdarə heyətinin sədri olmuşdur.Onun filmlərində mühüm ictimai, sosial və mənəvi problemlərə toxunulur. Azərbaycan şairi Nəsimiyə həsr olunmuş filmi ən yaxşı tarixi filmlərdən biridir. **C.15**- 251, 252; **C.27**- 95.

**529. Həsən Seyidov,** Həsən Nemət oğlu Seyidov (1932-2005 ) - dövlət xadimi. Azərbaycan Respublikasının Əməkdar mühəndisi. Müxtəlif məsul vəzifələrdə çalışmışdır. 1971-1981-ci illərdə Azərbaycan KP MK katibi, 1981-1987-ci illərdə Azərbaycan Respublikası Nazirlər Sovetinin Sədri olmuşdur. **C.20**- 341, 343.

**530. Həsənağa Salayev,** Həsənağa Dərya oğlu Salayev (1921-1981) - aktyor, Azərbaycan Respublikasının Xalq artisti. Səhnə fəaliyyətinə 1938-ci ildən Azərbaycan Dövlət Milli Dram Teatrında başlamışdır. Romantik məktəbə mənsub olan Salayev, əsasən güclü xarakterli obrazların ifaçısı kimi tanınmışdır. **C.17**- 190.

**531. Həsənağa Turabov,** Həsənağa Səttar oğlu Turabov (1938-2003) - görkəmli Azərbaycan aktyoru. Azərbaycan Respublikasının Xalq artisti. 1960-cı ildən Azərbaycan Milli Dram Teatrında çalışmışdır. H.Turabov milli, rus və dünya dramaturqların əsərlərinin tamaşalarında dolğun və yadda qalan obrazlar yaratmışdır. 1987-ci ildən ömrünün axırına kimi Milli Dram Teatrın bədii rəhbəri, direktoru və 1991-ci ildən Azərbaycan Teatr Xadimləri İttifaqının prezidenti olmuşdur. İki dəfə Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. **C.15**-96; **C.17**- 160; **C.27**- 96.

**532. Həsənbəy Zərdabi,** Məlikov Həsənbəy Səlimbəy oğlu (1842-1907) - Azərbaycan maarifçi-demokrat, təbiətşünas alim, publisist və pedaqoq. H.Zərdabi Azərbaycan professional teatrının yaradıcılarındandır. O, Həcəfbəy Vəzirov və Əsgər ağa Gorani ilə birlikdə 1873-cü ildə M.F.Axundovun "Hacı Qara" pyesini tamaşaya qoymuşdur.

Azərbaycan demokratik mətbuatının banisi olan Zərdabi "Əkinçi" qəzetini nəşr etdirmişdir (1875-1877). "Əkinçi" qəzetini nəşr etməsi ilə Zərdabi Azərbaycan xalqının maariflənməsinə çox böyük xidmət göstərmişdir. **C.17**- 188, 344; **C.26-** 87, 91; **C.27**- 107, 108, 214.

**533. Həsrət körpüsü,** Ümid körpüsü - Araz çayı üzərində körpü (uz. 286 metr). Türkiyə ilə Azərbaycan arasında sər-

həddə (Türkiyənin Dilucu və Azərbaycanın Sədərək bölgəsi) iki qardaş dövlət və ölkəni birləşdirir. 90-cı illərin əvvəllərində Naxçıvan MR-nin keçirdiyi iqtisadi çətinliklərin, xüsusilə nəqliyyat blokadasının ləğvində körpünün müstəsna rolu olmuşdur. **C.19**- 41; **C.22**- 208, 244, 325, 437, 438; **C.23**- 403, 409.

**534. Həzi Aslanov,** Həzi Əhəd oğlu Aslanov (1910-1945) - tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı. Böyük Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən H.Aslanov Stalinqrad vuruşmasında, 55-ci əlahiddə tank polku feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildə Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika Respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. H.Aslanov Mitağa şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasrna həlak olmuşdur. **C.15**- 272, 321; **C.16**- 86; **C.21**- 103; **C.27**- 99-111; **C.28**- 324.

**535. Həzrəti Hökumə**, Həkimə - VII əsrdə yaşamışdır. Təxminən 1257-ci ildə Şirvanşah Fərrux Zal tərəfindən Bibiheybətdə onun şərəfinə birinci türbə tikilmişdir. **C.16**- 229, 230, 231; **C.17**- 394; **C.19**- 369; **C.21**- 131.

**536. Həzrəti Məhəmməd (əleyhüssəlam),** Məhəmməd ibn Abdullah. (570/571-632) - İslamın banisi, siyasi və dövlət xadimi. İslama görə "Məhəmməd əleyhüssəlam" böyük peyğəmbər və "Allahın elçisi" sayılmış, "Qurani-Kərimi" xalqa çatdırmışdır. **C.15**- 170; **C.16**- 229, 230; **C.18**- 15; **C.19**- 326, 364; **C.22**- 172; **C.23**- 125.

**537. Həzrəti Zəhra məscidi -** Naxçıvan şəhərinin Sarvanlar məhəlləsində ibadətgah və memarlıq abidəsi. Xalq arasında "Heydər məscidi" kimi tanınır. Məscid Ayətullah Xamneinin və Heydər Əliyevin himayəsi ilə tikilmişdir. Ümumi sahəsi 6 min $km^2$-dir. Məscidin böyük ibadət salonu (3300 $m^2$) günbəzlə örtülmüşdür. Bu möhtəşəm abidənin layihəsində Şərq memarlıq ənənələrindən istifadə edilmişdir. **C.22**- 160-172.

**538. Hikmət Çetin** (d.1937) - Türkiyənin siyasi və dövlət xadimi. Ayrı-ayrı illərdə Türkiyə Respublikasının Xarici İş-

lər naziri, Baş nazirin müavini vəzifələrində çalışmışdır. 1997-1999-cu illərdə Türkiyə Böyük Millət Məclisinin sədri olmuşdur. **C.12**- 362; **C.18**- 102-103; **C.19**- 38-39, 47, 52, 62, 69-70, 77, 78.

**539. Hillari Klinton Potxem** (d.1947) - hüquqşünas, siyasi xadim. Prezident Klintonun həyat yoldaşı. 2001-ci ildən Nyu-York ştatından Amerika Senatına üzv seçilmişdir.Hazırda ABŞ-ın Dövlət katibi. **C.17**- 309.

**540. Hindistan**, Hindistan Respublikası - Cənubi Asiyada dövlət. Sahəsi 3,3 milyon km$^2$, əhalisi 953 milyon nəfərdir. Hindistan Millətlər Birliyi tərkibində Federativ Respublikadır. Dövlət başçısı Prezident, qanunverici hakimiyyət iki palatadan (Ştatlar Şurası və Xalq palatası) ibarət parlamentə məxsusdur. Hindistan inzibati cəhətlən 22 ştata və 9 müttəfiq əraziyə bölünür. Paytaxtı Dehli şəhəridir. **C.23**- 22; **C.24**- 302. 303.

**541. "Holokost"**(yəhudilərin İkinci Dünya müharibəsində kütləvi surətdə soyqırımı) - xatirə muzeyi - bax: Xolokost

**542. Homer -** əfsanəvi qədim yunan şairi. Şəxsiyyəti haqqında məlumat azdır. E.ə.XII-VII əsrlərdə yaşadığı ehtimal edilir. Antik mənbələrdə gəzərgi kor müğənni Homerin real obrazı fantastik uydurmalarla çulğaşır ki, bu da onun haqqında dürüst məlumatın olmadığını göstərir. Sonralar "İliada" və "Odisseya" epik poemalarının, habelə "Homer himnləri"nin müəllifliyi ona isnad edilmişdir. Homerin şəxsiyyəti və yaradıcılığı ilə bağlı geniş yayılmış və indiyədək həll olunmamış mübahisələr ədəbiyyatşünaslıqda "Homer" məsələsi adı almışdır. **C.26-** 314.

**543. Horadiz** - Azərbaycan Respublikası Füzuli rayonunda qəsəbə. Əhalisi 2877 nəfərdir. 1993-cü ildə erməni işğalçıları tərəfindən işğal edilmiş Horadiz altı ay sonra Azərbaycan ordusu tərəfindən azad edilmişdir. **C.27**- 237.

**544. Hökumə Billuri,** Hökumə İbrahim qızı Billuri (d. 1926) - Azərbaycanın Xalq şairi. İran Azərbaycanındakı milli azadlıq mübarizəsinin, vətənpərvərlik və beynəlmiləlçiliyin

tərənnümü şeirlərinin əsas mövzusudur. **C.15**- 229, 387; **C.25-** 314.

**545. Hökumə Qurbanova**, Hökumə Abbasəli qızı Qurbanova (1913-1988)- aktrisa. SSRİ Xalq artisti, M.F.Axundov ad. Respublika mükafatı laureatı. **C.10-** 55, 56; **C.17**- 190; **C.25-** 313.

**546. Höte,** İohann Volfranq (1749-1832) - böyük alman şairi, mütəfəkkir və təbiətşünas. Almaniyada Maarifçilik dövrü ədəbiyyatının ən böyük numayəndələrindən, yeni dövr alman ədəbiyyatının banilərindəndir. Höte yaradıcılığının şah əsəri olan "Faust" faciəsində Avropada Maarifçilik ideyalarının inkişafına yekun vurulmuşdur. **C.13**- 173.

**547. Humanite** - Fransada siyasi, ictimai qəzet. Fransa Kommunist Partiyasının orqanı. 1904-cü ildən nəşr olunur. **C.17**- 47.

**548. Hüseyn Abbaszadə,** Hüseyn Abbas oğlu Abbaszadə (1922-2007) - Azərbaycanın Xalq yazıçısı. Azərbaycan Yazıçılar Birliyinin katibi. Azərbaycan Dövlət mükafatı laureatıdır.Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.13**- 70, 225; **C.23**- 63-108.

**549. Hüseyn Arif,** Hüseyn Camal oğlu Hüseynzadə (1924-1992) - Azərbaycanın Xalq şairi. Gözəl lirik şeirlər yazmışdır. Azərbaycan Dövlət mükafatı laureatı. **C.13**- 70.

**550. Hüseyn Bin Talal** (1935-1999) - 1952-1999-cu illərdə İordaniya Kralı. **C.24**- 365-366; **C.28**- 48.

**551. Hüseyn Cavid,** Hüseyn Abdulla oğlu Rasizadə (1882-1941) - şair, dramaturq. XX əsr Azərbaycan mütərəqqi romantizminin banilərindən biri. O, lirik şeirlərin, lirik-epik poemaların, Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dram əsərlərinin müəllifidir. Azərbaycan xalqının ən dəyərli milli ziyalı nümayəndəlrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. **C.10**- 127, 360, 361; **C.13-** 31, 74, 83, 109, 125, 174; **C.17**- 189; **C.21**- 176, 177, 178, 179; **C.22**- 197, 262, 263, 274; **C.24-** 121; **C.26-** 89.

**552. Hüseyn Ərəblinski,** Hüseyn Məmməd oğlu Ərəblinski (1881-1919) - Azərbaycan aktyoru və rejissoru, Azərbaycan professional teatr sənətinin banilərindən biri. Onun yaradıcılığında milli teatr ənənələri ilə müasir teatr mədəniyyəti üzvü surətdə birləşmişdi. 1910-cu ildə Azərbaycan teatrında yaratdığı Otello obrazı Ərəblinski yaradıcılığının zirvəsi sayılır. **C.17**- 189.

**553. Hüseyn xan Kəlbəlı** xan oğlu Naxçıvanski (1863-1919) - hərbi xadim. Kəlbəlı xan Naxçıvanskinin oğlu, Ehsan xan Kəngərlinin nəvəsidir. Qafqazda və Rusiyanın müxtəlif şəhərlərində hərbi xidmətdə olan Hüseyn xan Kəlbəlıya polkovnik rütbəsi verilmişdir. Birinci Dünya müharibəsi cəbhəsində qazandığı qələbələrə və sərkərdəlik məharətinə görə 1916-cı ildə Hüseyn xana tam süvari qoşunu generalı rütbəsi verilmişdir. "Müqəddəs Georgi" ordeninin dörd dərəcəsi ilə, ikinci dərəcəli "Müqəddəs Aleksandr", "Müqəddəs Vladimir" və bir çox başqa ölkələrin yüksək dərəcəli ordenləri ilə təltif olunmuşdur. Qəbri Sankt-Peterburqdakı Aleksandr Nevski monastırının qəbiristanlığındadır. **C.16**- 83.

**554. Hüseyn Rəsulbəyov**, Hüseyn Cümşüd oğlu Rəsulbəyov (1917-1984) - hərbi xadim, artilleriya general-leytenantı. Böyük Vətən müharibəsi zamanı Odessa, Kerç, Şevastopol və Şimali Qafqazın müdafiəsində iştirak etmişdir. Müharibədən sonra Bakı Hava Hücumundan Müdafiə dairəsi qoşunlarında məsul hərbi vəzifələrdə xidmətdə olmuşdur. Azərbaycan Ali Sovetinin deputatı olmuşdur.**C.16**- 89.

**555. Hüseyn Seyidzadə,** Hüseyn Əli Oğlu Seyidzadə (1910-1979) - Azərbaycan kinorejissoru. Yaradıcılığa teatr aktyoru kimi başlamışdır. "O olmasın, bu olsun", "Yenilməz batalyon", "Dəli Kür", "Qaynana" bədii filmləri Seyidzadənin ən yaxşı rejissor işlərindəndir. **C.18**- 326.

**556. Hüseynağa Hacıbababəyov,** Hüseynağa Soltan oğlu Hacıbababəyov (1898-1972) - Azərbaycan müğənnisi. Azərbaycan Respublikasının Xalq artisti. 1916-1920-ci illərdə Azərbaycan müsiqi truppasında çıxış edən Hacıbababəyov,

əsasən qadın partiyalarının ifaçısı olmuşdur (Leyli, Əsli, Gülçöhrə, Çimnaz). Hacıbabəyov 1920-1960-cı illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. O, nadir tembrli gözəl səsə, virtuoz vokal texnikasına malik sənətkar idi. **C.17**- 191.

**557. Hüseynbala Əliyev,** Hüseynbala Əli oğlu Əliyev (1918-1941) - Böyük Vətən müharibəsi qəhrəmanı, qırıcı-təyyarəçi leytenant. Yeysk Hərbi Dəniz Təyyarəçilik məktəbini bitirmişdir. Müharibə başlayarkən Baltik Donanmasının hərbi hava qüvvələrində xidmət etmişdir. O döyüş uçuşu zamanı düşmənin 3 təyyarəsi ilə döyüşə girmiş, ölümcül yaralanmasına baxmayaraq 2 təyyarəni vurmuşdur. **C.16**- 86.

**558. Hüseynqulu Sarabski,** Hüseynqulu Məlik oğlu Rzayev (1879-1945) - Azərbaycan müğənnisi, aktyor, rejissor, pedaqoq, teatr xadimi. Azərbaycan professional müsiqili teatrının banilərindən biri, Azərbaycanın Xalq artisti.

Azərbaycan operasının yaranması və inkişafında Sarabskinin böyük xidməti var. Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasında Məcnun partiyasının ən gözəl ifaçısı olmuşdur. **C.17**- 189.

**559. Hüsni Mübarək,** Seyid Məhəmməd Hüsni Mübarək (d.1928) - Misir Ərəb Respublikasının görkəmli siyasi və dövlət xadimi. 1975-1981-ci illərdə Misir Ərəb Respublikasının vitse-prezidenti, 1981-ci ilin oktyabrından Prezidentidir. **C.13**- 316, 317; **C.21**- 60; **C.22**- 75; **C.23**- 21.

**560. Hyüston** - ABŞ-ın cənubunda şəhər və port. Texas ştatındadır. Əhalisi təqribən 2 milyon nəfərdir. Demək olar ki, dünyanın bütün ölkələri ilə biznes və ticarət əlaqələri saxlayır. Hyüston ABŞ-ın neft biznesinin mərkəzidir. **C.10-** 39; **C.11-** 5, 13, 247, 249, 274, 275, 253, 264, 278, 319; **C.12-** 124; **C.17-** 123, 125, 128; **C.18**- 301, 302; **C.20-** 224; **C.22**- 46, 427.

**561. Hyüston-Bakı Qardaşlaşmış** Şəhərlər Assosiasiyası - 1972-ci ildə Bakı və Hyüston şəhərlərinin əhalisinin bir-biri ilə dostluq və hərtərəfli əməkdaşlıq, sülh, tərksilah, həmçinin,

onların əlaqələrini daha da genişləndirmək məqsədilə yaradılmışdır. **C.11-** 292, 296.

**562. Hyüston qan mərkəzi** - Amerikada, eyni zamanda, dünyada ən məşhur tibb ocaqlarından biri. Mərkəzdə toplanan qan dünyanın 21 ölkəsinə, 161 tibb müəssisəsinə göndərilir. Mərkəzin 13 bölməsində 600 peşəkar işçi çalışır. **C.11-** 306.

**563. Hyüston tibb mərkəzi** - kardioloji xəstəliklərin müalicə mərkəzi. Dünyada ürəkköçürmə əməliyyatı ilk dəfə burada həyata keçirilmişdir (1966-cı ildə). Tibb mərkəzi son 50 ildə böyüyərək balaca bir korpusdan tibb şəhərciyinə çevrilmişdir. Mərkəzdə 60 min işçi çalışır. Müalicə ilə yanaşı böyük elmi-tədqiqat işləri də aparılır. Mərkəzin tərkibində fəaliyyət göstərən 2 tibb universitetində ildə 500-dən çox mütəxəssis hazırlanır. Mərkəzdə 4 min çarpayılıq bir neçə xəstəxana var. **C.11-** 308.

**564. Xaqani Şirvani,** Əfzələddin İbrahim İbn Əli Nəccar Şirvani (1126-1199) - Azərbaycan şairi, mütəfəkkir. Xaqani Azərbaycan ədəbiyyatının ən görkəmli simalarındandır. Xaqani Şirvaninin ədəbi irsi olduqca zəngindir. Onun epik poeziyanın ilk görkəmli nümunələrindən "Töhfət ül-İraqeyn" adlı məsnəvisi, "Mədain xərabələri" adlı məşhur fəlsəfi qəsidəsi, saf eşqi, məhəbbəti tərənnüm edən qəzəlləri, "Həbsiyyə" adlandırılan qəsidələri və mərsiyələri klassik Şərq ədəbiyyatında ən kamil əsərlərdir. **C.13-** 98, 107; **C.14-** 5; **C.15-** 184; **C.25-** 84.

**565. "Xalq" qəzeti** - Azərbaycan Respublikasında gündəlik siyasi, ictimai qəzet. 1919-cu ildən "Kommunist" adı ilə nəşr edilmişdir. 1991-ci ildən isə "Xalq" qəzeti adlanır. Qəzetin təsisçisi Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyətidir. **C.16-** 198; **C.23-** 102; **C.27-** 213.

**566. Xan** – bax: Xan Şuşinski.

**567. Xan Şuşinski,** İsfəndiyar Aslan oğlu Cavanşirov (1901-1979) - Azərbaycan xanəndəsi. Azərbaycan Respublikasının Xalq artisti. Xan Şuşinski müstəsna istedadı, geniş diapozonlu, gur və məlahətli səsi, yüksək ifaçılıq mədəniyyəti sayəsində dinləyicilərin böyük rəğbətini qazanmışdı. Azərbaycan

klassik xanəndələri ənənələrinin layiqli davamçılarından biri olan X.Şuşinski oxuduğu muğamlarda gəzişmə və zəngulələrdən məharətlə istifadə etmişdir. X.Şuşinski Azərbaycan xanəndəlik sənəti tarixində özünəməxsus məktəb yaratmışdır. **C.15-** 83.

**568. Xanımana Əlibəyli,** Xanımana Sabir qızı Əlibəyli (1923-2007) - Azərbaycan yazıçısı. Adətən, uşaqlar üçün yazmışdır. Əlibəylinin yazdığı şeir və poemalarında yüksək mənəvi keyfiyyətlər tərənnüm olunur. **C.25-** 314.

**569. Xankəndi** - Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1990-ci ildən erməni separatçıları tərəfindən işğal edilmişdir. **C.24**- 9; **C.27**- 221.

**570. Xanlar Hacıyev,** Xanlar İrşad Faiq oğlu Hacıyev (d.1966) - hüquqşünas. 1993-1998-ci illərdə Ali Məhkəmənin sədri, 1998-ildə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri olmuşdur. Hazırda Avropa Məhkəməsinin üzvüdür. **C.25-** 348; **C.28**- 358,

**571. Xanlar Vəliyev,** Xanlar Rüstəm oğlu Vəliyev (d.1955) - hüquqşünas, III dərəcəli Dövlət Ədliyyə müşaviri. 1989-1993-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1993-2000-ci illərdə Azərbaycan Respublikası Baş prokurorunun müavini olmuşdur. **C.26-** 406-431.

**572. Xatəmi**, Məhəmməd Xatəmi (d.1943) - İranın siyasi ictimai və dövlət xadimi. 1989-1992-ci illərdə İranın Mədəniyyət və İslam Orijentasiyası naziri olmuşdur. 1997-2005-ci illərdə İran İslam Respublikasının Prezidenti olmuşdur. **C.13**-328-330, 338, 343, 344, 379, 386, 388; **C.14**- 235, 236; **C.17**- 324; **C.19**- 141; **C.20**- 122, 123, 292, 293, 294, 295-296; **C.21**- 115, 117, 118, 122, 126, 129, 130, 168, 169, 170; **C.22**- 170, 171; **C.24-** 345; **C.25-** 28, 60; **C.28**- 91, 100-101.

**573. Xavyer Solana** (d.1942) - siyasi xadim, 1995-1999-cu illərdə NATO-nun Baş katibi, 1999-cu ilin iyulundan Avropa İttifaqı Şurasının Xarici Siyasət və Təhlükəsizlik üzrə Baş

katibidir. **C.10-** 367; **C.11-** 19, 20, 184; **C.17**- 409-422; **C.22**-342; **C.27**- 28.

**574. Xeyransabəyim,** Xeyran Nisəbəyim (?-1579) - Səfəvilər dövlətinin siyasi həyatında mühüm rol oynamış qadın. Səfəvi hökmdarı Məhəmməd Xudavəndənin (1578-1587) arvadı, I Şah Abbasın anası. **C.25-** 312.

**575. Xeyrəddin Qoca,** Xeyrəddin Sayəddin oğlu Qocayev (d.1950) - Azərbaycan jurnalisti. 1995-2000-ci illərdə Milli Məclisin deputatı, 1997-2002-ci illərdə isə Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının Baş konsulu olmuşdur. **C.13**- 68.

**576. Xədicəxanım Qazıyeva,** Xədicə Bahəddin qızı Qazıyeva (1909-1991) - aktrisa. Azərbaycan Respublikasının Əməkdar artisti. Naxçıvan Dövlət Musiqili Dram Teatrında fəaliyyət göstərmişdir. **C.17**- 143.

**577. Xələf Xələfov,** Xələf Alı oğlu Xələfov (d.1959) - diplomat. Moskvada ikiillik Ali Diplomatiya Akademiyasını bitirmişdir. 1997-ci ildən Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavinidir. **C.15**- 30.

**578. Xəlil Paşa,** Xəlil Kut (1881-1957) - Türkiyə hərbi xadimi, general. Türkiyənin Mosulda yerləşən 6-cı ordusunun, sonralar isə Şərq Ordular qrupunun komandanı olmuşdur. Azərbaycanda yaradılmış Qafqaz İslam Ordusunun təminat və təchizat işlərinə başçılıq etmişdir (1918). Bir müddət türk milliyyətçilərinin qeyri-rəsmi nümayəndəsi kimi Moskvada fəaliyyət göstərmişdir. **C.26-** 190.

**579. Xəlil Rza Ulusoy**, Xəlilov Xəlil Rza oğlu (1932-1994) - Azərbaycanın Xalq şairi, Azərbaycanda müstəqillik hərəkatının görkəmli öndərlərindən biri. **C.10**- 342; **C.13**- 70, 103, 121, 125, 128, 271; **C.19**- 128.

**580. Xəlilüllah II** (?-1535) - Şirvanşah (1524-1535), Dərbəndilər sülaləsindən idi. Səfəvilərdən asılı vəziyyətə düşən II Xəlilüllah I Şah İsmayılın qızı Pərixan xanımla evlənmişdi. **C.25-** 311.

**581. Xərrazi Seyid Kamal** (d.1945) - İranın siyasi və dövlət xadimi, pedaqoji elmləri doktoru, professor. 1998-2005-ci illərdə İran İslam Respublikasının Xarici İşlər naziri olmuşdur. Hazırda İran İslam Respublikasının Ali Məsləhət Şurasının üzvü və Strateji Tədqiqatlar Mərkəzinin rəhbəridir. **C.20**- 292, 293; **C.21**- 117; **C.24**- 329, 345.

**582. Xətib Təbrizi,** Yəhya Əli oğlu (1030-1109) - Azərbaycan şairi və ədəbiyyatşünası. Xətib Təbrizi həmçinin universal, ensiklopedik alim olmuş, bir çox elm sahəsinə dair tədqiqatları ilə şöhrət qazanmışdır. **C.14**- 5.

**583. Xəyyam,** Ömər Xəyyam (1048-1122-ci ildən sonra) - böyük fars və tacik şairi, riyaziyyatçı, filosof. O, riyaziyyata və fəlsəfəyə dair çoxlu əsərlərin, dünya şöhrəti qazanmış rübailərin müəllifidir. **C.15**- 184.

**584. Xoca Əhməd Yəsəvi** (1105-1166) - özbək şairi. Cığatay dilində sufi şeirinin görkəmli nümayəndəsi. **C.10-** 125.

**585. Xocalı soyqırımı.** - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmış, 1000 nəfərdən artıq adam öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. **C.10-** 154; **C.12-** 168; **C.13**- 72; **C.14-** 320-321; **C.15**- 258; **C.16**- 133; **C.19**- 206-210, 386; **C.20**- 41; **C.23**-104; **C.25-** 118, 177-179; **C.26-** 100.

**586. Xodzko Aleksandr Leonardoviç** (1804-1891) – polyak şairi, tərcüməçi, diplomat. Peterburqda M.C.Topçubaşovdan Şərq dillərini öyrənmişdir. 1842-ci ildə "Koroğlu" dastanının Cənubi Azərbaycan aşıqlarından topladığı variantını tərcümə edib Londonda ingilis dilində nəşr etdirmişdir. **C.12-** 42.

**587. Xolokost** - xatirə muzeyi. 1963-cü ildə Vaşinqtonda yaradılmışdır. Muzeyin məqsədi İkinci dünya müharibəsi illərində və əvvəllər yəhudi xalqına qarşı soyqırımın tarixini sənədləşdirmək, öyrənmək və informasiya yaymaqdır. Muzeyin divarındakı saxsı lövhədə soyqırıma məruz qalmış milyon

yarım yəhudi uşağının xatirəsi anılır. **C.20**- 60-64; **C.21**- 24; **C.23**- 335; **C.27**- 60.

**588. Xorvatiya Respublikası -** Cənubi Avropada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,8 milyon nəfərdir.İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Parlamentdir.Paytaxtı Zaqrebdir. **C.25-** 11; **C.27**- 367.

**589. Xoşbəxt Yusifzadə,** Xoşbəxt Bağı oğlu Yusifzadə (d.1930) - neftçi-geoloq, geologiya-minerologiya elmləri doktoru. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1994-2000-ci illərdə Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti, 2004-cü ildən isə birinci vitse-prezidentdir. Azərbaycan Respublikasının "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif olunmuşdur. **C.20**- 463, 465, 469; **C.21-** 8; **C.22**- 22, 23; **C.23**- 107, 226; **C.24**- 191; **C.25-** 294; **C.28**- 39.

**590. Xristian Demokrat İttifaqı** - Almaniyada siyasi partiya. 1950-ci ildə yaradılmışdır. Bundestaqda Xristian Sosial İttifaqı ilə birlikdə vahid fraksiyada çıxış edir. **C.27**- 17.

**591. Xruşşov Nikita Sergeyeviç** (1894-1971) - partiya və dövlət xadimi. 1953-1964-cü illərdə Sov. İKP MK-nın birinci katibi, 1958-1964-cü illərdə həmçinin SSRİ Nazirlər Sovetinin Sədri olmuşdur. **C.10-** 337; **C.17**- 108, 109; **C.19-** 67; **C.23**- 393.

**592. Xuan Karlos I** (d.1938) - İspaniya Kralı. İtaliyada anadan olmuşdur. 1975-ci ildə diktator Frankonun ölümündən sonra Kral elan edilmişdir. **C.17**- 240.

**593. Xudayberdiyev Nərməhəmməd Curayeviç** (d. 1928) - Özbəkistanın dövlət xadimi. 1971-1984-cü illərdə Özbəkistan SSR Nazirlər Sovetinin Sədri olmuşdur. **C.10**- 210.

**594. Xulio İqlesias** - məşhur ispan müğənnisi. İki dəfə Azərbaycanda olmuşdur. **C.21**- 63-64, 66-70.

**595. Xuraman Qasımova,** Xuraman Əkrəm qızı Qasımova (d.1951) - Azərbaycan müğənnisi. SSRİ və Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan Dövlət mükafatı laureatı. 1976-2006-cı illərdə Azərbaycan Dövlət Opera və

Balet Teatrının solisti olmuşdur. Kinofilmlərə də çəkilmişdir. Pedaqoji fəaliyyət göstərir. **C.18**- 222, 223, 224, 225; **C.26-** 206, 373-374.

**596. İbn Sina,** Əbu Əli Hüseyn İbn Abdullah (980-1037) - alim, filosof, həkim, Şərq aristotelizminin nümayəndəsi. "Tibb elminin qanunu" əsəri bir çox əsrlər boyu Şərqdə və Avropada tibb üzrə əsas dərslik olmuşdur. **C.10-** 203; **C.26-** 151.

**597. İbrahim Həmzəyev,** İbrahim Tağı oğlu Həmzəyev (1908-1982) - aktyor və rejissor. Azərbaycan Respublikasının Xalq artisti. 1937-ci ildən C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olmuşdur. 1940-cı ildən rejissor kimi də fəaliyyət göstərmişdir. **C.26-** 85.

**598. İbrahim xan,** İbrahimxəlil xan (1726-1806) - Qarabağ xanı. Pənahəli xanın (1747-1760) oğlu. İbrahim xanın hakimiyyəti illərində Qarabağ xanlığı güclənmiş, xanlığın ərazisi isə xeyli genişlənmişdi. İbrahim xan ailəsi ilə birlikdə işğalçı rus ordusunun mayoru Lisaneviçin dəstəsi tərəfindən xəyanətkarcasına öldürülmüşdür. **C.12**- 160-161.

**599. İbrahim Səfərov,** İbrahım Səfər oğlu Səfərov (1913-1998) - meşəçi alim, elmlər doktoru, professor, MEA-nın müxbir üzvü. Tədqiqatları meşəçilik, biogeosenologiya, meşələrin məhsuldarlığının artırılması, yeni meşələrin və tarlaqoruyucu meşə zolaqlarının salınması, təbiətin qorunması və s. haqqındadır. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.18**- 387.

**600. İbrahim Zeynalov,** İbrahim İsmayıl oğlu Zeynalov (1934-2008) - heykəltəraş. Azərbaycan Respublikası Əməkdar incəsənət xadimi. Azərbaycan Respublikası və SSRİ Dövlət mükafatları laureatı. Heykəltəraşlığın müxtəlif janrlarında əsərlər yaratmışdır. **C.19**- 437.

**601. İbrahimpaşa Dadaşov** (1926-1990) - Azərbaycan pəhləvanı, sərbəst güləş üzrə SSRİ çempionu, SSRİ Əməkdar idman ustası və Əməkdar məşqçisi. İ.Dadaşov sərbəst güləş üzrə Azərbaycan komandasının baş məşqçisi olmuşdur. **C.15**- 91.

**602. İcmalar palatası** - Böyük Britaniyada parlamentin aşağı palatası. İcmalar palatası ümumi, bərabər və birbaşa seçki yolu ilə 5 il müddətinə seçilir. İcmalar palatası hökumətin fəaliyyətinə nəzarət edir, ona etimad göstərir, qanun layihələrini müzakirə və qəbul edir. **C.19**- 178; **C.27**- 122.

**603. İçərişəhər** - Bakının qala divarları ilə əhatə olunan qədim hissəsi. Ərazisi 22 hektardır. İçərişəhər ərazisində iki mədəni təbəqə müəyyənləşdirilmişdir. XIV-XVII əsrləri əhatə edən üst təbəqədən düzbucaqlı və dördkünc yaşayış evlərinin qalıqları, VIII-XIII əsrlərə aid alt təbəqədən düzbucaqlı formalı kiçik otaqların qalıqları, quyular və s. aşkar edilmişdir. İçərişəhər orta əsrlərdə Bakının əsas mərkəzinə çevrilmiş, XII əsrdə burada ilk qala divarları çəkilmişdir. Bu divarlar 25-30 m dənizin içərisinə uzanaraq İçərişəhərin qarşısında qapalı liman əmələ gətirmişdi. İçərişəhərin üç əsas Şamaxı, Salyan və dəniz sahilinə açılan darvazası olmuşdur. İçərişəhərdəki Sınıqqala (1078), Qız qalası və s. abidələr İçərişəhərin əvvəllər dənizə yaxın sahədə inkişaf etdiyini göstərir. XV əsrdə Şirvanşahlar sarayı tikilmişdir. XVII əsrdə İçərişəhərdə çoxlu karvansara və ticarət binası inşa edilmişdi, XVIII əsrdə isə Xan sarayı tikilmiş, yeni su kəmərləri çəkilmişdi. XIX əsrdə və XX əsrin əvvəllərində İçərişəhərin plan quruluşu dəyişdirilmədən köhnə binaların yerində əsaslı daş binalar tikilmişdir. Bu zaman qala divarlarının ikinci sırası sökülmüş və yalnız Şamaxı darvazasının yanında 2-ci darvaza tikilmişdir (1888), Beləliklə, qoşa darvaza əmələ gəlmişdir. 1977-ci ildə İçərişəhər Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. **C.15**- 79-94, 133, 168; **C.19**- 436, 443.

**604. İhsan Doğramacı** (1915-2010) - türkdilli ölkələrin Milli Pediatriya Cəmiyyətləri Birliyinin fəxri prezidenti, elmlər doktoru, professor. 1963-1965-ci illərdə Ankarada Uşaq Sağlamlığı İnstitutunun direktoru, 1968-1973-cü illərdə Pediatorların Tibb Assosiyasının prezidenti, 1977-1993-cü illərdə institutun icraçı direktoru, 1992-ci ildən isə fəxri prezidentidir. 1959-cu ildən YUNİSEF-in İcraiyyə Komitəsinin üzvüdür. İki

dəfə Bilkənd Universitetinin sədri və rektoru olmuş, 1975-ci ildən isə universitetin fəxri rektorudur. **C.12**- 156, 158, 163, 164-165, 166, 170; **C.15**- 310-317; **C.19**- 26; **C.20**- 185-186, 187; **C.21**- 250; **C.23**- 249-250; **C.26-** 376-399, 400, 437-440; **C.28**- 318.

**605. II Abdıılla**, Abdulla bin Hüseyn (d.1962) - 1999-cu ildən İordaniyanın kralıdır. II Abdulla kvalifikasiyalı dalğıc, paraşütüst və pilotdur. **C.27**- 259; **C.28**- 47, 51.

**606. İkinci Dünya müharibəsi** (1939-1945) - Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci Dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi. 1940-cı il iyunun 10-da İtaliya Almaniyaya qoşuldu.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. Bununla da Böyük Vətən müharibəsi başlandı.

1942-1943-cü illərdə Sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı. 1944-cü il iyunun 6-da Avropada 2-ci cəbhə açıldı. Bunun da nəticəsində Fransa daxil olmaqla Mərkəzi və Cənub-Şərqi Avropa azad olundu.

1945-ci il mayın 2-də Sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorsda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci Dünya müharibəsi qurtardı. İkinci Dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. **C.15**- 6, 198, 207, 218, 271-274, 327, 354, 396; **C.16**- 86, 87, 96, 360, 376; **C.17**- 139, 165; **C.19**- 14, 66, 411, 430, 431, 455; **C.20**- 62, 157, 413; **C.21**-231, 411; **C.22**- 7, 108, 109, 198, 364, 382; **C.23**- 167, 308,

320; **C.24**- 70, 218, 410; **C.25-** 85, 301, 305, 306, 382; **C.26-** 229, 324; **C.27**- 43, 60, 99-111, 114; **C.28**- 6, 17, 180, 296, 301, 324.

**607. İqtisadi Əməkdaşhq Təşkilatı** - bax: EKO.

**608. İlham Əliyev,** İlham Heydər oğlu Əliyev (d.1961) - görkəmli ictimai-siyasi və dövlət xadimi, diplomat. 2003-cü ildən Azərbaycan Respublikasının Prezidenti. Prezident Heydər Əliyevin oğludur. 1994-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətüiin vitse-prezidenti, 1997-ci ildən həmin şirkətin birinci vitse-prezidenti olmuşdur. Azərbaycan Respublikasının neft strategiyasının həyata keçirilməsində mühüm xidmətləri vardır.

İlham Əliyev 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin (AMOK) prezidentidir. Azərbaycan idmançılarının mötəbər beynəlxalq yarışlarda uğurlar əldə etməsində AMOK-un prezidenti kimi böyük xidməti var. 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri olmuşdur.

Siyasi və dövlət xadimi kimi İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət və nüfuz qazanmış, bir neçə ölkənin ordenləri ilə təltif olunmuşdur. Ölkədə demokratik islahatlar aparılmasında, hüquqi dövlət quruculuğunda, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmlənməsində uğurlu xidmətlər göstərən İlham Əliyev Yeni Azərbaycan Partiyasının I qurultayında partiya sədrinin müavini, II qurultayında (2001) sədrin birinci müavini vəzifəsinə seçilmişdir. 2005-ci ilin martından isə Yeni Azərbaycan Partiyasının sədridir. 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin (1-2-ci çağırış) deputatı, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı olmuşdur. Azərbaycan haqqında, xüsusilə Ermənistanın ölkəmizə hərbi təcavüzü və onun nəticələri, erməni terrorizmi haqqında həqiqətlərin ən mötəbər beynəlxalq təşkilatlar vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasında müstəsna xidmətləri var. “Heydər Əliyev” ordeni ilə təltif olunmuşdur. **C.10-** 251; **C.11-** 8, 406; **C.15-** 321; **C.18-** 116, 412; **C.19-** 53, 55, 58, 80, 86;

**C.20**- 126, 143, 151, 184-185, 310, 337, 396; **C.21**- 329, 330, 331, 412; **C.22**- 20, 271; **C.23**- 17, 53, 226; **C.24**- 73, 74, 127, 150, 365, 420, 421, 422, 430; **C.25-** 128, 187, 188, 189, 190; **C.26-** 234, 238; **C.27**- 91-97, 179, 180, 199, 310, 405; **C.28**- 50, 51.

**609. İlyas Əfəndiyev,** İlyas Məhəmməd oğlu Əfəndiyev (1914-1996) - yazıçı, dramaturq. Azərbaycanın Xalq yazıçısı. İ.Əfəndiyevin dram əsərlərinin Azərbaycan Milli Dram Teatrının repertuarının zənginləşməsində müstəsna rolu var. Azərbaycan Dövət mükafatı laureatı. 1994-cü ildə 80 illiyi münasibətilə Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir. **C.12**- 156-163; **C.13**- 70, 125; **C.15**- 228; **C.17**- 132, 133, 190; **C.19**- 130; **C.26-** 326; **C.28**- 313, 320.

**610. İmadəddin Nəsimi,** əsl adı Seyid Əli (1369-1417) - böyük Azərbaycan şairi və mütəfəkkiri. İmadəddin Nəsimi adı ilə məşhurdur. Əsərlərini Azərbaycan, ərəb, fars dillərində yazmışdır. Hürufiliyi yaydığı üçün Hələbdə həbs olunmuş, "kafir", "dinsiz" elan edilərək ruhanilərin fitvası ilə vəhşicəsinə öldürülmüşdür. **C.10-** 128; **C.13**- 82, 98, 107, 331; **C.14**- 5; **C.15**- 184; **C.17**- 163, 342; **C.18**- 352, 357, 377, 378; **C.19**- 430, 432; **C.23**- 321; **C.24**- 113; **C.25-** 84; **C.28**- 271.

**611. İmam Əli ibn** Əbu Talib (598-661) - Məhəmməd əleyhüssəlamın əmisi oğlu və kürəkəni (qızı Fatimənin əri). İmam Əli İslam dinini ilk qəbul edənlərdən olmuş, müsəlmanların bütün vuruşmalarında iştirak etmiş, igidliyi ilə fərqlənmişdi. **C.15**- 93, 94.

**612. İmam Xomeyni,** Ruhulla Musavi (1903-1989) - 1979-cu ildən İran İslam Respublikasının başçısı, ayətüllah. 1964-cü ildə ölkədən qovulmuş, əvvəlcə İraqda, sonra isə Fransada mühacirətdə olmuşdur. 1979-cu ildə İrana qayıtmış, şah rejimini devirməyə və İslam Respublikasını qurmağa nail olmuş inqilaba başçılıq etmişdir. **C.14**- 234; **C.22**- 301; **C.25-** 57.

**613. İmam Mustafayev,** İmam Daşdəmir oğlu Mustafayev (1910-1997) - siyasi və elmi xadim. Biologiya elmləri dok-

toru, professor. Azərbaycan MEA-nın akademiki. Mustafayev müxtəlif illərdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı naziri, AKP MK katibi, AKP MK-nın 1-ci katibi vəzifələrində işləmişdir. SSRİ və Azərbaycan Ali Sovetlərinin deputatı olmuşdur. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.17**- 135.

**614. İmam Rza -** şiəlik məzhəbinə etiqad edənlərin səkkizinci imamı. **C.21-** 119, 131, 135, 177; **C.22**- 164.

**615. İmaməli Rəhmanov,** İmaməli Şərif oğlu Rəhmanov (d.1952) - Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1992-ci ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. **C.13**- 353-354, 396; **C.19**- 241; **C.23**- 49; **C.24**- 281-297.

**616. İmran Qasımov,** İmran Haşım oğlu Qasımov (1918-1981) yazıçı, dramaturq, publisist, ictimai xadim. Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin katibi (1961-1975), birinci katibi (1975), SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin katibi (1976), SSRİ Ali Sovetinin deputatı olmuşdur. **C.26**- 305.

**617. İncil** (müjdə, xeyir xəbər) - Bibliyanın xristianlığa aid hissəsi. İncildə, əsasən İsa peyğəmbərin və onun "möcüzələrinə" aid erkən xristianlıq əfsanələri toplanmışdır. İncilin harada tərtib olunması məsələsi mübahisəlidir. **C.23**- 125.

**618. İnquşetiya,** İnquşetiya Respublikası - Rusiya Federasiyası tərkibində respublika. Sahəsi 19,3 min km$^2$, əhalisi 313,3 min nəfərdir. Paytaxtı Nazran şəhəridir. **C.23**- 414, 419, 420.

**619. İNOQEYT** - neft və qazın Avropaya ixracı proqramı. **C.23**- 300, 301, 305, 306, 313, 315, 323; **C.24**- 330, 415; **C.25-** 208; **C.26-** 29.

**620. İnterfaks** - Moskvada müstəqil informasiya agentliyi. 1989-cu ildə yaradılmışdır. Rusiya və xarici kütləvi informasiya vasitələri, xarici dövlətlərin nümayəndəlikləri, dövlət, iqtisadiyyat və başqa təşkilatlar üçün siyasi, iqtisadi və müxtə-

lif informasiyalar yayır. **C.14**- 421; **C.15**- 239-242; **C.22**- 74, 407.

**621. İntibah,** Renessans - Qərbi və Mərkəzi Avropa ölkələrinin mədəniyyət tarixində orta əsr mədəniyyətindən yeni dövr mədəniyyətinə keçid dövrü. Renessans mədəniyyətinin mühüm xüsusiyyətləri onun dünyəvi xarakter daşımasında, humanist dünyagörüşü, antik mədəni irsə müraciəti və onu sanki "dirçəltməsindədir". Renessans İtaliyada XIV-XVI əsrlər, digər ölkələrdə XV əsrin sonu XVI əsrlərdə başlamışdır. Bəzi şərqşünaslar Renessansın Asiyada (Çin, Hindistan, İran), həmçinin Zaqafqaziyada olduğunu göstərirlər. **C.25-** 46.

**622. İoann Pavel II**, dünyəvi adı Karol Voytula (d. 1920) - ilahiyyat elmləri doktoru. 1523-cü ildən bəri qeyri-italyan mənşəli (polyak) ilk Roma papasıdır. Sülh və beynəlxalq gərginliyin zəiflədilməsində böyük xidmətləri var. II İoann Pavel 1978-ci ildən Poma papasıdır. Dünyanın bir çox ölkəsində, o cümlədən Prezident Heydər Əliyevin dəvəti ilə 2002-ci ildə Azərbaycanda rəsmi səfərdə olmuşdur. **C.12**- 202, 203, 238-240; **C.27**- 208.

**623. İon İliyesku** (d.1930) - Rumıniyanın siyasi və dövlət xadimi. 1989-cu ildə N.Çauşesku rejimi devrildikdən sonra ölkənin və dövlətin bütün məsuliyyətini öz üzərinə götürən Milli Dirçəliş Cəbhə Şurasına başçılıq edib. 1992-1996 və 2000-2004-cü illərdə Rumıniyanın Prezidentı. **C.16**- 211; **C.28** - 129, 133.

**624. İordaniya,** İordaniya Haşimilər Krallığı - Qərbi Asiyada dövlət. Sahəsi 89,4 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı Kral, qanunveri orqanı ikipalatalı Parlamentdir. Paytaxtı Ammandır. **C.24**- 365-366; **C.27**- 259; **C.28**- 47-51, 67.

**625. İpək yolu,** Böyük İpək Yolu - beynəlxalq tarixi tranzit ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVII əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini

birləşdirmişdir. Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur. XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə böyük maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi. TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya-Qafqaz-Avropa ticarət dəhlizinin - Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. **C.11-** 342; **C.12**- 5; **C.13-** 194; **C.14**- 283, 323, 340, 341, 359, 362, 363, 366, 369, 383, 388, 410, 411, 417, 425, 426, 438, 443, 450, 451; **C.15**- 144, 187, 190, 193, 194, 448; **C.16**- 14, 119, 142, 162, 187, 212, 340, 345, 350, 356, 371, 430, 431, 443, 484; **C.17**- 37, 38, 90, 94, 97, 99, 101, 105, 183, 243, 244-292, 411, 412, 414; **C.18**- 8, 67, 89-92, 204, 206, 363, 449, 468, 477; **C.19**- 156, 157, 350, 351, 352, 457; **C.20**- 23, 58, 70, 81, 82, 83, 84, 85, 94, 139, 182, 243, 275, 286, 329, 330, 351, 412; **C.21**- 11, 107, 147, 356, 388-389; **C.22**- 87, 105, 106, 148, 330, 347, 368, 369, 378; **C.23**- 164, 165, 227, 235, 236, 299, 301, 303, 313, 323; **C.24**- 162, 323, 329, 330, 338, 364, 376, 404, 405; **C.25**- 96, 97, 134, 208, 268, 369, 372, 393; **C.26-** 29, 45, 118, 143, 152, 153, 158, 201; **C.27**- 216; **C.28**- 95, 117, 118, 127, 135, 292, 295, 296.

**626. "İpoteka" -** krediti-dövlət tərəfindən vətəndaşların tikintisinin kreditləşdirilməsi. **C.16**- 468.

**627. İraq-Küveyt müharibəsi -** 1990-cı ilin avqustunda İraq ordusu Küveyti işğal etdi. 1991-ci ilin fevralında isə ABŞ başda olmaqla, çoxmillətli silahlı qüvvələr tərəfindən Küveyt azad edildi. Səddam Hüseyn məcbur olub öz hərbi silahlı qüvvələrini Küveytdən çıxartdı. **C.20**- 120.

**628. İran İslam İnqilabı** - İranın daxilində Milli Cəbhənin, xaricdən isə ruhanilərin Fransada mühacirətdə olan başçısı Ayətüllah Ruhulla Xomeyninin rəhbərlik etdiyi ümumxalq hərəkatı. Bu hərəkat getdikcə gücləndi və 1979-cu ildə Şah (Məhəmməd Rza Pəhləvi) ölkəni tərk etdi. Mühacirətdən vətənə qayıtmış imam Xomeyni İran İslam Respublikasını elan etdi. **C.14-** 234-237; **C.19**- 139-142; **C.21**- 170; **C.22**- 171; **C.25-** 57-61.

**629. İran,** İran İslam Respublikası - Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Dövlətdə ən yüksək rəsmi şəxs Prezidentdir. Hökuməti Baş nazir təşkil, Prezident isə təsdiq edir. **C.13**- 35, 36, 93, 127, 184, 309, 310, 311, 312-386, 426; **C.14-** 14, 80, 84, 228, 234, 237, 265, 363, 399, 404, 421, 427; **C.19-** 89, 139-142, 151, 391; **C.20**- 18, 66, 74, 105, 122, 123, 137, 160, 292-296, 419, 420, 463; **C.21**- 112-137, 165-179, 366; **C.22**- 24, 25, 29, 160-172, 184, 189, 198, 210, 247, 272, 299-306; **C.25-** 28, 29, 57-62, 84, 92, 101, 124, 126, 127, 251, 274, 303, 304; **C.27**- 17, 23, 35-58, 196, 198-203, 282; **C.28**-23, 24, 32, 35, 45, 70-106, 178, 231.

**630. İren Məlikova** (d.1917) - filologiya elmləri doktoru, professor. H.Zərdabinin nəvəsi. Petroqradda anadan olmuş, sonra isə valideynləri ilə xaricə mühacirət etmişdir. Hazırda Strasburqda yaşayır. Qərbi Avropada çıxan "Türkika" - türkologiya jurnalının baş redaktorudur. O, həmçinin xaricdə yaşayan azərbaycanlılar haqqında yazılmış memuarların müəllifidir. Bakı Dövlət Universitetinin fəxri doktorudur. **C.10**- 324-325.

**631. İrəvan xanlığı** - XVIII əsrin ortalarında Cənubi Qafqazda, keçmiş Çuxursəd bəylərbəyliyi ərazisində yaranmış müstəqil Azərbaycan feodal dövləti: Ağrıdağ düzənliyinin Göyçə gölü hövzəsini və Araz çayından cənub-qərbə doğru uzanan ərazini əhatə edirdi. Azərbaycanın cənub-qərbində yerləşən bu xanlıq paytaxtı İrəvan şəhəri olmaqla inzibati cəhətdən

15 mahala bölünürdü, İrəvan xanlığı 1747-1797-ci illərdə müstəqil dövlət olmuş, 1797-1828-ci illərdə İranın hakimiyyəti altında olmuşdur. Türkmənçay müqaviləsinə (1828) görə Rusiyanın tərkibinə keçmişdi. Bu zaman İrəvan xanlığı ərazisində 420-dən çox kənd dağıdılmış, 10 minlərlə azərbaycanlı əhali məhv edilmişdi. **C.22**- 195.

**632. İrəvan,** Rəvan, Erivan, Yerevan - orta əsrlərdə və yeni dövrdə (1918-ci ilin mayın 29-dək İrəvan) Azərbaycan şəhəri. XVI əsrin əvvəllərində Zəngi çayı sahilində dağlarla əhatə olunmuş düzənlikdə salınmışdır. İrəvan şəhəri dəfələrlə Səfəvi və Osmanlı qoşununun hücumlarına məruz qalmış, gah bu, gah da o biri dövlətin tərkibinə qatılmışdı. İkinci Rusiya-İran müharibəsi (1826-1828) dövründə, Türkmənçay müqaviləsinə (1828) əsasən, Rusiyaya birləşdirildi. XIX əsrin 20-30-cu illərində İran və Türkiyədən köçürülmüş çoxlu erməni İrəvanda yerləşdirilmişdi. 1918-ci ilin mayında Daşnaksutyun partiyası liderlərinin başçılığı ilə Ermənistan Respublikası yarandı. 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti hökuməti mayın 29-da keçirdiyi iclasında İrəvan şəhərini "paytaxtı" olmayan Ermənistan Respublikasına güzəştə getdi. **C.14**- 76; **C.15**- 329; **C.18**- 375; **C.19**- 144, 148, 152; **C.22**- 198, 286; **C.25-** 99, 130; **C.26-** 90.

**633. İrina Konstantinovna Arxipova** (d.1925) - rus müğənnisi. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Beynəlxalq Musiqi Xadimləri İttifaqının prezidenti. Dövlət və Lenin mükafatları laureatı. **C.13**- 294; **C.26-** 109-110; **C.27**- 164, 167.

**634. İrşad Əliyev,** İrşad Nadir oğlu Əliyev (d.1944) - 1992-1994-cü illərdə Respublika Qaçqınlar və Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin sədri, 1994-cü ildən 2004-cü ilə qədər Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri olmuşdur. Beyləqan rayonunun İcra başçısıdır. **C.10**- 381, 388, 405; **C.18**- 181; **C.22**- 304, 306.

**635. İsa, İusus Xristos** - xristianlığın əfsanəvi banisi. Xristianlığın təliminə görə İsa "allah insandır" və "allah oğlu-

dur". Rəvayətə görə İsa Roma imperatoru Avqustin dövründə Fələstinin Vileyem şəhərində doğulmuş İudeya, Qalleya, Samirə və s. yerlərdə yeni dini təbliğ etmiş, çarmıxa çəkilmiş, sonra dirilərək qeyb olmuşdur. İsaya etiqad xristianlığın əsas ehkamlarındandır. **C.23**- 125.

**636. İsa Həbibbəyli,** İsa Əkbər oğlu Həbibbəyli (d. l949) - ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor, Azərbaycan MEA-nın müxbir üzvü. Naxçıvan Dövlət Universitetinin rektorudur. Naxçıvan MR Ali Məclisinin (1-2 çağırış) deputatı olmuşdur. **C.22**- 186.

**637. İsa Hüseynov,** İsa Mustafa oğlu Hüseynov (d. 1928) - Azərbaycanın Xalq yazıçısı. Onlarla povest və romanlar müəllifidir. "Məhşər" tarixi romanı böyük Azərbaycan şairi İ.Nəsimiyə həsr olunmuşdur. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.13**- 70; **C.16**- 38-39; **C.17**- 155; **C.18**- 381; **C.19-** 129.

**638. İsa peyğəmbərin mövlud** günü-Milad bayramı - İsa peyğəmbərin anadan olması şərəfinə keçirilən xristian bayramı. Dekabrın 25-də qeyd edilir. Milad bayramının ilkin mənbəyi hər il qış günəş duruşu zamanı (21-25 dekabr) xilaskar allahın "doğulması" ilə əlaqədar keçirilən qədim bütpərəst mərasim bayramı olmuşdur. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişdir. Milad bayramı 431-ci ildə Efes kilsə yığıncağında qanuniləşdirilmişdir. **C.19**- 160, 162.

**639. İsa Qəmbər,** İsa Yunis oğlu Qəmbər (d.1957) - 1990-1995-ci illlərdə parlamentin deputatı, 1992-1993-cü illərdə parlamentin sədri olub. 1992-ci ildən Müsavat partiyasının başqanıdır. **C.17**- 67-70, 82; **C.22**- 281; **C.23**- 85, 188.

**640. İsa Nəcəfov,** İsa Əli oğlu Nəcəfov (d.1952) - hüquqşünas. 1990-1993-cü illərdə bir sıra məsul vəzifələrdə işləmişdir. 1993-2000-ci illərdə Naxçıvan Muxtar Respublikasının prokuroru vəzifəsində çalışmışdır. 1995-2000-ci illərdə Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini olmuşdur. **C.26-** 406-431.

**641. İsfəndiyar Vahabzada,** İsfəndiyar Bəxtiyar oğlu Vahabzada (d.1954) - filologiya elmləri doktoru, professor, diplomat. 1994-cü ildən bir çox məsul dövlət vəzifələrində çalışmışdır. Hazırda Azərbaycan Respublikasının Moldovada Səlahiyyətli və Fövqəladə səfiridır. **C.24**- 374.

**642. İsi Məlikzadə,** İsi Abbas oğlu Məlikzadə (1934-1995) - Azərbaycan yazıçısı. **C.13**- 70, 73.

**643. İslam İnkişaf Bankı** (İİB) - Beynəlxalq maliyyə institutu. İİB-nin əsası 1973-cü ilin dekabrında Ciddədə keçirilən müsəlman ölkələri maliyyə nazirlərinin konfransında qəbul olunmuş bəyannaməyə əsasən qoyulmuşdur. Bank islam, şəriət qaydalarına riayət edən ölkələrə maliyyə yardımı göstərir. Bankın 55 üzvü var. Azərbaycan Respublikası İslam İnkişaf Bankının 1991-ci ildən üzvüdür. **C.13**- 321; **C.17**- 275; **C.28**- 92.

**644. İslam Kərimov,** İslam Abduqəni oğlu Kərimov (d. 1938) - Özbəkistanın siyasi və dövlət xadimi. 1989-1990-cı illərdə Özbəkistan KP MK-nın birinci katibi olmuşdur. 1990-cı ildən Özbəkistan Respublikasının Prezidentidir. **C.13**- 309-386; **C.16**- 19, 23, 33-34; **C.17**- 94-95, 104, 105; **C.18**- 121, 125, 127, 397; **C.19**- 69, 78, 155, 156, 183, 241, 246, 347; **C.20**- 34, 81, 129; **C.21**- 222, 262, 263, 264, 410**; C.22**- 121; **C.24**- 189, 281-297; **C.26-** 169, 174; **C.28**- 82-90.

**645. İslam Konfransı Təşkilatı** (İKT) - 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu və Fələstin Azadlıq Təşkilatını birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. **C.14**- 9, 222, 224, 235; **C.15**- 405; **C.19**- 141; **C.20**- 190, 293, 295, 327; **C.21**- 60, 62, 115, 122, 124, 166, 170; **C.23**- 102; **C.27**- 46, 193, 194, 195, 196.

**646. İsmayıl Cəm** (1940-2007) - Türkiyənin siyasi və ictimai xadimi, 1997-2003-cü illərdə Türkiyə Respublikasının Xarici İşlər Naziri vəzifəsində işləmişdir. Türkiyə-Yunanıstan

münasibətlərinin yaxşılaşmasında mühüm rolu olmuşdur. **C.20**- 97; **C.24**- 186, 329, 362; **C.25-** 159, 164; **C.27**- 399-409.

**647. İsmayıl Dağıstanlı,** İsmayıl Yusif oğlu Hacıyev (1907-1980) - Azərbaycan aktyoru. SSRİ Xalq artisti, Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. 1938-ci ildən Azərbaycan Milli Dram Teatrının aktyoru olmuşdur. Çoxcəhətli aktyor olan Dağıstanlı müxtəlif xarakterli obrazlar qalereyası yaratmışdır. Dağıstanlı həm də kino aktyoru olmuşdur. **C.10-** 56; **C.17**- 190.

**648. İsmayıl Hidayətzadə,** İsmayıl Hüseyn oğlu Hidayətzadə (1901-1951) - Azərbaycan aktyoru, rejissor və teatr xadimi. Azərbaycanın Xalq artisti. Hidayətzadə istedadlı aktyor olmaqla yanaşı, həmçinin görkəmli rejissor idi. O, 1937-ci ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş rejissoru vəzifəsində çalışmışdır. **C.13**- 303; **C.17**- 190.

**649. "İsmayıl xan" hamamı** - XVIII əsrə aid Azərbaycan memarlıq abidəsi. Naxçıvan şəhərində, Azadlıq prospektində yerləşir. Şərq hamamları üslubunda tikilmişdir. **C.22**- 273.

**650. İsmayıl xan Ehsan** xan oğlu Naxçıvanski (1819-1918) - hərbi xadim. General-leytenant. Uzun müddət Qafqaz əlahiddə ordusunda xidmət etmişdir. 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsində göstərdiyi sərkərdəlik fəaliyyətinə görə süvari qoşunu general-mayoru rütbəsinə layiq görülmüşdür. Birinci və üçüncü dərəcəli "Müqəddəs Stanislav", üçüncü və dördüncü dərəcəli "Müqəddəs Vladimir", dördüncü dərəcəli "Müqəddəs Georgi" ordenləri ilə təltif olunmuşdur. **C.16**- 83.

**651. İsmayıl Osmanlı,** İsmayıl Osman oğlu Osmanlı (1902-1978)- aktyor. SSRİ Xalq artisti. O, 1929-cu ildən ömrünün axırınadək Azərbaycan Milli Dram Teatrının aktyoru olmuşdur. Onun ifası təbiiliyi, psixoloji təsirliliyi, milli koloriti ilə fərqlənmişdir. O, klassik və müasir müəlliflərin pyeslərində parlaq obrazlar qalereyası yaratmışdır. Osmanlı kino aktyoru kimi də məşhur idi. **C.10-** 56; **C.17**- 190.

**652. İsmayıl Şıxlı,** İsmayıl Qəhrəman oğlu Şıxlı (1919-1995) - istedadlı Azərbaycan yazıçısı, ictimai xadim. Azərbaycanın Xalq yazıçısı. İsmayıl Şıxlı məşhur "Dəli Kür" romanında psixoloji baxımdan dərin xarakterlər yaratmışdır. İsmayıl Şıxlı Azərbaycan Yazıçılar İttifaqının birinci katibi, Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.13**-22, 70; **C.17**- 134, 135; **C.24**- 116, 223.

**653. İspaniya** - Avropanın cənub-qərbində dövlət. Sahəsi 504,8 min km$^2$, əhalisi 39,3 milyon nəfərdir. İspaniya konstitusiyalı monarxiyadır. Dövlətin başçısı Kral, qanunverici orqanı - birpalatalı Parlament Korteslərdir. Ali icra orqanı sədrin başçılıq etdiyi Nazirlər Şurasıdır. Paytaxtı Madriddir. **C.21**- 63-64, 66-70.

**654. İsparta** - Türkiyənin cənub-qərbində şəhər. Əhalisi 51 min nəfərdir. Xalçaçılığın ən iri mərkəzlərindəndir. **C.23**-240, 252, 253, 256-268, 270, 271; **C.25-** 23, 54.

**655. İsrafil Məmmədov**, İsrafil Məhərrəm oğlu Məmmədov (1919-1946) - Sovet İttifaqı Qəhrəmanı. 1941-ci ildə Məmmədovun vzvodu Novqorod vilayətinin Rustınka kəndi yaxınlığında almanların 300 əsgər və zabitini qırmışdı. **C.16**-86; **C.21**- 103.

**656. İsrafilov Sərdar Qurban** oğlu (d.1946) - general-mayor. 1990-cı ildən Könüllü Hərbi Vətənpərvərlik Texniki İdman Cəmiyyəti Respublika Şurasının sədridir. **C.10**- 365.

**657. İsrail** - Yaxın Şərqdə dövlət. Sahəsi 20,8 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı Prezidentidir, onu birpalatalı Parlament (knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. **C.15**- 245-246; **C.23**- 122, 128, 152-153, 191, 330-336; **C.26-** 233, 245, 371, 372; **C.27**- 146-150.

**658. İssık-Kul** - Qırğızıstanın şimal-şərqində, Tyanşan dağlarında axarsız göl. Dünyada ən böyük dağ göllərindən biri.

Uzunluğu 178 km, eni 60 km-ə qədər, sahəsi 6236 km$^2$-dir. Dərinliyi 668 metrə çatır. İssık-Kul axarsız olduğu üçün şordur. **C.16**- 25, 26.

**659. İsveç,** İsveç Krallığı-Şimali Avropanın Skandinaviya yarımadasında dövlət. Sahəsi 450 min km$^2$, əhalisi 8,9 milyon nəfərdir.

İnzibati ərazisi 24 lena bölünur. Dövlət başçısı Kral, qanunverici orqanı Parlamentdir (riksdaq). Paytaxtı Stokholmdur. **C.28**- 19, 20, 363.

**660. İsveçrə,** İsveçrə Konfederasiyası - Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 7,1 milyon nəfərdir. Paytaxtı Bern şəhəridir. İnzibati cəhətdən 23 kantona bölünür. İsveçrə federatıv respublikadır. Dövlət başçısı birillik seçilən Prezidentdir. Qanunverici orqan iki palatadan ibarət Federal Məclisdir. **C.15**- 353, 354; **C.21**- 30-33, 199-203, 224, 238; **C.24**- 153, 323-381.

**661. İtaliya,** İtaliya Respublikası - Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min km$^2$, əhalisi 57,5 milyon nəfərdir. Paytaxtı Roma şəhəridir. İnzibati cəhətdən 20 vilayətə bölünür. **C.12**- 179-262; **C.16**- 5-8; **C.19**- 439-444; **C.27**- 27, 30, 37, 38, 41, 291, 421, 422, 431-435.

**662. İTAR-TASS** - Rusiya İnformasiya Teleqraf Agentliyi. 1992-ci ildə SİTA-nın bazası əsasında yaradılmışdır. **C.24**- 205.

**663. "İtoçu" şirkəti** - Yaponiyanın "İtoçu" korporasiyası 1958-ci ildə yaradılmışdır. Dünyanın 176 ölkəsində isə şirkətləri və firmaları var. "İtoçu" 1996-cı ilin avqustundan Bakıda fəaliyyət göstərir. "Xəzərin Azərbaycan sektorunun neft yataqlarının müştərək işlədilməsi və istifadə olunması haqqında" Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və dünyanın bir neçə iri şirkətləri ilə müqavilə imzalamışdır. **C.10**- 327; **C.13**- 182; **C.14**- 323, 325-326, 327-329, 334, 345, 356, 359,

365, 369, 381, 388, 402; **C.15**- 50; **C.18**- 37, 464, 465; **C.22**-146.

**664. İvanov İqor Sergeyeviç** (d.l945) - 1986-1989-cu illərdə SSRİ Xarıci İşlər Nazirliyinin ümumi katibliyində rəisin birinci müavini, 1989-1991-ci illərdə rəis, 1991-1993-cü illərdə Rusiya Federasiyasının İspaniyada səfiri, 1993-1998-ci illərdə Rusiya Xarici İşlər nazirinin birinci müavini, 1998-2004-cü illərdə Rusiya Federasiyasının Xarici İşlər naziri olmuşdur. **C.22**- 292, 395, 397; **C.23**- 35, 58, 156-158, 181, 191, 231.

**665. 28 may müstəqillik** günü - Azərbaycanın müstəqil respublika elan edildiyi gün. **C.10**- 125; **C.15**- 417; **C.20**- 169.

**666. İzmit,** İzmid, Qocaeli - Türkiyənin şimal-qərbində şəhər. Qocaeli ilinin inzibati mərkəzi. Mərmərə dənizi sahilində port. İzmit yaxınlığında Türkiyənin əsas hərbi dəniz bazası yerləşir. **C.23**- 8, 15, 260.

**667. İzzət Rüstəmov,** İzzət Əşrəf oğlu Rüstəmov (d. 1932) - fəlsəfə elmləri doktoru, professor. 1994-1998-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin müavini, "Qaçqınkom"un sədri olmuşdur. **C.18**- 193, 194, 196, 197, 198.

**668. "İzvestiya"** - Rusiya Federasiyasında gündəlik, siyasi qəzet. İlk nömrəsi 1917-ci ildə çıxmışdır. **C.15**- 154-162; **C.16**- 206, 207; **C.24**- 83, 87.

**669. Jak Şirak** (d.1932) - Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974-1976 və 1986-1988-ci illərdə Fransanın Baş Naziri, 1977-1995-ci illərdə Paris şəhərinin meri olmuşdur. 1974-1976-cı illərdə qollistlərin Respublikanın Müdafiəsi naminə Demokratik İttifaqı partiyasının Baş katibi, 1976-cı ildən Respublikanın Müdafiəsi naminə Birlik partiyasının sədridir. 1995-ci ildən Fransa Respublikasının Prezidentidir. **C.10**-21, 245, 376, 377, 412, 413; **C.12**- 104, 170, 295, 316-317, 330, 347; **C.13**- 123, 286; **C.14**- 157; **C.16**- 236, 237, 263, 264, 265; **C.18**- 212, 214; **C.20**- 25-28, 29-32, 56, 79-80, 87, 242, 307, 327, 399; **C.21**- 22, 46, 48, 54, 58, 334; **C.23**- 60, 76, 77, 171, 180, 196, 197, 198, 230, 338, 339, 356; **C.24**- 7, 19, 183; **C.25**-

157, 218; **C.26-** 213, 227, 228, 231; **C.27**- 116, 250, 291, 410; **C.28**- 401, 404, 408, 411, 412.

**670. Jan Kretyen (**d.1934) - Kanada siyasətçisi, 1993-2003-cü illərdə Kanadanın Baş naziri olmuşdur. Kanada Liberal partiyasının başçısı. **C.28**- 371.

**671. Jerar Filipp** (1922-1959) - görkəmli fransız aktyoru. Onun sənətində xüsusi cazibədarlıq var idi. Jerar Filippin yaratdığı obrazlar pafosu, romantizmi, temperamenti ilə həmişə fərqlənmişdir. "İdiot", "Gecə gözəlləri" və "Fanfan-Tülpan" filmlərində yaratdığı surətlər daha yadda qalandır. **C.22**- 141.

**672. Jorj Şampavo** (d.1939) - Portuqaliyanın siyasi xadimi. 1996-2006-cı illərdə Portuqaliya Respublikasının Prezidenti olmuşdur. **C.28**- 46.

**673. Kaikan toxuculuq sənaye** mərkəzi - bu mərkəz qədim Kiotonun rəmzi kimi şöhrət qazanmışdır. Vaxt ilə materikdən köçüb gəlmiş bir qrup yapon tərəfindən əsası qoyulan kiçik toxuculuq sexi sonradan böyük toxuculuq sənaye mərkəzinə çevrilmişdir. İndi Nişicin-Ori Kalkan təxminən 1000 kiçik şirkəti özündə birləşdirir. Hazırda "Nişicin" adı birləşmiş toxuculuq müəssisələrinin markasına çevrilmişdir. Birliyin çox geniş toxuculuq şəbəkəsi vardır. **C.14**- 466.

**674. Kalitski,** Kalitski Yan (d.1948) - ABŞ hökumətinin yeni müstəqillik qazanmış ölkələr üzrə energetika və ticarət məsələlərinə dair əlaqələndirici, ticarət nazirliyinin xüsusi müşaviridir. **C.25-** 139-151, 243-248.

**675. Kaliforniya** - ABŞ-ın qərbində ştat. Sahəsi 411 min $km^2$, əhalisi 31,9 milyon nəfərdir. İnzibati mərkəzi - Sakramento. **C.21**- 78, 80, 81, 83, 91, 93, 95, 96, 97, 98, 99.

**676. Kalyujnı Viktor İvanoviç** (d.1947) - neftçi mühəndis, diplomat. 1999-2000-ci illərdə Rusiya Federasiyası Yanacaq və Energetika naziri, 2000-ci ilin avqustundan 2004-cü ilə qədər Xarici İşlər nazirinin birinci müavini və Prezidentin Xəzər dənizi statusunun həlli üzrə xüsusi nümayəndəsi işləmişdir. 2004-cü ilin sentyabrından Rusiya Federasiyasının Latviyada Fövqəladə və Səlahiyyətli səfiridir. **C.23-** 35, 180.

**677. Kamal Xudaverdiyev,** Kamal Ağahüseyn oğlu Xudaverdiyev (d.1938) - Azərbaycanın Xalq artisti. "Qızıl dərviş" və "Humay" mükafatları laureatı. **C.13-** 173.

**678. Kamal Talıbzadə,** Kamal Abdulla Şaiq oğlu Talıbzadə (1923-2006) - ədəbiyyatşünas, tənqidçi. Filologiya elmləri doktoru, professor. Azərbaycan MEA-nın akademiki. Talıbzadə XX əsr Azərbaycan ədəbiyyatında romantizm probleminə ədəbi tənqidin inkişaf yollarına, Azərbaycan-rus ədəbi əlaqələrinə həsr olunmuş monoqrafiyaların, ədəbi-tənqidi məqalə, oçerk və portretlərin müəllifidir. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.17-** 160; **C.26-** 326.

**679. Kamerun,** Kamerun Respublikası - Mərkəzi Afrikada dövlət. Sahəsi 475,4 min km$^2$, əhalisi 13,6 milyon nəfərdir. İnzibati ərazisi 10 əyalətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Yaundadır. **C.27-** 239.

**680. Kamil Əliyev** (1921-2006) - təsviri sənət ustası. Azərbaycan Respublikasının Xalq rəssamı. 1990-cı ildən ömrünün sonuna kimi "Azərxalça" birliyinin rəhbəri olmuşdur. Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif olunmuşdur. **C.24-** 113.

**681. Kamil Nəcəfzadə,** Kamil Nəcəf oğlu Nəcəfzadə (d. 1929) - Azərbaycan Xalq rəssamı, Azərbaycan Dövlət mükafatı laureatı. Kino və teatr rəssamlığı, həmçinin boyakarlıq sahəsində fəaliyyət göstərir. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir. **C.24-** 119.

**682. Kamran Bağırov**, Kamran Məmməd oğlu Bağırov (d.1933-2001) - Azərbaycanın partiya və dövlət xadimi. l982-1988-ci illərdə Azərbaycan KP MK-nın birinci katibi olmuşdur. **C.12-** 344; **C.20-** 341, 342; **C.27-** 186; **C.28-** 272.

**683. Kamran Hüseynov,** Kamran Əsəd oğlu Hüseynov (1913-2006) - ictimai və dövlət xadimi. Müxtəlif illərdə Neftçala Rayon Partiya Komitəsinin birinci katibi, Sumqayıt Şəhər Partiya Komitəsinin birinci katibi, Respublika Həmkarlar Şurasının sədri, ÜİHİMŞ-in katibi, Azərbaycan SSR Nazirlər Sove-

tinin sədr müavini vəzifələrində çalışmışdır. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.19**- 259, 266, 267, 268.

**684. Kanada** - Şimali Amerikada dövlət. Sahəsi 9971 min km$^2$, əhalisi 29,6 milyon nəfərdir. Kanada 10 əyalətə və 3 əraziyə bölünmüş federasiyadır. Millətlər Birliyinə daxildir. Dövlət başçısı Böyük Britaniya Kraliçasıdır. Onu ölkədə general-qubernator əvəz edir. Qanunverici orqanı ikipalatalı (Senat və İcmalar palatası) Parlamentdir. Paytaxtı Ottavadır. **C.27**-121-134, 230; **C.28**-371,372.

**685. Kapitoli** - Vaşinqtonda, ABŞ Konqresinin iclaslarının keçirildiyi bina. 1793-1865-ci illərdə klassizm üslubunda inşa edilmişdir. ABŞ ştatlarının paytaxtlarında yerli qanunvericilik məclislərinin icmalarının keçirildiyi binalar da kapitoli adlanır. **C.11-**156, 159, 162, 164, 166, 168, 170, 172, 176; **C.12-**103; **C.20**- 155-166.

**686. Kapri** - Tirzen dənizində, Neapol körfəzinin cənubunda ada. **C.19**- 444; **C.27**- 432.

**687. Kardaşov Aleksandr Vasilyeviç,** Quskov Anatoli Mixailoviç, Kopılov Fyodor İvanoviç **-** 1953-1963-cü illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədrləri olmuşlar. **C.10-** 339, 340.

**688. Karl Qustav** XVI (d.I946) - 1973-cü ildən İsveçin Kralı. O, həmçinin "Ümumdünya təbiət" fondunun Prezidentidir. **C.28**- 19.

**689. Karmen Roman Lazareviç** (1906-1978) - rus kino operatoru, rejissor və ssenarist. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan Respublikası Əməkdar incəsənət xadimi. ABŞ-ın "Eyr saym interneyşl" kino şirkətinin sifarişi ilə çəkilmiş 20 seriyalı "Böyük Vətən müharibəsi ("Naməlum müharibə") televiziya kino-epopeyasının bədii rəhbəri olmuşdur. Bakı neftçilərindən bəhs edən "Xəzər neftçiləri haqqında dastan" (1953) və "Dənizi fəth edənlər" (1959) filmlərinə görə Lenin mükafatına layiq görülmüşdür. **C.22**- 58.

**690. Kaspian-Amerika Telekom** (KATEL) - Azərbaycan-Amerika birgə müəssisəsi. Azərbaycanda ilk simsiz telefon stansiyası. **C.20**- 7-9.

**691. Katerpillar** - İllinoys ştatında şirkət. 1925-ci ildə yaradılmışdır. Şirkət inşaat və qazma qurğuları, təbii qaz motorları və sənaye qaz turbinləri istehsal edir. Dizel motorları istehsalında dünyada birinci yeri tutur. **C.11-**328, 372.

**692. "Kazım Qarabəkir Paşa"** məscidi - Naxçıvan şəhərində ibadətgah və memarlıq abidəsi. 1918-1919-cu illərdə Naxçıvanın erməni təcavüzündən xilas edilməsində böyük şücaət və mərdlik göstərmiş, 1921-ci il Qars müqaviləsini imzalamış, M.K.Atatürkün silahdaşı, Şərq cəbhəsinin komandanı Kazım Qarabəkir Paşanın şərəfinə Türkiyə Diyanət İşləri Vaqfı tərəfindən inşa edilmişdir. **C.22**- 239-246, 291.

**693. Kazım Ziya,** Kazımzadə Kazım Səfər oğlu (1896-1956) - Azərbaycan aktyoru, pedaqoq; Azərbaycan Respublikasının Xalq artisti. SSRİ Dövlət mükafatı laureatı. K.Ziyanın yaradıcılığının yetkin dövrü Azərbaycan Dövlət Dram Teatrı ilə bağlı olmuşdur. K.Ziya yüksək aktyorluq texnikasına, aydın diksiyalı məlahətli səsə malik sənətkar idi. K.Ziya milli səhnə dilini sistemə salmış ilk Azərbaycan teatr xadimidir. **C.17**- 190; **C.26-** 85.

**694. Keldış Mstislav Vsevolodoviç** (1911-1978) - riyaziyyatçı, mexanik. SSRİ EA akademiki, Azərbaycan EA fəxri akademiki. Üç dəfə Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatı. 1961-1975-ci illərdə SSRI EA-nın prezidenti olmuşdur. **C.10**- 264.

**695. Kəbə** - müsəlmanların Məkkədə müqəddəs məbədi. "Qaradaş" Kəbədədir. Kəbə hələ qədimdən Hicazın bütpərəst tayfalarının məbədi olmuşdur. Müsəlmanlar Məkkəni tutduqdan sonra (630) bütlər məhv edildi və Kəbə müsəlmanların ziyarətgahına çevrildi. Kəbəni ziyarət edənlər "Hacı" adlanır. **C.17**- 402; **C.19**- 322, 323, 325; **C.28**- 179.

**696. Kəlbalı xan Ehsan** xan oğlu Naxçıvanski (?-1883) - hərbi xadim, general-mayor. Sonuncu Naxçıvan xanı Ehsan

xan Kəngərlinin oğlu, İsmayıl xan Naxçıvanskinin qardaşıdır. Krım müharibəsində (1853-1856) igidliklə vuruşmuş, 1855-ci ildə leyb-qvardiya Qusar polkuna komandir təyin olunmuşdur. 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsində böyük şücaət göstərmiş, üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordeni, iki "Müqəddəs Georgi" ordeni ilə təltif olunmuş, brilyantla bəzədilmiş qılıncla mükafatlandırılmışdır. **C.12-**160**; C.16**- 83.

**697. Kəlbəcər** - Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 $km^2$, əhalisi 40 003 min nəfərdir. 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. **C.23**- 101; **C.28**- 269, 329.

**698. Kəmaləddin Heydərov,** Kəmaləddin Fəttah oğlu Heydərov (d.1961) - gömrük xidməti general-polkovniki. 1995-2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, 2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar naziridir. **C.18**- 179; **C.26-** 239-265.

**699. Kərbala** - İraqda şəhər. Müsəlmanların müqəddəs şəhəri. Əsası VII əsrdə qoyulmuşdur. Məhəmməd əleyhüssalamın nəvəsi imam Hüseynin qəbri Kərbəladadır. Böyük Azərbaycan şairi Füzuli Kərbalada doğulmuş, orada yaşayıb-yaratmış və orada dəfn edilmişdir. **C.18**- 374.

**700. Kərim Kərimov,** Kərim Abbasəli oğlu Kərimov (1917-2003) - Azərbaycanın görkəmli hərbi xadimi general-leytenant. 25 il ərzində Kosmik Uçuşlar üzrə Dövlət Komissiyasına başçılıq etmiş K.Kərimovun adı keçmiş SSRİ-də kosmosun öyrənilməsi, bir çox nadir elmi-texniki layihələrin həyata keçirilməsi ilə sıx bağlı olmuşdur. O, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü, Sosialist Əməyi Qəhrəmanı, Lenin və SSRİ Dövlət mükafatları laureatı adlarına layiq görülmüşdür. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir. **C.13**- 176; **C.18**- 385.

**701. Kərimov Tofiq Mirzə** oğlu (1937-1995) - general-mayor. 1991-1992-ci illərdə Azərbaycan Respublikası Daxili İşlər naziri olmuşdur. **C.10-** 365.

**702. Kəşmir problemi** - Asiyada tarixi vilayət. Qədimdə və orta əsrlərdə Hindistan ərazisində yaranmış müxtəlif dövlət birləşmələrinin tərkibində olmuşdur. 1846-cı ildə ingilislər Kəşmiri işğal edib 7,5 milyon rupi ödənclə Sammi knyazlığına vermişlər. 1947-ci ilin avqustunda yaradılan müstəqil Hindistan dövləti Kəşmiri öz ərazisinə qatmağa çalışır. Hal-hazırda Kəşmirin şimal-qərbi Pakistanın, qalan hissəsi isə Hindistanın (1949) nəzarəti altındadır. 1956-cı ildə Kəşmir "Hindistan İttifaqının tərkib hissəsi" elan edildi. Hindistanla Pakistan arasında bir neçə dəfə hərbi münaqişə baş versə də bu problem hələ də öz həllini tapmamışdır. **C.28**- 78, 79, 80.

**703. Kioto** - 792-794-cü illərdə salınmış bu şəhər XIX əsrin 70-ci illərinədək Yaponiyanın paytaxtı olmuşdur. Ölkənin mərkəzində yerləşən Kioto əhalisinin sayına görə Yaponiyada 7-ci yeri tutur. Hazırda beynəlxalq turizm mərkəzi olan Kioto qədim memarlıq və boyakarlıq baxımından abidələr mərkəzidir. **C.14**- 459-464.

**704. Kinq Piter** (d.1944) - 1973-1993-cü illərdə müxtəlif vəzifələrdə olmuş, 1992-ci ildə Nyu-York ştatından Konqresin üzvü seçilmişdir. Respublikaçıdır. **C.23**- 236; **C.28**- 262.

**705. Kipr problemi -** 1974-cü ildə Yunanıstanda hakimiyyətə gəlmiş hərbi xunta Kiprin yunan irticaçıları ilə birlikdə Kipri Yunanıstana birləşdirmək məqsədilə ölkədə hərbi çevriliş etdilər və Prezident Makariosu hakimiyyətdən uzaqlaşdırdılar. Bundan narahat olan Türkiyə Respublikası Kiprin türk icmasını müdafiə etmək məqsədilə oraya hərbi qüvvələr yeritdi və türk icması yaşayan ərazini yunan irticaçılarından təmizlədi. 1975-ci ildə Türkiyə-Kipr administrasıyası bu ərazidə federativ türk dövləti - Kipr Respublikasını elan etdilər. 1983-cü ildə bu dövlətin qanunverici orqanı Şimali Kipr Türk dövləti (ŞKTR)-Kıbris elan etdi. **C.20**- 35.

**706. Kitabi-Dədə Qorqud** - Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi. "Kitabi-Dədə Qorqud" dastanının yaranmasından 1300 il keçir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanlarının hələlik XV-XVI əsr-

lərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) tapılmışdır. **C.10-** 69, 108, 131, 192; **C.13**- 31, 81, 399; **C.14**- 5; **C.15**- 311; **C.16**- 15, 17; **C.17**- 230, 243, 301; **C.19**- 167-177, 428, 438; **C.20**- 258; **C.22**-193, 194, 195; **C.25-** 311, 329-344, 428, 431; **C.26-** 107-108, 115-116, 119, 126, 131, 146, 147-148, 151, 157, 177-182, 183, 184, 189, 193-207, 209, 211, 212, 216, 217, 220, 221, 222, 237, 299-336, 362, 363, 394; **C.27**-335; **C.28** - 116, 190, 345.

**707. Kiyev şəhəri** - Ukrayna Respublikasının paytaxtı. VI əsrdə salınmışdır. IX-XII əsrlərdə Kiyev Rus dövlətinin mərkəzi idi. 1654-cü ildə Ukrayna Rusiya ilə yenidən birləşdikdən sonra Kiyev Ukraynanın iqtisadi və mədəni mərkəzi kimi inkişaf etmişdir. 1934-cü ildə Ukraynanın paytaxtı Xarkovdan Kiyevə köçürüldü. Kiyev Ukraynanın ən iri sənaye, mədəniyyət və elm mərkəzidir. **C.10-** 326; **C.25-** 235, 236, 274, 371, 384.

**708. KQB** - burada SSRİ Dövlət Təhlükəsizlik Komitəsi nəzərdə tutulur. **C.23**- 93; **C.27**- 177.

**709. Klivlend** - ABŞ-da şəhər. Klivlend ABŞ-ın sənaye, maliyyə-ticarət və mədəni mərkəzlərindən biri kimi tanınır. **C.20**- 166, 174-209, 224, 277, 300, 334, 335, 336, 350, 356, 358, 376; **C.21**- 78, 79, 80; **C.22**- 331, 355, 356, 357; **C.25-** 69, 160, 175, 183, 201, 301, 365; **C.26-** 172-176, 179, 198-199.

**710. Kobzon İosif Davıdoviç** (d.1937) - rus müqənnisi. SSRİ Dövlət mükafatı laureatı, SSRİ Xalq artisti. **C.10-** 47-51.

**711. Kofi Annan** (d.1938) - 1997-ci ildən Birləşmiş Millətlər Təşkilatının Baş katibidir. **C.13**- 382-384; **C.16**- 269; **C.20**- 429-431.

**712. Koisuro Matsuura** (d.1937) - 2005-ci ildən YU NESKO-nun Baş direktoru. **C.26-** 172-176, 179, 198-199.

**713. Kolbin Gennadi Vasilyeviç** (d.1927) - 1986-1989-cu illərdə Qazaxıstan KP MK-nın birinci katibi. Kolbinin Qazaxıstana birinci katib təyin olunması Qazaxıstan ictimaiyyəti tərəfindən narazılıqla qarşılanmış və milli zəmində ixtişaş-

lara səbəb olmuşdur. **C.10-** 75-76, 104; **C.17**- 46; **C.19**- 236, 237.

**714. Kolizey,** Kolossey yaxud Flanilər amfiteatrı - Qədim Roma memarlıq abidəsi (75-80), Qladiatorların döyüşü və başqa teatr tamaşaları üçün nəzərdə tutulmuşdu. **C.12**- 208.

**715. "Komsomolskaya pravda"** - qəzet. Rusiyada ən çox tirajlı mətbuat orqanlarından biri. Həftədə 6 dəfə Moskvada çap olunur. 1925-ci ilin mayından nəşr edilir. **C.10-** 72.

**716. Konoko** - beynəlxalq korporasiya. 1875-ci ildə yaradılmışdır. Dünyada özəl neft şirkətləri arasında 9-cu yeri tutur. Baş ofisi ABŞ-dadır. Dünyanın 25-dən çox ölkəsində fəaliyyət göstərir. 17 minə yaxın işçisi var. "Konoko" şirkəti neft yataqlarının kəşfiyyatı, işlənməsi, xam neft və qaz hasilatı, habelə yüksək qiymətli maye qaz almaq üçün qaz emalı ilə məşğuldur. Şirkət, eyni zamanda, neft emalı ilə məşğul olur və öz məhsullarının satışını həyata keçirir. **C.11-** 278; **C.16**- 293; **C.25-** 122, 145, 153.

**717. Konstansa** - Qara dəniz sahilində Rumıniyanın mühüm portu. Konstansada XVIII-XIX əsrlərdə tikilmiş məscid vardır. **C.16**- 149, 151; **C.28**- 131, 132, 135.

**718. Konstantin Vasilyeviç Totski** (d.1950) - general – leytenant. Hazırda Rusiya Federasıyası Sərhəd Qoşunları idarəsinin direktorudur. Totski 1989-1991-ci illərdə Azərbaycanda Lənkəranda sərhəd qoşunları idarəsinin rəisi olmuşdur. **C.28-** 21-29, 161, 227.

**719. Konstantinos Stefanopulos** (1926) - 1977-1980-ci illərdə Nazirlər Kabinetində Baş nazir olmuşdur, 1995-ci ildə Yunanıstanın Prezidenti seçilmişdir. **C.21**- 339.

**720. Kopılov Fyodor İvanoviç,** Quskov Anatoli Mixailoviç, Kardaşov Aleksandr Vasilyeviç **-** 1953-1963-cü illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədrləri olmuşlar. **C.10-** 339, 340.

**721. Koroğlu** - Azərbaycan, Yaxın Şərq və Orta Asiyada geniş yayılmış qəhrəmanlıq epopeyası. XVII əsr tarixçilərinin verdiyi məlumatda Koroğlunun və onun silahdaşlarının adı çəki-

lir. Zaman keçdikcə Koroğlu mərdliyinə, şücaətinə görə bir çox xalqın əfsanəvi qəhrəmanına çevrilmişdir. **C.10-** 120, 192; **C.12-** 42; **C.13**- 22, 301, 302, 303, 304; **C.14**- 5; **C.16**- 82; **C.19**- 173.

**722. Korzun Sergey** - "Exo Moskvı" müstəqil radiostansiyasının müxbiri. **C.10**- 284.

**723. Kosıgin Aleksey Nikolayeviç** (1904-1980) - Rusiyanın dövlət xadimi. Müxtəlif illərdə nazir, Sov. İKP MK Siyasi Bürosunun üzvü, 1964-1980-ci illərdə SSRİ Nazirlər Sovetinin Sədri olmuşdur. **C.17-** 108; **C.20**- 344, 345; **C.25-** 254, 255; **C.27**- 305, 328.

**724. Kosovo hadisələri** - 1999-cu ildə Serbiya hakimiyyəti tərəfindən Kosovoda yaşayan alban əhalisinə qarşı etnik zor tətbiq edilməyə başlandı. Bunun nəticəsində milyona yaxın dinc alban əhalisi vəhşicəsinə öldürüldü. Bunun qarşısını almaq üçün NATO hərbi qüvvələri işə qarışdı. Yuqoslaviya hərbi qüvvələri öz qoşunlarını Kosovodan çıxarmağa məcbur edildi və NATO sülh məramlı qüvvələri Kosovoya gətirildi. **C.19-** 70, 394; **C.20**- 37, 38, 40, 41, 42, 45, 46, 53, 99, 115, 117, 118, 119, 124, 136, 209, 227, 305, 427; **C.21**- 284, 303; **C.23**- 101; **C.24**- 132.

**725. Kotelnikov Vladimir Aleksandroviç** (1908-1984) - radiotexnika sahəsində alim. SSRİ EA akademiki, SSRİ Dövlət və Lenin mükafatları laureatı, iki dəfə Sosialist Əməyi Qəhrəmanı. 1970-1983-cü illərdə SSRİ EA-nın vitse-prezidenti olmuşdur. **C.10-** 264.

**726. Kozlariç Deyl Riçard** (d.1945) - Amerika diplomatı. 1994-1997-ci illərdə ABŞ-ın Azərbaycanda Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. **C.10-** 45; **C.11-** 187, 209; **C.15**- 21.

**727. Kraliça II Yelizaveta** (d.1926) - Vindzor sülaləsindən B.Britaniya kraliçası. 1952-ci ildə atası VI Georqun ölümündən sonra taxt-taca sahib olmuşdur. **C.10-** 230; **C.15**- 155; **C.16**- 71, 304, 332-336, 400, 441, 447, 454, 462; **C.28**- 146.

**728. Krasilnikov Vitali Sergeyeviç** (d.1920) - general-leytenant. 1969-1980-cı illərdə Azərbaycan SSR Nazirlər Soveti

yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olmuşdur. **C.10-** 341.

**729. Krasnovodsk** - Türkmənistanda, Xəzər dənizinin şimal sahilində liman. 1992-ci ildən Türkmənbaşı adlanır. **C.17**- 19, 37.

**730. Krım,** Krım Respublikası - Ukraynanın tərkibində respublika. Sahəsi 27 min km$^2$, əhalisi 2205,6 min nəfərdir. 1783-cü ildə Rusiyanın tərkibinə daxil edilmişdir. 1954-cü ildən isə Ukrayna Respublikası tərkibinə daxil edilmişdir. **C.15-** 434-453; **C.17**- 41, 46, 100, 106, 107, 110.

**731. Krit -** Yunanıstanın tərkibində, Aralıq dənizində ada. Sahəsi 8,3 min km$^2$, əhalisi 537,2 min nəfərdir. Krit qədim egey mədəniyyətinin mərkəzlərindən biridir. E.ə. 67-ci ildə Krit Roma tərəfindən işğal edilmişdi. 395-823, 961-1204-cü illərdə Bizansa, 823-961-ci illərdə ərəblərə məxsus idi. 1204-cü ildə Səlibçilər Kriti zəbt etmiş və Venetsiyaya satmışdılar. 1715-ci ildən Osmanlı imperiyasının tərkibində idi. 1898-ci ildə Krit böyük dövlətlərin "himayəsində" muxtariyyət aldı. 1913-cü ildən Yunanıstana məxsusdur. **C.20**- 446.

**732. Kuba,** Kuba Respublikası - Amerikada, Vest-Hinddə dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 11,1 milyon nəfərdir. Paytaxtı Havana şəhəridir. Dövlətin ali orqanı bir palatalı xalq hökumətinin Milli Assambleyasıdır. Dövlətin və hökumətin başçısı - Dövlət Şurasının sədridir. **C.20**- 298; **C.24**- 149.

**733. Kuçma Leonid Daniloviç** (d.1938) - Ukraynanın siyasi və dövlət xadimi. 1994-2005-ci illərdə Ukrayna Respublikasının Prezidenti olmuşdur. **C.10-** 290; **C.12-** 23, 24, 25, 289, 290, 374; **C.14**- 412; **C.15**- 163, 435, 444-446; **C.17**- 21, 22, 27-28, 34, 43, 44, 64, 66, 80-81, 82-86, 88-90, 96, 99, 100, 101, 102, 103, 104, 131, 169, 178; **C.20**- 15-22, 23-24, 324, 368-371; **C.21**- 111, 141, 142, 206, 208, 209, 210, 353, 354, 355, 410; **C.22**- 119, 343; **C.23**- 115, 191, 273, 275-276, 283, 285, 287; **C.24**- 281-297, 349, 408; **C.25-** 132, 367-406; **C.26-** 265, 285, 368; **C.27**- 240, 241, 243, 244, 245, 247; **C.28**- 226, 274.

**734. Kudryavtsev Vladimir Nikolayeviç** (d.1923) – hüquqşünas, akademik. Rusiya EA-nın vitse-prezidenti, Dövlət mükafatı laureatı. **C.25-** 361.

**735. Kunayev Dinmühəmməd Əhməd** oğlu (d.1912-1993) - Qazaxıstanın partiya və dövlət xadimi. Qazaxıstan EA akademiki. 1964-1986-cı illərdə Qazaxıstan KR MK-nın birinci katibi olmuşdur. **C.17**- 46; **C.19**- 237; **C.27**- 187.

**736. Kuril adaları -** Kamçatka yarımadası ilə Nokkaydo adaları arasında adalar qruru. Rusiya Federasiyasının Saxalin vilayətinin tərkibinə daxildir. Uzunluğu təqribən 1200 km, sahəsi təqribən 15,6 min km$^2$. 1855-ci ildə Rusiya-Yaponiya müqaviləsinə əsasən Kiril adaları Rusiya mülkiyyəti elan edildi. 1875-ci il müqaviləsinə əsasən Yaponiya idarəçiliyinə keçdi. Krım konfransının qərarı ilə 1945-ci ildə yenidən Rusiyaya qaytarıldı. **C.25-** 257.

**737. Kübra Fərəcova,** Kübra Yəhya qızı Fərəcova (1907-1988) - pediatr, tibb elmləri doktoru, professor. Müxtəlif illərdə Azərbaycan Xalq Səhiyyə Komissarının müavini, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan SSR Səhiyyə naziri, Ana və Uşaq Mühafizəsi İnstitutunun direktoru vəzifələrində çalışmışdır. Tədqiqatı, əsasən, uşaqların fiziki inkişafina, ana və uşaqların mühafizəsinə həsr olunmuşdu. **C.19**- 5-6.

**738. Küveyt,** Küveyt dövləti - Qərbi Asiyada dövlət. Sahəsi 1708 km$^2$, əhalisi 2 milyondan çoxdur. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı Əmirdir. Qanunverici orqan və hökumət Əmirə və birpalatalı Mili Məclisə tabedir. Paytaxtı əl-Küveytdir. **C.25-** 204.

**739. Qabil**, İmamverdiyev Qabil Allahverdi oğlu (1926-2007) - Azərbaycan şairi. Azərbaycan Respublikasının Xalq şairi. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.13**- 11-13, 36, 48, 70, 105; **C.17**- 145; **C.22**- 264; **C.23**- 63-108.

**740. Qafan** - XIII-XIV əsrlərdə Naxçıvan tüməninə daxil olmuş ərazi. Fəzlullah Rəşidəddinin "Azar və əhya" əsərində Qafanın Naxçıvana aid olduğu göstərilir. **C.14**- 75.

**741. Qafur Məmmədov**, Qafur Nəsir oğlu Məmmədov (1922-1942)-Sovet İttifaqı Qəhrəmanı. 1942-ci ildə Qafur Məmmədovun xidmət etdiyi batalyon Tuapse uğrunda gedən döyüşlərdə iştirak edirdi. Bu vuruşmada o, sinəsini qabağa verib komandirini ölümdən qurtarmışdı. **C.16**- 86.

**742. Qalatasaray** - Türkiyədə futbol klubu. 1905-ci ildə yaradılmışdır. **C.27**- 207.

**743. Qalina Pavlovna Vişnevskaya** (d.1926) - görkəmli rus müğənnisi, SSRİ Xalq artisti. M.Rostropoviçin arvadı. 1952-1974-cü illərdə Böyük Teatrın aparıcı solistlərindən biri olmuşdur. **C.16**-49.

**744. Qambiya,** Qambiya Respublikası - Qərbi Afrikada dövlət. Sahəsi 11,3 min $km^2$, əhalisi 1148 min nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı Prezidentdir. Qanunverici orqanı Nümayəndələr Palatasıdır. Paytaxtı Bansuadır. **C.25-** 181.

**745. Qara Dəniz Ölkələri** İqtisadi Əməkdaşlıq Təşkilatı - 1992-ci ildə İstanbul Zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. **C.14**- 9, 96; **C.15**- 434-453; **C.16**- 160; **C.17**- 22, 106, 275, 290; **C.21**- 355-357, 363; **C.23**- 78, 141-142; **C.28**- 92.

**746. Qara Qarayev,** Qara Əbulfəz oğlu Qarayev (1918-1982) - böyük Azərbaycan bəstəkarı. Sosialist Əməyi Qəhrəmanı SSRİ Xalq artisti, SSRİ Dövlət və Lenin mükafatları laureatı idi. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Qarayevin müsiqi dili sahəsinə gətirdiyi yeniliklər Azərbaycan musiqisinin inkişafında mühüm rol

oynamışdır. **C.12-** 357; **C.15-** 318, 332; **C.16-** 59, 63; **C.17-** 163, 191, 192; **C.18-** 278, 382; **C.21-** 103; **C.27-** 323.

**747. Qarabağlar türbəsi** - orta əsrlərə aid Azərbaycan memarlıq abidəsi. Naxçıvan Muxtar Respublikasının Qarabağlar kəndindədir.Türbədən başqa, burada qoşa minarə və onların arasında yerləşmiş dini binanın qalıqları var. Qoşa minarənin XII əsrin sonu - XIII əsrin əvvəllərində tikildiyi ehtimal olunur. Minarələri bir-birinə bağlayan baştaq isə XIV əsrə aiddir. Baştağın üzərində Elxanı hökmdarı Hülaku xanın arvadı Quti xatunun (Qutuy xatun) adı yazıldığından onun Quti xatunun şərəfinə tikildiyi guman edilir. **C.22-** 271.

**748. Qaravəlli** - Azərbaycan şifahi xalq ədəbiyyatında novellavarı nağıl janrının bir növü. Mövzusu əsasən, yumoristik və satirik məişət səhnələrindən, qədim mərasimlərdən götürülür. Qaravəllidə mükalimə və musiqidən başqa rəqs, şeir, gözbağlıca, hoqqabazlıq səhnələri də olur. Qaravəlli teatrının personajları Koca və Keçəldir. **C.17-** 188.

**749. Qars müqaviləsi** (1921) - Azərbaycan, Ermənistan və Gürcüstan Sovet Sosialist Respubükaları ilə Türkiyə, RSF SR-in iştirakı ilə oktyabrın 13-də Qarsda bağlanmışdır. Qars müqaviləsinin 5-ci maddəsi və 3-cü əlavəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi, onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi. Qeyd olunan maddədə dürüst və konkret göstərilirdi: "Türkiyə hökuməti, Sovet Ermənistanı və Azərbaycan hökumətləri razıdırlar ki, indiki müqavilənin III əlavəsində göstərilən sərhədlərdə Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edir". Qars müqaviləsi beynəlxalq müqavilə kimi Naxçıvanın Azərbaycanın tərkibində müxtar ərazi statusunu təsbit etmişdir. Təsadüfi deyildir ki, Naxçıvan MR-in təhlükəsizliyi hədələnəndə Qars müqaviləsi mühüm tarixi sənəd olmaqla onun taleyinin qarantı kimi gündəliyə gəlir. **C.14-** 77, 78, 79, 88, 263; **C.19-** 144, 150, 153; **C.22-** 158, 243, 244, 249, 290.

**750. Qazax müəllimlər seminariyası -** Azərbaycanda müəllim hazırlayan ilk tədris müəssisələrindən biri. İlk direk-

toru F.B.Köçərli olmuşdur. Seminariyada ana dili, ədəbiyyat, rus dili, pedaqogika, psixologiya, riyaziyyat, tarix, coğrafiya tədris edilirdi. Seminariyanın Azərbaycanda xalq maarifinin inkişafında mühüm rolu olmuşdur. **C.22**- 297; **C.24**- 115.

**751. Qazaxıstanda 1986-cı il** hadisələri - G.V.Kolbinin Qazaxıstanda birinci katib təyin olunması Qazaxıstan gəncləri tərəfindən narazılıqla qarşılanmış və milli zəmində toqquşmaya səbəb olmuşdur. **C.19**- 237.

**752. Qazaxıstan Parlamenti** 1990-cı ildə seçilmişdir. İki palatası - Senatı və Məclisi vardır. Buraya deputatlar çoxpartiyalılıq sistemi ilə seçilirlər. **C.10-** 91, 129.

**753. Qazaxıstan Respublikası** - Avroasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min km$^2$, əhalisi 16 679 min nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı - Prezident, qanunvericilik orqanı birpalatalı Ali Sovetdır. **C.16**- 10-37, 150, 203, 221, 222; **C.18**- 85-88, 107, 108, 121, 122, 123, 124, 125, 127, 128, 135, 142, 144, 159, 163, 373; **C.21**- 7, 107, 241-242, 410; **C.25-** 55, 92, 93, 126, 134, 146, 251, 263, 337, 343; **C.26-** 115, 144, 145, 156-182, 202, 217, 244, 245, 265, 285, 363, 395.

**754. Qədir Hüseynov,** Qədir Bəhruz oğlu Hüseynov (d. 1986) - beynəlxalq qrossmeyster. Gənclər arasında Avropa şahmat çempionatının mükafatçısıdır. **C.18**- 446-447.

**755. Qəmər Almaszadə,** Qəmər Hacağa qızı Almaszadə (1915-2006) - Azərbaycan balet artisti, baletmeyster və pedaqoq, ilk azərbaycanlı balerina. Azərbaycan və SSRİ Xalq artisti. SSRİ Dövlət mükafatı laureatıdır. Azərbaycan balet məktəbinin yaradıcılarından olan Almaszadənin sənətkarlığı klassik xoreoqrafiya ənənələri ilə xalq rəqs yaradıcılığı xüsusiyyətlərinin vəhdətinə əsaslanmışdır. Azərbaycan Dövlət Filarmoniyası Rəqs ansamblının təşkilatçılarındandır. **C.15**- 368; **C.17**- 136, 190; **C.25-** 313, 325, 326; **C.26-** 438.

**756. Qəmərli**, Vedi, Zəngibasar, Uluxanlı, Zəngəzur, Sisyan, Gorus, Qafan - Ermənistanda azərbaycanlıların qədim yaşayış məskənləri. Türkmənçay müqaviləsinə (1828) əsasən

İran və Türkiyədən Qərbi Azərbaycan torpaqlarına kütləvi surətdə ermənilər köçürüldü. Bunun nəticəsində bu ərazilərin etnik tərkibi əsaslı surətdə dəyişdi. Son olaraq 1988-1990-cı illərdə azərbaycanlılar öz ata-baba yurdlarından erməni millətçiləri tərəfindən çıxarıldılar. **C.21**- 83, 84.

**757. Qətər,** Qətər dövləti - Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 11min $km^2$, əhalisi 59 min nəfərdir. Dövlət başçısı Əmirdir. Paytaxtı Dohadır. **C.27**- 193-197.

**758. Qətran Təbrizi,** Əbu Mənsur (1012-1088) - böyük Azərbaycan şairi. Təbrizi aşiqanə seirləri, gözəl təbiət təsvirləri ilə Azərbaycan poeziyasına yenilik gətirmişdir. Yaradıcılığında hökmdarlara həsr edilmiş qəsidələr mühüm yer tutur. **C.14-** 5; **C.15**- 184; **C.18**- 352.

**759. Qəzənfər Əkbərov,** Qəzənfər Qulam oğlu Əkbərov (1917-1944) - Sovet İttifaqı Qəhrəmanı, baş serjant. Ukraynanın, Belorusiyanın düşməndən azad edilməsində iştirak etmiş, 1944-cü ilin avqustunda Volojin şəhəri ətrafında alman faşistləri ilə döyüşdə qəhrəmancasına həlak olmuşdur. **C.22**- 257.

**760. Qəzənfər Xalıqov,** Qəzənfər Ələkbər oğlu Xalıqov (1898-1981) - Azərbaycan Respublikasının Xalq rəssamı. Boyakarlıq, qrafika və teatr rəssamlığı sahəsində fəaliyyət göstərmişdir. Nizami Gəncəvinin 800 illiyi ilə əlaqədar Xalıqov dahi şairin portretini yaratmışdır. Xalıqov Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin interyer tərtibatı müəlliflərindəndir. **C.19**- 437.

**761. Qırmızı körpü,** Sınıq körpü - Azərbaycan Respublikasının Qazax rayonunda orta əsr memarlıq abidəsi. Qazax-Tbilisi yolunda Xramçayın üzərində salınmışdır (XII əsr). Dörd aşırımlı körpünün ümumı uzunluğu 175 m, keçid hissədə eni 4,3 m, girəcəyində isə 12,4 m-dir. Qırmızı körpünün hansı xalqa (Azərbaycan, cürcü) mənsub olması mübahisəyə səbəb olsa da memarlıq formaları və işlənmə xüsusiyyətləri onun sırf Azərbaycan memarlığına aidliyini göstərir. **C.18**- 5-10, 121, 412, 454.

**762. Qızıl Arslan,** Osman Müzəffərəddin (?-1191) - Eldəgəzlər sülaləsinin hökmdarı (1186-1191), atabəy, Şəmsəddin Eldəgəzin oğlu. Qızıl Arslan zamanında Eldəgəzlər dövləti daha da gücləndi. Hətta Şirvanşahlar da Eldəgəzlərin vassallığını qəbul etdi. Şimali və Cənubi Azərbaycan ərazisinin vahid bir dövlət daxilində birləşməsi iqtisadiyyatın, elm və mədəniyyətin inkişafına şərait yaratdı. **C.14**- 5; **C.25-** 311.

**763. Qızıl məbəd** - 1394-cü ildə Yaponiyanın III imperatoru Sequn Yoşimitsu taxt-tacdan əl çəkdikdən sonra ömrünü sakit bir guşədə başa vurmağı qərara almış və Qızıl məbədin tikintisinə başlamışdır. Yoşimitsunun vəfatından sonra imperator Kinkaki bu məbədin tikintisini başa çatdırmışdır. Məbədin hər mərtəbəsinin öz adı vardır və özünəməxsus bəzədilmişdir. Binanın ikinci və üçüncü mərtəbələri, üzərinə yapon lakı çəkilmiş nazik qızıl təbəqə ilə örtülmüşdür. Qızıl məbəd Yaponiyanın nadir incilərindən biridir. **C.14**- 463.

**764. "Qobustan"** - rüblük incəsənət toplusu. 1969-cu ildən Bakıda nəşr edilir. Jurnalda Azərbaycan və dünya incəsənətinin korifeyləri haqqında məqalələr, bədii yazılar, müsahibələr verilir. "Qobustan"da bədii yaradıcılığın müxtəlif sahələri ilə yanaşı, estetika, incəsənət tarixi və nəzəriyyəsi problemləri də əks olunur. **C.13**- 8, 73, 75, 90, 126, 226; **C.15**- 53; **C.19**- 23, 128, 129; **C.23**- 69; **C.28**- 194.

**765. Qoqol Nikolay Vasilyeviç** (1809-1852) - məşhur rus yazıçısı, dramaturq. Qoqol rus ədəbiyyatında tənqidi realizmin möhkəmlənməsi və inkişafında müstəsna rol oynamışdır. **C.13**- 73.

**766. Qonçəbəyim** (1827-?) - Azərbaycan şairəsi, sonuncu Naxçıvan xanı Ehsan xan Kəngərlinin qızı. "Qonçeyi-ülfət" ədəbi məclisinin iştirakçılarından olmuşdur. Qoncəbəyim nakam məhəbbət mövzusunda lirik şeirlər müəllifidir. **C.25**- 312.

**767. Qorbaçov Mixail Sergeyeviç** (d.1931) - SSRİ-nin partiya və dövlət xadimi. 1985-1991-ci illərdə Sov.İKP MK-nın Baş katibi, 1990-1991-ci illərdə SSRİ-nin ilk və son Prezidenti.

Qorbaçov fəaliyyəti dövründə "yenidənqurma"adı ilə "aşkarlıq və demokratiya" siyasi xəttini, "humanist, demokratik sosializm" şüarını meydana atdı. Sovet totalitar rejimi ilə uyuşmayan "yenidənqurma" ölkəni dərin siyasi və iqtisadi böhrana saldı. Qorbaçovun milli münaqişələrə səbəb olan siyasəti, xüsusən türk respublikalarına Azərbaycana qarşı qərəzli, düşmənçilik mövqeyi ilə səciyyələnirdi. Ermənilərin Azərbaycana olan torpaq iddialarını dəstəkləyən Qorbaçov 1990-cı ilin yanvarında Bakıda baş verən "Qanlı Yanvar" faciəsinin, həmçinin Tbilisi və Vilnüsdakı qanlı hadisələrin təşkilatçısı və günahkarıdır. **C.10-** 76, 103**,** 104, 112, 114, 115, 207, 324; **C.11-** 127, 153, 353, 402**; C.12-** 78, 89, 223, 224, 225; **C.13-** 119, 120, 121; **C.14**- 165, 262, 400, 405, 430, 485, 491, 497; **C.15**- 61, 387, 399; **C.16**- 201, 226, 227, 287, 419; **C.17**- 44, 45, 46, 47,49, 62, 104, 108, 109, 110, 111, 162, 353; **C.18-** 243; **C.19-** 65, 66, 67, 236, 237, 238, 469; **C.20**- 37, 344; **C.21-** 82, 332; **C.22-** 66, 67, 202; **C.23-** 99, 100, 125; **C.24-** 50, 92, 93, 221, 406; **C.25-** 255; **C.27-** 290; **C.28-** 90, 223, 224, 260, 313; **C.20**- 37, 344; **C.21**- 82, 332; **C.22**- 66, 67, 202; **C.23-** 99, 100, 125; **C.24**- 53, 224; **C.25-** 255; **C.27**- 290; **C.28**- 90, 223, 224, 260, 313.

**768. Qorelovski İvan İvanoviç** (d.1940) - general-leytenant. 1988-1989-cu illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olmuşdur. **C.10-** 342, 346.

**769. Qori seminariyası,** Zaqafqaziya (Qori) müəllimlər seminariyası - Zaqafqaziyanın, əsasən, yerli əhalisindən ibtidai məktəb müəllimi hazırlayan orta pedaqoji təhsil müəssisəsi. 1876-cı ildə Qoridə açılmışdı.

Seminariyanın Azərbaycan şöbəsi 1879-cu ildə fəaliyyətə başlamışdı. Azərbaycan şöbəsinin yaradılmasında M. F. Axundovun böyük rolu olmuşdur. Qori seminariyasında təhsil rus dilində idi. Azərbaycan dili isə yalnız Azərbaycan şöbəsində fənn kimi tədris edilirdi. Qori seminariyası Zaqafqaziya xalqlarının, o cümlədən Azərbaycan xalqının mədəni inkişafında

mühüm rol oynamışdır. Qori seminariyası 1918-ci ilədək fəaliyyət göstərmişdir. Seminariyanın Azərbaycan şöbəsi 1918-ci ildə F.B.Köçərlinin rəhbərliyi ilə Qazax şəhərinə köçürülmüşdü. **C.22**- 297; **C.28**- 266.

**770. Qorqud baba -** bax:Kitabi-Dədə Qorqud.

**771. Qreq Laflin** (d.1942) - Amerikanın görkəmli ictimai-siyasi xadimi. 1988-1996-cı illərdə ABŞ Konqresi Nümayəndələr Palatasının üzvü omuşdur ABŞ Konqresində Azərbaycanın ən fəal tərəfdarlarından biridir. **C.11-** 313.

**772. Qriboyedov Aleksandr Sergeyeviç** (1795-1829) - rus yazıçısı, diplomat. İranda, Tiflisdə diplomatik işlərdə çalışmışdır. Türkiyə və İranda bir sıra danışıqlar aparmış, müdhiş Türkmənçay müqaviləsinin bağlanmasında iştirak etmişdir. 1829-cu ildə Tehranda öldürülmüş, Tbilisidə dəfn edilmişdir. **C.28**- 211.

**773. Qriqori Qorin** (1940-2000) - rus yazıçısı, dramaturq. Rusiya Federasiyasının Əməkdar incəsənət xadimi. **C.16**-74-76.

**774. Qromıko Andrey Andreyeviç** (1909-1989) - Rusiyanın dövlət və siyasi xadimi, diplomat. Müxtəlif illərdə SSRİ-nin ABŞ-da səfiri, SSRİ Xarici İşlər nazirinin müavini və eyni zamanda SSRİ-nin BMT-nin Təhlükəsizlik Şurasında daxili nümayəndəsi, Böyük Britaniyada səfir, SSRİ Xarici İşlər naziri, SSRİ Ali Sovetinin Sədri vəzifələrində çalışmışdır. **C.16**-226.

**775. Qubadlı -** Azərbaycan Respublikasında inzibati rayon. 1933-cü ildə təşkil edilmişdir. Sahəsi 802 km$^2$, əhalisi 27,2 min nəfər idi. 1993-cü ildə erməni işğalçıları tərəfindən işğal olunmuşdur. **C.21**- 18, 19, 123, 175, 179; **C.28-** 269.

**776. Qubkin İvan Mixayloviç** (1871-1939) - geoloq. 1929-cu ildən SSRİ EA akademiki, 1936-cı ildən SSRİ EA-nın vitse-prezidenti, SSRİ EA Azərbaycan filialının sədri olmuşdur. Azərbaycan neft sənayesinin bərpa və inkişafında fəal iştirak etmişdir. **C.10-** 263.

**777. Quran,** əl-Quran, Qurani-kərim - Müsəlmanların müqəddəs kitabı. Quranı Allah, Cəbrayıl vasitəsilə Məhəmməd əleyhüssəlama göndərib. Quran qafiyəli nəsrlə yazılmış 114 surə və 6200-dən çox ayədən ibarətdir. "Məkkə surələrinə" (610-622, Məkkə, 90 surə) və "Mədinə surələrinə" (622-632, Mədinə, 24 cürə) bölünür. **C.23**- 125; **C.26-** 434; **C.27**- 197.

**778. Qurban Abbasov,** Qurban Abbasqulu oğlu Abbasov (1926-1994)- neftçi mühəndis. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Azərbaycan və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. Abbasov açıq dənizdə neft və qaz çıxarılmasının ilk təşkilatçılarındandır. 1992-1994-cü illərdə Azərbaycan Dövlət Neft Şirkətinin baş müşaviri olmuşdur. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.18**- 385.

**779. Qurban bayramı** - Müsəlman dünyasında ən əziz bayramlardan biri. Qurban bayramı zilhiccə ayının 10-cu günü başlayır. Müsəlmanlar bu bayramı islamın əsas şərtlərindən biri - həcc mərasimlərinin yerinə yetirilməsi və böyük Allahın bəndələrinin günahının bağışlanması günü kimi gözləyirlər. Bu bayramın kökləri islamdan əvvəlki vaxtlara-İbrahimin öz oğlu İsmaili Allaha qurban verməyə hazır olması vaxtına təsadüf edir. **C.15-** 164-165, 166-182; **C.19**- 323, 364-371; **C.24**- 180, 373; **C.25-** 345, 390.

**780. Qurban Xəlilov,** Qurban Əli oğlu Xəlilov (1906-2003) - dövlət xadimi. Müxtəlif illərdə Azərbaycan SSR yerli sənaye naziri, maliyyə naziri, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri vəzifələrində çalışmışdır. **C.20**- 343.

**781. Quskov Anatoli Mixailoviç,** Kopılov Fyodor İvanoviç, Kardaşov Aleksandr Vasilyeviç **-** 1953-1963-cü illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədrləri olmuşlar. **C.10-** 339, 340.

**782. Qusman Mixail Solomonoviç** (d.1950) - jurnalist. İTAR-TASS informasiya agentliyi Baş direktorunun müavini. Rusiya Federasiyası Dövlət mükafatı laureatı. **C.28**- 343-355.

**783. Qutqaşınlı İsmayıl bəy** Nəsrullah Sultan oğlu (1806-1869) - Azərbaycan yazıçısı, ictimai və hərbi xadim. 30 ildən artıq rus ordusunda xidmət edən Qutqaşınlı general - mayor rütbəsinədək yüksəlmişdir. Rusiya Kənd Təsərrüfatı və Coğrafiya cəmiyyətləri Qafqaz şöbələrinin üzvü olmuşdur. **C.12-** 42.

**784. Qutseriyev Mixail Safarbekoviç** (d.1958) - hüquqşünas və iqtisadçı. İqtisad və hüquq elmləri doktoru. 2000-ci ildən "Slavneft"in prezidenti. 1980-ci illərin sonunda SSRİ-də ilk kooperativ bankı yaradanlardan biri. 1995-2000-ci illərdə Dövlət Dumasının deputatı, 2001-ci ildən Rusiya Sənayeçilər və Sahibkarlar İttifaqının vitse-prezidenti. 2002-ci ildən OAONK "Rusneft"in yaradıcısı və başçısı. **C.28**- 60-61.

**785. Qvatemala Respublikası** - Mərkəzi Amerikada dövlət. Sahəsi 108,9 min km$^2$, əhalisi 10,9 milyon nəfərdir. İnzibati ərazisi 22 departamentə bölünür. Dövlət və hökumət başçısı Prezidentdir. Qanunverici orqanı birpalatalı Milli Konqresdir. Paytaxtı Qvatemala şəhəridir. **C.24**- 190.

**786. Laçın** - Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi 51 min nəfərdir. 1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. **C.23**- 188; **C.25-** 198; **C.27**- 221; **C.28**- 269, 329.

**787. Lahıc** - Azərbaycan Respublikasında şəhər tipli qəsəbə. Lahıc Azərbaycanın qədim yaşayış mərkəzlərindəndir. Əsasının erkən orta əsrlərdə qoyulduğu ehtimal olunur. Lahıc XVIII-XIX əsərlərdə Azərbaycanın misgərlik və silah istehsalı mərkəzlərindən idi. **C.20**- 386, 387, 390, 391.

**788. Lalə-Şövkət Hacıyeva** (d.1951) - tibb elmləri doktoru, professor. 1993-1994-cü illərdə Azərbaycan Respublikasının Dövlət katibi olmuşdur. 1995-ci ildən isə Azərbaycan Liberal Partiyasının sədridir. **C.17**- 67-70, 82.

**789. LAOS** (Laos Xalq Demokratik Respublikası) - Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 236,8 min km$^2$, əhalisi 5 milyon nəfərdir. Dövlət başçısı Prezident, ali qanunverici orqanı

birpalatalı Ali Xalq Məclisidir. Paytaxt Vyentyan şəhəridir. **C.23**- 291.

**790. Laptev Vladimir Viktoroviç** (d.1924) - hüquqşünas, Rusiya EA-nın akademiki. **C.25-** 361.

**791. Lazma** - İngiltərə şirkəti. Əlcəzairdə, Qabonda, Liviyada, İndoneziyada neftin çıxarılması ilə məşğul olur. 2001-ci ildə "Eni" şirkəti ilə birləşib "Eni-Lazma" adlanır. **C.16**- 301-302, 371; **C.18** - 415, 416

**792. Lebed Aleksandr İvanoviç** (1950-2002) - Rusiyanın siyasi xadimi, general-leytenant. 1996-cı ildə Rusiya Federasiya Milli Təhlükəsizlik Şurasının Katibi olmuş, Çeçenistanda hərbi döyüşlərin saxlanılması haqqında şazişi imzalamışdır. 1998-2002-ci illərdə Krasnoyarsk diyarının qubernatoru olmuşdur. **C.15**- 353.

**793. Lenin Vladimir İliç** (Ulyanov) (1870-1924) - SSRİ-nin siyasi xadimi. Hələ tələbəlik illərindən inqilabi hərəkata qoşulmuşdur. Lenin 1895-ci ildə Peterburq "Fəhlə sinfinin azadlığı uğrunda mübarizə İttifaqı"nın yaradılmasında iştirak etmişdir. 1900-cu ildə Plexanovla birlikdə "İskra" qəzetini nəşr edir. 1903-cü ildən RSDFP-nin 2-ci qurultayında bolşevik fraksiyasına başçılıq edir. 1907-ci ildən xaricə emiqrasiya edilir. 1917-ci ildə Petroqrada qayıdıb silahlı üsyana başçılıq edir. Lenin başda olmaqla 2-ci Ümumrusiya Sovetlər qurultayında hökumət-XKS yarandı. Vətəndaş müharibəsi dövründə "hərbi kommunizm" siyasətinin aparıcılarından olmuşdur. Bunun nəticəsində ölkə birpartiyalı sistemə keçmiş, ölkədə geniş surətdə repressiya başlanmış, müxalifət qüvvələri və orqanları ləğv edilmiş, görkəmli adamlar və ziyalılar ölkəni kütləvi surətdə tərk etmişlər. 1922-ci ildə xəstələnmiş və ölkənin siyasi həyatından uzaqlaşdırılmışdır. **C.19**- 128, 129; **C.22**- 204; **C.27**- 47, 48; **C.28**- 319.

**794. Leninqrad şəhəri** - (1914-cü ilədək Sankt-Peterburq, 1924-cü ilədək Petroqrad, 1991-ci ildən yenidən Sank-Peterburq)-Rusiya Federasiyasının böyük sənaye, mədəniyyət və elm mərkəzi. Əsası 1703-cü ildə I Pyotr tərəfindən qoyul-

muşdur. 1918-ci islədək Rusiyanın paytaxtı olmuşdur. **C.12-** 116; **C.25-** 235, 236, 253, 256.

**795. Lennart Meri** (d.1929) - Eston yazıçısı. 1992-ci ildən Estoniya Respublikasının Prezidenti. 1986-1990-cı illərdə Estoniya Yazıçılar İttifaqının katibi, 1990-cu ildən Estoniya Xarici İşlər naziri olmuşdur. **C.25-** 182, 224, 228, 233.

**796. Leonid Maksimoviç Kravçuk,** (d.1934) - Ukraynanın dövlət və siyasi xadimi. Ukraynanın ilk Prezidenti (1991). **C.18**- 405.

**797. Leonardo da Vinçi** (1452-1519) - dahi italyan rəssamı, heykəltəraş. Renessans incəsənətinin əsasını qoymuşdur. Leonardo da Vinçinin dərin fəlsəfi mənaya malik olan Milandakı Santa-Mariya delle Qratsiye monastırının divar rəsmlərindən olan "Məxfi axşam" rəsmi dünya incəsənətinin ən böyük sənət əsərlərindən sayılır. Onun realizmi özünün ən gözəl ifadəsini Mona Lizanın ("Cokonda") portretində tapmışdır. **C.12**- 208.

**798. Lermontov Mixail Yuryeviç** (1814-1841) - böyük rus şairi. Rusiyada romantik poeziyanın ən görkəmli nümayəndəsidir. Lermontov A.S.Puşkinin ölümünə həsr etdiyi şeirinə görə 1837-ci ildə çarın əmri ilə həbsə alınmış, Qafqaza, dağlılarla vuruşan draqun polkuna göndərilmişdi. O Şimali və Cənubi Qafqazın bir çox şəhər və kəndlərində, o cümlədən Qubada, Şamaxıda, Qusarda olmuşdur. Lermontov bu dövrdə Azərbaycan dilini öyrənməyə başlamışdı. Şeirləri Azərbaycan dilində dəfələrlə kitab şəklində çıxmışdır. **C.12-** 127.

**799. Leyboristlər partiyası**, Böyük Britaniya Leyboristlər Partiyası - İngiltərədə iki aparıcı partiyadan biri. Əsası 1900-cü ildə qoyulmuşdur. İkinci Dünya müharibəsindən sonra 1945-1951, 1964-1970, 1974-1979 və 1997-ci ildən hakimiyyətdədirlər. **C.16**- 338, 341, 471; **C.24**- 77; **C.24**- 88.

**800. Leyla Bədirbəyli,** Leyla Ağalar qızı Bədirbəyli (1920-1999) - görkəmli səhnə ustası, Azərbaycanın Xalq artisti. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Azərbay-

can Milli Dram Teatrında fəaliyyət göstərmişdir. **C.12-** 176; **C.17**- 190; **C.19**- 7-8, 259, 273; **C.25-** 313.

**801. Leyla Məmmədbəyova,** Leyla Ələsgər qızı Məmmədbəyova (1909-1989) - ilk Azərbaycan təyyarəçi qadınlardan biri. Tuşino təyyarə meydanında paraşütlə tullanan ilk azərbaycanlı qadındır. Böyük Vətən müharibəsində desantçı paraşütçülər hazırlamışdır. **C.25-** 313.

**802. Leyla Vəkilova,** Leyla Məhəd qızı Vəkilova (d.1927-1999) - Azərbaycan balet artisti. Azərbaycan və SSRİ Xalq artisti. 1943-1971-ci illərdə M.F.Axundov adına Azərbaycan Akademik Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. L. Vəkilova milli baletlərdə klassik rəqs texnikası və Azərbaycan xalq rəqslərinə xas elementlərdən məharətlə istifadə etmişdir. **C.15**- 368; **C.17**- 147, 148, 192; **C.25-** 313.

**803. Lev Nikolayeviç Tolstoy** (1828-1910) - dahi rus yazıçısı. İlk yazdığı hekayələrdə ağalarla kəndlilərin münasibətlərindəki dərin sosial ziddiyyətləri göstərmişdir: 1865-1869-cu illərdə 1812-ci il Vətən müharibəsinə həsr olunmuş "Hərb və sülh" romanını yazmışdır. Bu əsər XIX əsr dünya realist nəsrinin zirvələrindən biri sayılır. 1873-1877-ci illərdə yazdığı "Anna Karenina" romanında kübar cəmiyyətinin saxta əxlaqının qurbanı olan qadının faciəsi əks etdirilir. 1908-ci ildə o, ölüm cəzalarına qarşı nifrət və etirazının ifadəsi olan məşhur "Susa bilmirəm" məqaləsini yazır. Ömrünün son illərində Tolstoy dərin mənəvi əzab keçirirdi. 1910-cu il noyabrın 10-da Yasnaya Rolyananı xəlvətcə tərk etmiş, yolda Astapovo dəmir yol stansiyasında vəfat etmişdir. **C.17**- 134.

**804. Lənkəran** - Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 661 km$^2$, əhalisi 146,9 min nəfərdir. **C.25-** 253.

**805. Li Pen** (d.1928) - Çinin siyasi və dövlət xadimi. 1979-1998-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildən ÇXR Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin sədridir. **C.28** - 17, 285-307, 364.

**806. Lidiya Rəsulova,** Lidiya Xudadat qızı Rəsulova (d.1941) - ictimai xadim. Ayrı-ayrı illərdə müxtəlif dövlət və ictimai təşkilatların rəhbəri, 1993-1997-ci illərdə Azərbaycan Respublikası Təhsil naziri olmuşdur. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir. **C.17**- 153.

**807. Lixaçov Dmitri Sergeyeviç** (1906-1999) - görkəmli rus ədəbiyyatşünası və ictimai xadim. REA-nın akademiki, Sosialist Əməyi Qəhrəmanı. 1928-1932-ci illərdə "İqor polku haqqında dastan" tədqiqatına görə repressiyaya məruz qalmışdır. **C.22**- 90.

**808. Lill** - Fransada şəhər, Normandiyanın inzibati mərkəzi. Əhalisi 175 min nəfərdir. Şəhər qədim mədəniyyət abidələri ilə zəngindir. **C.23**- 195.

**809. "Literaturnıy Azerbaydjan"** - rus dilində ədəbi-bədii jurnal. Azərbaycan Yazıçılar Birliyinin orqanı. 1931-ci ildən Bakıda nəşr edilir. 1931-1933-cü illərdə "Temp", "Udarnik" adlanmışdır. 1934-cü ildən indiki adı ilə çıxır (1941-1953-cü illərdə nəşr olunmamışdır). Jurnalda Azərbaycan ədəbiyyatının ən yaxşı nümunələri ilə bərabər, rus və digər xarici ölkə xalqları ədəbiyyatından yazılar dərc edilir.**C.13**- 8, 226.

**810. "Literaturnaya qazeta"** - Rusiya Federasiyasında ədəbi, ictimai,siyasi qəzet. 1929-cu ildən Moskvada (fasilələrlə) nəşr edilir. **C.13**- 102; **C.14**- 241; **C.16**- 228; **C.17**- 65 **C.18**- 41; **C.23**- 99.

**811. Livadiya** - Ukraynada (Krımda) Qara dəniz sahilində şəhər tipli qəsəbə. Gözəl iqlim şəraiti olan kurort. Livadiya Krım konfransının (1945) keçirildiyi yerdir. **C.17**- 109.

**812. Livan,** Livan Respublikası - Qərbi Asiyada, Aralıq dənizinin şərq sahilində dövlət. Sahəsi 10,4 min km$^2$, əhalisi 3,8 milyon nəfərdir. Paytaxtı Beyrut şəhəridir. İnzibati cəhətdən 5 mühafazaya bölünür. Dövlət başçısı Prezidentdir. Qanunvericilik orqanı birpalatalı Parlamentdir. **C.14**- 222-233, 236, 238-239, 114, 490.

**813. Loqunov Anatoli Aleksandroviç** (d.1926) - fizik nəzəriyyəçi, Rusiya Elmlər Akademiyasının akademiki, Sosia-

list Əməyi Qəhrəmanı, Lenin və Dövlət mükafatları laureatı. 1977-1991-ci illədə Moskva Dövlət Universitetinin rektoru olmuşdur. **C.25-** 43.

**814. Lomer Litzinoviç Axvlediani,** (d.1944) - gürcü kinorejissoru. Gürcüstan Respublikasının Xalq artisti. "Dolça", "Don Kixot" və s. filmləri çəkmişdir. Lenin və SSRİ Dövlət mükafatları laureatıdır. **C.22**- 54-73.

**815. London şəhəri** - Böyük Britaniyanın paytaxtı. Dünyanın ən iri iqtisadi, siyasi və mədəni mərkəzlərindən biridir. **C.10**-231; **C.16**- 279-445, 455, 460, 462, 466, 472, 474-491; **C.20**- 213-234.

**816. Lordlar palatası** - Böyük Britaniya parlamentinin yuxarı palatası, dünyəvi və dini lordlardan (perlərdən) ibarətdir. **C.19**- 178; **C.24**- 108.

**817. Los-Anceles** - ABŞ-da, Sakit okeanın cənub sahilində şəhər və liman. **C.21**- 78, 80.

**818. Lozanno**-İsveçrədə şəhər. Şəhər çoxlu muzeyləri ilə məşhurdur. **C.24**- 421.

**819. Luçano Pavarotti** (d.1935) - məşhur italyan müğənnisi. "La Skala"nın solisti. Dünyanın ən böyük teatrları "Kovent-Qarden", "Metropoliten-opera" və başqalarında çıxış edir. **C.15**- 297.

**820. Luçinski Petru** (d.1940) - Moldovanın siyasi və dövlət xadimi. 1971-ci ildən 1989-cu ilə qədər dövlət və partiya işlərində müxtəlif vəzifələrdə çalışmışdır. 1997-2002-ci illərdə Moldova Respublikasının Prezidenti olmuşdur. **C.16**- 212; **C.18**- 448-450; **C.20**- 129; **C.21**- 221.

**821. Lukaşenko Aleksandr Qriqoryeviç** (d.1954) - Belarus dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. **C. 10-** 180, 181; **C.15**- 357; **C.24**- 281-297; **C.28**- 400.

**822. LUKoyl** - "LUKoyl" neft şirkəti 1993-cü ildə Rusiya Federasiyası hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan "Lukoyl" şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının satışı, emalı, hasilatı və kəşfiyyatı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbay-

canda fəaliyyət göstərir. **C.10-** 70, 100, 239, 244, 250-252, 271, 312, 313, 409; **C.11-** 121, 122, 202, 203, 256; **C.12-** 71, 73, 213, 221; **C.13**- 182; **C.16-** 6, 197; **C.17**- 39, 234, 249; **C.20**- 391; **C.22**- 12-41, 91, 96; **C.24**- 100; **C.25-** 145; **C.28**- 39, 240.

**823. Lujkov Yuri Mixayloviç** (d.1936) - Rusiyanın ictimai dövlət xadimi. 1987-ci ildə Moskva Soveti İcraiyyə Komitəsinin 1-ci müavini, 1990-cı ildə sədri olmuşdur. 1991-ci ildə Moskva şəhərinin vitse-meri, 1992-ci ildən isə meri və Moskva hökumətinin naziridir. SSRİ və Rusiya Federasiyasının Dövlət mükafatları laureatıdır. **C.10-** 151-153, 161, 253, 328; **C.12-** 154-155; **C.15**- 353; **C.16**- 214; **C.19**- 87, 372-384; **C.24**- 269-275; **C.25-** 264; **C.28**- 258, 375, 378.

**824. Lujniki** - Moskvada stadion, dünyada ən iri idman komplekslərindən biri (1955-1956). Kompleksin tərkibinə 140 möhtəşəm idman qurğusu daxildir. **C.17**- 110.

**825. Lüksemburq,** Böyük Lüksemburq Hersoqluğu-Qərbi Avropada dövlət. Sahəsi 2,6 min km$^2$, əhalisi 415 min nəfərdir,inzibati cəhətdən 3 mahala bölünür. Lüksemburq konstitusiyalı monarxiyadır. Dövlət başçısı böyük Hersoqdur. Qanunverici orqanı Deputatlar palatasıdır. Paytaxtı Lüksemburqdur. **C.28**- 210, 211.

**826. Lütfəli Abdullayev**, Lütfəli Əmir oğlu Abdullayev (1914-1973) - görkəmli gülüş ustası və aktyor. Azərbaycanın Xalq artisti. SSRİ Dövlət mükafatı laureatı. Abdullayevin yaradıcılığı Musiqili Komediya Teatrı ilə sıx bağlı olmuşdur. L.Abdullayev fitri komediya istedadına, milli kalouritə, ifadəli yumora və zəngin səhnə nüanslarına malik aktyor idi. Bir sıra filmlərə də çəkilmişdir. **C.12-** 176; **C.17**- 190.

**827. Lütfiyar İmanov,** İmanov Lütfiyar Müslüm oğlu (1928-2008) - Azərbaycan opera müğənnisi. Azərbaycan və SSRİ Xalq artisti. **C.12**- 360; **C.15**- 210, 211; **C.18**- 224.

**828. Lyudmila Georgiyevna Zıkina** (1929-2009) – görkəmli rus müğənisi. Repertuarının əsasını rus xalq mahnıları təşkil edir. Azərbaycan və SSRİ Xalq artisti, Lenin mükafatı

laureatı, Sosialist Əməyi Qəhrəmanı olmuşdur. **C.12**- 272-273; **C.18**- 76; **C.28**- 344.

**829. Macarıstan,** Macarıstan Respublikası - Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverci orqanı birpalatalı - Dövlət Şurasıdır. Paytaxtı Budapeştdir. **C.24**- 410.

**830. Madaqaskar,** Madaqaskar Respublikası - Madaqaskar adasında dövlət. Sahəsi 587 min km$^2$, əhalisi 13,7 milyon nəfərdir. İnzibati ərazisi 6 əyalətə bölüniir. Dövlət başçısı Prezident, qanunverici orqanı - Milli Xalq Məclisidir. Paytaxtı Antananarivudur. **C.28**- 369.

**831. Madlen Olbrayt** (d.1937) - ABŞ-ın tanınmış diplomatı və dövlət xadimi. 1937-ci ildə Çexoslovakiyanın Praqa şəhərində diplomat ailəsində anadan olmuşdur. 1959-cu ildə Uelsi kollecini bitirmiş, politologiya sahəsində bakalavr dərəcəsi almışdır. 1968-ci ildə magistr dərəcəsinə, 1976-cı ildə isə Kolumbiya universitetində fəlsəfə doktoru adına layiq görülmüşdür. 1978-ci ildən ABŞ Prezidenti C.Karterin hökuməti dövründə Milli Təhlükəsizlik Şurasının üzvü seçilmiş, 1984 və 1988-ci illərdə xarici siyasət məsələləri üzrə əlaqələndirici işləmişdir. 1982-ci ildən beynəlxalq münasibətlər üzrə professordur və Corctaun Universitetinin Xarici Siyasət Məktəbindəki "Qadınlar xarici siyasət xidmətində" proqramının direktorudur. 1989-cu ildən Milli Siyasət Mərkəzinin prezidentidir. M.Olbrayt 1993-cü ilin fevralında Kabinetin üzvü statusunu almış və ABŞ-ın BMT-dəki daimi nümayəndəsi təyin edilmişdir. 1997-2000-ci illərdə ABŞ-ın Dövlət katibi olmuşdur. Cex, polyak, rus və fransız dillərində sərbəst danışır. **C.11-** 5, 23, 234, 239, 267, 276, 284, 289, 382, 391; **C.12-** 87, 96; **C.19**- 450. **C.20**- 50, 93-97,114-116, 123, 124, 180, 182, 207-209, 213, 216, 218, 220, 221, 242, 253, 254, 275, 276, 285, 286, 300, 328, 337, 350, 351, 353, 414, 426, 427; **C.21**- 35, 276, 360, 362, 363, 365, 372; **C.22**- 47, 48, 49, 50, 52, 153, 155, 336, 337, 353, 355, 356; **C.23**- 80, 156-158, 181, 191, 231, 235; **C.24**- 227, 230, 344, 351, 379; **C.25-** 62, 64, 66, 111, 134, 137-

138, 141, 152, 161, 167, 191, 229, 295, 309, 364, 366; **C.27**-113, 115; **C.28**- 57 ,396.

**832. Madrid** - İspaniyanın paytaxtı. Ölkənin mühüm siyasi, iqtisadi və mədəniyyət mərkəzi. Şəhər kimi 932-ci ilə aid xronikalarda adı çəkilən Madrid ərəblərə məxsus Məcirit qalasının ətrafında yaranmışdır. XIV-XV əsrlərdə Madrid Kastiliya krallarının iqamətgahı olmuşdur. **C.11-** 7, 206.

**833. Madrid sammiti** - 1997-ci il iyulun 8-10-da İspaniyanın paytaxtı Madriddə NATO-nun və Avropa-Atlantika Əməkdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının iclası keçirilmişdir. Sammitdə Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyəti iştirak etmişdir. Zirvə görüşündə Bill Klinton Azərbaycan Prezidenti Heydər Əliyevə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması işində şəxsən ciddi məşğul olacağını demişdir. **C.10-** 367, 368, 377, 413; **C.11-** 7, 206; **C.12-** 24, 32, 58, 96.

**834. Mahaçqala** (1857-1922-ci illərdə Petrovsk-Port) - Dağıstanın paytaxtı, Xəzər dənizi sahilində liman. Əsası 1844-cü ildə hərbi istehkam kimi qoyulmuşdur. 1922-ci ildə şəhər Mahaç Dahadayevin şərəfinə Mahaçqala adlandırılmışdır. **C.15**-324.

**835. Mahmud Esembayev,** Mahmud Əlisultan oğlu Esembayev (1924-2000) - çeçen balet artisti və rəqqas. SSRİ Xalq artisti. Dünya rəqslərinin ən gözəl ifaçısı olmuşdur. Virtuozluq, yüksək emosionallıq və plastiklik, rəqsin uslub və xarakterini dəqiq, qabarıq vermək məharəti Esembayevin ifaçılığı üçün xarakterik olmuşdur. "Mən rəqs edəcəyəm" ("Azərbaycanfilm") bədii filmi Esembayevə həsr edilmişdir. **C.21**- 28-29.

**836. Mahmud Əbilov,** Mahmud Əbdülrza oğlu Əbilov (1898-1972) - hərbi xadim, general-mayor. Böyük Vətən müharibəsi zamanı Pribaltika, Polşa, Çexoslovakiya və Macarıstanda gedən döyüşlərdə rəşadət göstərmişdir. Müharibədən sonrakı illərdə diviziya komandirinin müavini, atıcı diviziya

komandiri olmuşdur. SSRİ Ali Sovetinin deputatı olmuşdur. **C.16**- 86; **C.28**- 324.

**837. Mahmud İsmayılov,** Mahmud Əliabbas oğlu İsmayılov (1920-2002) - tarix elmləri doktoru, professor. Azərbaycan MEA-nın müxbir üzvü, Azərbaycanın Əməkdar elm xadimi, Böyük Vətən müharibəsi iştirakçısı. 1954-cü ildən ömrünün sonunadək Tarix institutunda elmi işlər üzrə direktor müavini işləmişdir. Azərbaycanın sosial-iqtisadi tarixi istiqamətində tədqiqat aparmışdır. **C.19-** 148.

**838. Mahmud Kaşqari,** Mahmud ibn əl-Hüseyn ibn Məhəmməd əl-Kaşqari (?-?) - XI əsr Orta Asiya alimi, filoloq və folklorçu. Məşhur "Divani-luğat it-türk" (1072-1074) əsərinin müəllifi. Əsərdə türk dillərinin fonetika və morfologiyası, dialekt xüsusiyyətləri haqqında qiymətli məlumat verilmişdir. 8000-ə yaxın leksik vahidi əhatə edən "Divan"da 26 türk dilindən nümunə verilsə də, əsas lüğət materialı 2 ədəbi dildən toplanmışdır. Birincisi müəllifin ana dili olan şərq türkcəsi (xaqaniyyə türkcəsi), ikincisi oğuz türkcəsi, bunu Azərbaycan ədəbi dilinin yazıyaqədərki inkişaf mərhələsi hesab etmək mümkündür. "Divan"ın sonuna əlavə edilmiş xəritə Mahmud Kaşqari dövründə türkdilli xalqların yaşadığı ərazilərin təsvirini verən ilk xəritədir. **C.26-** 151, 312, 318.

**839. Mahmud Qəznəvi** (969 və ya 970-1030) - Qəznəvilər dövlətinin hökmdarı (998-1030). Qəznəvilər sülaləsinin görkəmli nümayəndəsi. M.Qəznəvinin hakimiyyəti dövründə Qəznəvilər dövlətinin siyasi qüdrəti xüsusilə artmışdı. M.Qəznəvi Qəznəvilər dövlətində elm və mədəniyyətin inkişafına kömək etmişdir. **C.26-** 211.

**840. Mahmud Məmmədquliyev,** Mahmud Əhməd oğlu Məmmədquliyev (d.1949) - 1974-cü ildən Bakı və Moskva şəhərlərində hüquq mühafizə orqanlarında işləmiş, 1993-cü ildən Azərbaycan Xarici İşlər nazirinin müavini, Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Krallığında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. Hazırda Azər-

baycan Respublikası Xarici İşlər nazirinin müavinidir. **C.20-** 215.

**841. Makdermott** - neft şirkəti. 1923-cü ildə yaradılmışdır. Dünyanın strateji cəhətdən mühüm neft və qaz ərazilərində yerləşən şelf yataqlarının işlənməsində ən qocaman podratçılardan biridir. Şirkətin ABŞ-da, B.Britaniyada, BƏƏ-də, İndoneziyada, Misirdə və Nigeriyada yerləşən istehsal sahələri dünyada neft və qaz sənayesinin inkişafına xidmət edir. **C.11-** 71, 120, 196, 248.

**842. Makedoniya Respublikası** - Cənubi Avropada dövlət. Sahəsi 25,7 min km$^2$, əhalisi 1,97 milyon nəfərdir. Dövlət başçısı Prezident, ali qanunverici orqanı birpalatalı Məclisdir.

1945-1991-ci illərdə Yuqoslaviyanın tərkibində idi. 1991-ci ilin noyabrında Makedoniya "suveren, müstəqil, demokratik" dövlət elan edildi. **C.23-** 239.

**843. Makedoniyalı İsgəndər,** Böyük Aleksandr, İsgəndər Zülqərneyn (e.ə. 356-323) - qədim dünyanın ən böyük sərkərdələrindən biri, 336-cı ildən Makedoniyanın çarı. Çar II Filipin oğlu, Aristotelin yanında tərbiyə almışdır. O, Orta Asiyanı və Hindistanı fəth edərək ucu-bucağı görünməyən bir dövlət yaratmışdı. Makedoniyalı İsgəndərin Azərbaycanda olması haqqında rəvayətlər var. **C.20-** 448.

**844. Maqne Bondevik** (d.1947) - 1997-2000-ci və 2001-2005-ci illərdə Norveçin Baş naziri olmuşdur. Hazırda Norveçdə "Sülh və insan hüquqları" mərkəzinin prezidentidir. **C.20-** 90-92; **C.22-** 116; **C.23-** 171; **C.24-** 356-357.

**845. Maqsud İbrahimbəyov,** Maqsud Məmmədibrahim oğlu İbrahimbəyov (d.1935) - görkəmli nasir, dramaturq, ssenarist, ictimai və siyasi xadim, Azərbaycan Xalq yazıçısı. Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. Respublikada və xaricdə nəşr edilən onlarla povest və hekayələrin müəllifidir. Onun pyesləri keçmiş SSRİ məkanında onlarla teatrlarda tamaşaya qoyulmuşdur. Onun ssenariləri əsasında bir çox film çəkilmişdir. Azərbaycan Respublikası Əsilzadələr Məclisi-

nin sədridir. 1995-ci ildən Milli Məclisin üzvüdür. Azərbaycan Respublikasının "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif olunmuşdur. **C.19**- 129, 130, 131, 133; **C.20**- 434-435; **C.28**- 346.

**846. Maqsud Məmmədov,** Maqsud Davud oğlu Məmmədov (d.1929) - balet artisti, baletmeyster. Azərbaycan Respublikasının Xalq artisti. 1951-1971-ci illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuş, bir çox balet tamaşalarında aparıcı rolları ifa etmişdir. **C.17**- 192.

**847. Manas** - qırğız qəhrəmanlıq eposu. Eposun manasçılar tərəfindən söylənilmiş 18-dən çox variantı qeydə alınmışdır. Nə vaxt yarandığı hələlik dəqiq müəyyənləşdirilməmişdir. **C.10**- 120; **C.16**- 15; **C.19**- 169, 433; **C.26**- 151, 311.

**848. Marağa rəsədxanası** - orta əsrlərdə ən böyük elmi-tədqiqat müəssisələrindən biri. 1259-cu ildə Nəsirəddin Tusinin rəhbərliyi ilə Urgənc və Rey rəsədxanaları əsasında Marağa şəhərində tikilmişdir. Rəsədxana təqribən 50 il fəaliyyət göstərmişdir. Müxtəlif astronomik cihazlar, kitabxanasında 400 min əlyazma var idi. Burada aparılan tədqiqatlar Avropa elminin inkişafına böyük təsir göstərmişdir. **C.10**- 201, 262.

**849. Maral Rəhmanzadə**, Maral Yusif qızı Rəhmanzadə (1916-2008) - rəssam, qrafik. Azərbaycanın Xalq rəssamı. Azərbaycan Dövlət mükafatı laureatı. **C.10-** 126; **C.17**- 143, 144; **C.25-** 314.

**850. Marietta Şaqinyan** (1888-1982) - rus yazıçısı. Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatı laureatı. **C.16**- 225, 226; **C.26-** 325.

**851. Marinski teatrı** (1919-1991-ci illərdə S.M.Kirov adına Leninqrad Dövlət Akademik Opera və Balet Teatrı) - 1783-cü ildə Sankt Peterburqda açılmışdır. Bu teatrın Rusiyada opera və balet sənətinin inkişafında mühüm rolu olmuşdur. Marinski teatrında ilk rus operaları tamaşaya qoyulmuşdur. Teatrın səhnəsində operanın və baletin görkəmli ustaları çıxış edirlər. **C.28**- 352.

**852. Mariya Antuanetta** (1755-1793) - Fransa Kraliçası, Kral XVI Lüdovikin arvadı. Avstriya imperatorunun qızı.

Fransa inqilabı başlanandan əksinqilabçıları, sui-qəsdçiləri və müdaxiləçiləri dəstəkləmişdir. Məhz buna görə konvent tərəfindən mühakimə olunmuş və edam edilmişdir. **C.21**- 58.

**853. Mark Aleksandroviç Dalin** (1906-1996) - Azərbaycan kimyaçısı, texnoloq, texnika elmləri doktoru, Azərbaycan Respublikası ME-nın akademiki. SSRİ Dövlət mükafatı laureatı. Əsas elmi işləri neft məhsulları əsasında müxtəlif üzvü maddələrin sintezi proseslərinə həsr olunmuşdur. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.17**-142.

**854. Marqrete II** (d.1940) - 1972-ci ildən Danimarka Kraliçası. Kral IX Frederikin qızıdır. **C.26-** 297.

**855. Marneuli rayonu,** bax: Borçalı.

**856. Marşall planı** - İkinci Dünya müharibəsindən sonra ABŞ-ın iqtisadi yardımı ilə Avropanın bərpasını və inkişafını nəzərdə tutan proqram. Bu plan ABŞ Dövlət katibi C. K. Marşall tərəfindən irəli sürüldüyü üçün Marşall planı adlanır. Planın həyata keçirilməsində 17 Avropa dövləti (Qərbi Almaniya da daxil olmaqla) iştirak etmişdir. **C.13**- 245.

**857. Marti Ahtisaan** (d.1937) - Finlandiyanın siyasi və dövlət xadimi. 1965-ci ildən 1994-cü ilə kimi Finlandiyanın Xarici İşlər Nazirliyində müxtəlif vəzifələrdə çalışmışdır. 1965-1994-cü ilə kimi Finlandiya Sosial-Demokrat Partiyasının üzvü olmuşdur. 1994-cü ildən Finlandiya Respublikasının Prezidentidir.**C.12**- 320-321; **C.17**- 240.

**858. Marubeni** - yapon şirkəti. Bu şirkət ilk dəfə "İtoçu" şirkətinin tərkibində fəaliyyətə başlamışdır. İkinci Dünya müharibəsindən sonra "İtoçu"dan ayrılmış və müstəqil şirkət kimi tanınmışdır. "Marubeni"nin hazırda dünyanın 85 ölkəsində 163 ticarət numayəndəliyi və 95 ölkədə törəmə şirkəti vardır. **C.14**- 373-374; **C.15**- 50.

**859. Mayak** - Rusiya dövlət radiokompaniyası. Moskvadadır. 1964-cü ildə yaradılmışdır. **C.28**- 149, 150, 152, 165, 353.

**860. Mayakovski Vladimir Vladimiroviç** (1893-1930) - böyük rus şairi. İnqilaba qədərki yaradıcılığında futurizm çərçivəsində "saf" forma axtarışlarını özünəməxsus bir tərzdə anlayırdı ("Vladimir Mayakovski" faciəsi, "Şalvarlı bulud" poeması). İnqilabdan sonrakı yaradıcılığında şair baş vermiş hadisələrin mahiyyətini dərk etməyə səy göstərirdi. ("Sovet pasportu" şeiri, "Yaxşı" poeması). XX əsr rus poeziyasına reformator şair kimi çox böyük təsir göstərmişdir. Şair özünü intihar etmişdir. **C.22**- 71; **C.24**- 32.

**861. Maykl Debeyki** (d.1908) - dünya şöhrətli ürək cərrahı. Hyüstondakı tibb mərkəzində kardioloji xəstəliklərin müalicəsi üzrə professordur. Tibb mərkəzində 1949-cu ildən çalışır. Debeyki tərəfindən hazırlanan müvəqqəti işləməkdən ötrü süni ürəkdən ilk dəfə 1966-cı ildə istifadə edilmişdir. **C.17** - 123-128; **C.18**- 300-302; **C.19**- 85; **C.20**- 141, 142, 152, 224.

**862. Maya Mixaylovna Plisetskaya,** (d.1925) - görkəmli rus balerinası. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı. 1943-1988-ci illərdə Böyük Teatrm solisti, 1988-1990-cı illərdə Madrid "Teatro liriko nasional" balet truppasının bədii rəhbəri olmuşdur. **C.15**- 367-369, 370-371.

**863. MDB** – bax: Müstəqil Dövlətlər Birliyi.

**864. MDB Parlamentlərarası Assambleyası** - 1992-ci ildə təşkil olunub. İdarə heyəti Sankt-Peterburq şəhərindədir. 1994-cü ilin ortalarından Azərbaycan parlament nümayəndələri assambleyanın iclaslarında müntəzəm iştirak edir.**C.10**- 248.

**865. Mehdi Hüseyn,** Mehdi Əli oğlu Hüseynov (1909-1965) - tanınmış Azərbaycan yazıçısı, dramaturq və ictimai xadim. Azərbaycanın Xalq yazıçısı. M.Hüseyn həm də gözəl dramaturq olmuşdur. Azərbaycan Yazıçılar İttifaqının katibi və birinci katibi, SSRİ Yazıçılar İttifaqının katibi, SSRİ və Azərbaycan Ali Sovetlərinin deputatı olmuşdur. SSRİ Dövlət mükafatı laureatıdır. **C.13**- 70, 84, 105, 125; **C.15**- 228; **C.17**- 163.

**866. Mehdi Hüseynzadə**, Mehdi Hənifə oğlu Hüseynzadə (1918-1944) - Yuqoslaviyada və Şimali İtaliyada Müqavimət hərəkatı iştirakçısı, məşhur partizan, Sovet İttifaqı Qəhrə-

manı, leytenant. Mehdi Hüseynzadə partizan hərəkatında fəal iştirak etmiş və hitlerçilərə qarşı mübarizədə cəsurluğu ilə əfsanəvi şöhrət qazanmışdı. **C.16**- 86; **C.21**- 103.

**867. Mehdi Məmmədov,** Mehdi Əsədulla oğlu Məmmədov (1918-1987) - rejissor, aktyor, pedaqoq. SSRİ Xalq artisti. **C.10-** 56; **C.17**- 190; **C.28**- 351.

**868. Mehri,** Megri, Miqri rayonu - Ermənistan ərazisində azərbaycanlılar yaşayan ərazi. Tarixi mənbələrdə bu ərazinin Azərbaycana məxsus olduğu göstərilir. **C.14**- 75; **C.25-** 101, 105, 199.

**869. Mehriban Əliyeva,** Mehriban Arif qızı Əliyeva (d. 1964) - ictimai və siyasi xadim, fəlsəfə elmləri namizədi, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M. Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988-1993-ci illərdə Krasnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva "Azərbaycan Mədəniyyətinin Dostları" xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün çoxlu işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə - Azərbaycan, rus və ingilis dillərində çıxan "Azərbaycan-İrs" jurnalını təsis etmişdir. 2004-cu ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngın irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunub.

2004-cü ildə Azərbaycanın şifahı xalq yaradıcılığına və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahə-

sindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun "Xoşməramlı Səfiri" seçilmişdir.

Həmin ildən Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən isə Milli Məclisin izvüdür. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. **C.18-** 208, 209.

**870. Menderes Adnan** (1936-cıilədək Ertəkin) (1899-1961) - Türkiyə siyasi və dövlət xadimi. Burjua-Mülkədar Demokrat Partiyasının lideri idi. Menderes Baş nazir (1950-1960) olarkən NATO və SENTO bloklarına qoşulmuş, ABŞ-la qeyri-bərabər hüquqlu müqavilələr imzalamışdı. 1960-cı il mayın 27-də Menderes hökuməti devrilmiş və Menderes mühakimə olunaraq edam edilmişdir. **C.14**- 268.

**871. Mesiç Stepan** (d.1934) - hüquqşünas. 2000-2008-ci illərdə Xorvatiya Respublikasının Prezidenti. **C.27**- 367.

**872. Məcid Rəsulov,** Məcid Lətif oğlu Rəsulov (1916-1993) - fizika-riyaziyyat elmləri doktoru, professor. Azərbaycan MEA-nın akademiki. Tədqiqatları funksional analiz və diferensial tənliklər sahəsindədir. **C.25-** 47.

**873. Mədinə** - Səudiyyə Ərəbistanının şimal-qərbində şəhər. Qədim zamanlarda adi Yəsrib, erkən orta əsrlərdən Mədinədir. 622-ci ildə islamın banisi Məhəmməd əleyhissəlam Məkkədən Mədinəyə hicrət etmiş və burada müsəlman icmasını yaratmışdı. Məhəmməd əleyhissəlamın qəbiri Mədinədədir. VII əsrdən müsəlmanların iki müqəddəs şəhərindən biridir. **C.17**- 402; **C.18**- 374; **C.21**- 135.

**874. Mədinə Gülgün,** Mədinə Nəsrula qızı Ələkbərzadə (1926-1991) - Azərbaycan şairi. Əməkdar İncəsənət xadimi. 1938-ci ildə ailəliklə Cənubi Azərbaycana köçmüş, milli demokratik hərəkata qoşulmuşdur. Milli hökumət irtica qüvvələri tərəfindən boğulduqdan sonra Bakıya qayıtmışdı. Vətən məhəbbətinin, İran xalqlarının, o cümlədən azərbaycanlıların azadlıq

mübarizəsinin tərənnümü seir və poemalarının əsas mövzusudur. **C.15**- 229; **C.25-** 314.

**875. Məhəmməd Cahan Pəhləvan** Əbu Cəfər Hüsrətəddin (?-1186) - Eldəgəzlər sülaləsinin hökmdarı (1174/75-1186), atabəy Şəmsəddin Eldəgəzin oğlu. Pəhləvanın dövründə Eldəgəzlər dövləti Yaxın Şərqin ən qüdrətli dövlətlərindən birinə çevrildi. Bir sıra qonşu hökmdarlar M.C.Pəhləvanın vassallığını qəbul etməyə məcbur oldular. M.C.Pəhləvanın dövründə ölkənin iqtisadi həyatı dircəlmiş, Azərbaycan şəhərləri Yaxın Şərqin iri ticarət mərkəzlərinə çevrilmişdi. **C.14**- 5.

**876. Məhəmməd Füzuli Süleyman** oğlu (1494-1556) - Azərbaycan şairi və mütəffəkiri. Azərbaycan, fars və ərəb dillərində qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan "Leyli və Məcnun" poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. **C.10-** 69, 74, 108, 123, 127, 131, 202; **C.13**- 16, 31, 82, 98, 107, 110; **C.14**- 5; **C.15**- 184; **C.16**- 15; **C.17**- 163, 342; **C.18**- 352, 357, 377, 378; **C.19**- 430; **C.21**- 175, 179, 256; **C.24**- 113; **C.25-** 84, 332; **C.26-** 151, 312, 314, 394 **C.28**- 191, 271.

**877. Məhəmməd ibn Həsən,** II Həsən (1929-1999) - 1961-ci ildən Mərakeş Kralı, 1961-1963, 1965-1967-ci illərdə həm də hökumət başçısı olmuşdur. **C.21**- 62.

**878. Məhəmməd Nəvaz Şərif** (d.?) - 1990-1993-cü illərdə Pakistan Respublikasının Baş naziri. **C.10-** 21; **C.15-** 106.

**879. Məhəmməd Peyğəmbər -** bax: Həzrəti Məhəmməd (əleyhüssəlam) Məhəmməd ibn Abdullah.

**880. Məhəmməd Tağı Sidqi** (1854-1903) - maarifçi pedaqoq, şair, publisist. Sidqi Ordubadda "Əxtər" (1892), Naxçıvanda isə "Tərbiyə" ("Məktəbi Tərbiyə", 1894) məktəbi təsis etmiş, xalq müəllimi kimi şöhrət qazanmışdır. Elmi-pedaqoji dəyərə malik yeddi dərsliyin müəllifidir. Sidqi Azərbaycan uşaq nəşrinin ilk yetkin nümunələrini yaratmışdır. Sidqi publisistika sahəsində də fəaliyyət göstərmiş "Tərcüman" (Baxçasaray), "Əxtər" (İstanbul), "Həblülmətin" (Kəlkətə), Kaspi

(Bakı) və s. qəzetlərlə yaxından əməkdaşlıq etmişdir. **C.22-** 197, 199.

**881. Məhdumqulu,** Məhtumqulu (təxəllüsü Fəraqi) ( ?-? ) - XVIII əsr türkmən şairi. Ədəbi irsindən dövrümüzədək 10 mindən çox misra gəlib çıxmışdır. Yaradıcılığında vətənpərvərlik, türkmən qəbilələrini birliyə çağırış motivləri güclüdür. **C.26-** 151.

**882. Məhsəti Gəncəvi (?-?) -** XII əsr Azərbaycan şairi. M.Gəncəvi əsasən, rübai janrında yazmışdır. Rübailəri dünyəviliyi, humanizmi, nikbinliyi ilə seçilir. **C.15**- 229; **C.17**- 301; **C.25-** 311.

**883. Məkkə** - Səudiyyə Ərəbistanının qərbində şəhər. Salınma tarixi məlum deyildir. İslamın banisi Həzrəti Məhəmməd peyğəmbər Məkkədə doğulmuşdur. VII əsrdən müsəlmanların müqəddəs şəhəri və ziyarətgahıdır. **C.17**- 402; **C.18**- 374; **C.19**- 323, 327, 328, 329, 355; **C.21**- 135.

**884. Məqsud Şeyxzadə,** Məqsud Məsim oğlu Şeyxzadə (1908-1967) - özbək yazıçısı, alim və pedaqoq. Özbəkistan Respublikasının Əməkdar incəsənət xadimi. Milliyyətcə azərbaycanlıdır. C.10-199

**885. Məleykə Əsədova,** Məleykə Əliş ağa qızı Əsədova (d.1967) - aktrisa. Azərbaycan Respublikasın Xalq artisti. **C.10-** 55, 56.

**886. Məlik Məhərrəmov,** Məlik Məlik oğlu Məhərrəmov (d.1920) - polkovnik, Sovet İttifaqı Qəhrəmanı. 1943-cü ilin payızında Məhərrəmovun komandir olduğu rota Dneprin keçilməsində xüsusi məharət göstərdiklərinə görə, onun rotasından 18 nəfərə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.17**- 139, 140.

**887. Məmməd Araz**, Məmməd İnfil oğlu İbrahimov (1933-2004) - Azərbaycanın Xalq şairi. Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif olunmuşdur. Adına "Məmməd Araz" ədəbi mükafatı təsis edilmişdir. **C.13**- 12, 60, 70; **C.17**- 155.

**888. Məmməd Əliyev,** Məmməd Bağır Cavad oğlu Əliyev (d.1955) - Tibb elmləri doktoru, professor, Rusiya Federasiyasının Əməkdar elm xadimi, 2 dəfə Dövlət mükafatı laureatı, Rusiya Tibb Elmləri Akademiyasının akademiki. Rus Tibb elminin inkişafında M.Əliyevin böyük xidmətləri var. O, 7 kəşfin, 6 yeni təcrübənin, 200-dən artıq nəşr olunmuş elmi işin, həmçinin 2 monoqrafiyanın müəllifidir.

Hazırda Məmməd Əliyev dövlət klinikası - "N.N.Bloxin adına onkoloji elmi mərkəz"in direktor müavini, Moskva Onkologiya Elmi-Tədqiqat İnstitutunun direktoru və Ümumrusiya Azərbaycan Konqresinin prezidentidir. **C.28**- 247, 254, 255, 271.

**889. Məmməd Əliyev,** Məmməd Novruz oğlu Əliyev (d. 1942) - fizika-riyaziyyat elmləri doktoru. 1992-2005-ci illərdə Türkiyə Respublikasında Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. **C.20**- 292.

**890. Məmməd Səid Ordubadi,** Məmməd Səid Hacağa oğlu Ordubadi (1872-1950) - Azərbaycan yazıçısı, şair, dramaturq, publisist, ictimai xadim. M.S.Ordubadi Azərbaycan ədəbiyyatında daha çox 30-40-cı illərdə yazdığı tarixi romanları ilə məşhurdur. O, Azərbaycan ədəbiyyatında tarixi roman janrının əsasını qoymuşdur. **C.13**- 125, 303; **C.26-** 89; **C.27**- 369.

**891. Məmməd Rahim,** Hüseynov Məmməd Rahim Abbas oğlu (1907-1977) - tanınmış şair, Azərbaycanın Xalq şairi. SSRİ Dövlət mükafatı laureatı. **C.13**- 70, 125; **C.15**- 228.

**892. Məmmədağa Şahtaxtinski,** Məhəmməd ağa Məhəmmədtağı Sultan oğlu Şahtaxtlı (1846-1931) - publisist, şərqşünas, dilçi, pedaqoq və ictimai xadim. Beynəlxalq Fonetika Cəmiyyəti (1899), Beynəlxalq "Asiya Cəmiyyəti" (1900) və Rusiya İmperator Coğrafiya Cəmiyyəti Qafqaz şöbəsinin (1903) həqiqi üzvü.

1902-ci ildə Şahtaxtinski Tiflisdə xüsusi mətbəə açmış, 1903-cü ildən ictimai-siyasi, iqtisadi, elmi, ədəbi "Şərqi-Rus" qəzetinin nəşrinə başlamışdır. 1907-ci ildə İrəvan quberniya-

sından II Dövlət Dumasına deputat seçilmişdir. Bakı Dövlət Univesitetinin (1919) yaradılmasında fəal iştirak etmiş, burada Şərq dilləri və ədəbiyyatından mühazirələr oxumuşdur. **C.26-** 89.

**893. Məmmədəmin Rəsulzadə** (1884-1955) - Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri. Görkəmli ictimai-siyasi xadim, publisist, "Müsavat" partiyasının yaradıcılarından biri. 1922-ci ildən mühacirətdə yaşamış, 1955-ci ildə Ankarada vəfat etmişdir. **C.10-** 7; **C.12-** 42; **C.15**- 394; **C.20**- 281; **C.22**- 383; **C.24**- 369; **C.27**- 369.

**894. Mərakeş,** Mərakeş Krallığı - Şimal-Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min $km^2$, əhalisi 26,7 milyon nəfərdir. İnzibati ərazisi 35 əyalətə və 8 prefektura bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı Kral, qanunverici orqanı birpalatalı Nümayəndələr palatasıdır. Paytaxtı Rabatdır. **C.25-** 242.

**895. "Mərmərə" qrupunun Strateji** və Sosial Araşdırmalar Vaqfı - 1985-ci ild İstanbulda yaradılmışdır. Hazırda 200-dən çox üzvü olan bu qrupa tanınmış sənət və iş adamları, nazirlər və millət vəkilləri daxildirlər. Qrup xarici ölkələrin prezidentləri, görkəmldi dövlət xadimləri, nüfuzlu siyasətçiləri ilə mütəmadi olaraq görüşlər keçirir. **C.18**- 132-147, 184; **C.19**- 185-196; **C.21**- 141; **C.26-** 201-202, 232-238.

**896. Mərziyə Davudova,** Mərziyə Yusif qızı Davudova (1901-1962) - aktrisa. SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. **C.10-** 56; **C.17**- 190; **C.18**- 18; **C.25-** 313.

**897. Məshədov Aslan** (1952-2003) - 1995-cı ildən tanınmamış Çeçenistan Respublikasının Prezidenti olmuşdur. **C.10-** 186, 237, 247, 296, 297, 314, 368, 373; **C.18**- 78; **C.24**- 273; **C.25-** 103.

**898. Məsud Yılmaz** (d.1947) - Türkiyənin siyasi və dövlət xadimi. 1997-ci ildə Türkiyə Cümhuriyyətinin Baş naziri olmuşdur. Ana Vətən Partiyasının başqanıdır. **C.10-** 186, 237, 247, 296, 297, 314, 368, 373; **C.18**- 104-105, 121, 127, 143, 148, 150-

153, 154-155, 160, 162; **C.19**- 83, 93-94, 188; **C.20**- 252, 253-255, 288.

**899. Məşhəd** - İranın şimal-şərqində şəhər. Xorasan ostanının inzibati mərkəzi. Əhalisi 1,8 milyon nəfərdir. Məşhəd haqqında ilk məlumat X əsrin sonuna aiddir. Məşhəd şiələrin müqəddəs şəhəri sayılır. Burada İmam Rzanın məqbərəsi var. Məşhədin yaxınlığında böyük fars şairi Firdovsinin qəbiri qorunub saxlanılır. **C.21**- 119, 126, 135; **C.22**- 164.

**900. Məzahir Abbasov,** Məzahir Həmid oğlu Abbasov (1918-2002) Böyük Vətən müharibəsi iştirakçısı, tarix elmləri doktoru, professor. Tədqiqatları, əsasən, İkinci Dünya müharibəsi haqqındadır. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.19**- 259, 268.

**901. MXAT,** Qorki adına Moskva Akademik Bədaye Teatrı - 1898-ci ildə K.Stanislavski və B.Nemiroviç - Dançenko tərəfindən yaradılmışdır. MXAT milli rus və dünya teatr sənətinin inkişafına mühüm təsir göstərmişdir. MXAT-ın ictimai-siyasi simasının müəyyənləşməsində M.Qorki və A.P. Çexov pyeslərinin tamaşaları xüsusi əhəmiyyət kəsb edir. Dünya teatr səhnəsi tarixində rejissorun rolu ilk dəfə MXAT-da yüksək səviyyəyə qaldırılmışdır. 1987-ci ildən kollektiv iki sərbəst truppaya ayrılmışdır. **C.17**- 219.

**902. Miçiqan** (yerli hindilərin dilində "böyük göl" deməkdir) - ABŞ-da Böyük Göllər sistemində göl. Müqəddəs Lavrenti çayı hövzəsindədir. Sahəsi 58 min km$^2$, maksimal dərinliyi 281 m-dir. Makino boğazı onu Huron gölü ilə, Çikaqo-Lokport gəmiçilik kanalı isə Misisipi çayı şəbəkəsi ilə əlaqələndirir. İri portları və sənaye mərkəzləri: Çikaqo və Miluoki. **C.11-** 384, 386.

**903. Mixail Aleksandroviç Ulyanov** (1927-2005) - rus aktyoru. SSRİ Xalq artisti. Ulyanovun yaradıcılığı coşqun vətəndaşlıq temperamenti, obrazların dəqiq, aydın cizgilərə malik olması, mənəvi zənginliyi, insanpərvərliyi ilə fərqlənir. O, 1950-ci ildən Vaxtanqov adına teatrda çıxış edir. Ulyanov

həmçinin məşhur kino artistidir. O, Lenin və Dövlət mükafatları laureatıdır. **C.22**- 138.

**904. Mikayıl Abdullayev,** Mikayıl Hüseyn oğlu Abdullayev (1921- 2002) - görkəmli Azərbaycan rəssamı. Azərbaycan təsviri sənətinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü, Azərbaycan Dövlət və Beynəlxalq Nehru mükafatları laureatıdır. Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif olunmuşdur. **C.13**- 399-400; **C.19**- 437.

**905. Mikayıl Hüseynov**, Mikayıl Ələsgər oğlu Hüseynov (1905-1992) - Azərbaycan memarı və memarlıq tarixçisi, Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Müasir Azərbaycan memarlığının banilərindən biri. Memarlıq doktoru, professor. Azərbaycan və SSRİ EA-nın həqiqi üzvü. M.Hüseynovun layihələri ilə Bakıda və respublikanın digər şəhərlərində, eləcə də Moskva, Düşənbə və s. yerlərdə yaşayış, ictimai və mədəni-məişət binaları tikilmişdir. Bakıda M.F.Axundov adına Milli Kitabxana, EA şəhərciyi kompleksi, Bakı metropoliteninin "Nərimanov"; "Nizami", "Elmlər Akademiyası stansiyaları" Hüseynoyun ən görkəmli əsərlərindəndir. **C.28**- 205.

**906. Mikayıl Mirzə,** Mikayıl Şahvələd oğlu Mirzəyev (d.1947-2007) - aktyor. Azərbaycan Respublikasının Xalq artisti. **C.10-** 55; **C.27**- 91-92.

**907. Mikayıl Müşfiq,** Mikayıl Mirzə Əbdülqadir oğlu İsmayılzadə (1908-1939) - şair. Poeziyasının əsas qayəsi müasirlik, xəlqilik, humanizm olmuşdur. Onun lirikası forma etibarı ilə novatorluğun ən yaxşı nümunələrindəndir. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. **C.10-** 360, 361; **C.13-** 70, 125; **C.15-** 99; **C.21**- 102.

**908. Mikelancelo** (1475-1564) - dahi italyan heykəltəraşı, boyakar və memar. Renessans mədəniyyətinin ən görkəmli nümayəndələrindən biri. Mikelancelonun ən möhtəşəm və əzəmətli rəngkarlıq əsəri Vatikandakı Sikst kapellası tavanının

(plafon) freskalarıdır (1508-1512). Renessans dövrü monumental dekorativ sənətinin incisi sayılan bu plafon rəsmlərinin mövzusu Bibliya əfsanələri və rəvayətlərindən götürülmüşdür. Mikelancelo Renessans dövrü memarlığında monumental ansambl probleminin həlli sahəsində ilk təşəbbüs göstərərək möhtəşəm Kapitoli meydanını layihələşdirmişdir. **C.12**- 208.

**909. Mikoyan Anastas İvanoviç** (1895-1978) - SSRİ-nin dövlət və partiya xadimi. 1918-ci il aprel-mayında "İzvestiya Bakinskoqo Soveta" qəzetinin faktiki redaktoru olmuş, Bakı kommunasının müdafiəsində fəal iştirak etmiş, Bakıda azərbaycanlıların soyqırımına başçılıq etmişdir. 1920-ci ilin aprelində Leninin tapşırığı ilə XI Qızıl ordu ilə Bakıya daxil olmuş və Azərbaycan Xalq Cümhuriyyətinin xitam verilməsində iştirak etmişdir. **C.19**- 356.

**910. Miqrasiya** - köçmə, mühacirət. **C.23**- 41.

**911. Milad bayramı** - İsa peyğəmbərin anadan olması şərəfinə keçirilən xristian bayramı. Dekabrın 25-də qeyd edilir. Milad bayramının ilkin mənbəyi hər il qış günəş duruşu zamanı (21-25 dekabr) xilaskar allahın "doğulması" ilə əlaqədar keçirilən qədim bütpərəst mərasim bayramı olmuşdur. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişdir. Milad bayramı 431-ci ildə Efes kilsə yığıncağında qanuniləşdirilmişdir. **C.18**- 412; **C.24**- 109, 154.

**912. Milan Kuçan** (d.1941) - Sloveniya siyasətçisi və 1991-2002-ci illərdə Sloveniyanın birinci Prezidenti. **C.28**- 342.

**913. Milli Bank -** bax: Azərbaycan Dövlət Mərkəzi Bankı.

**914. Milli Tikinti Muzeyi** - 1980-ci ildə Vaşinqton şəhərində təsis edilmişdir. Qeyri-kommersiya təşkilatıdır. Muzeyin binası 1982-ci ildə layihələşdirilmişdir və İntibah dövrü memarlığı numunəsindəndir. Muzeydə, adətən, Amerikanın ən hörmətli və yüksək səviyyəli qonaqları üçün qəbullar keçirilir. Amerika memarlığında mühüm yer tutan bu muzeyə yüksək ehtiram və diqqət göstərilir. ABŞ Prezidenti hər il

Milad bayramında bu muzeyə gəlir və çıxış edir. Onun çıxışı televiziya vasitəsilə bütün dünyaya yayılır. Muzeydə tarix, memarlıq, inşaat texnologiyası sahəsində geniş tədqiqat işləri aparılır. **C.11-** 175.

**915. Millətlər liqası** - Birinci və İkinci Dünya müharibələri arasında fəaliyyət göstərmiş beynəlxalq təşkilat, Paris sülh konfransında (1919-1920) yaradılmışdı. Əsas orqanları Cenevrədə yerləşirdi. İlk əvvəl Millətlər liqasına 44 dövlət qoşulmuşdu. Millətlər liqası xalqlar arasında əməkdaşlığı, əminamanlığı qorumaq məqsədi qoymuşdu. Əslində isə faşist Almaniyasını, İtaliyasını dəstəkləyirdi. Millətlər liqası 1946-cı ilin aprelində buraxılmışdır. **C.15**- 207.

**916. Millionşikov Mixail Dmitriyeviç** (1913-1973) - mexanika və tətbiqi fizika sahəsində alim. SSRİ EA akademiki, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatı. 1962-ci ildə SSRİ EA-nın vitse-prezidenti olmuşdur. **C.10-** 264.

**917. 1899 və 1907-ci** il Haaqa konvensiyaları - müharibə qanunları və adətləri haqqında 1-ci (3 konvensiya) və 2-ci (13 konvensiya) beynəlxalq konvensiyalar. 1899 və 1907-ci il 1-ci və 2-ci sülh konfranslarında qəbul edilmişdir. Haaqa konvensiyaları beynəlxalq toqquşmaların dinc yolla həllini, neytraliteti, dinc əhalinin qorunmasını, hərbi əsirlərlə rəftar qaydaları və prinsipləri müəyyən edir. **C.15**- 206.

**918. 1905-1918-ci illər** soyqırımı - çarizmin fəal köməyi ilə erməni-daşnak silahlı birləşmələrinin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı törətdiyi geniş miqyaslı qanlı aksiyalar. Ermənilərin 1905-ci il fevralında Bakıdan başlanan vəhşilikləri bütün Azərbaycanı və indi Ermənistan adlanan Qərbi Azərbaycan ərazisindəki yaşayış məntəqələrini əhatə etdi, yüzlərlə Azərbaycan kəndi dağıdıldı, yüz minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi, xalqımıza məxsus çoxlu milli mədəniyyət abidələri məhv və talan olundu. Bütün bu vəhşiliklər ermənilərin vaxtilə yerləşdirildikləri, lakin əhalinin milli tərkibində azlıq təşkil etdikləri Azərbaycan

torpaqlarını zorla ermənniləşdirmək, bədnam "azərbaycanlılarsız Ermənistan" kimi qeyri-insani planlarını azərbaycanlıların soyqırımı hesabına həyata keçirmək niyyətindən xəbər verir. **C.20**- 410.

**919. 1918-ci il** Xalq Cümhuriyyəti – bax: Azərbaycan Xalq Cümhuriyyəti.

**920. 1956-ci il** Macarıstan hadisələri - 1956-cı ildə Macarıstanda kommunist rejiminə qarşı kütləvi surətdə xalq hərəkatı başladı.Bu hərəkat sovet qoşunları tərəfindən yatırıldı. **C.19**- 67; **C.24**- 218, 219; **C.25-** 273.

**921. 1968-ci il** Çexoslovakiya hadisələri - 1968-ci ildə Çexoslovakiyada demokratik qüvvələr yaranmağa başladı. Bu qüvvələr ölkədə sovet rejiminə qarşı çıxmağa başladı. Bu zaman Varşava Paktı Ölkələrinin hərbi qüvvələri Çexoslovakiyaya yeridildi. Ölkədəki demokratik qüvvələr kütləvi surətdə həbs və məhv edildi. **C.19**- 67; **C.24**- 219; **C.25-** 273.

**922. 1979-cu il** Əfqanıstan hadisələri - 1978-ci ildə Əfqanıstan Demokratik Xalq Partiyası Ölkədə dövlət çevrilişi etdi. Bunun nəticəsində vətəndaş müharibəsi başladı. Ölkədə əmin-amanlıq yaratmaq məqsədilə hakim partiyanın dəvətilə sovet ordu hissələri Əfqanıstana girir. Ancaq nə mərkəzi hökumət, nədə sovet qoşunları ölkədə stabillik yarada bilmir.

Nəhayət 1989-cu ildə sovet ordusu beynəlxalq ictimaiyyətin tələbilə Əfqanıstanı tərk etdi. **C.24**- 219; **C.25-** 143, 218.

**923. 1990-cı ilin 20** yanvar faciəsi - 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən Sovet Ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılığı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin Qanlı Yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə vətənin Şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. **C.10-** 78, 88, 89, 101, 113, 132, 146, 173, 211, 213, 420; **C.12-** 78,

84, 88, 89; **C.13**- 39, 40, 41, 72, 101, 120; **C.14**- 85, 87, 141-145, 165, 405, 430; **C.15**- 111, 131-132, 213, 215-216, 258, 265, 397; **C.16-** 133,288; **C.17**- 45, 49, 111; **C.18**- 283, 290; **C.19**- 31, 49, 50, 60, 61, 235; **C.20**- 109, 318; **C.21**- 82, 86; **C.22**- 202; **C.23**- 125; **C.24**- 21-27, 34, 89, 197, 217-226, 244-252, 325; **C.25-** 272, 314; **C.26-** 191, 234; **C.16**- 133, 288; **C.27**- 105, 370; **C.28**- 25, 230, 313.

**924. 1992-ci ilin** may hadisələri - Burada mayın 14-16-da Bakıda cərəyan edən hadisələr - fövqəladə vəziyyətin tətbiq edilməsinə etiraz əlaməti olaraq çoxminli mitinqlər və Azərbaycan Prezidenti A.Mütəllibovun hakimiyyətdən uzaqlaşdırılması nəzərdə tutulur. **C.10-** 14, 15, 90, 119, 154; **C.12-** 88, 89.

**925. 1993-cü ilin** may-iyun hadisələri - Azərbaycanı vətəndaş müharibəsi həddinə gətirmiş Gəncə hadisələri, Bakıda Ali Sovetin binası qarşısında keçirilən çoxsaylı mitinqlər, Heydər Əliyevin xalqın tələbilə Naxçıvandan Bakıya gəlməsi, Ali Sovetin sədri seçilməsi, o zamankı Respublika Prezidenti Ə. Əliyevin (Elçibəyin) Kələki kəndinə getməsi, Ali Sovetin sədri Heydər Əliyevin Respublika Prezidentinin vəzifəsini icra etməyə başlaması nəzərdə tutulur. **C.10-** 14, 15, 90, 96, 119, 158, 162, 214; **C.15**- 69, 70, 114, 117, 156, 402, 403. **C.18-** 236, 237; **C.18-** 236, 237, 243; **C.19**- 49, 194, 303; **C.20**- 101, 272, 405; **C.22**- 99, 215, 386; **C.23**- 263; **C.24-** 50, 51, 53, 55; **C.25-** 20, 82, 132, 149, 352, 253, 355; **C.26-** 63; **C.27**- 340, 342, 343, 345, 347, 371.

**926. 1994-cü ilin** oktyabrında dövlət çevrilişi cəhdi - Oktyabrın 3-də Gəncə və Qazaxda, həmçinin Bakıda Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə düşmən olan qüvvələr tərəfindən dövlət çevrilişi cəhdi nəzərdə tutulur. Həmən gün Bakıda fövqəladə vəziyyət elan edilmiş və Azərbaycan Prezidenti Heydər Əliyev televiziya və radio ilə xalqa müraciət etmişdi. Gecə olmasına baxmayaraq Bakı və ona yaxın yerlərdən yüzminlərlə insan "Prezident" sarayı qarşısına toplaşaraq milli və vətəndaşlıq həmrəyliyi nümayiş etdirərərək Heydər Əliyevin siyasətini müdafiə etdiklərini bildirdilər. **C.10-** 15, 96,

119, 162, 214; **C.14**- 143, 149, 264, 314, 412; **C.15**- 42, 69, 112, 114, 117, 402; **C.16**- 194, 421; **C.17**- 27, 48, 121, 302, 320, 364; **C.19**- 49, 304; **C.20**- 101, 106, 127, 128, 188-190, 272, 319; **C.21**- 87; **C.22**- 99, 216, 295; **C.24**- 53, 55; **C.25-** 20, 132, 353, 355, 418; **C.26-** 63, 124, 409; **C.27**- 340, 344, 345, 347, 371.

**927. 1995-ci ilin** martında dövlət çevrilişi cəhdi - Martın 12-13-də Qazax və Ağstafada, martın 16-17-də isə Bakının 8-ci kilometr qəsəbəsində Xüsusi Təyinatlı Polis Dəstələrinin bir qrup üzvünün silahlı çıxışı nəzərdə tutulur. Respublika rəhbərliyinin qəti tədbirləri nəticəsində çevriliş cəhdinin qarşısı alındı və silahlı dəstə tərksilah olundu. **C.10-** 15, 96, 97, 119, 214; **C.14**- 297, 314, 412; **C.15**- 69, 71, 114, 402; **C.16**- 175-176, 177, 194, 421; **C.17**- 27, 28, 121, 302, 320, 364; **C.18**- 238, 239, 285, 291; **C.19**- 301, 302, 306, 307, 426; **C.20**- 101, 106, 127, 128, 272; **C.21**- 87, 88;**C.22**- 99, 215, 295; **C.25-** 20, 132, 353, 355, 407, 427; **C.26-** 63, 124, 409; **C.27**- 340, 344, 345, 371.

**928. Minsk konfransı həmsədrlərinin** Denver birgə bəyanatı - Bəyanatda irəli sürülən son təkliflərinin başlıca xüsusiyyəti ondan ibarətdir ki, münaqişənin iki mərhələdə aradan qaldırılması qəti olaraq qarşıya qoyulur. Birinci mərhələdə işğal edilmiş altı rayon azad edilməli və kommunikasiya xətlərinin blokadası aradan götürülməlidir. İkinci mərhələdə isə Dağlıq Qarabağın hüquqi statusu Lissabon prinsipləri əsasında müəyyən edilməlidir. **C.23**- 145, 230.

**929. Mingəçevir** - Azərbaycanda şəhər. "Mingəçevir" sözünün etimoloqiyası barədə müxtəlif mülahizələr var. Akademik Z.Bünyadov Mingəçevirin adını 839-cu ildə Azərbaycanda Xilafətə qarşı çıxmış Mingəçevir əl-Fərqaninin adı ilə əlaqələndirir. XVII əsr türk səyyahı Evliya Çələbi "Səyahətnamə" əsərində Kür çayının sağ sahilində ipək parça emalatxanaları, məscidi və hamamı olan Mingəçevir adlı yaşayış məntəqəsi barədə məlumat verir. Mingəçevir Böyük vətən müharibəsindən sonrakı illərdə salınmış iri sənaye mərkəzlərin-

dəndir. Şəhər Mingəçevir hidrotexniki kompleksinin tikintisi ilə əlaqədar salınmışdır. **C.18**- 13-16, 188-189, 251, 252.

**930. "MİR"** - dövlətlərarası teleradio şirkəti. 1993-cü ildə MDB dövlət başçılarının qərarı ilə yaradılmışdır. Əsasən tamaşaçılara və dinləyicilərə MDB ölkələri və xalqları haqqında ətraflı məlumat verir. **C.10-** 30; **C.25-** 267, 268; **C.28**- 148-170, 353.

**931. Mir Cəlal,** Paşayev Mir Cəlal Əli oğlu (1908-1978) - Azərbaycan Xalq yazıçısı, ədəbiyyatşünas. Elmlər doktoru, professor. Əsasən, yumoristik və satirik hekayələr ustasıdır. Ona daha çox şöhrət gətirən tarixi romanı " Bir gəncin manifesti"dir. Mir Cəlal Füzulinin, Cəlil Məmmədquluzadənin, Ə.Haqverdiyevin, habelə XX əsr Azərbaycan ədəbiyyatı tarixinin ən görkəmli tədqiqatçılarındandır. **C.13**- 125.

**932. Mir Mövsüm Ağa,** Ağa Seyid Əli Mir Mövsümzadə (Ətağa) (1883-1950) - Azərbaycanda və onun sərhədlərindən kənarda tanınan kəramət və möcüzə sahibi. Ağanın bu cür kəramət sahibi olması - həm sağlığında, həm də haqq dünyasına köçəndən sonra dara düşən insanları xilas etməsi, nicat verməsi - ilahi qüvvənin təzahürü, tanrı qüdrətinin emansipasiyasıdır. Ətağa müəyyən telepatik qabiliyyətə də malik idi. Onun varlığından hansısa fitri, bioloji enerji saçılırdı. İndinin özündə də Ağanın ruhuna, kəramətinə inam eynilə qalır. **C.15**- 166-182; **C.19**- 83.

**933. Mircəfər Bağırov Abbas** oğlu (1896-1956) - 1933-1953-cü illərdə Azərbaycan KP MK-nın birinci katibi olmuşdur. Bütün SSRİ-də olduğu kimi Azərbaycanda da inzibati-amirlik idarəetmə sisteminin möhkəmləndirilməsinə, totalitar Stalin rejiminin bərqərar olmasına, partiya sıralarını "təmizləmə" adı ilə baş verən repressiyaların həyata keçirilməsinə bilavasitə rəhbərlik etmişdir. **C.10**- 335, 339**; C.15**- 329, 331, 332; **C.19**- 265; **C.23**- 104; **C.24**- 70; **C.27**- 185, 305, 306, 327.

**934. Mirələsgər Mirqasımov,** Mirələsgər Mirəsədulla oğlu Mirqasımov (1924-2003) - Azərbaycan heykəltəraşı. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi. Bir çox monumental əsərlərin (M.Ə.Sabirin büstü, C.Cabbarlının, N.Nərimanovun abidələri) müəllifidir. Azərbaycan Respub-

likasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.17**- 146, 372; **C.27**- 95.

**935. Mirəsədulla Mirqasımov,** Mirəsədulla Mirələsgər oğlu Mirqasımov (1883-1958) - cərrah. Azərbaycan Respublikası MEA-nın ilk prezidenti. Tibb elmləri doktoru, professor, Azərbaycan MEA-nın akademiki. İlk azərbaycanlı alim-cərrah. Azərbaycan Respublikasında ilk doktorluq dissertasiyası müdafiə etmiş həkimlərdən və müasir tibb elminin əsasını qoyanlardan biri. Mirqasımovun elmi fəaliyyəti əsasən, sidikdaşı xəstəliyinin etiologiya, klinika və müalicəsinin öyrənilməsinə, irinli peritonitlərə, urologiya və cərrahlığın digər aktual məsələlərini əhatə edir. Cərrahlıq sahəsində Azərbaycan dilində yazılmış ilk dərsliyin və 5 cildlik "Cərrahiyyə" kitabının müəllifidir. **C.17**- 146, 372.

**936. Mirməmməd Cavadzadə,** Mirməmməd Cavad oğlu Cavadzadə (1927-2008) - cərrah-uroloq. Tibb elmləri doktoru, professor. Rusiya EA-nın müxbir üzvü, Azərbaycan MEA-nın akademiki, SSRİ və Azərbaycan Respublikası Dövlət mükafatları laureatıdır. Tədqiqatları, əsasən, urologiyanın aktual məsələlərinə həsr edilmişdir. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmuşdur. **C.17**- 148, 149.

**937. Mirvarid Dilbazi,** Mirvarid Paşa qızı Dilbazi (1912-2001) - Azərbaycanın Xalq şairi. Şeirlərində müasirlərimizin mənəvi zənginliyi, vətənpərvərlik və beynəlmiləlçilik tərənnüm edilir. Azərbaycan Respublikasının "Şöhrət" opdeni ilə təltif olunmuşdur; **C.12-** 7-8; **C.13**- 9, 25-30, 70, 101, 125; **C.15**- 84, 85, 227-231; **C.19**- 254.

**938. Mirzə Fətəli Axundov** (1812-1878) - böyük Azərbaycan yazıçısı, dramaturq, materialist-filosof. Axundov Azərbaycan ədəbiyyatı tarixində pyesləri və fəlsəfi əsərləri ilə tanınmışdır. 1850-1855-ci illərdə yazdığı altı komediya ilə Azərbaycan və bütün Şərq ədəbiyyatında realist dramaturgiyanın əsasını qoymuşdur. **C.10-** 56, 340; **C.13-** 82, 107, 108, 174, 216; **C.14-** 5; **C.15-** 282; **C.17**- 163, 188, 342; **C.18**- 332, 357;

**C.19-** 413; **C.22-** 197; **C.24-** 110; **C.22**- 197; **C.24-** 113; **C.26-** 87; **C.28**- 271.

**939. Mirzə Cəlil,** Məmmədquluzadə Cəlil Hüseynqulu oğlu (ədəbi təxəllüsü Molla Nəsrəddin; 1866-1932) - böyük Azərbaycan yazıçısı, jurnalist, ictimai xadim. Mirzə Cəlilin ictimai-ədəbi fəaliyyəti XIX əsrin 80-ci illərinin axırından XX əsrin 30-cu illərinə qədərki böyük tarixi dövrü əhatə edir. 40 illik yaradıcılığı boyu müxtəlif janrlarda yazdığı əsərləri ilə Mirzə Cəlil Azərbaycan realist ədəbiyyatının yüksək pilləyə qalxmasında müstəsna rol oynamışdır. 1906-cı il aprelin 7-də çıxan "Molla Nəsrəddin" jurnalının nəşrinə başlamaqla Mirzə Cəlil Azərbaycanda, eləcə də Yaxın Şərqdə satirik jurnalistikanın əsasını qoymuşdur. Bu zamandan Mirzə Cəlil Molla Nəsrəddin adı ilə məşhur oldu. **C.13**- 18, 24, 82, 83, 110, 169, 171, 174.

**940. Mirzə İbrahimov,** Mirzə Əjdər oğlu İbrahimov (1911-1993) - Azərbaycan Xalq yazıçısı, dramaturq, ictimai və dövlət xadimi. Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı, Beynəlxalq Nehru mükafatı laureatı, AMEA-nın akademiki. Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən olan M.İbrahimov bir sıra hekayə, povest və romanların müəllifidir. Azərbaycan Yazıçılar İttifaqının sədri, birinci katibi, SSRİ Yazıçılar İttifaqının katibi, Azərbaycan Respublikası Ali Sovetinin Sədri, Azərbaycan və SSRİ Ali Sovetlərinin deputatı, Asiya və Afrika Ölkələri ilə Sovet Həmrəylik Komitəsinin sədri olmuşdur. **C.13**- 22, 32, 70, 85; **C.15-** 228, 328.

**941. Mirzə Uluqbəy,** Məhəmməd Tarağay Uluqbəy (1394-1449) - özbək astronomu, riyaziyyatçı. Əmir Teymurun nəvəsi. Atası Şahruxun ölümündən sonra 1447-ci ildən Teymurilər sülaləsinin başçısı olmuşdur. Uluqbəy rəsədxanasında tərtib edilən ulduz kataloqu uzun müddət dünyada ən mötəbər kataloq sayılmışdır. **C.10**- 200, 201, 203.

**942. Mirzə Şəfi Vazeh** (1794-1852) - Azərbaycan şairi, mütəfəkkir, maarifçi. Əlyazması halında olan seir məcmuəsini

F.Bodenştedtə hədiyyə vermişdir. Almaniyaya qayıdan Bodenşted həmin şeirləri almancaya çevirmiş, "Şərqdə min bir gün", "Mirzə Şəfinin şərqiləri" kitablarında nəşr etdirmişdir. Vazehin şeirlərinin Avropada söhrət qazandığını görən Bodenşted 1875-ci ildə özünü onların müəllifi elan etmişdir. Ədəbi irsinin cüzi hissəsi bizə çatmışdır. **C.15**- 282.

**943. Mirzağa Əliyev,** Mirzağa Əli oğlu Əliyev (1883-1954) - aktyor. SSRİ Xalq artisti. İki dəfə SSRİ Dövlət mükafatı laureatı. Əliyev 1924-cü ildən ömrünün sonuna qədər Azərbaycan Milli Dram Teatrında çalışmışdır. O, fitri komediya istedadına, milli koloritə, ifadəli yumor boyaları və zəngin səhnə nüanslarına malik aktyor idi. **C.10-** 55; **C.17**- 189; **C.18**-18.

**944. Mirzəyev Ramiz** (1954-2007) - mühəndis. "Azərqaz" sistemində müxtəlif rəhbər vəzifələrdə çalışmışdır. 1997-2007-ci illərdə "Azərneftyağ" istehsalat Birliyinin Baş direktoru olmuşdur. **C.28**- 5-18.

**945. Misir Ərəb Respublikası** - Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1001,4 min km$^2$, əhalisi 61 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı bir palatalı - Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. **C.21**- 59- 61; **C.23**- 20, 21, 230.

**946. Misir Mərdanov,** Misir Cumayıl oğlu Mərdanov (d.1946) - fizika-riyaziyyat elmləri doktoru, professor. Tədqiqatları, əsasən, riyaziyyatın müasir sahələrindən biri olan optimal idarəetmə nəzəriyyəsinin aktual problemlərinə həsr edilmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyi ali təhsil və elm idarəsinin rəisi, Təhsil nazirinin müavini, BDU-nin tədris işləri üzrə prorektoru, BDU-nun rektoru kimi müxtəlif vəzifələrdə çahşmışdır. 1998-ci ildən Azərbaycan Respublikasının Təhsil naziridir. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir. **C.19**- 290; **C.21**- 10.

**947. Mişel Debeyki** - dünya şöhrətli ürək cərrahı. Hyüstondakı tibb mərkəzində kardioloji xəstəliklərin müalicəsi üzrə professordur. Tibb mərkəzində 1949-cu ildən çalışır. Debeyki

tərəfindən hazırlanan müvəqqəti işləməkdən ötrü süni ürəkdən ilk dəfə olaraq 1966-cı ildə istifadə edilmişdir. **C.11-**306, 308, 310, 311, 406.

**948. Mitsubisi** - yapon şirkəti. Dünyanın 87 ölkəsində filialları olan bu şirkət əsasən elektrotexnika sənayesi, tikinti, maşın avadanlığı istehsalı ilə məşğul olur və özünün sərbəst bankı vardır. Azərbaycanda nümayəndəliyi fəaliyyət göstərir. **C.14-** 346-347; **C.15-** 50.

**949. Mitsui** - Yaponiyanın qabaqcıl şirkətlərindən biri. 1947-ci ildə təşkil olunmuşdur. Dünyanın 79 ölkəsində nümayəndəliyi var. Əsasən, neftayırma sənayesı ilə məşğul olur. **C.14-** 323, 334-335, 356, 359, 369, 387, 388, 398, 403, 427, 440, 441, 448, 453; **C.15-** 50, 429; **C.18-** 37, 464.

**950. Mobil Oyl Korporeyşn** - neft şirkəti. 1866-cı ildə yaradılmışdır. Şirkət neft və qaz yataqlarının kəşfiyyatı, neft və qaz hasilatı, satışı, emalı və nəql olunması ilə, kimyəvi maddələr istehsalı və elmi-tədqiqat işləri ilə məşğul olur. **C11-** 72, 149, 196, 212; 223, 236, 245, 247, 256, 383; **C.12-** 124, 191; **C.14-** 67; **C.20-** 70, 126, 141, 143, 145, 149, 151, 161, 204, 208, 330, 352; **C.25-** 122.

**951. Moiseyev İqor Aleksandroviç** (d.1906) - balet artisti, baletmeyster. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı. 1924-1939-cu illərdə Böyük Teatrın solisti olmuşdur. Moiseyev xalq səhnə rəqslərinin yaradıcılarındandır. **C.18-** 208-210; **C.19-** 275.

**952. "Molla Nəsrəddin"** - həftəlik, illüstrasiyalı ilk Azərbaycan jurnalı. Birinci nömrəsi 1906-cı il aprelin 7-də Tiflisdə çapdan çıxmışdır. 1906-1918-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922-1931-ci illərdə Bakıda nəşr olunmuşdur. Redaktoru və naşiri Cəlil Məmmədquluzadə idi. 25 il ərzində 748 nömrəsi çıxmışdır. Mütərəqqi ideyaların carçısı olan "Molla Nəsrəddin" xalq və demokratiya cəbhəsində duraraq azadlıq düşmənlərini - çar mütləqiyyətini, müstəmləkəçilik siyasətini, geriliyi, mövhumatı, millətçiliyi amansız satira atəşinə tuturdu. Bütün təqib və təzyiqlərə baxmayaraq "Molla Nəsrəddin"in

haqq səsi Qafqazın hüdudlarını aşıb Rusiyada, bütün Yaxın və Orta Şərqdə eşidilmişdi. "Molla Nəsrəddin" Azərbaycan xalqının mütərəqqi düvvələrini, demokratik ziyalıları öz ətrafında toplamışdı. "Molla Nəsrəddin"in yalnız Azərbaycanın deyil, eləcə də Yaxın Şərq ölkələrinin ictimai və ədəbi-bədii fikir tarixində müstəsna rolu olmuşdur. **C.15**- 53, 153, 282; **C.22**- 197, 261; **C.26-** 55, 89, 90.

**953. Moldova Respublikası** - Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,7 min $km^2$, əhalisi 4,36 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Birpalatalı Parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. **C.24**- 265, 307.

**954. Morzison Kaspian LTD** - Bakı nümayəndəliyi 1993-cü ildən fəaliyyət göstərir. Şirkətin əsası 1948-ci ildə qoyulmuşdur. Xidmətlərin geniş spektri, o cümlədən mülki və kommunal tikililərin, yolların layihələşdirilməsi, tikilməsi və icarəsi xidmətləri göstərir. **C.24**- 213-215.

**955. Moskva Akademik Satira** Teatrı - 1924-cü ildə yaradılmışdır. Moskva Satira Teatrının repertuarında siyasi və məişət mövzularında yazılmış həcvlər, satirik səhnəciklər, rus dramaturqlarının komediyaları əsas yer tutur. **C.16**- 74-76.

**956. Moskva Dövlət Universiteti,** M.V.Lomonosov adına Moskva Dövlət Universiteti - dünya elminin ən böyük mərkəzlərindən biri. 1755-ci ildə M.V.Lomonosovun təşəbbüsü ilə yaradılmışdır. Universitetdə 200-dən çox kafedra, 430 elmi-tədqiqat laboratoriyası, 4 elmi-tədqiqat institutu, 4 observatoriya, 12 elmi-tədqiqat stansiyası, 3 muzey, Botanika bağı, elmi kitabxana, nəşriyyatı var. Universitetdə 28 mindən çox tələbə təhsil alır. **C.17**- 218, 219, 220; **C.25-** 39, 42, 43, 46, 47, 48; **C.28**- 49, 249, 250.

**957. Moskva müqaviləsi** (1921) - RSFSR ilə Türkiyə arasında bağlanmış müqavilə. Moskva müqaviləsinin 3-cü maddəsi bütünlüklə Naxçıvan məsələsinə həsr edilmiş və orada aydın şəkildə göstərilmişdir ki, danışıqlarda iştirak edən hər iki tərəfin razılığı ilə hazırkı müqavilənin maddəsinin (V əlavəsin-

də) göstərilən sərhədlərdə Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında, həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir. **C.14**- 77, 78, 79, 88; **C.19**- 144, 150; **C.22**- 159, 249.

**958. Moskva şəhəri** - Rusiya Federasiyasının paytaxtı. Əsası 1147-ci ildə Suzdal Knyazı Yuri Dolqoruki tərəfindən qoyulmuşdur. **C.10-** 9, 32, 103, 105, 111, 114, 115, 118, 147, 149, 151-153, 161, 185, 205, 207, 210-212, 235, 236, 237, 239-241, 242-245, 246-748, 249-254, 255-258, 259-274, 275-279, 280-283, 284-300, 301-329, 341, 344-348, 353, 363, 364, 391, 409, 412; **C.12-** 72, 75, 89, 92, 116, 154-155, 161, 224, 273, 275, 316, 359, 368, 369; **C.19**- 34, 49, 53, 57, 59, 61, 66, 67, 72, 76, 79, 82, 83, 87, 97, 105, 106, 127, 128, 152, 166, 171, 193, 234, 237, 240, 244, 245, 247, 356, 357, 372-384, 395-403, 413, 435, 448, 450; **C.25-** 27, 55, 82, 105, 132, 157, 169, 170, 196, 197, 229, 235, 236, 250, 251, 252, 253, 255, 260, 263, 264, 267, 272, 274, 276, 347, 361, 371, 371, 381, 388, 408, 420, 422.

**959. Motorola** - beynəlxalq şəbəkələr sistemi. Dünyanın bütün qitələrini əhatə edən 110 ölkədə şirkətin nümayəndəlikləri var. 1928-ci ildə fəaliyyətə başlamışdır. İldə 38 milyard dollardan artıq dövriyyəsi var. Azərbayanda da fəaliyyət göstərən "Motorola" şirkəti respublikamızda texniki mərkəz yaradılmasına, buraya azərbaycanlı mütəxəssislərin cəlb edilməsinə də böyük maraq göstərir. **C.11-** 367, 369; **C.22-** 340.

**960. Motsart Volfqand Amadey** (1756-1791) - Avstriya bəstəkarı. Motsart görkəmli musiqi sənətkarları içərisində çox erkən inkişaf edən hərtərəfli istedadı, qeyri-adi taleyi, musiqinin bütün janrlarını əhatə edən yaradıcılığı ilə fərqlənir.

Vyana klassik məktəbinin nümayandəsi olan Motsartın yaradıcılığı XVIII əsr musiqisinin zirvəsi, maarifçilik dövrünün yetirməsi idi. Onun operalarında keçmiş musiqi janrları və formaları sintezləşdirilmiş, yeniləşdirilmişdir. Motsartın son üç simfoniyası ("Mibemol mayor, sol minor və "Yupiter" do ma-

yor) XVIII əsr simfonizminin ən görkəmli nümunələrindəndir. **C.22**- 67.

**961. Mozambik,** Mozambik Respublikası - Cənub-Şərqi Afrikada dövlət. Sahəsi 802 min km$^2$, əhalisi 17,9 milyon nəfərdir. Dövlət və hökumət başçısı Prezident, qanunverici orqanı birpalatalı - Respublika Assambleyasıdır. Paytaxtı Marutudur. **C.25-** 241; **C.28**- 212.

**962. Möhsün Sənani,** Möhsün Sadıq oğlu Sənani (1900-1981) - aktyor, Azərbaycan Respublikasının Xalq artisti. M. Sənaninin yaradıcılığı Azərbaycan teatrının inkişafında mühüm yer tutur. Geniş diapozonlu aktyor olan Sənani, xarakterik və komik rolların ifaçısı kimi şöhrət qazanmışdır. **C.17**- 190.

**963. Mömünə xatun türbəsi -** Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlıq incilərindən biri. 1186-cı ildə Naxçıvan şəhərinin qərb hissəsində tikilmişdir (memarı Əcəmi Əbu Bəkr oğlu Naxçıvani). Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz arvadı Mömünə xatunun qəbiri üzərində məqbərə yaradılmasına qərar vermiş, onun tikintisini oğlu Məhəmməd Cahan Pəhləvan hicri 582-ci ilin məhərrəm ayında (aprel, 1186) başa çatdırmışdır. Elin yaddaşında "Atabəy günbəzi" adı ilə qalmışdır. Abidənin baştağında küfi xətti ilə bu sözlər yazılmışdır. "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar". Kompozisiyaya, yetkinliyə, ayrıntılarının incə, zərif işlənməsinə və memarlıq həllinə görə türbə orta əsrlər memarlıq sənətinin şah əsərlərindən sayılır. **C.22**- 196, 267-271, 273; **C.25-** 311.

**964. Muxtar Dadaşov,** Muxtar Hüseyn oğlu Dadaşov (1928-2002) - Azərbaycan pəhləvanı. Əməkdar idman ustası, Əməkdar məşqçi. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.14**- 311; **C.15**- 91; **C.17**- 157.

**965. Muqabe Robert** (d.1924) - 1987-ci ildən Zimbabvenin Prezidenti. 1980-1987-ci illərdə Zimbabvenin Baş naziri və Müdafiə naziri olmuşdur. 1984-cü ildən Afrika Milli Qurtuluş Partiyasının Zimbabve üzrə Birinci katibidir. **C.26-** 339.

**966. Murad Tutayuq,** Murad Xaspolad oğlu Tutayuq (1904-1970) - maarif xadimi. Naxçıvan MR və Azərbaycan Respublikası Əməkdar müəllimi. Qabaqcıl maarif xadimi. **C.27**- 312.

**967. Murtuz Ələsgərov,** Murtuz Nəcəf oğlu Ələsgərov (d.1928) - Azərbaycanın siyasi-ictimai və dövlət xadimi, hüquq elmləri doktoru, professor. Respublikanın Əməkdar hüquqşünasıdır. Yeni Azərbaycan Partiyasının sədr müavini və partiyanın Siyasi Şurasının üzvüdür. 1993-cü ildə Bakı Dövlət Universitetinin rektoru olub. 1995-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilib. 1996-2005-cı illərdə Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif edilmişdir, Azərbaycan Respublikası Milli Məclisinin Sədri olmuşdur. **C.15**- 83, 200; **C.17**- 425, 435; **C.18**- 108, 383; **C.19**- 56, 141; **C.21**- 45, 120; **C.23**- 88; **C.24**- 73, 74; **C.25-** 15; **C.26-** 222, 226, 396; **C.27**- 15-16; **C.28**- 298.

**968. Musa,** Moisey - iudaizm hədislərinə görə öz etiqadını yəhudi qəbilələrinə öyrədən Yəhvanın birinci peyğəmbəri. Allah tərəfindən müqəddəs kitabın - Tovratın - nazil olunduğu şəxs. Musa peyğəmbər ilk əvvəl Allah tərəfindən ona göndərilmiş əsa ilə öz xalqını Misir əsarətindən xilas edir. Üçüncü ayda Musaya (ə) Sinay dağlarında 10 möcüzə - Allah qarşısında bəndələrinin ədəb-ərkanının tənzimlənməsi nazil olur. 40 gün səhrada qeyb olandan sonra onun xalqı İordaniyanın şərqində ("müqəddəs topraqlar") məskunlaşırlar. Musa (ə)120 yaşında Nevo dağında vəfat etmişdir. Musa (ə) xristian və islam dinində də adı çəkilən peyğəmbərdir. **C.23**- 125.

**969. Musa Nağıyev** (1842-1919) - Bakıda iri neft sahibkarlarından biri, milyonçu. 1893-cü ildə "Musa Nağıyev" neftçıxarma müəssisəsi yaratmışdı. Firmanın 10 milyon manatdan artıq kapitalı var idi; idarəsi Bakıda yerləşirdi. Nağıyevin Sabunçu, Suraxanı və Ramanada 65 neft buruğu, Bakıda neftayırma zavodu, mexaniki emalatxanası vardı. **C.22**- 92, 93.

**970. Museyi-Kazım -** şiəlik məzhəbinə etiqad edənlərin yeddinci imamı. **C.21**- 131**; C.21**- 131; **C.23**- 136, 138, 139, 175, 187, 236.

**971. Mustafa Kamal Atatürk,** Atatürk Qazi Mustafa Kamal (1881-1938) - Türkiyə dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk Prezidenti (1923-1938). Birinci Dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir. 1916-cı ildə ona general rütbəsi və "Paşa" titulu verilmişdir.Atatürk 1919-cu ildə "kamalçılar hərəkatına" - milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament - Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və "Qazi" fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.Atatürk soy adı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. **C.13**- 56, 132; **C.14**- 243, 244, 245, 252, 260; **C.15**- 234, 238, 305, 309; **C.17**- 382, 383; **C.18**- 94, 99, 100, 102, 104, 109, 112, 113, 133, 134, 138, 148, 151, 160, 240, 241; **C.19**- 101, 404-417; **C.20**- 10, 11, 12, 13, 225, 231, 241, 256, 263, 272, 278; **C.22**- 188, 189, 227, 240, 241, 290, 291, 310, 323, 326, 327, 328, 332, 389, 391, 392, 408, 418-343, 435, 441-442, 443, 444, 446, 455, 456, 457; **C.23**- 248, 255, 257, 259, 263; **C.24**- 174; **C.25-** 23, 24, 25; **C.26-** 184, 210, 211, 212, 217, 233, 235; **C.27**- 156; **C.28**- 117, 122, 123.

**972. Mustafa Nəsirov Cəfər** oğlu (d.1921) - general-mayor. 1969-1987-ci illərdə Zaqafqaziya Sərhəd Dairəsi qoşunları rəisinin müavini olmuşdur **C.10-** 365.

**973. Mustafa Mərdanov,** Mustafa Haşım oğlu Mərdanov (1894-1968) - aktyor, Azərbaycan Respublikasının Xalq artisti. Yüksək aktyorluq texnikasına malik olan Mərdanovun ifası üçün incə yumor, komizm, parlaq teatrallıq xüsusiyyətinə malik idi. M.Mərdanov həm də, Azərbaycan kinosunun ilk və tanınmış aktyorlarından idi. **C.17**- 190; **C.26-** 85.

**974. Mustafa Topçubaşov,** Mustafa Topçubaşov Ağabəy oğlu (1895-1981) - cərrah, ictimai və dövlət xadimi. Azərbaycan EA-nın və SSRİ Tibb EA-nın akademiki, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı olmuşdur.

Tədqiqatı, əsasən qarında, başda, döş qəfəsində, ətraflarda aparılan cərrahı problemlərə, öddaşı xəstəliyinin müalicəsinə, periferik iflic xəstəliyinə həsr olunmuşdur. Orijinal diaqnostika və cərrahi üsul təklif etmişdir. Dünyada geniş istifadə olunan analdeziya üsulunu ilk dəfə Topçubaşov kəşf etmişdir. **C.17**- 372; **C.22**- 233; **C.23**- 321.

**975. Mübariz Qurbanlı,** Mübariz Qəhrəman oğlu Qurbanlı (d.1954) - tarix elmləri namizədi. YAP-ın idarə heyətinin üzvü və icraçı katibinin müavinidir. 1995-ci ildən Milli Məclisin üzvüdür. **C.24**- 75.

**976. Mühafizəkarlar partiyası** - İngiltərədə iki aparıçı partiyadan biri. 1867-ci ildə torilər partiyası əsasında yaradılmışdır. İkinci Dünya müharibəsindən sonra 1951-1964, 1970-1974, 1979-1997-ci illərdə hakimiyyətdə olmuşlar. **C.16**- 480; **C.24**- 77.

**977. Münəvvər Kələntərli,** Münəvvər Səməd qızı Kələntərli (1912-1963) - Azərbaycan aktrisası. "Arşın mal alan" filmində yaratdığı Cahan xala obrazı M.Kələntərliyə böyük şöhrət qazandırmışdır. SSRİ Dövlət mükafatı laureatı **C.10** - 177; **C.17**- 190; **C.25-** 313.

**978. Müsavat partiyası** - 1911-ci ildə Bakıda yaranıb. 1920-ci ildə Bakıda fəaliyyəti qadağan edilib. 1992-ci ildən yenidən fəaliyyətə başlayıb. **C.17**- 67-70, 83; **C.18**- 239; **C.25**- 63, 353.

**979. Müslüm İmanov,** Müslüm Məşədi Müseyib oglu İmanov (d.1931) - 1993-2005 -ci illərdə "Azərenerji" Dövlət şirkətinin prezidenti vəzifəsində işləmişdir. **C.21**- 12, 13, 224, 234, 235; **C.24**- 313; **C.27**- 278-292.

**980. Müslüm (Əbdülmüslüm) Maqomayev** (1885-1937) - görkəmli Azərbaycan bəstəkarı. 1912-ci ildən ömrünün axırınadək opera tamaşalarına dirijorluq etmişdir. M. Maqomayevin "Şah İsmayıl" operası Azərbaycan opera sənətinin inkişafı tarixində əhəmiyyətli yer tutur. **C.12-** 5, 356, 357; **C.18**- 390.

**981. Müslüm Maqomayev**, Maqomayev Müslüm Məhəmməd oğlu Maqomayev (1942-2009) - müğənni. SSRİ və Azərbaycan Respublikasının Xalq artisti. Bəstəkar Müslüm Maqomayevin nəvəsi. Azərbaycan Dövlət Milli Musiqi Akademiyasını bitirmişdir. Milanın "La Skala" teatrında (1964-1965) təcrübə keçmişdir. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir. **C.12-** 5-6, 354-361; **C.13**- 12; **C.15**-331; **C.17**- 153, 163; **C.19**- 131; **C.21**- 71-77; **C.28**- 271.

**982. Müstəqil Dövlətlər Birliyi** (MDB) - 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları Saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası - Azərbaycan, Belarusiya, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında; nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri; mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və xarici sərhədlərin qorunmasında əməkdaşlıq. MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası İqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. **C.10-** 25, 64, 66, 67, 69, 79, 95, 121-122, 147, 167, 236, 240, 243, 248, 273, 277, 278, 283, 285, 295, 298, 299, 307, 308, 315, 383; **C. 11-** 56, 80, 129, 340, 341; **C.12-** 23, 32, 73, 74, 284, 298, 368-377, **C.13**- 116, 229, 241, 245, 248, 250, 251, 252, 256, 369; **C.14**- 9, 48, 171, 182, 301, 316, 414, 415, 455, 456; **C.15-** 13, 140, 142, 143, 147, 148, 162, 239 -244, 255,

266, 267, 268, 269, 270, 278, 297, 298, 440; **C.16-** 117, 118, 188, 189, 195, 205, 209, 210, 211, 216, 219, 284, 388, 393, 394, 408, 426, 428, 434; **C.17-** 22, 23, 28, 29, 43, 57, 80, 89, 98 -99, 101, 102, 103, 104, 105, 120, 227, 275, 286, 336, 337, 444; **C.18-** 59, 60, 61, 62, 76, 320, 478; **C.19-** 17, 27-30, 88, 89, 131, 161, 240-248, 250, 260, 284, 288, 289, 348, 376, 393-403, 450; **C.20-** 40, 45, 47, 227, 228, 229, 244, 285, 301-302, 318, 378, 419, 420; **C.21-** 145-160, 164, 208, 240, 263, 285, 294, 295, 296, 299; **C.22-** 31, 370; **C.23-** 27, 34, 36, 43, 75, 79, 80, 87, 89, 136, 175, 185, 354; **C.24-** 36, 38, 82, 86, 87, 95, 150, 152, 260, 263, 266, 268, 273, 279, 281-297, 298, 310, 411, 416, 417, 437, 439; **C.25-** 22, 80, 119, 121, 149, 268, 269, 270, 271, 275, 346, 348, 349, 377, 378, 380; **C.26-** 11, 12, 36, 52, 110, 117, 120, 129, 132, 134, 138, 139, 246, 248, 265; **C.27-** 52, 55, 63, 79, 162, 163, 168, 169, 242, 245, 246, 380, 381, 408; **C.28-** 41, 66, 67, 109, 143, 145,148, 149, 150, 155, 159, 166, 167, 170, 178, 213-277, 328, 358, 375, 380, 381, 382, 385.

**983. Nadejda Pavlova** (d.1956) - rus balet artisti. SSRİ Xalq artisti. 1975-ci ildən Böyük Teatrda balet tamaşalarının əsas aparıcılarındandır. **C.16-** 67-68, 75.

**984. Nadir Qasımov,** Nadir Sadiq oğlu Qasımov (1928-2000) - Azərbaycan Respublikasının Xalq rəssamı. Əsasən, tematik tablolar, portret və mənzərə əsərləri çəkmişdir. Yaradıcılığında Xəzər neft mədənlərinin və Abşeron sənaye müəssisələrinin təsviri mühüm yer tutur. **C.16-** 474.

**985. Nadir Nəsibov,** Nadir Alı oğlu Nəsibov (d.1960) - 1996-1999-cu illərdə Azərbaycan Respublikası Dövlət Əmlak Komitəsinin sədri olmuşdur. **C.10-** 381; **C.14-** 91-99, 117, 118, 121, 124, 130; **C.16-** 121.

**986. Naxçıvan -** Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min km$^2$, əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX-VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində isə Albaniyanın tərkibində, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olur. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil edilərkən respublikanın paytaxtı oldu. **C.21**- 6, 17, 83, 113, 118, 119, 123, 124, 125, 126, 131, 132, 133, 134, 135, 136, 167, 168, 169, 172, 173, 174, 177, 229, 230, 266, 367; **C.22**- 138, 143, 153, 158-296, 299, 300, 305; **C.23**- 84, 85, 88, 89, 95, 402 ,403, 409, 410; **C.24**- 41, 43, 45, 46, 47, 48, 49, 50, 51, 54, 96; **C.25-** 195, 235, 250, 361; **C.26-** 54, 55, 75, 86, 203, 282, 366, 432; **C.27**- 47, 57, 58, 95, 127, 166, 282, 301, 312, 342; **C.28**- 22, 25, 65, 67, 222, 273, 410.

**987. Naxçıvan Dövlət Universiteti** (NDU) - ali təhsil məktəbi. Naxçıvan MR-in mühüm təhsil, elm və mədəniyyət mərkəzi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 dekabr 1990-cı il qərarı ilə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu əsasında yaradılmışdır. 32 ixtisas üzrə mütəxəssislər hazırlayan 9 fakültəsi (tarix, filologiya, iqtisad-hüquq, təbiətşünaslıq, tibb, fizika-riyaziyyat, pedaqoji, incəsənət, xarici tələbələr) hazırlıq söbəsi fəaliyyət göstərir. NDU-da 3600-dən çox tələbə təhsil alır. **C.13**- 62-63.

**988. Naxçıvan xanlığı -** Azərbaycanda XVIII əsrin ortalarında Nadir şah Əfşar əyanlarının sui-qəsdi nəticəsində öldürüldükdən sonra Kəngərli tayfasının başçısı Heydərqulu xan İran naibi Ağa Həsəni Naxçıvandan qovmuş və özünü xan elan etmişdi. Xanlıq Zəngəzur dağlarından Araz çayı dərəsinədək ərazini əhatə edirdi. Əlincə, Xok, Dərələyəz, Ordubad, Əylis, Dəstə, Bəllav mahallarına bölünürdü. Naxçıvan xanlığının inzibati, həm də başlıca ticarət mərkəzi Naxçıvan şəhəri idi.Türkmənçay müqaviləsinə (1828) əsasən Naxçıvan xanlığı İrəvan xanlığı ilə birlikdə Rusiyaya birləşdirildi. **C.22**- 195, 196.

**989. Naxçıvan Muxtar Respublikası** (1920-1923-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-1924-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924-1990-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) - Azərbaycan Respubükasının tərkibində muxtar dövlət. Muxtar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 361,2 min nəfərdir. Hazırda 6 inzibati rayonu – Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, 4 şəhəri Naxçıvan, Ordubad, Culfa, Şərur, 4 şəhər tipü qəsəbəsi - Babək, Şahbuz, Parağaçay, Heydərabad, 207 kənd və qəsəbəsi var. **C.14-** 72-90, 263; **C.19**- 41, 143-154; **C.21**- 118, 123, 367; **C.22**- 152, 158-196, 325, 437, 438; **C.23**- 69, 94; **C.24**- 45, 48, 96, 306, 310; **C.25-** 59, 82, 89, 101, 105, 129, 130.

**990. Naxçıvani Əcəmi Əbubəkr** oğlu - bax: Əcəmi Əbubəkr oğlu Naxçıvani.

**991. Namiq Abbasov,** Namiq Rəşid oğlu Abbasov (d. 1940) - general-polkovnik. 1995-2004-cü illərdə Azərbaycan Milli Təhlükəsizliyi naziri olmuşdur. 2004-cü ildən Özbəkistan Respublikasında Azərbaycanın Fövqəladə və Səlahiyyətli səfiridir. **C.10**- 335, 338, 341, 344, 347, 350, 366; **C.19**- 358; **C.26-** 411.

**992. Namiq Nəsrullayev,** Namiq Nəsrulla oğlu Nəsrullayev (d.1945) - texnika elmləri namizədi. 1971-1987-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasında rəhbər vəzifələrdə, 1987-1995-ci illərdə "Ulduz" Elm-İstehsalat Birliyinin baş direktoru və "Rabitə sistemləri" Elmi-Tədqiqat İnstitutunun direktoru, 1995-1996-cı illərdə Azərbaycan Respublikası İqtisadiyyat nazirinin birinci müavini, 1996-2006-cı illərdə isə Azərbaycan Respublikası Hesablama Palatasının sədri olmuşdur. **C.21**- 9-10.

**993. NASA** - ABŞ-ın Aeronavtika və Kosmik Fəzanın Tədqiqi üzrə Milli İdarəsi. **C.18**- 301, 515.

**994. Natəvan,** Xurşudbanu Mehdiqulu xanın qızı (1832-1897) - Azərbaycan şairi. Mehdiqulu xanın qızı, İbrahimxəlil xanın nəvəsidir. "Xan qızı" adı ilə tanınmışdır. Əsərləri dərin

səmimiyyəti, incə lirizmi ilə seçilir. Yüksək sənətkarlıq nümunəsi olan şeirlərində təkrir, qoşa qafiyə, rədif, məcaz və s. bədii vasitələri məharətlə işlətmişdir. Natəvan həm də istedadlı rəssam olmuşdur. **C.13**- 29; **C.15-** 229; **C.19**- 280; **C.25-** 312.

**995. Natiq Əliyev,** Natiq Ağaəli oğlu Əliyev (d.1947) - 1993-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidentidir. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.10**- 251; **C.13**- 253, 416-431, 467; **C.14**- 64; **C.16**- 396; **C.18**- 116, 412, 415, 435, 436; **C.19**- 201; **C.20**- 143, 151, 469; **C.22**- 20, 21, 22, 104; **C.23**- 107, 213, 219, 220; **C.24**- 321; **C.25-** 284-295.

**996. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – dünyanın ən nüfuzlu hərbi-siyasi ittifaqı. 1949-cu il aprelin 4-də ABŞ-ın təşəbbüsü ilə yaradılmışdır. O, Avropada, eyni zamanda bütün dünyada qüvvətlənən gərginliyin qarşısını almaqda mühüm rol oynayır. NATO-nun ali rəhbər orqanları NATO Şurasının sessiyası, hərbi planlaşdırma komitəsi və hərbi komitədən ibarətdir. İqamətgahı Belçikanın Brüssel şəhərində yerləşir. Azərbaycan 1995-ci ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına daxil olmuşdur. **C.10-** 298, 367, 368, 370, 372; **C.11-** 19, 20, 103, 221; **C.12-** 26, 32, 33, 39, 58, 215, 292; **C.13**- 56, 247, 253; **C.14**- 9; **C.15-** 186, 190, 191, 192, 193, 195, 202, 354; **C.16**- 155, 292, 294, 355, 360, 362, 444; **C.17**- 240, 409-421; **C.19**- 22, 70, 89, 352, 394; **C.20**- 35, 47, 48, 50-166, 179, 181, 203, 209, 218, 223, 227, 229, 245, 247, 253, 257, 276, 285, 328, 350, 352, 362, 383, 416, 419, 427; **C.21**- 143, 157, 298, 302; **C.22**- 47, 106, 330, 342, 363, 365, 371, 377, 379, 380, 382, 384, 439; **C.23**- 81, 89, 101, 136, 162, 175, 184, 185, 204, 230, 258; **C.24**- 97, 402, 411, 418; **C.25**- 82, 100, 115, 117, 143, 157, 169, 300, 301, 385, 386; **C.26**- 29, 400-405; **C.27**- 20, 24, 25, 27-30; **C.28**- 159, 160, 223, 233, 234.

**997. NATO-nun "Sülh** naminə tərəfdaşlıq" proqramı - NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi, 1994-cü il yanva-

rın 10-11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Xavyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. **C.17**- 102, 409, 413, 418, 420; **C.19**- 70; **C.20**- 53, 70, 108, 276; **C.21**- 143; **C.22**- 362, 365, 377, 379, 384

**998. Nazarbayev Nursultan,** Nazarbayev Nursultan Abiş oğlu (d.1940) - Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989-1991-cı illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali Sovetin Sədri, 1991-cı ildə Qazaxıstan SSR-in Przidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının Prezidentidir. **C.10-** 59-80, 84, 95, 102, 105, 107-123, 133, 137, 142; **C.12-** 373-374; **C.14**- 64, 420, 449; **C.16**- 12, 13, 19, 20, 24, 35, 37; **C.17**- 104, 276; **C.18**- 87, 121, 125, 127; **C.19**- 69, 77, 237, 348; **C.20**- 164; **C.21**- 241-242; **C.22**- 122, 351; **C.23** - 149, 178, 192; **C.24**- 281-297, 372; **C.25-** 338; **C.26-** 115-144, 145, 156-182, 265, 285, 362, 395; **C.27**- 164.

**999. Nazim Hüseynov,** Nazim Qalib oğlu Hüseynov (d. 1969) - Azərbaycan cüdoçusu. Azərbaycanlı ilk Olimpiya çempionu (1992), 2 qat Avropa çempionu (1992-1993). Dünya çempionatının gümüş və bürünc mükafatçısı. 1992-ci ildə bütün çəkilərdə Avropanın ən güclü cüdoçusu adına layiq görülmüşdür. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir. **C.24**- 420-432.

**1000. Nazim İbrahimov**, Nazim Hüseyn oğlu İbrahimov (d.1963) - mühəndis. 1997-2000-ci illərdə Ukrayna Respubli-

kasında Azərbaycan Respublikasının Fovqəladə və Səlahiyyətli səfiri. 2000-2002-ci illərdə Milli Məclisin deputatı. 2002-ci ildən Xarici ölkələrdə yaşayan azərbaycanlılarla iş üzrə dövlət komitəsinin sədri. **C.23**- 284-289, 294, 295.

**1001. Neapol şəhəri** - İtaliyanın cənubunda şəhər. Ölkənin mühüm iqtisadi və mədəniyyət mərkəzi, hərbi-dəniz bazasıdır. Neapol Bakı ilə qardaşlaşmış şəhərdir (1972). Neapol şəhərinin əsası Neapolis adı ilə e.ə. VII əsrdə yunanlar tərəfindən qoyulmuşdur. **C.12**- 248-260; **C.19**- 444; **C.27**- 432, 433.

**1002. Neft Daşları** - Abşeron yarımadasından 42 km cənub-şərqdə, açıq dənizdə, polad dirəklər üzərində salınmış neft "şəhəri". Bu ərazi oradakı daşların (təqr.20 ədəd) bəzilərində neft-qaz nişanələrinin olması ilə əlaqədar Neft Daşları adlandırılmışdır. Neft daşları rayonunda geoloji kəşfiyyat işlərinə 1946-cı ildən başlanılmışdır. Çıxarılan neft həm tankerlər, həm də boru kəmərləri vasitəsilə sahilə nəql edilir. **C.10-** 12; **C.11-** 255, 294, 387, 388; **C.13**- 183, 186, 187, 417, 419, 428, 429, 464; **C.15**- 428; **C.16**- 405; **C.20**- 16; **C.21**- 8, 411; **C.22**- 57, 58; **C.23**- 44-45, 225; **C.24**- 130; **C.27**- 42; **C.28**- 157.

**1003. Neft fondu** - 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. **C.24**- 357, 387, 389.

**1004. Nehrəm** - Naxçıvan MR-də Babək rayonunda kənd. Əhalisi 11784 nəfərdir. Nehrəm tarixi kənddir. 1885-ci ildə burada ilk dünyəvi məktəb açılmışdır. C.Məmmədquluzadə 7 ildən çox Nehrəm məktəbində müəllim və müdir işləmişdir. Yazıçı "Kişmiş oyunu" (1892), "Danabaş kəndinin əhvalatları" (1894) əsərlərini burada yazmış, mahalda ilk dəfə qızları məktəbə cəlb etmiş və məktəb-tarix diyarşünaslıq muzeyi yaratmışdır. **C.22** - 264, 277.

**1005. Nemtsov Boris Yefimoviç** (d.1959) - Rusiya Federasiyasının ictimai və dövlət xadimi. 1997-1998-ci illərdə Rusiya Federasiyası baş nazirinin müavini olmuşdur. **C.10-** 193, 200; **C.15**- 353; **C.22**- 27; **C.23**- 31

**1006. Nensi Pelosi** (d.26.03.1940, Merilenq ştatının Baltimor ş.) - 1962-cı ildə Triniti kollecini (bakalavr) bitirmişdir. 1981-1983-cü illərdə Demokratlar partiyasının Kaliforniya ştatındakı bölməsinin sədri olmuşdur. 1987-ci ildən Kaliforniya ştatından ABŞ Konqresi Nümayəndələr Palatasına seçilmişdir. Demokratdır. **C.11-** 164.

**1007. Nəbi Xəzri,** Nəbi Ələkbər oğlu Babayev (1924-2007) - şair və dramaturq. Azərbaycan Respublikasının Xalq şairi. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatıdır. **C.12**- 358; **C.13**- 12, 18, 70; **C.18**- 385, 386; **C.23**- 321.

**1008. Nəcəfbəy Vəzirov,** Nəcəfbəy Fətəli bəy oğlu Vəzirov (1854-1926) - Azərbaycan dramaturqu, publisist, teatr xadimi. Nəcəfbəy Vəzirovun humanizmi, yüksək bəşəri ideallarını tərənnüm edən "Müsibəti Fəxrəddin" Azərbaycan ədəbiyyatında ilk faciədir. Bu əsər Azərbaycan bədii və ictimai fikir tarixində xüsusi yer tutur. **C.13**- 107; **C.17**- 188, 189; **C.18**- 332; **C.26-** 87.

**1009. Nəriman İmranov**, Nəriman Şamo oğlu İmranov (d.1944) - general-mayor. 1993-1994-cü illərdə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi naziri olmuşdur. **C.10-** 351.

**1010. Nəriman Quliyev,** Nəriman Ağaqulu oğlu Quliyev (d.1926) - fizika-riyaziyyat elmləri doktoru. Azərbaycan MEA -nın akademiki. Tədqiqatları nüvə və elementar zərrəciklər fizikası sahəsindədir. Azərbaycan MEA vitse-prezidentidir. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.17**- 147.

**1011. Nəriman Nərimanov,** Nəriman Nəcəf oğlu Nərimanov (1870-1925) partiya və dövlət xadimi, yazıçı və publisist, həkim. 1917-ci ildən tamamilə kommunistlərin əqidəsini qəbul edir və Bakı Xalq Komissarları Sovetinin tərkibinə daxil olur, Azərbaycan zəhmətkeşlərini Müsavat hökumətinə qarşı mübarizəyə çağırırdı. 1919-cu ildə Nərimanov işləmək üçün Moskvaya çağırılır.

1920-ci il aprelin 27-də Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi ərəfəsində Nərimanov qiyabi olaraq Azərbaycan

İnqilab Komitəsinin, sonra isə Azərbaycan SSR XKS-nin sədri seçildi. N.Nərimanov SSRİ-nin 1-ci Sovetlər qurultayında (1922) ZSFSR-dən SSRİ MİK-nin sədri seçilmişdi. **C.15**- 394; **C.17**- 189, 342; **C.19**- 444; **C.25**- 313; **C.27**- 369.

**1012. Nəsibə Zeynalova,** Nəsibə Cahangir qızı Zeynalova (1917-2003)-Azərbaycan Respublikasının Xalq artisti, Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Cahangir Zeynalovun qızıdır. 1941-ci ildən Azərbaycan Musiqili Komediya Teatrının solisti olmuşdur. Zeynalova Azərbaycan komediya tarixinə daxil olmuş unudulmaz səhnə obrazları yaratmışdır. Zeynalovanın aktyor sənəti üçün zəngin mimika və obrazı ən xırda incəliklərini açmaq bacarığı, milli kolorit səciyyəvidir. Zeynalova bir sıra filmlərdə də çəkilmişdir. Azərbaycan Respublikasının “Şöhrət” ordeni ilə təltif olunmuşdur. **C.17**- 148, 164, 190; **C.25**- 313; **C.27**- 91-97.

**1013. Nəsibbəy Usubbəyov (Yusifbəyli),** Nəsibbəy Yusif oğlu Usubbəyov (1881-1920) - Azərbaycanın görkəmli dövlət və siyasi xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri. Azərbaycan Xalq Cümhuriyyətinin 4-cü və 5-ci hökumət kabinələrinə başçılıq etmişdir. Bakı Dövlət Universitetinin yaradılması,100 nəfərə yaxın azərbaycanlı gəncin Avropanın müxtəlif ali məktəblərinə göndərilməsi, torpaq islahatları haqqında qanun layihəsinin hazırlanması, savadsızlıqla mübarizə kurslarının açılması, məktəb dərsliklərinin hazırlanması və nəşrinə başlanması Usubbəyli hökumətinin mühüm qərarlarındandır. Usubbəyli hökumətinin qəbul etdiyi son qərarlardan biri hərbi ordenlərin, milli himnin, dövlət gerbi və möhürü layihələrinin hazırlanması haqqında qərar idi. Bakının on birinci Qırmızı ordu tərəfindən işğalından sonra təqibdən yaxa qurtarmaq məqsədilə şəhəri tərk edən N.B. Usubbəyli yolda faciəli surətdə qətlə yetirilir. **C.15**- 394; **C.20**- 281; **C.24**- 369; **C.27**- 369.

**1014. Nəsimi,** əsl adı Seyid Əli (1369-1417) - bax: İmadəddin Nəsimi.

**1015. Nəsirəddin Tusi,** Məhəmməd ibn Həsən (1201-1274) - Azərbaycanın ensiklopediyaçı alimi, dövlət xadimi. Təsis etdiyi Marağa Astronomiya Rəsədxanası qısa müddətdə böyük elmi mərkəzə çevrilmiş, burada bir çox məşhur riyaziyyatçı və astronom alimlər yetişmişdir. **C.10**- 201, 262; **C.14**- 5; **C.18**- 352; **C.25-** 271; **C.26-** 328.

**1016. Niçimen** - yapon şirkəti. Azərbaycanda 1993-cü ildən fəaliyyət göstərir və 1997-ci ildə Bakıda öz nümayəndəliyini açmışdır. Şirkət, əsasən qara metallurgiya yanacaq, elektrotexnika, kimya və yüngül sənaye sahələri ilə məşğuldur. **C.14**- 330-331, 392-394, 398, 440, 448; **C.15**- 18, 49, 50; **C.16**- 398; **C.18**- 37; **C.19**- 340; **C.22**- 146.

**1017. Niderlandiya Krallığı** (qeyri-rəsmi adı Hollandiya) - Qərbi Avropada Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 15.6 milyon nafərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı Kral, qanunverici orqanı ikipalatalı (Baş ştatlar) Parlamentdir - Paytaxtı Amsterdam. **C.27**- 31, 32, 159.

**1018. Nidzö qəsri** - qəsrin tikintisinə 1603-cü ildə başlanılmış, 1626-cı ildə başa çatdırılmışdır. 1867-ci ildə bu qəsr imperator ailəsinə verilmiş və 1884-cü ildən Nidzö adı almışdır. Bu qəsr tarixi abidə kimi böyük qayğı ilə qorunub saxlanılır. Onun "Ninomaru" sarayı yaponların milli sərvəti hesab edilir. Bu qəsrdə rəsmi mərasimlər və qəbullar keçirilir. **C.14**- 464.

**1019. Nigar Rəfibəyli,** Nigar Xudadat qızı Rəfibəyli (1913-1981) - Azərbaycanın Xalq şairi. N.Rəfibəyli lirik şeirlər müəllifidir. Azərbaycanın gözəl təbiət mənzərələri, Azərbaycan qadınarının mənəvi zənginliyi, vətənpərvərlik, sülh, demokratiya, azadlıq ideyaları yazdığı şeir və poemaların əsas mövzusudur. **C.13**- 26, 70; **C.15**- 54, 228, 229; **C.19**- 130; **C.25-** 314.

**1020. Nigeriya,** Nigeriya Federativ Respublikası - Qərbi Afrikada dövlət. Sahəsi 924 min km$^2$, əhalisi 103,9 milyon nəfərdir. Paytaxtı Abudya şəhəridir. Dövlətin və hökumətin başçısı Prezidentdir. **C.20**- 298; **C.24**- 30.

**1021. Nikolay II** (1868-1918) - sonuncu Rusiya imperatoru. Onun hakimiyyəti zamanı 1905-1907-ci inqilabına səbəb olan Rus-Yapon müharibəsindəki məğlubiyyət, siyasi partiyaların və Dövlət Dumasının yaranmasına imkan yaradan 1905-ci il 17 oktyabr Manifesti, Stolıpin aqrar reformasının həyata keçirilməsi olmuşdur. 1917-ci il fevral inqilabı nəticəsində taxt-tacdan uzaqlaşdırılan II Nikolay bolşeviklərin sanksiyası ilə ailəsi ilə birlikdə Yekaterinburqda güllələndi. 1998-ci ildə II Nikolayın cənazəsinin qalıqları Sankt-Peterburqda Petropavlovsk kilsəsində dəfn edilmişdir. **C.17-** 139; **C.26-** 54.

**1022. Nikolayev Andrey İvanoviç** (d.1949) - ordu generalı. 1993-1997-ci illərdə Rusiya Federasiyası Sərhəd Qoşunlarının rəisi olmuşdur. Hazırda Rusiya Dövlət Dumasının deputatıdır. **C.10-** 184.

**1023. Nisso İvai** - yapon şirkəti. İxrac-idxal əməliyyatlarının həyata kecirilməsinə, iqtisadiyyatın ən müxtəlif sahələrində yeni texnologiyanın tətbiqi ilə əlaqədar layihələrin maliyyələşdirilməsinə böyük maraq göstərir.Dünyanın 154 ölkəsində nümayəndəliyi və 500-dən artıq törəmə şirkəti vardır. **C.14-** 371-372; **C.15-** 50.

**1024. Nişanov Rafik Nişanoviç** (d.1926) - Özbəkistanın partiya və dövlət xadimi, diplomat. 1986-1988-ci illərdə Özbəkistan SSR Ali Soveti Rəyasət Heyətinin Sədri, 1988-1989-cu illərdə Özbəkistan KP MK-nın birinci katibi, sonralar Pakistanda, İordaniyada SSRİ-nin səfiri, SSRİ Ali Sovetinin Sədri olmuşdur. **C.10-** 211.

**1025. Niyazi,** Tağızadə - Hacıbəyov Zülfüqar oğlu Niyazi (1912-1984)- Azərbaycan dirijoru, bəstəkar. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, iki dəfə SSRİ Dövlət mükafatı laureatı. **C.10-** 50; **C.13-** 222; **C.15-** 332; **C.17-**163, 193.

**1026. Niyazov Saparmurad Ata** oğlu (d.1940-2005) – Türkmənistanın siyasi və dövlət xadimi. 1985-ci ildə Türkmənistan SSR-in Nazirlər Sovetinin Sədri, 1985-ci ilin dekabrından 1990 -cı ilə qədər Türkmənistan KP MK-nın birinci katibi olmuşdur. 1990-cı ildən Türkmənistan Respublikasının Prezidenti olmuşdur. **C.13-** 314-315, 367, 368, 426; **C.14-** 420, 422;

**C.18**- 117-120, 165-166; **C.19**- 190, 201, 202, 241, 349; **C.20**- 111, 117; **C.22**- 351; **C.23**- 226; **C.25-** 80, 106, 164, 184, 185; **C.26-** 18, 169, 174; **C.27**- 407.

**1027. Nizami Cəfərov**, Nizami Qulu oğlu Cəfərov (d. 1959) - Azərbaycan tənqidçisi, ədəbiyyatşünas, elmlər doktoru, professor, Azərbaycan Respublikası Milli Məclisinin deputatı. Bakıda yaranmış Atatürk mərkəzinin direktorudur. **C.13**- 68.

**1028. Nizami Xudiyev,** Nizami Manaf oğlu Xudiyev (d. l949) - filologiya elmləri doktoru, professor. 1996-2006-cı illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri, Azərbaycan Respubükası Milli Məclisinin deputatı olub. **C.10-** 154, 156; **C.13**- 65; **C.21**- 17.

**1029. Nizami,** Nizami Gəncəvi (təxəllüsü) - əsl adı İlyas Yusif oğlu Gəncəvi (1141-1209) - Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə beş epik poemadan ibarət "Xəmsə" müəllifı kimi daxil olmuşdur. **C.10-** 120, 192, 202; **C.13**- 82, 98, 107, 304; **C.14-** 5; **C.15**- 184; **C.17**- 163, 301, 342; **C.18**- 352, 357, 377, 378; **C.19**- 130; **C.21**- 128, 175, 179, 256; **C.22**- 196, 201, 235; **C.23**- 321; **C.24**- 113; **C.25-** 84, 311; **C.26-** 151, 321, 323, 324, 325, 326, 394; **C.27**- 302, 303, 304, 306, 307, 308, 309, 323, 324, 327, 335, 336, 356; **C.28**- 188, 189, 271.

**1030. NKV** - Daxili İşlər Xalq Komissarlığı. **C.27**- 177.

**1031. Nobel qardaşları** - İsveç ixtiraçıları və sənayeçiləri. Silah istehsalı və ağ neft ticarəti ilə məşğul olmuşlar. Robert Nobel XIX əsrin 70-ci illərində Bakıya gəlmiş və neft işi ilə maraqlanmışdı. O, sonralar qardaşı Lüdviqi də bu işə cəlb etmiş və onlar 1879-cu ildə "Nobel qardaşları" şirkətini təsis etmişlər. Şirkətin demək olar bütün kapitalı, habelə illər boyu götürdüyü yüzmilyon manatlarla izafi mənfəət Bakı neftinin hesabına qazanılmşdı. Tərkibinə əsas kapitalı 130 milyon manatdan çox olan 25 müxtəlif müəssisə daxil idi.

Nobel qardaşları inhisarlarının Bakıda fəaliyyəti Azərbaycan iqtisadiyyatının inkişafına səbəb oldu. Onların açdığı müəssisələrdə minlərlə azərbaycanlı işləmiş və onlar öz işləri-

nin gözəl mütəxəssisi olmuşlar. Onların sifarişi ilə İsveçdə tikilən və Xəzərə gətirilən "Zoroastr" gəmisi dünyada ilk neftdaşıyan tanker idi. Beynəlxalq Nobel mükafatları Alfred Nobelin vəsiyyətinə əsasən "Nobel Fondu" tərəfindən təsis edilmişdir. Bu mükafat hər il məşhur alimlərə (etdikləri ixtiralara və gördükləri işlərə), ictimai və siyasi xadimlərə, yazıçı və şairlərə verilir. **C.21**- 226; **C.22**- 6; **C.23**- 392; **C.25-** 85; **C.28**- 6, 8.

**1032. Nobel mükafatları** - illik beynalxalq mükafatlar; onları təsis etmiş İsveç mühəndis - kimyaçısı, ixtiraçı və sənayeçi Alfred Bernhard Nobelin adınadır. 1901-cı ildən verilir. Nobelin vəsiyyətinə əsasən onun ölümündən sonra qalan kapital Nobel fondunu təşkil etmişdir, 31milyon İsveç kronası olan həmin məbləğin 12,4%-i (3,74 milyon krona) Bakıdakı "Nobel qardaşları" şirkətindən A.Nobelə düşən səhmin hesabında idi. Nobel mükafatı fizika, kimya, fiziologiya, tibb, ədəbiyyat sahəsində ən yeni nailiyyətlər, həmçinin sülhü möhkəmləndirmək sahəsindəki fəaliyyətinə görə verilir. Bir qayda olaraq, Nobel mükafatı yalnız sağ olan şəxslərə verilir. Mükafat verilməsi haqqında qərardan şikayət vermək və ya ləğv etmək olmaz. Nobel mükafatı təqdim olunması mərasimi dekabrın 10-da - Nobelin ölümünün ildönümü günü - Stokholmda və Osloda keçirilir. **C.27**- 131.

**1033. Nodar Şaşıqoğlu** (d.1927) - Azərbaycanın teatr və kino aktyoru, bədii qiraət ustası. Azərbaycan Respublikasının Xalq artisti. **C.14**- 14.

**1034. Norveç,** Norveç krallığı - Şimali Avropada, Skandinaviya yarımadasında dövlət. Sahəsi 387 min $km^2$, əhalisi 4,4 milyon nəfərdir. İnzibati cəhətdən 20 fülgeyə bölünür. Norveç konstitusiyalı - monarxiyadır. Dövlət başçısı Kraldır. Qanunverici orqanı İkipalatalı Stortinqdən (parlament) ibarətdir. Paytaxtı Oslo şəhəridir. **C.21**- 267, 271, 274, 275, 361, 390-408, 410; **C.27**- 174, 175, 204-206.

**1035. Novruz bayramı** - qədim xalq bayramı. Şimal yarımkürəsində astronomik yazın başlandığı gecə-gündüz bərabərliyi günündə (martın 21-22-də ) keçirilir. Qədim zaman-

lardan başlayaraq İran, Azərbaycan, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi Şərq ölkələri baharın - yeni ilin gəlişini şənliklərlə qarşılayırlar. Respublikamız müstəqillik qazanandan sonra Novruz bayramı rəsmi ümumxalq bayramı və istirahət günü elan edilmişdir. 2010-cu il Novruz bayramı YUNESKO-nun irds siyahısına daxil edilib. BMT tərəfindən 21 mart-beynəlxalq Novruz günü elan olunub. **C.15**- 57-58, 59-73, 74-78, 153; **C.24**- 373; **C.25-** 363, 430-431, 432; **C.28**- 118, 119, 120, 189, 259.

**1036. Novruz Rizayev Kərim** oğlu (1883-1941) - 1927-1929-cu illərdə Azərbaycan SSR Xalq Daxili İşlər komissarı, həmçinin Dövlət Siyasi İdarəsinin (indiki Dövlət Təhlükəsizliyi Nazirliyinin) sədri olmuşdur. **C.10-** 339.

**1037. Novorossiysk şəhəri** - Rusiya Federasiyasının Krasnodar ölkəsində şəhər. Bakıdan Novorossiyskə neft kəməri çəkilmiş və 1997-ci ildə istifadəyə verilmişdir. **C.10-** 71, 185, 313, 317, 323, 325, 326, 348, 350, 373; **C.12-** 37, 71, **C.13**- 117, 187, 313; **C.14**- 24, 226, 379, 395, 419, 453; **C.15**- 425,439; **C.16**- 22, 141, 150, 213, 286, 325, 364, 390, 431, 432, 443; **C.17**- 37, 41, 386; **C.18**- 122, 128, 143, 145, 463; **C.19**- 188, 389, 420, 423, 425, 426, 451.

**1038. NTV** - Rusiya Federasiyasının müstəqil televiziya kanallarından biri. 1991-ci ildən fəaliyyət göstərir. **C.19**- 65 - 68, 74; **C.20**- 217- 222; **C.23**- 33.

**1039. Nurəddin Mehdixanlı,** Nurəddin Əzulla oğlu Mehdixanlı (d.1956) - Azərbaycan Respublikasının Xalq artisti. 1978-ci ildən Akademik Milli Dram Teatrının truppasında çalışır. Romantik pafosa, coşğun daxili temperamentə malik aktyordur. N. Mehdixanlı bir çox kinofilmlərə də çəkilmişdir. **C.27**- 96.

**1040. Nuru Paşa** (1889-1949) - Türkiyə hərbi xadimi, general. 1918-ci ilin yazında Osmanlı Türkiyəsi Azərbaycanı və Dağıstanı bolşevizmdən xilas etmək üçün qərargah yaradanda Nuru Paşa Qafqaz İslam Ordusunun komandanı təyin edildi. Nuru Paşanın qoşunları 1918-ci il iyunun 17-dən sentyabrın

14-dək uğurlu döyüş əməliyyatları apararaq işğal altında olan Azərbaycan torpaqlarını bolşevik-daşnak işğalçılarından təmizlədi və həmin ilin oktyabrında Bakını azad etdi. **C.26-** 190.

**1041. Nümayəndələr palatası** - ABŞ-da parlamentin aşağı palatasının adı. Nümayəndələr palatası ABŞ-da 1787-ci il Konstitusiyasına əsasən yaradılmışdır. **C.20-** 155, 159, 182; **C.24-** 106; **C.25-** 134.

**1042. Nürnberq tribunalı,** Nürnberq prosesi - əsas nasist hərbi canilər üzərində məhkəmə prosesi, 1945-ci il noyabrın 20-dən 1946-cı il oktyabrın 1-dək Nürnberqdə Beynəlxalq hərbi tribunalda aparılmışdır. Faşist Almaniyasının ali dovlət və hərbi xadimləri - G.Gerinq, B.Keytel, E.Kaltenbrunner, A. Yodl, Q.Qess, A.Şpeer, Y.Şaxt, Q.Krupp; 12 adam ölüm cəzasına, 7-si isə uzunmüddətli və ömürlük həbs cəzasına məhkum olunmuşlar. Nürnberq tribunalı tarixdə ilk dəfə olaraq bu təcavüzü insanlığa qarşı ən ağır cinayət adlandırmışdır. **C.15-** 207.

**1043. Nüvə silahı sınaqlarının** tamamilə qadağan olunması haqqında müqavilə. 1996-cı il sentyabrın 10-da BMT -nin Baş Məclisi tərəfindən qəbul edilmişdir. Müqavilə Nyu-Yorkda BMT-nin mənzil-qərargahında imzalanmaq üçün açıqdır. Müqaviləyə uyğun olaraq hər bir iştirakçı dövlət nüvə silahının hər hansı sınaq partlayışını və digər nüvə partlayışını keçirməməyi, habelə onun yurisdiksiyası və ya nəzarəti altında olan hər hansı yerdə nüvə partlayışını qadağan etməyi və bunun qarşısını almağı öhdəsinə götürür. Müqavilə müddətsizdir və onu imzalamış dövlətlər tərəfindən təsdiq edilməlidir. Heydər Əliyev Azərbaycan Respublikası adından bu müqaviləni 1997-ci il iyulun 28-də BMT-nin iqamətgahında imzalamışdır. **C.11-** 35.

**1044. Nyu-York** - ABŞ-ın ən mühüm iqtisadi, maliyyə, siyasi və mədəni mərkəzlərindən biri. Əsası 1626-cı ildə Yeni Amsterdam adı ilə hollandiyalılar tərəfindən qoyulmuşdur. 5 inzibati rayona bölünür. Sahəsi 816 $km^2$ (o cümlədən quru hissəsi 768 $km^2$), əhalisi 7 milyon (ətrafı ilə birgə 16 milyondan) nəfərdən çoxdur. Ölkənin 7 əsas bankından 6-nın iqamətgahı

bu şəbərdədir. **C.11-** 5, 22, 32, 69, 73, 78, 203, 316, 343, 359, 389, 391; **C.12-** 96, 124.

**1045. "Nyu-York Tayms"** (Nyu-York vaxtı) - ABŞ-da gündəlik qəzet. 1851-ci ildən Nyu-Yorkda "Nyu-York tayms şirkəti" tərəfindən nəşr edilir. Latın Amerikası və Avropa nəşrləri müvafiq olaraq Limada (Peru) və Parisdə (Fransa) çıxır. Tirajı 1 milyondan çoxdur.**C.11**- 36, 38; **C.18**- 35, 36; **C.25**- 124-136, 191; **C.28**- 45.

**1046. Nyut Qinqriç** (d.1943) - 1961-ci ildə İmori universitetini (incəsənət bakalavrı), 1968-ci ildə Tyuyleyn universitetini (incəsənət magistri) bitirmişdir. 1971-ci ildə fəlsəfə doktoru dərəcəsi almışdır. İxtisası müəllimdir. 1974-cü ildə və l976-cı ildə Respublikaçılar partiyasından Numayəndələr Palatasına namizəd irəli sürülmüşdür. 1978-ci ildən ABŞ Konqresi Nümayəndələr Palatasının üzvüdür. **C.11-** 156, 158, 215, 274. 275, 289, 344, 356.

**1047. Ohayo** - ABŞ-ın şimalında ştat. Sahəsi 116,1 min km$^2$, əhalisi 11,2 milyon nəfərdir, inzibati mərkəzi Kolumbus şəhəridir. **C.20** - 166, 204.

**1048. Oklahoma** - Amerika Birləşmiş Ştatlarında ştat. Sahəsi 181,1 min km$^2$, əhalisi 3,3 milyon nəfərdir. İnzibati mərkəzi Oklahoma - Sitidir. **C.25-** 32.

**1049. Oktyabr inqilabı -** bax: Böyük Oktyabr sosialist inqilabı.

**1050. Oqtay Mirqasımov,** Oqtay Mirəsədulla oğlu Mirqasımov (d.l943) - kinorejissor, Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi. Onun çəkdiyi filmlər ("Bu həqiqətin səsidir - Qara Qarayev", "Gümüşü fayton", Göz qabağında şeytan", "Ovsunçu") tamaşaçılar tərəfindən həmişə rəğbətlə qarşılanır. Azərbaycan Respubluikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.21**- 11.

**1051. Oqtay Sadıqzadə,** Oqtay Seyid Hüseyn oğlu Sadıqzadə (d.1921) - Azərbaycan boyakarı və qrafiki, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi. Seyid Hüseynin oğludur. Əsasən, kitab qrafikası sahəsində fəaliyyət göstər-

mişdir. Tematik tablo, kompozisiya, portret və s. boyakarlıq əsərləri də çəkmişdir. Azərbaycan şairlərindən Qətran Təbrizi, Qönçəbəyim, Heyran xanımın portretlərinin müəllifidir. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.19-** 213-214, 259, 278-280.

**1052. OMON** - 1992-1995-ci illərdə Daxili İşlər Nazirliyinin tərkibində olan Xüsusı Təyinatlı Polis Dəstələri (XTRD). **C.19-** 304, 305, 306; **C.20-** 272, 320, 321, 323; **C.21-** 87; **C.23-** 86; **C.25-** 355; **C.28-** 273.

**1053. OPEK** (Neft ixrac edən ölkələrin təşkilatı) - 1960-cı ildə yaradılmışdır. Tərkibinə İran, İraq, Venesuela, Küveyt, Səudiyyə Ərəbistanı, Qətər, İndoneziya, Əlcəzair, Nigeriya, Ekvador, Qabon daxildir. Mənzil-qərargahı Vyanadadır. **C.11-** 209; **C.20-** 463.

**1054. Orconikidze Qriqori Konstantinoviç** (Serqo) (1886-1937) SSRİ-nin dövlət və siyasi xadimi. 1903-cü ildən RSDFP-nin fəal üzvlərindən biri olmuşdur. Rusiyanın cənubunda və Şimali Qafqazda Sovet hakimiyyətinin qurulmasında mühüm rol oynamışdır. Qızıl ordunun rəhbərlərindən biri olmuş və Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi üçün bütün vasitələrdən istifadə etmişdir. **C.19-** 152.

**1055. ORT** - Rusiya İctimai Televiziyası. MDB ölkələrinin 98 faizdən çox əhalisi üçün verilişlər aparır. Müxbir məntəqələri Rusiyada, MDB-də və dünyanın bir çox ölkələrində fəaliyyət göstərir. **C.17-** 335-338; **C.18-** 11-12; **C.20-** 223-230; **C.23-** 33; **C.25-** 196, 198.

**1056. "Ortaq dövlət" prinsipi -** bax: "Ümumi dövlət".

**1057. "Oskar"** - Amerika Kinematorqafiya İncəsənəti və Elmi Akademiyasının mükafatı. 1929-cu ildən hər il ən yaxşı Amerika filminə (bəzən ingilis) və müxtəlif sahələrdə Amerika kinosunda (20 kateqoriya üzrə) müstəsna xidməti olanlara və ən yaxşı xarici filmlərə verilir. "Oskar" mükafatına bütövlükdə kino sənətinə xeyir verənlər də layiq görülür. **C.19-** 131.

**1058. Oskar Şmerlinq** (1863-1938) - boyakar və qrafik. Məişətcə almandır. Peterburq (1884-1889) və Münxen (1891-

1893) rəssamlıq akademiyalarında oxumuşdur. O. Şmerlinqin yaradıcılıq fəaliyyəti Azərbaycanla çıx bağlıdır. 1889-1890-cı illərdə Qarabağda - Xankəndində yaşamışdır. Şmerlinqin satirik qrafika sahəsindəki müvəffəqiyyətləri "Molla Nəsrəddin" jurnalı ilə əlaqədardır. 1906-1917-ci illərdə "Molla Nəsrəddin" jurnalının əsas rəssamı olmuş, jurnal üçün çoxlu karikatura, satirik rəsm çəkmişdir. **C.26-** 90.

**1059. Osman Sarıvəlli,** Osman Abdulla oğlu Qurbanov (1905-1990) - Azərbaycanın Xalq şairi. Əsasən, lirik seirlər yazmışdır. Yaradıcılığında Cənubi Azərbaycan haqqında yazdığı lirik şeirlər xüsusi yer tutur. **C.13-** 70, 125; **C.24-** 116.

**1060. Osmanlı imperiyası** - Sultan Türkiyəsinin rəsmi adı (Osmanlılar sülaləsinin əsasını qoymuş I Osmanın adındandır). XV əsrin 2-ci yarısından Osmanlı dövləti imperiyaya çevrilməyə başlamış, XV-XVI əsrlərdə Asiya, Avropa və Afrikada türk işğalları nəticəsində dünyanın ən böyük dövlətlərindən biri olmuşdur. 1918-ci ildə Birinci Dünya müharibəsində məğlubiyyətindən sonra tamamilə dağıldı, 1922-ci ildə Türkiyə sultanlığına da son qoyuldu. **C.13-** 55, 113; **C.18-** 100, 240; **C.19-** 82, 169, 406, 407; **C.28-** 117.

**1061. Ömər Eldarov,** Ömər Həsən oğlu Eldarov (d.1927) - görkəmli Azərbaycan heykəltəraşı. Azərbaycan MEA-nın həqiqi üzvü. Rəssamlıq Akademiyasının müxbir üzvü. Heykəltəraşlığın müxtəlif janrlarında (monumental abidə, portret, büst, barelyef və s.) əsərlər yaradır. 1995-ci ildən Milli Məclisin deputatıdır. Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif olunmuşdur. **C.13-** 401-402; **C.15-** 152; **C.16-** 474.

**1062. Ömər Faiq Nemanzadə** (1872-1941) - Azərbaycan publisisti, maarifçi, ictimai xadim. Jurnalistlik fəaliyyətinə "Şərqi-Rus" qəzetində (1903-1905) başlamışdır. "Qeyrət" mətbəəsinin və "Molla Nəsrəddin" jurnalının yaradıcılarındandır. "Molla Nəsrəddin"in əsas mühərrirlərindən olmuş, 1906-1910-cu illərdə C.Məmmədquluzadə ilə birlikdə jurnalı idarə etmişdir. **C.26-** 89.

**1063. Ömər Xəyyam** (1048-1122-ci ildən sonra) - böyük fars və tacik şairi, riyaziyyatçı, filosof. O, riyaziyyata və fəlsəfəyə dair çoxlu əsərlərin, dünya şöhrəti qazanmış rübailərin müəllifidir. **C.21**- 176.

**1064. Özbək Müzəffərəddin** (? - 1225) - Eldəgəz hökmdarı (1210-1225), Məhəmməd Cahan Pəhləvanın oğlu. Özbəyin dövründə monqollar ilk dəfə Azərbaycana soxuldu. 1225-ci ildə Xarəzmşah Calal əd-din Azərbaycana hücum etdi. Əvvəlcə Gəncəyə, sonra isə Əlincəqalaya qaçan Özbək orada da vəfat etmişdir. **C.25-** 311.

**1065. Özbəkistan,** Özbəkistan Respublikası - Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 23 206 min nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı - Prezident, qanunverici orqanı - Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. **C.18**- 107, 121, 122, 124, 125, 127, 128, 135, 159, 163, 373, 395-398, 448;. **C.19**- 69, 155-158, 183, 189, 237, 241, 246, 345, 347, 348, 425, 434; **C.20**- 81-82, 112, 129, 215, 260, 277, 283; **C.21**- 7, 147, 150, 221, 261-264, 410; **C.24**- 189, 330; **C.28**- 82-90, 119, 189.

**1066. Paxmutova Aleksandra Nikolayevna** (d.1929) - rus bəstəkarı, Rusiyanın Xalq artisti, Sosialist Əmsəyi Qəhrəmanı. Müxtəlif janrlarda əsərlər bəstələyən Paxmutova mahnı müəllifi kimi daha çox şöhrət qazanmışdır. **C.24**- 111.

**1067. Pakistan,** Pakistan İslam Respublikası - Cənubi Asiyada dövlət. Sahəsi 796 min km$^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Parlamentdir. **C.15**- 105-107; **C.26-** 84, 245; **C.28**- 78-81, 232, 233.

**1068. Panislamizm** - XIX əsrin sonlarında Yaxın və Orta Şərqdə yaranmış dini-siyasi ideologiya. Türkiyədə meydana gəlmiş və müsəlman ölkələrində yayılmışdır. Panislamizm milliyyətindən asılı olmayaraq bütün müsəlman xalqların vahid dövlətdə birləşməsini təbliğ edirdi. **C.10-** 68. **C.19**- 416, 417.

**1069. Pantürkizm** - XIX əsrin sonu - XX əsrin əvvəllərində yaranmış ideologiya. Türkiyədə pantürkizmin ideoloqu Ziya Göy Alp olmuşdur. Onun "Türkləşmək, islamlaşmaq, müasirləşmək" və s. əsərlərində türkdilli xalqların eyni millət olduğu və Türkiyənin himayəsi altında vahid dövlətdə birləşməsi geniş təbliğ olunmuşdur. Azərbaycanda pantürkizmin fəal təbliğatçıları XX əsrin əvvəllərində Əhmədbəy Ağayev, Əlibəy Hüseynzadə idi. **C.10-** 68; **C.19-** 416, 417.

**1070. Paris xartiyası.** Parisdə 1990-cı il noyabrın 21-də ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçıları imzalamışdır. Burada ilk dəfə olaraq "soyuq müharibə"nin nəticələrini yekunlaşdıran və yeni eranın başlandığını bildirən çoxtərəfli sənədlər imzalanmışdır. **C.10-** 66; **C.23-** 173, 183, 184, 204.

**1071. Parlamentlərarası İttifaq** - milli parlament qruplarını birləşdirən qeyri-dövlət təşkilatı. Parlamentlərarası İttifaqın əsas qayəsi parlamentariyalar arasında şəxsi əlaqələri genişləndirmək və parlament institutlarının birgə fəaliyyətlərində əməkdaşlığın möhkəmləndirilməsidir. Parlamentlərarası İttifaq Cenevrədə fəaliyyət göstərir. **C.14-** 9, 316.

**1072. Pasxa bayramı** - yəhudi və xristian bayramı. Pasxa əvvəllər yəhudilərin Misirdən "çıxıb getmələri" münasibətilə, sonra isə yəhudi xalqının xilaskarının zühurunu gözləməklə, xristianlıqda isə İsanın iztirabları, din yolunda fəda etməsi, onun ölümü və yenidən dirilməsi ilə əlaqələndirilir. Əvvəllər yəhudi və xristian pasxaları eyni vaxta təsadüf edirdi. 325-ci ildə Ümumdünya xristian yığıncağı xristian pasxasını yəhudi pasxası qurtarandan bir həftə sonra qeyd etməyi qərara aldı. Bu tarix aprelin 4-dən mayın 8-dək olan dövrə düşür. **C.15-** 217; **C.19-** 453-454; **C.27-** 33-34.

**1073. Pelşe Arvid Yanoviç** (1899-1983) - SSRİ-nin partiya və dövlət xadiıni. 1941-1959-cu illərdə Latviya KP MK-da katib, 1959-1966-cı illərdə Latviya KP MK-da birinci katib, 1966-cı ildən Sovet İKP MK-da Siyasi Büro üzvü və Sov.İKP yanında Xalq nəzarəti komitəsinin sədri olmuşdur. **C.24-**101.

**1074. Pennzoyl** - neft və təbii qaz ehtiyatlarının kəşfiyyatı, istismarı, sürtkü yağlarının istehsalı və satışı ilə məşğul olan şirkət, 1989-cu ildə yaradılmışdır. Mərkəzi ofisi ABŞ-ın Hyüston şəhərindədir. 10 min işçisi var. Şirkətin sədri və baş icraçı direktoru Ceyms Peyt, prezidenti isə Stiv Cizbrodur. "Pennzoyl" şirkəti Azərbaycanda 1992-ci ilin əvvəllərindən fəaliyyət göstərir. **C.11-** 71, 120, 196, 248, 256; **C.13**- 181, 428, 429, 434; **C.20**- 70, 137; **C.25-** 30, 31, 32, 33, 122, 145.

**1075. Pensilvaniya** - ABŞ-ın şimal-şərqində stat. Sahəsi 118,5 min km$^2$, əhalisi 12,1 milyon nəfərdir. İnzibati mərkəzi Xarrisberqdir. **C.25-** 85.

**1076. Pentaqon** - ABŞ müdafiə nazirliyinin binası. Vaşinqton şəhərı yaxınlığında (Virciniya ştatı), Potomak çayı sahilindədir. Məcazi mənada ABŞ-ın hərbi aparatını bildirir. Pentaqonun başçısı ABŞ Müdafiə naziridir. **C.11-** 40, 184.

**1077. Peter Stoyanov** (d.1952) - Bolqarıstanın siyasi və dövlət xadimi. Hüquqşünas. 1991-1992-ci illərdə Ədliyyə nazirinin müavini olmuşdur. 1997-ci il yanvarın 22-də Bolqarıstan Respublikasının Prezidenti seçilmişdir. **C.12-** 307-308; **C.15**- 452-453; **C.23**- 293-328.

**1078. Petrofina** - Belçika firması. 1956-cı ildə təşkil olunmuşdur. Neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğul olur. 1999-cu ildə "Total" şirkəti ilə birləşmişdir. **C.15** - 187,191,201,204.

**1079. Petrov Boris Nikolayeviç** (1913-1980) - avtomatik idarəetmə sahəsində alim. SSRİ EA akademiki, Sosialist Əməyi Qəhrəmam, SSRİ Dövlət və Lenin mükafatları laureatı. 1979-1980-ci illərdə SSRİ EA-nın vitse-prezidenti olmuşdur. **C.10-** 264.

**1080. Petru Luçinski** (d.1940) - Moldovanın siyasi və dövlət xadimi. 1971-ci ildən 1989-cu ilə qədər dövlət və partiya işlərində müxtəlif vəzifələrdə çalışmışdır. 1997-cı ildən Moldova Respublikasının Prezidentidir. **C.12-** 287, 289, 290, 371, 372; **C.13**- 228-261; **C.17**- 96-97, 104, 187; **C.24**- 265, 281-297.

**1081. Pərixan xanım,** (?-1550/51-ci ildən əvvəl) - Səfəvilər dövlətinin siyasi həyatında mühüm rol oynamış qadın, I Şah İsmayılın (1500-1524) qızı, 1521-ci ildə Şirvanşah II Xəlilüllaha ərə getmişdi. **C.25-** 311.

**1082. Pikasso Pablo** (1881-1973) - dahi fransız rəssamı. Mənşəcə ispandır. Pikassonun yaradıcılığı mürəkkəb, ziddiyyətli və çoxcəhətlidir. Pikassonun müxtəlif dövrlərdə yaratdığı əsərlərdə ekspressionizm, neoklassizm, kubizm, sürrealizm və s. cərəyanların yaradıcılıq prinsiplərinə əsaslanmışdır. Erkən yaradıcılığı "mavi" və "çəhrayı" dövrlərə ayrılır. Pikassonun üslüb xüsusiyyətləri tez-tez dəyişirdi. 1910-cu illərin ortalarından başlayaraq neoklassizm və realizm ruhunda əsərlər yaradır. Pikasso müxtəlif boyakarlıq əsərləri ilə yanaşı heykəltəraşlıq, keramika və qrafika əsərləri yaratmışdır. **C.16-** 65; **C.24-** 421.

**1083. Pilsudski Yuzef** (1867-1935) - Polşa siyasi və dövlət xadimi. III Aleksandra qarşı qəsddə ittiham (1887) edilərək həbs olunmuşdu. 1918-1922-ci illərdə Polşa dövlətinin başçısı olmuş, 1920-ci il Sovet-Polşa müharibəsi zamanı Kiyevə hərbi yürüşə başçılıq etmişdir. 1926-cı ildə Pilsudski dövlət çevrilişi edərək ölkənin siyasi və iqtisadi həyatını sağlamlaşdırmaq naminə "Sanasiya" rejimi yaratmışdı. **C.12-** 43.

**1084. Piter Kinq** (d.05.04.1944, Nyu-York s.) - 1965-ci ildə "Müqəddəs Frensis" kollecini, 1968-ci ildə Notterdam universitetini bitirmişdir. 1968-1973-cü illərdə milli qvardiyada xidmət etmişdir. 1978-1993-cü illərdə müxtəlif vəzifələrdə olmuş, 1992-ci ildə Nyu-York ştatından Konqresin üzvü seçilmişdir. Respublikaçıdır.**C.11-** 73, 104, 141, 165, 172, 274, 289, 344; **C.20-** 155-165.

**1085. PKK** - burada terrorçu Kürd Fəhlə Partiyası nəzərdə tutulur. **C.19-** 187.

**1086. Ploşko Uosif Kasperoviç** [1866,(?)-1930,(?)] - memar. Milliyyətcə polyakdır. 1897-ci ildə Bakıya gəlmiş, burada bir sıra yaşayış binalarının layihəsini vermişdir. Ploşkonun ən məşhur işləri Bakıda fransız qotikası ruhunda tikilmiş M.Muxtarovun sarayı (indiki Səadət sarayı, 1911-1912) və

Venesiya qotikası uslubunda inşa edilən "İsmailiyyə" (indiki Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin binası, 1908-1913) binasıdır. **C.22**- 363, 384.

**1087. Ployeşti** - Rumıniyanın cənubunda şəhər, əsas neftçıxarma mərkəzi. **C.16-** 151.

**1088. Poçt muzeyi** - XX əsrin əvvəllərində tikilib istifadəyə verilmişdir. Muzeyin binası Amerika paytaxtının ən gözəl memarlıq nümunələrindən sayılır. ABŞ prezidentlərinin andiçmə mərasimi, bir qayda olaraq burada keçirilir. **C.20-** 131-140.

**1089. Podqornı Nikolay Viktoroviç** (1903-1983) - Rusiyanın siyasi və dövlət xadimi. 1960-1977-ci illərdə Sov. İKP MK Siyasi Bürosunun üzvü, 1965-1977-ci illərdə SSRİ Ali Sovetinin Sədri olmuşdur. **C.17**- 108.

**1090. Polad Bülbüloğlu** (d.1945) - bəstəkar, müğənni, ictimai və dövlət xadimi. Azərbaycan Respublikasının Xalq artisti. TÜRKSOY Beynəlxalq Təşkilatının Baş direktorudur. Mahnıları 1960-1970-ci illərdə SSRİ məkanında məşhur estrada müğənnilərinin ifasında səslənmişdir. 1988-ci ildən Azərbaycan Respublikasının Mədəniyyət naziri olmuşdur. Polad Bülbüloğlu 2002-ci ildə MDB ölkələri mədəniyyət nazirlərinin mədəni əməkdaşlıq üzrə Şurasının sədri seçilmiş, "2001-ci ildə Türk dünyasına xidmətlərinə görə" TÜRKSOV mükafatı laureatı olmuşdur. 2006-cı ildən etibarən Mədəniyyət Naziri kimi fəaliyyətini dayandırmış və Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Fövqəladə və Səlahiyyətli səfiridir. **C.13-** 296; **C.18**- 223, 225, 325; **C.19**- 130, 131, 349, 436; **C.21**- 16, 120; **C.24**- 433; **C.26-** 206, 207, 326; **C.27**- 164, 165, 389-390; **C.28**- 190, 343-355.

**1091. Poliomielit** - uşaq onurğa beyni iflici, kəskin infeksion xəstəlik, onurğa beyninin boz maddəsinin zədələnməsi və sinir sisteminin patoloji dəyişikliyi ilə xarakterizə olunur. **C.26-** 104, 234.

**1092. Polşa,** Polşa Respublikası - Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir.

İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. **C.12**- 26-101; **C.18**- 261-277; **C.22**- 358-388; **C.24** - 410; **C.27**- 59, 242.

**1093. "Populyar" jurnalı** - illüstrasiyalı ictimai-siyasi və beynəlxalq jurnal. 1997-ci ildən ayda bir dəfə Azərbaycan, rus, ingilis və alman dillərində nəşr olunur. **C.10-** 178.

**1094. Portuqaliya,** Portuqaliya Respublikası - Cənub-Qərbi Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92 min km$^2$, əhalisi 9,9 milyon nəfərdir. İnzibati ərazisi 19 mahala və iki muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabondur. **C.28-** 46, 115.

**1095. Poti - İliçovsk - Varna** bərə keçidi - Ukrayna ərazisi ilə, Qara dəniz, Gürcüstan, Azərbaycan, Türkmənistan, Özbəkistan vasitəsilə yüklərin Qərbdən Şərqə, Şərqdən Qərbə hərəkətini təmin edir. 1999-cu il aprelin 17-də açılmışdır. **C.20**- 23, 24, 82; **C.25-** 372.

**1096. "Pravda"** - gündəlik ictimai-siyasi qəzet. 1912-ci ildən çıxır. İlk sayı Peterburqda, 1918-ci ilin martından isə Moskva şəhərində nəşr olunur. **C.10-** 211; **C.16**- 208.

**1097. Primakov Yevgeni Maksimoviç** (d.1929) - Rusiya Federasiyasının siyasi və dövlət xadimi, diplomat. Rusiya EA-nın akademiki. 1990-cı illərdə Rusiya Federasiyasının Xarici İşlər naziri, Nazirlər Sovetinin Sədri vəzifələrində çalışmışdır. Hazırda Rusiya Federasiyası Sənaye-Ticarət Palatasının prezidentidir. **C.10-** 148, 302; **C.12-** 274-275; **C.17**- 7, 296; **C.19**- 69, 87, 398-400, 403; **C.20**- 217; **C.14**- 449; **C.21**- 280, 287; **C.23**- 139.

**1098. Prodi Romano** (d.1939) - İtaliyanın siyasi və dövlət xadimi, hüquqşünas. 70-ci illərin axırlarında sənaye naziri, 80-ci illərin sonunda isə Sənaye Yenidənqurma İnstitutunun prezidenti seçilmişdir. 1995-ci ildən sol mərkəzçilər koalisiyasına başçılıq edir. Romano Prodi müxtəlif yüksək dövlət vəzi-

fələrində işləmiş və Baş nazir olmuşdur. **C.12-** 201, 206, 225, 234, 244, 248; **C.16**- 5; **C.20**- 172; **C.23**- 164-166, 191, 198 **C.25-** 170, 219.

**1099. Puşkin Aleksandr Sergeyeviç** (1799-1837) dahi rus şairi, yeni rus ədəbiyyatının banisi. Puşkin rus ədəbi dilini yeni yüksək zirvəyə qaldırmışdır. Rus poeziyasının "atası olan" (N. Q.Çernışevski) Puşkin novator şair kimi yeni tipli realist şeirin, mənzum romanın, tarixi povestin, mənzum hekayə, nağıl və dramın gözəl nümunələrini yaratmışdır. Puşkinin Qafqaz həyatı onun yaradıcılığına müstəsna təsir göstərmiş, şairin bu mövzuda yazdığı əsərlər ("Qafqaz əsiri", "Quldur qardaşlar", "Baxçasaray fontanı", "Qaraçılar", "Ərzuruma səyahət") rus ədəbiyyatında yeni səhifə açmışdır. Bakıda Puşkinə abidə qoyulmuşdur. **C.19**- 375; **C.21**- 76; **C.26-** 314.

**1100. Putin Vladimir Vladimiroviç** (d.l952) - 2000-ci ilin mayından Rusiya Federasiyasının Prezidenti. 1975-1997-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998-1999-cu illərdə MTİ-in direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 1999-cu ilin dekabrından Rusiya Federasiyasının Prezidenti vəzifəsini icra etmişdir.Rusiyanın Baş naziridir. **C.21**- 189; **C.22** - 38, 40; **C.23**- 277-283; **C.24**- 39, 40, 166, 204, 206, 260, 263, 277, 278, 281-297, 298, 301, 334, 437, 438, 442; **C.25-** 132, 133, 157, 196, 229, 267, 268, 269, 274; **C.26-** 17, 36, 37, 90, 95, 138, 139; **C.27**- 24, 130, 131; **C.28-**29, 109, 111, 112, 138, 141, 145, 149, 158, 159, 180, 213, 217-219, 221, 234, 241, 243, 244, 245, 253, 265, 267, 269, 270, 276, 277, 353, 354, 358, 406, 411, 412.

**1101. Pyotr I, Böyük Pyotr** (1672-1725) - Rusiyanın ilk imperatoru, dövlət xadimi, sərkərdə, diplomat. I Pyotr Rusiyanın qabaqcıl Qərbi Avropa ölkələrindən geriliyini aradan qaldırmaq üçün mühüm islahatlar həyata keçirmişdir. I Pyotrun Azov səfərləri (1695-1696) nəticəsində Rusiya Azov dənizi sahillərinə çıxmış, Şimal müharibəsindəki (1700-1721) qələbədən sonra Rusiya Avropanın böyük dövlətləri sırasına daxil

olmuşdu. 1703-cü ildə Peterburqun əsasını qoydu. O nizami rus ordusunun və hərbi dəniz donanmasının yaradıcısıdır. Onun təşəbbüsü ilə dövlət quruculuğu sahəsində bir sıra islahatlar aparılmış, hərb sənətinə diqqət artırılmış, Rusiya Elmlər Akademiyası yaradılmışdır. **C.17**- 171, 172.

**1102. Rafael Hüseynov** (d.1955) - ədəbiyyatşünas, publisist. Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Nizami adına Ədəbiyyat Muzeyinin direktorudur. **C.13**- 68, 90; **C.16**- 489.

**1103. Rafael, Rafaello Santi** (1483-1520) - italyan boyakarı və memarı. Renessans dövrü incəsənətinin görkəmli sənətkarlarından biri. Ən görkəmli, kamil əsəri "Sikst madonnası"dır. Bu tabloda insan gözəlliyi və ana məhəbbəti ideallaşdırılmış, körpəsini bağrına basmış Məryəm təsvir olunmuşdur. **C.12**- 208.

**1104. Rahil Ginzburq,** Rahil Solomonovna Ginzburq (1920-1995) aktrisa. Azərbaycan Respublikasının Xalq artisti. 1943-cü ildən Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Teatrında çıxış etmişdir. Ginzburqun ifası üçün çoxcəhətlilik, ifadə vasitələri zənginliyi, emosionallıq səciyyəvidir. **C.17**- 190.

**1105. Raxmaninov,** Sergey Vasilyeviç (1879-1943) - böyük rus bəstəkarı, pianoçu və dirijor. XIX əsrin 90-cı illərində yaratdığı əsərlər içərisində ən məşhurları "Aleko" operası, simfonik fantaziyaları, Çaykovskiyə həsr etdiyi trioelegiyası, 10-ci simfoniyası və 20-dən artıq romanslarıdır. 1900-1917-ci illər Paxmaninov yaradıcılığının çiçəklənmə dövrüdür. Bu illərdə o "Françeska da Rimini", "Xəsis cəngavər" operalarını, 2-ci simfoniyasını, "Bahar" kantatasını və s. əsərlər yazmışdır. 1918-1943-cü illərdə, əsasən pianoçu kimi konsertlər vermişdir. **C.21**- 76.

**1106. Raisa Qorbaçova** (1933-1997) - SSRİ-nin ilk və son Prezidenti M.S.Qorbaçovun həyat yoldaşı nəzərdə tutulur. **C.22**- 66; **C.28**- 260.

**1107. Ramazan bayramı** - Müsəlman aləmində orucluq bitəndən sonra keçirilən bayram. Qurani-kərim oruc tutmağı islamın vacib əməllərindən biri hesab etmiş və insanlarda yol verilmiş xətaların oruc tutmaqla bağışlanmasını təsbit edir. Bu bayram bir də ona görə əzizdir ki, məhz Qurani-kərim müqəddəs Ramazan ayında nazil olmuşdur. Bu bayram bir fərdin deyil, bütün cəmiyyətin mənəvi sevinci, bu həyəcanın hamıya çatması, bütün müsəlmanları qəlbdən qardaş sanmaqdır. **C.19-** 31-32, 41, 42, 43, 44, 45, 60, 64, 71; **C.24-** 159, 172, 174, 176, 179, 182, 186. 373.

**1108. Ramil Usubov,** Ramil İdris oğluUsubov (d.1948) - general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. **C.10-** 403; **C.14-** 151; **C.16-** 172; **C.24-** 438, 441; **C.26-** 239-296, 406-431; **C.27-** 106, 107, 109, 110; **C.28-** 331.

**1109. Ramiz Abutalıbov,** Ramiz Abutalıb oğlu Abutalıbov (d.1937) - diplomat. Ümumittifaq Ticarət Akademiyasını bitirmişdir. Müxtəlif illərdə sovet və partiya orqanlarında məsul vəzifələrdə çalışmışdır. 1972-1979 və 1985-1993-cü illərdə YUNESKO -nun katibliyində işləmişdir. Fransanın "Fəxri legion" ordeni ilə təltif olunmuşdur. **C.26-** 314.

**1110. Ramiz Quliyev,** Ramiz Əyyub oğlu Quliyev (d. 1947) - tarzən, professor. Azəraycan Respublikasının Xalq artisti. **C.12** - 360.

**1111. Ramiz Mehdiyev**, Ramiz Ənvər oğlu Mehdiyev (d.1938) - Azərbaycanın siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. 1978-1980-ci illərdə rayon partiya komitəsinin birinci katibi, 1980-1981-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981-1983-cü illərdə Azərbaycan KP MK-da təşkilat partiya işi şöbəsinin müdiri, 1983-1988-ci illərdə KP MK-da katib, 1988-1994-cü illərdə Azərbaycan Respublikası MEA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Adminstra-

siyasının rəhbəridir. 1995-2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. **C.10-** 401, 404; **C.13**- 441; **C.14**- 73, 100; **C.16**- 238; **C.17**- 433, 434, 435, 436; **C.18**- 189, 190; **C.19**- 48, 53; **C.20**- 341; **C.24**- 314; **C.25-** 437; **C.26-** 406-431; **C.28**- 142, 144.

**1112. Ramiz Mirişli,** Ramiz Aqil oğlu Mirişli (d.l934) - bəstəkar, Azərbaycan Respublikasının Xalq artisti, professor. R.Mirişli kamera orkestri üçün simfoniya, onlarca kinofilmə və teatr tamaşasına müsiqi, xalq çalğı alətləri orkestri üçün konsertlər və süitalar, üç balet süitası, 500-dən çox mahnı, romans və s. əsərlərin müəllifidir. **C.22**- 165.

**1113. Ramiz Rövşən,** Əliyev Ramiz Məmmədəli oğlu (d. 1946) - Azərbaycan şairi, kino-dramaturq. **C.13**- 175.

**1114. Ramko** - İngiltərənin aparıcı neft kompaniyalarından biri. 1977-ci ildə yaradılmışdır. Dünyanın bir çox ölkələrində neftin çıxarılması, emalı və satışı ilə məşğuldur. 1994-cü ildən "Bi-Pi" və "Şell" ilə birlikdə "Azəri-Çıraq" yatağında kəşfiyyat işləri aparmışdı. **C.16**- 286, 292, 327, 354, 366, 373, 379, 391, 447, 463, 485; **C.17**- 183, 185; **C.19** - 178-182; **C.21**- 379; **C.24**- 208.

**1115. Rasim Balayev,** Rasim Əhmədoğlu (d.1948) - Azərbaycan kino artisti, Azərbaycan Respublikasının Xalq artisti, Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.15**- 249, 250, 251; **C.17**- 77-78, 160, 163, 164; **C.27**- 95, 96.

**1116. Rasim Əliyev,** Rasim Həsən oğlu Əliyev (d.1934) - memar, Azərbaycan Respublikasının Əməkdar memarı, Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının həqiqi üzvü, Rusiya Memarlıq Akademiyasının fəxri Üzvü, Azərbaycan Respublikası Dövlət mükafatı laureatı, Akademik Həsən Əliyevin oğludur. 1965-1974-cü illərdə Bakı şəhəri Baş memarının birinci müavini, 1974-1988-ci illərdə Baş memarı olmuşdur. Bakıda yaşayış binaları, respublika nazirlər kabinetinin qonaq evi, "Xalqlar dostluğu" metrostansiyası (müştərək layihə), Naxçıvanda H.Cavidin məqbərəsinin (müştərək layihə),

Bakıda bir sıra xatirə abidələrinin və s. memarlıq layihəsini vermişdir. 1980-1988-ci illərdə Azərbaycan Memarlar İttifaqının katibi olmuşdur. Azərbaycan Respublikasının “Şöhrət” ordeni ilə təltif olunmuşdur. Azərbaycan Memarlar İttifaqının vitse-prezidentidir. **C.19**- 249.

**1117. Rasim Ocaqov,** Rasim Mirqasım oğlu Ocaqov (d. 1933-2006) - Azərbaycan kino rejissoru və operatoru. Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. 1956-cı ildən “Azərbaycanfilm” kinostudiyasında işləyir. Əvvəllər operator kimi, 1974-cü ildən isə rejissor kimi fəaliyyət göstərir. Azərbaycan Kinomatoqrafiya İttifaqının katibidir. Filmləri “Tütək səsi”, “Ad günü”, “İstintaq”, “Bağlı qapı” və s. Azərbaycan Respublikasının “Şöhrət” ordeni ilə təltif olunmuşdur. **C.18**- 258, 389; **C.22**- 138.

**1118. Rauf Abdullayev,** Rauf Canbaxış oğlu Abdullayev (d.1937) - Azəraycan dirijoru. Rauf Abdullayev Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijorudur. Azərbaycan Respublikasının Xalq artistidir. **C.12-** 359; **C.13-** 307; **C.17-** 156; **C.26- 3**73-374.

**1119. Rauf Denktaş** (d.1924) - hüquqşünas, dövlət xadimi. İkinci Dünya müharibəsindən sonra London universitetində hüquq fakültəsini bitirmiş və Kiprə qayıtmışdır. Gündəlik hadisələr və separatist EOKA təşkilatı tərəfdarlarının, Kiprin Yunanıstana birləşdirilməsi çağırışları, Kipr türklərinin səbr kasasını doldurdu və ingilis qubernatoruna protest məktubunu yazmağa vadar etdi.

Yunanların mürtəce siyasətini Qərb dövlətləri də müdafiə edirdi. Məhz buna görə uzun müddət Türkiyədə yaşayan Denktaş 1963-cü il (o Kiprdə non-qrat elan edilmişdi) hadisələri zamanı gizlin Kiprə qayıtdı. Kipr türklərinin xahişi ilə türk ordusu 1974-cü ildə Kiprə girdi, Şimali Kipr Türk dövləti yaradıldı. Bundan sonra Denktaş Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti seçildi. **C.23**- 241, 255, 256, 271.

**1120. Rauf Hacıyev,** Rauf Soltan oğlu Hacıyev (1922-1995) - Azərbaycan bəstəkarı. Azərbaycan və SSRİ Xalq artisti idi. Rauf Hacıyevin operettaları Azərbaycan operettasının inkişafında əhəmiyyətli yer tutur. 1965-1971-ci illərdə Azərbaycan SSR Mədəniyyət naziri olmuşdur. **C.12**- 357; **C.17**- 163, 191.

**1121. Rauf Məmmədov,** Rauf Əhməd oğlu Məmmədov (d.1988) - beynəlxalq qrossmeyster. 2004-cü ildə gənclər arasında Avropa şahmat çempionatında 1-ci yeri tutmuşdur. **C.18**-447.

**1122. Raykin Arkadi İsaakoviç** (1911-1987) - rus estrada artisti. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı laureatı. 1939-cu ildən Leninqrad Miniatür Teatrının əvvəlcə artisti, sonradan bədii rəhbəri və quruluşçu rejissoru olmuşdur. **C.25-** 264.

**1123. Razumovski Vasili İvanoviç** (1857-1935) - cərrah, professor. 1919-cu ildə Bakı Dövlət Universitetinin təşkilatçılarından biri və ilk rektoru olmuşdur. **C.10**- 263.

**1124. Registan** - Orta Şərq şəhərlərində dəbdəbəli meydanların adı. Onlardan ən məşhuru XV-XVII əsrlərdə salınmış Səmərqənd registanıdır. Burada məscid, mədrəsə, xanəgah, karvansara və s. olmuş, sonralar, binaların sökülməsi, yenidən bərpası nəticəsində meydanın quruluşu dəfələrlə dəyişmişdir. Reqistan XVII əsrdə indiki vəziyyətini almışdır. **C.10**- 193.

**1125. "Respublika"** - Azərbaycan Respublikasında gündəlik, ictimai, siyasi, sosial iqtisadi qəzet. 1996-cı ildən nəşrə başlamışdır. Qəzetin təsisçisi Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyətidir. **C.16**- 198.

**1126. Respublika uğrunda Birlik** (RUB) - Fransada siyasi partiya. Yeni Respublika İttifaqı Uğrunda adı ilə 1958-ci ildə Şarl de-Qoll tərəfindən yaradılmışdır. Bir neçə dəfə adını dəyişdirmişdir. 1976-ci ildən RUB Partiyası adlanır. **C.24**- 109.

**1127. Respublikaçılar partiyası** - ABŞ-ın iki əsas partiyasından biri. 1854-cü ildə yaradılmışdır. 1861-1885, 1889-1893, 1897-1913, 1921-1933, 1953- 1961, 1969-1977, 1981-

1993 və 2001-ci illərdə hakimiyyətdə olmuşlar. **C.24**-77, 107; **C.25-** 153, 154, 365.

**1128. Reyhan Topçuboşova,** Reyhan İbrahim qızı Topçuboşova (1905-1970) - Azərbaycan rəssamı, Mustafa bəy Topçubaşovun həyat yoldaşı. Portret, məişət, mənzərə janrlarında işləmiş, eləcədə süjetli komposiziyalar və naturmortlar çəkmişdir. Mənzərələrində Abşeron təbiətinin təşviri əsas yer tutur. Mahnı və rəqs ansamlbları üçün geyim eskizləri də hazırlamışdır. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi idi. **C.25**- 314.

**1129. Rəfael Allahverdiyev**, Rəfael Xanəli oğlu Allahverdiyev (d.1945) - 1993-2001-ci illərdə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. 1995-2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. **C.13**- 406, 409, 410, 437-450, 466, 469, 470; **C.15**- 80, 81, 281; **C.19**- 365; **C.21**- 120; **C.22**- 66, 67, 68, 70, 71, 126-131; **C.24**- 73, 74, 246, 247, 248, 249, 251, 315, 319; **C.25-** 329-344, 438; **C.27**- 391-398.

**1130. Rəfibəylilər** - XIX yüzilliyin sonu, XX yüzilliyin əvvəlində Azərbaycanın Gəncə vilayətində yaşamış ziyalı nəsli. Sovet hakimiyyəti dövrundə sürgünlərə, həbslərə, ağır işgəncələrə məruz qalmış bu insanlar həmişə soyadlarının yüksək mənəvi keyfiyyətlərinə sadiq qalmış, maarifçilik və millətin dirçəlişi yolunda çalışmışlar. Onların ən böyük nümayəndəsi Ələkbər bəy Rəfibəyli həqiqi bir vətənpərvər, sadiq bir millətpərəst xalq rəhbəri idi.Bu nəslin ən dəyərli nümayəndəsi isə - Azərbaycanda milli hökumətin səhiyyə naziri, daha sonra Gəncə valisi, 1920-ci il qanlı Gəncə üsyanının rəhbəri və sevimli şairimiz Nigar xanım Rəfibəylinin atası, Xalq yazıçısı Anarın babası Xudadat bəy Rəfibəyli olmuşdur. **C.13**- 90.

**1131. Rəfiqə Axundova,** Rəfiqə Hacı qızı Axundova (d. 1931) - Azərbaycan balet artisti, baletmeyster. Azərbaycanın Xalq artisti. Azərbaycan Dövlət Opera və Balet teatrında Maqsud Məmmədovla birlikdə bir sıra baletlərin quruluşunu vermişdir. **C.15**- 368; **C.17**- 192; **C.25-** 313.

**1132. Rəfiqə Şabanova,** Rəfiqə Mahmud qızı Şabanova (d.l943)-həndbolçu. Olimpiya çempionu (1978). Əməkdar idman ustası. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.24**- 420-432.

**1133. Rəhim Hüseynov,** Rəhim Əlihüseyn oğlu Hüseynov (d.1936) - Elmi və Texniki Cəmiyyətin İdarə Heyətinin sədri. Müxtəlif illərdə Azərbaycan Maddi-Texniki Təchizat Komitəsi sədrinin müavini, sədri, Azərbaycan Dövlət Plan Komitəsinin sədri, Azərbaycan Respublikası Baş naziri vəzifələrində işləmişdir. **C.20**- 323.

**1134. Rəhim Qazıyev,** Rəhim Həsən oğlu Qazıyev ( d.1943) -1992-1993 -cü illərdə Azərbaycan Respublikasının Müdafiə naziri olmuşdur. Ordu quruculuğunda kobud səhvlərə yol vermiş, nəticədə Azərbaycan torpaqlarının bir hissəsi ermənilər tərəfindən işğal olunmuşdur. **C.10-** 351; **C.12-** 90, 92, 95; **C.13**- 40, 41; **C.14**- 208, 264; **C.15**- 115; **C.18**- 238; **C.21**- 87, 296; **C.22**- 217, 279; **C.23**- 86, 90, 91, 137, 138, 175, 188, 230; **C.24**- 50; **C.25-** 409, 420.

**1135. Rəsul Həmzətov,** Həmzətov Rəsul Həmzətoviç (d.1923-2003) - Dağıstanın Xalq şairi, Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı laureatı. **C.10-** 47; **C.15**- 335; **C.17**- 234.

**1136. Rəsul Quliyev,** Rəsul Bayram oğlu Quliyev (d. 1947) - 1993-1996-cı illərdə Milli Məclisin Sədri olmuşdur. **C.14**- 108, 109, 128, 135; **C.16**- 331; **C.20**- 468, 469; **C.22**- 21, 279; **C.23**- 107; **C.24**- 47, 48; **C.25-** 294, 420; **C.26-** 411.

**1137. Rəsul Rza,** Rəsul İbrahim oğlu Rzayev (1910-1981) - görkəmli Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın Xalq şairi. O, Azərbaycan poeziyasının yeni forma və üslub keyfiyyətləri, orijinal obrazlarla zənginləşdirmişdir. SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı. **C.13**- 29, 32, 70, 72, 80, 84, 105, 125, 133; **C.15**- 54, 100, 103, 228; **C.17**- 163; **C.18**- 278; **C.19**- 130; **C.26-** 326; **C.27**- 323; **C.28**- 191.

**1138. Rəşid Behbudov,** Rəşid Məcid oğlu Behbudov (1915-1989) - Azərbaycanın görkəmli müğənnisi. Azərbaycan və SSRİ Xalq artisti. Müstəsna gözəl səsə malik olan Rəşid

Behbudov Azərbaycan vokal məktəbinin görkəmli nümayəndələrindəndir. SSRİ Dövlət mükafatı laureatı və Sosialist Əməyi Qəhrəmanıdır; **C.12-** 176, 357, 360, 361; **C.13**- 222; **C.15**-178; **C.17**- 191; **C.18**- 222, 224; **C.21**- 176.

**1139. Rıbkin İvan Petroviç** (d.1946) - Rusiyanın dövlət və siyasi xadimi. 1994-1995-ci illərdə Rusiya Federasiyası Dövlət Dumasının Sədri, 1996-1998-ci illərdə Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi olmuşdur. **C.17**- 104.

**1140. Rıjkov Nikolay İvanoviç** (d.1929) - Rusiyanın dövlət və siyasi xadimi. SSRİ Nazirlər Sovetinin Sədri olmuşdur. 1995-ci ildən Dövlət Dumasının üzvü və Rusiya Xalq Vətənpərvərlik İcraiyyə İttifaqının sədridir. **C.20**- 344; **C.25**- 255; **C.27**- 169.

**1141. "RIA-NOVOSTI"** agentliyi - 1991-ci ildə təşkil olunmuş, 1998-ci ildə Ümumrusiya Dövlət Teleradio Komitəsinin holdinqinə daxil olmuşdur. **C.10**- 301.

**1142. Riçard (Dik) Ceyni** (d.1941) - Amerikanın görkəmli siyasi xadimi. 1989-1992-ci illərdə ABŞ-ın müdafiə naziri olmuşdur. 1993-cü ildən Amerika Sahibkarlıq İnstitutunun direktorudur. "Hallibörtn" korporasiyasının prezidenti, Amerika-Azərbaycan Ticarət Palatasının fəxri üzvüdür. **C.11-** 116, 132.

**1143. Riçard Armitac** - R.Reyqanın prezidentliyi dövründə (1980-1988) müdafiə nazirinin beynəlxalq təhlükəsizlik üzrə müşaviri olmuşdur. C.Buşun (ata) prezidentliyi dövründə (1988-1992) xüsusi tapşırıqlar üzrə səfir işləyərkən yeni müstəqil dövlətlərə yardım göstərmək proqramının ikinci müəllifi olmuşdur. Həmin vaxtdan 907-ci düzəlişin əleyhinə çıxır. Amerika-Azərbaycan Ticarət Palatası Direktorlar Şurasının üzvüdür. "Armitac Assoşieyts El Si" şirkətinin sahiblərindən biridir. **C.11-** 116, 133, 143, 154; **C.25-** 115-116.

**1144. Robert Lanyer** (d.1931) - Hyüston şəhərinin meri (1992-ci ildən). Nyu-Meksiko və Texas universitetlərini bitirmiş, "Beyker və Botts" firmasında səlahiyyətli müvəkkil işlə-

mişdir. Fərdi hüquq praktikası ilə məşğul olmuşdur. **C.11-** 243, 246, 279.

**1145. Robert Livinqston** (d.1943) - 1961-1963-cü illərdə ABŞ-ın Hərbi Dəniz Donanmasında xidmət etmişdir. 1967-cı ildə Tyuyleyn universitetini (incəsənət bakalavrı) bitirmişdir. 1968-ci ildə hüquq doktoru dərəcəsi almışdır. 1976-cı ildə Respublikaçılar Partiyasından ABŞ Konqresi Numayəndələr Palatasına namizəd irəli sürülmüşdür. 1977-ci ildən ABŞ Konqresi Nümayəndələr Palatasında Luiziana ştataını təmsil edir. Respublikaçıdır. **C.11-** 162.

**1146. Robert Rubin** (d.1938) - ABŞ-ın maliyyə naziri, Harvard kollecini (1960), Yel hüquq məktəbini (1964) bitirmiş, hüquq firmalarında işləmişdir. ABŞ Prezidentinin iqtisadi-siyasət üzrə müşaviri olmuşdur (1993-1996). 1995-ci il yanvarın 10-da ABŞ-ın maliyyə naziri vəzifəsinə təyin olunmuşdur. **C.11-** 190.

**1147. Robin Kuk** (1946-2005) - İngiltərənin siyasi və dövlət xadimi. 1974-cü ildən İngiltərə parlamentinin deputatıdır. 1997-2001-ci illərdə İngiltərənin Xarici İşlər naziri vəzifəsində çalışmışdır. 2001-2003-cü illərdə İngiltərə parlamentində Nümayəndələr palatasının lideri olmuşdur. **C.16-** 440-445, 482; **C.20-** 96, 214; **C.28-** 54.

**1148. Roma** - İtaliyanın paytaxtı. Ölkənin siyasi, mədəni və iqtisadi mərkəzi. Dünyanın ən qədim şəhərlərindəndir. Onu "əbədi şəhər" adlandırırlar. Ərazisində Vatikan dövləti yerləşir. Romanın adı səhərin əfsanəvi banilərindən biri Romulun adından götürülmüşdür. E.ə. VI əsrin sonundan Roma quldarlıq respublikasının, e.ə. I əsrdən Roma imperiyasının, 1871-ci ildən Birləşmiş İtaliya Krallığının, 1946-cı ildən isə İtaliya Respublikasının paytaxtıdır. **C.12-** 181, 186, 190, 194, 197, 201, 202, 207, 210, 220, 229, 231, 234, 241, 242; **C.19-** 444; **C.27-** 432.

**1149. Romanovlar** - Rusiyada XIV-XVI əsrlərdə boyar nəsli, 1613-cü ildən çar, 1721-1917-ci illərdə imperator sülaləsi, əcdadı Moskva boyarı Andrey Kobıla idi. Romanovlar nəslin-

dən ilk çar Mixail Fyodoroviç olmuşdur. Onun nəvəsi I Pyotr (1721) imperator elan edildi. İmperator Aleksey Petroviçin ölümü ilə (1730) Romanovlar sülaləsinin kişi nəsli, I Yelizaveta Petrovnanın ölümü ilə (1761) qadın nəsli kəsildi. Lakin Holşteyn-Qottorplar sülaləsinin nümayəndələri - III Pyotr, II Yekaterina, I Pavel və onun xələfləri də Romanovlar familiyası daşıyırdılar. Fevral-burjua-demokratik inqilabından sonra Romanovlar monarxiyası devrildi və sonuncu imperator II Nikolay və onun ailəsi güllələndi. Romanovlar nəslindən qalanlar isə İtaliyaya, Fransaya, B.Britaniyaya, ABŞ-a, Avstriyaya mühacirət etdilər. **C.15**- 174.

**1150. Rosneft** - Rusiya Federasiyasının iri neft şirkətlərindən biri. **C.10-** 71, 100, 252, 271, 313; **C.12**- 71; **C.16**-197.

**1151. Rostropoviç Mstislav Leopoldoviç** (1927-2007) - Bakıda doğulmuş görkəmli musiqiçi, violençelist, dirijor. Lenin mükafatı laureatı, SSRİ Xalq artisti. Bakı Musiqi Akademiyasının fəxri professoru. Azərbaycanın "İstiqlal" ordeni ilə təltif edilmişdir. **C.10-**147; **C.15**- 368; **C.16**- 41,49, 58-61, 62-66, 75, 127; **C.20**- 443; **C.23**- 194-201, 337, 338; **C.25-** 218, 258; **C.26-** 225.

**1152. RTR** - Ümumrusiya Dövlət Televiziya və Radio Verilişləri Kompaniyası (ÜDTRVK) - 1990-cı ildə yaradılmışdır, Rusiya Federasiyası ərazisində televiziya və radio verilişləri təşkil edir. 1998-ci il bazasında yaradılmış ÜRDTRVK dövlət media holdinqi federal "Rossiya" və "Kultura" telekanalları, "Radio Rossii", "Mayak", "Orfey", "Yunost", "Qolos Rossii" radiostansiyalarını və 92 regional dövlət teleradio kompaniyalarını, Ostankino televiziya və Rusiya informasiya texniki mərkəzini, "Vesti" agentliyini əhatə edir. **C.23**- 33.

**1153. Rudolf Şuster** (d.1934) - 1990-1992-ci illərdə Slovakiyanın Kanadada səfiri, 1994-1999-cu illərdə Kosiçi şəhərinin meri, 1999-2004-cü illərdə Slovakiya Respublikasının Prezidenti olmuşdur. **C.20**- 300; **C.24**- 403.

**1154. Rufino Tamoyo** (1899-1991) - Meksika rəssamı. Yarımabstrakt rəsm əsərlərində və divar naxışlarında (Parisdə -

YUNESKO-nun divar naxışları) dekorativ effektə, ekspressiyanın ritminə asanlıqla nail olurdu. **C.24**- 421.

**1155. Rumıniya** - Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 237,5 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunvericilik orqanı ikipalatalı Parlamentdir. Paytaxtı Buxarest şəhəridir. **C.16**-135-166, 108, 211; **C.28**- 127-137.

**1156. Rus-İran müharibəsi,** Rusiya-İran müharibələri (XIX əsr) - 1801-ci ildə Rusiyanın Şərqi Gürcüstanı, Car-Balakən camaatlığını (1803), Gəncə xanlığını (1804) tutması İran və Türkiyənin, həmçinin İngiltərə və Fransanın güclü müqavimətinə rast gəldi. İran 1804-cü ilin iyununda Rusiyaya qarşı müharibəyə başladı. Lakin Abbas Mirzənin qoşunu İrəvan yaxınlığında vuruşmada məğlub oldu. 1805-ci ildə Qarabağ, Şəki, Şirvan xanlıqları da işğal edildi. 1806-cı il oktyabrın 3-də rus ordusu Bakını işğal etdi. 1813-cü ilə qədər davam edən qanlı doyüşlər Gülüstan müqaviləsi ilə (1813) nəticələndi. Şimali Azərbaycan xanlıqları Rusiyanın tabeliyinə keçdi.

1826-1928-ci illərdə aparılan müharibə nəticəsində isə Naxçıvan, Abbasabad, Yerevan, Xoy, Mərənd, Urmiyə, Ərdəbil, Təbriz işğal edildi. Nəticədə Türkmənçay müqaviləsi (1828) imzalandı. Naxçıvan və İrəvan xanlıqları da Rusiyaya verildi. **C.17**- 171; **C.19**- 151; **C.25-** 84, 303.

**1157. Rusiya Dövlət duması** - 1906-cı ildə Rusiyada yaradılan nümayəndəli qanunvericilik müəssisəsi. 17 oktyabr manifesti əsasında yaradılmışdır. Burada qanunlar müzakirə edilərək Dövlət Şurasına təqdim edilir və çar tərəfindən təsdiq edilirdi. Duma 1917-ci il 6 oktyabra qədər fasilələrlə fəaliyyət göstərdi. 1993-cü il Rusiya Federasiyasının konstitusiyasına əsasən Duma təzədən bərpa olundu. **C.28**- 60, 365.

**1158. Rusiya Müəssislər məclisi** - Rusiyada nümayəndəli orqan. Müəssislər məclisinə seçkilər 1917-ci ilin noyabr-dekabrında keçirilmişdi. Bakıda isə Müəssislər məclisinə seçkilər 1917-ci il noyabrın 29-da olmuşdu. Bu seçkilərdə bolşeviklər çoxluq təşkil edirdi. **C.15**- 391.

**1159. Rusiya,** Rusiya Federasiyası - Avropanın şərqində, Asiyanın şimalında dovlət. Ərazisi 17075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya respublika idarəetmə fopmalı demokratik federativ dövlətdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı Prezident, qanunverici orqanı iki palatalı - Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. **C.17**- 5, 20, 25, 30, 31, 38, 39, 40, 41, 42, 48, 50, 51, 52, 53, 63, 104, 106, 109, 117-122, 161, 162, 168, 170-175, 182, 184, 214, 221, 227, 245, 246, 249, 250, 295, 296, 314, 342, 358, 359, 368, 386, 403, 405, 411, 415, 416, 421, 443, 444; **C.19**- 17, 22, 53, 54, 65-68, 69, 72, 87, 88, 89, 113, 135, 137, 150, 151, 152, 159, 160, 165, 166, 184, 191, 218, 227, 237, 242, 243, 247, 260, 262, 275, 276, 289, 292, 372-384, 391, 394, 395-403, 405, 407, 413, 414, 448, 450; **C.20**- 18, 20, 26, 28, 33-49, 53, 56, 62, 66, 67, 71, 72, 73, 74, 87, 91, 102, 103, 104, 105, 111, 112, 113, 120, 124, 125, 127, 128, 129, 134, 135, 137, 162, 164, 217-222, 223-230, 242, 243, 244, 254, 257, 273, 277, 284, 348, 363, 392, 399, 410, 415, 416, 419, 420, 426, 441, 443, 446, 450, 461, 462, 463; **C.22**- 12-41, 50, 90, 91-96, 145, 158, 162, 196, 217, 243, 290, 292, 341, 378, 397; **C.23**- 23-42, 56, 58, 61, 65, 72, 74, 75, 82, 89, 90, 91, 97, 103, 138, 145, 156-158, 176, 181, 188, 191, 199, 218, 229, 231, 232, 233, 234, 246, 273, 277-283, 287, 295, 324, 346, 355, 356, 414, 417, 418, 419; **C.24**- 6, 7, 17, 19, 31-40, 60, 76, 79, 81-103, 166, 167, 203-207, 237, 238, 260, 262, 264, 267, 279, 281-297, 308, 324, 331, 369, 379, 380, 389, 411, 412, 414, 417, 436-449; **C.25-** 38, 41, 46, 47, 84, 88, 90, 92, 96, 98, 103, 106, 116, 118, 119, 121, 126, 130, 133, 143, 145, 146, 157, 185, 186, 196, 198, 209, 229, 230, 231, 249-279, 299, 303, 346-361, 379, 380, 381, 387, 388; **C.26-** 11, 17, 36, 37, 52, 64, 74, 80, 90, 95, 98, 99, 110, 123, 129, 136, 137, 138, 139, 154, 191, 244, 323, 325, 353, 359; **C.27**- 19, 20, 23, 24, 25, 39, 40, 41, 42, 49, 63, 82, 84, 88, 115, 117, 127, 130, 132,

155, 160-169, 211-219, 45, 265, 270, 285, 287, 292, 293, 318, 325, 339, 340, 353, 384, 407, 419, 420, 426; **C.28**- 21-29, 32, 35, 39, 60-61, 81, 94, 107-112, 138-145, 148-170, 177, 178, 183, 191, 213-277, 278, 279, 281, 305, 327, 328, 343-368, 373-391, 396, 402-416.

**1160. Rusiya ictimai televiziyası** – bax: ORT.

**1161. Rusiya və Belarus** İttifaqı **-** 1997-ci ildə təşkil edilmişdir. Burada hər iki ölkənin ali idarəçilik sisteminin vahid pul, sərhəd, parlament yaradılması, rus və belarus xalqlarının birləşməsi və s. nəzərdə tutulmuşdur. **C.10-** 178, 322; **C.19**- 247; **C.25-** 232.

**1162. Rusiya - Yaponiya müharibəsi,** XX əsrin əvvəlində (1904-1905) - Çin və Koreyanı bölüşdürmək uğrunda başlanmış müharibə. Müharibəni yaponlar başlamış 1904-cü il yanvarın 27-ə keçən gecə yaponlar qəfildən Port-Artura hücum edib, Sakit okean eskadrilyasını darmadağın etdilər. İyulda Yapon ordusu Saxalini tutdu. Müharibənin son mərhələsi Susima vuruşması (1905) oldu. Müharibə Portsmut sülh müqaviləsi (1905) ilə başa çatdı. **C.25-** 305.

**1163. Ruzvelt Franklin** (1882-1945) - ABŞ dövlət xadimi. Varlı aristokrat ailəsində doğulmuşdur. Harvard (1904) və Kolumbiya (1907) universitetlərini bitirmişdir. 1910-cu ildə Demokratlar partiyasından Nyu-York senatına seçilmişdi. 1913-1920-ci illərdə Dəniz nazirinin müavini işləmişdir. 1921-cı ildə poliomelit xəstəliyinə tutularaq ömürlük sərbəst hərəkət etmək iqtidarını itirmişdir. 1928-ci ildə Nyu-York ştatının qubernatoru seçilmişdi. 1932-1944-cü illərdə 4 dəfə ABŞ Prezidenti seçilmişdi. 1933-cü ilin noyabrında SSRİ ilə diplomatik münasibətlər yaratmışdı. İkinci Dünya müharibəsinin başlanğıcında faşist Almaniyasına qarşı mübarizədə İngiltərə və Fransaya yardım göstərməyə çağırmışdı. Hitler Almaniyasının SSRİ-yə xaincəsinə basqınından sonra Ruzvelt sovet xalqının azadlıq mübarizəsinə kömək göstərməyə hazır olduğunu bildirmişdi. **C.11-** 232; **C.17**- 109; **C.21**- 363; **C.25-** 70.

**1164. Rübabə Muradova,** Rübabə Xəlil qızı Muradova (1933-1983) - Azərbaycan müğənnisi. Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. R.Muradova güclü, təsirli və müxtəlif çalarlı səsə, orijinal ifaçılıq üslubuna malik sənətkar olmuşdur. **C.17-** 191; **C.25-** 313.

**1165. Rüstəm Behrudi** (d.1957) - Axərbaycan şairi, publisist. "Daha gülə-gülə ağlamaq olmur" publisistik poeması C. Məmmədquluzadəyə, "Qanlı gəlin" məktub poeması milli-azadlıq mübarizəsinə həsr olunmuşdur. **C.13-** 69, 78-80.

**1166. Rüstəm İbrahimbəyov,** Rüstəm Məmmədibrahim oğlu İbrahimbəyov (d.1939) - görkəmli yazıçı, dramaturq, kinosenarist. Azərbaycanın Xalq yazıçısı. Azərbaycan, Rusiya və SSRİ Dövlət mükafatları laureatı. Respublikada və xaricdə əsərləri mütəmadi nəşr edilən yazıçıdır. Onun ssenariləri əsasında respublikamızda və xaricdə onlarla film çəkilmişdir. 1981-1990-cı illərdə Azərbaycan Kinomatoqrafçılar İttifaqının birinci katibi, 1990-cı ildən isə sədridir. 1996-cı ildə "Günəşdən usanmışlar" kinofilminin ssenarisinə görə Amerika Kino Akademiyasının "Oskar" mükafatına layiq görülmüşdür. Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif olunmuşdur. **C.10-** 344; **C.13-** 127,128; **C.19-** 122-123, 124-133; **C.22-** 59, 132-145; **C.27-** 165, 167; **C.28-** 254, 255, 271, 319, 346.

**1167. Rüstəm Mustafayev,** Rüstəm Məmməd oğlu Mustafayev (1910-1940) - Azərbaycan teatr rəssamı. Azərbaycan realist teatr-dekorasiya sənətinin yaradıcılarından biri. 1933-1938-ci illərdə M. Əzizbəyov adına Azərbaycan Milli Dövlət Dram Teatrının baş rəssamı olmuşdur. **C.13-** 303.

**1168. Rza Əfqanlı**, Rza Rüstəm oğlu Cəfərzadə (1899-1973) - aktyor. Azərbaycan Respukblikasının Xalq artisti. SSRİ Dövlət mükafatı laureatı. **C.10-** 55; **C.17-** 190; **C.26-** 85.

**1169. Rza Təhmasib**, Rza Abbasqulu oğlu Təhmasib (1894-1980) - aktyor, rejissor, pedaqoq. Azərbaycanın Xalq artisti və SSRİ Dövlət mükayatı laureatı. l937-ci ildə Ümumittifaq Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsini bitir-

mişdir. Təhmasibin səhnə yaradıcılığı Azərbaycan Milli Dram Teatrı ilə bağlıdır. Bir çox filmlərin və tamaşaların rejissoru olmuşdur. **C.12-** 175-176; **C.17**- 190.

**1170. Sabir,** Mirzə Ələkbər Zeynalabdin oğlu Tahirzadə (1862-1911) - böyük Azərbaycan şairi, mütəfəkkir, ictimai xadim. Sabir Azərbaycan ədəbiyyatı, ictimai və bədii fikrinin ən qabaqcıl simalarındandır. O, Azərbaycan ədəbiyyatında tənqidi realizmin, satirik poeziyanın qüdrətli nümayəndəsidir. **C.13**- 18, 82, 83, 110; **C.15**- 391; **C.18**- 278; **C.26-** 89, 305, 306, 307; **C.27**- 214. **C.28**- 191, 271.

**1171. Sabir Əhmədli,** Sabir Məhəmməd oğlu Əhmədli (d.1930) - Azərbaycanın Xalq yazıçısı, Əməkdar incəsənət xadimi. **C.13**- 70.

**1172. Sabir Rüstəmxanlı,** Sabir Xudu oğlu Rüstəmxanlı (d.1946) - Azərbaycan şairi, publisist, ictimai xadim. Azərbaycan Respublikasının Xalq şairi. Milli Məclisin üzvü olub. 1991-1995-ci illərdə Azərbaycan Respublikasının Mətbuat və İnformasiya naziri işləyib. Hazırda Vətəndaş Həmrəyliyi Partiyasının sədridir. **C.13**- 30-45.

**1173. Sabit Rəhman,** Sabit Kərim oğlu Mahmudov (1910-1970) - tanınmış Azərbaycan yazıçısı, dramaturq, Əməkdar incəsənət xadimi. S.Rəhman Azərbaycan sovet komediyasının banilərindən biridir. Onun "Toy", "Xoşbəxtlər", "Aşnalar", "Aydınlıq", "Nişanlı qız" komediyalarında nöqsanlar şən, yumoristik gülüşlə tənqid olunur. **C.17**- 190.

**1174. Sabsay Pinxos Vladimiroviç** (1893-1980) - Azərbaycan heykəltəraşı, SSRİ Xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü, SSRİ Dövlət mükafatı laureatı. 1926-cı ildən Bakıda yaşayıb yaratmışdır. M.F.Axundovun Bakıda qoyulmuş abidəsi Sabsayın ilk monumental abidəsidir. O, əsasən büst-portretlər ("Neftçi Babayev", yazıçı Süleyman Rəhimov və A.S.Puşkinin portretləri) ustası kimi tanınmışdır. Onun əsərləri üçün obrazın psixoloji ifadəliliyi, plastik forma dəqiqliyi və aydınlığı səciyyəvidir. **C.20**- 62.

**1175. Sadovniç Viktor Antonoviç** (d.1939) - informatika sahəsində alim. Rusiya Elmlər Akademiyasının akademiki. Dövlət mükafatı laureatı. 1992-ci ildən Moskva Dövlət Universitetinin rektoru. **C.25-** 46, 49.

**1176. Salman Mümtaz**, Salman Məmmədəmin oğlu Əsgərov (1884-1941) - ədəbiyyatşünas, mətnşünas şair. **C.10-** 360.

**1177. Samaranç Xuan Antonio** (d.1920) - beynəlxalq idman hərəkatı xadimi, ispan diplomatı və sənayeçisi. 1966-cı ildən Beynəlxalq Olimpiya Komitəsinin üzvü, 1974-1978-ci illərdə vitse-prezidenti, 1980-2000-ci illərdə isə prezidenti olmuşdur. **C.24**- 421.

**1178. Samsun** - Türkiyənin şimalında şəhər, Qara dəniz sahilində liman. Əhalisi 327 min nəfərdir. **C.20** - 231.

**1179. San-Fransisko** - ABŞ-ın Kaliforniya ştatında Sakit okean sahilində şəhər və liman. 735 min əhalisi (şəhər ətrafı ilə 1,5 milyon nəfər) var. San-Fransiskoda 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatının əsası qoyulmuşdur. **C.20**- 300.

**1180. Sankt-Peterburq** - Əsası 1703-cü idə I Pyotr tərəfindən qoyulmuşdur. 1918-ci ilə kimi Rusiyanın paytaxtı idi. Rusiya Federasiyasınınən böyük sənaye, mədəniyyət və elm mərkəzidir- **C.10**- 262; **C.22**- 90; **C.27**- 154.

**1181. Sara Aşurbəyli,** Sara Balabəy qızı Aşurbəyli (1906 -2001) - Azərbaycan tarixçisi, tarix elmləri doktoru. Əsasən onun əsərləri orta əsr Azərbaycan şəhərlərinin öyrənilməsinə həsr edilmişdir. Aşurbəyli bir sıra boyakarlıq əsərlərinin də müəllifidir. **C.17**- 141.

**1182. Sara xatun** (?-?) - Ağqoyunlu dövlətinin siyasi həyatında mühüm rol oynamış qadın (XV əsr), Uzun Həsənin anası, diplomat. Ağqoyunlu dövlətinin möhkəmləndirilməsində yaxından iştirak etmiş, Uzun Həsənin ən məsul diplomatik tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmişdi. **C.25-** 311.

**1183. Sara Qədimova,** Sara Bəbiş qızı Qədimova (1922-2005) - müğənni. Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.10-** 34; **C.17**- 150, 151, 152, 164; **C.25-** 313.

**1184. Saratov vilayəti** - Rusiya Federasiyasında Privoljskidə Federal mahal. Sahəsi 100,2 min km$^{2}$, əhalisi 2723,4 min nəfərdir. Vilayətdə 18 şəhər, 30 şəhər tipli qəsəbə var. Mərkəzi Saratov şəhəridir. **C.17-** 117-122, 173; **C.20-** 304.

**1185. Sardiniya** - İtaliyada vilayət. Sardiniya adalarını və yaxınlıqdakı kiçik adaları əhatə edir. Sahəsi 24,1 min km$^{2}$, əhalisi 1,6 milyon nəfərdir. Əsas şəhəri Kalyaridir. **C.19**- 444.

**1186. Sartr Jan Pol** (1905-1980) - məşhur fransız yazıçısı, filosof, publisist. Tənhalıq, mütləq azadlıq, həyatın mənasızlığı pyeslərinin və povestlərinin əsas mövzusu olmuşdur.Sartrin idealist fəlsəfəsi ateist ekzistensializminin bir növüdür. Onun dialektikası yalnız şüur sahəsi ilə məhdudlaşır. Əxlaq sahəsində Sartr xalis subyektivlik və fərdiyyətçilik mövqeyində durur. 1964-cü ildə avtobioqrafik "Sözlər" povestinə görə təltif olunduğu Nobel mükafatından imtina etmişdir. **C.19**- 404.

**1187. Seleznyov Gennadi Nikolayeviç** (d.1947) - Rusiyanın ictimai və dövlət xadimi. 1995-2003-cü illərdə Rusiya Dövlət Dumasının sədri olmuşdur. Hazırda Dövlət Dumasının deputatıdır. **C.22**- 33.

**1188. Sem Braunbek** (d.1956) - 1979-cu ildə Kanzas ştatı universietini (bakalavr), 1982-ci ildə isə həmin universiteti hüquq doktoru dərəcəsi ilə bitirmişdir. 1986-1993-cü illərdə Kanzas ştatının kənd təsərrüfatı məsələləri üzrə katibi olmuşdur. 1995-1996-cı illərdə Respublikaçılar partiyasından ABŞ Konqresi Numayəndələr Palatasına Kanzas ştatından üzv seçilmişdir. 1996-cı ildən Senatın Kanzas ştatından üzvü, Xarici Əlaqələr Komitəsinin üzvü olmuşdur. Respublikaçıdır. **C.11**- 168, 170, 174; **C.19**- 351, 352, 457; **C.23**- 121, 235; **C.25-** 97, 98, 134, 135; **C.28**- 262.

**1189. Semuel Berger** - hüquqşünas. 1992-1993-cü illərdə B.Klintonun xarici işlər üzrə böyük müşaviri işləmişdir. 1993-1997-ci illərdə Prezidentin milli təhlükəsizlik məsələləri üzrə köməkçisinin müavini, 1997-2000-ci illərdə isə ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi ol-

muşdur. **C.23**- 235**; C.25-** 98, 134, 141, 152, 161, 167, 191, 229, 244, 364.

**1190. Senat** - ABŞ-da Konqresin yuxarı palatası nəzərdə tutulur. **C.23**- 235, 236; **C.25-** 97.

**1191. Seneqal,** Seneqal Respublikası - Cənubi Afrikada dövlət. Ərazisi 196,2 min km$^2$, əhalisi 8,5 milyon nəfərdir. İnzibati ərazisi 10 vilayətə bölünür. Dövlət və hökumət başçısı Prezidentdir. Qanunverici orqanı birpalatalı - Milli Məclisdir. Paytaxtı Dakar şəhəridir. **C.26-** 111; **C.27**- 135.

**1192. Sendi (Semunel) Berger** - Kornell universitetini, 1971-ci ildə Harvard universitetinin hüquq məktəbini bitirmişdir. 1973-1977-ci illərdə və 1981-1992-ci illərdə "Hoqan və Hartson" firmasının beynəlxalq ticarət məsələləri üzrə partnyoru və direktoru işləmişdir. 1992-1993-cü illərdə ABŞ Dövlət Departamentinin siyasəti planlaşdırma şöbəsi direktorunun müavini və B.Klintonun xarici işlər üzrə böyük müşaviri işləmişdir. 1993-1997-ci illərdə Prezidentin milli təhlükəsizlik məsələləri üzrə köməkçisinin müavini, 1997-2000-ci illərdə isə ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi olmuşdur. **C.11-** 284, 394.

**1193.Sent-Ekzyuperi** (1900-1944) - fransız yazıçısı. Mənəvi pafos, insanların biri-birini başa düşməsi və birliyi "Cənub poçtu", "insanların torpağı" kimi məşhur əsərlərinin əsas leytmotividir. İkinci Dünya müharibəsinin iştirakçısı olmuş, kəşfiyyat uçuşu zamanı həlak olmuşdur. **C.28** - 384.

**1194. Separatizm** - azlıqda qalan millətlərin, yaxud bir əyalətin dövlətdən ayrılaraq müstəqil dövlət qurmağa çalışması. **C.22**- 34.

**1195. Sera Braunbek** (d.l956) - hüquqşünas. ABŞ Konqresi Nümayəndələr Palatasının üzvü, 1996-cı ildən senator, Xarici Əlaqələr Komitəsinin üzvü. **C.22**- 104, 105, 106.

**1196. Sevil Əliyeva,** Sevil Heydər qızı Əliyeva (d.1955) - şərqşünas, ictimai xadim, tarix elmləri namizədi. Prezident Heydər Əliyevin qızıdır. Bir sıra musiqi əsərlərinin müəllifidir. Sevil Əliyeva 1990-cı illərin birinci yarısından fəal ictimaiy-

yətçi, müstəqil Azərbaycanda qadın hərəkatının təşkilatçılarından biri kimi fəaliyyət göstərir. “Sevil” Azərbaycan Qadınlar Məclisinin sədri, “SOS uşaq kəndləri - Azərbaycan assosiasiyası”nın prezidentidir.

Sevil Əliyevanın İngiltərə-Azərbaycan ictimai-mədəni əlaqələrinin genişləndirilməsində də xidmətləri var. **C.15-** 321; **C.26-** 329.

**1197. Seyid Əzim Şirvani** (1835-1888) - Azərbaycan şairi. O, Azərbaycan və fars dillərində yazmışdır. XIX əsrin 10-cu yarısında ədəbi məktəb yaradan S.Ə.Şirvani lirik və satirik Azərbaycan şeirini zənginləşdirmişdir. Yüksək bədii sənətkarlıqla yazılmış lirik şerlərində - qəzəl, qəsidə, tərkibbənd, müxəmməs, müsəddəs, rübai, qitə-məhəbbət, həyat eşqi tərənnüm olunur. Satirik şeirlərində “xalq” qanını şişəyə tutan çar məmurlarını ifşa etmişdir. **C.13-** 107; **C.17-** 342; **C.26-** 87.

**1198. Seyid Hüseyn**, Hüseyn Mirkazım oğlu Sadıqzadə (1887-1938) - yazıçısı, tənqidçi. Baxışlarında mollanəsrəddinçilərə yaxın olmuş, Azərbaycan dilinin saflığı uğrunda mübarizə aparmışdır. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. **C.10-** 360.

**1199. Sədərək rayonu -** Naxçıvan MR-də inzibati rayon. Sərhəd bölgəsinin sosial-iqtisadi inkişafını daha da sürətləndirmək və gücləndirmək, həmçinin ərazinin geostrateji mövqeyini nəzərə alaraq 1990-cı il avqustun 28-də Azərbaycan SSR Ali Sovetinin fərmanı əsasında yaradılmışdır. Sahəsi 0,15 min $km^2$, əhalisi 12,9 min nəfərdir. **C.22-** 176-179, 293.

**1200. Sədi,** Müslihəddin əbu Məhəmməd Əbdüllah ibn Müşrifəddin (1203-1210-cu illər arasında-1292) - böyük fars şairi, mütəfəkkir. Sədiyə didaktik və mütəfəkkir şair kimi “Büstan” və “Gülüstan” əsərləri şöhrət qazandırmışdır. Sədi klassik fars əbədi-bədii nəsrinin əsasını qoymuşdur. **C.15-** 184.

**1201. Səfər Əbiyev**, Səfər Axundbala oğlu Əbiyev (d. 1950) - general-polkovnik. 1995-ci ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. **C.10-** 281; **C.15-** 240; **C.16-** 90, 91; **C.22-** 255; **C.25-** 417; **C.28-** 323, 332.

**1202. Səfərəli Babayev,** Səfərəli Yaqub oğlu Babayev (d.l923-2003) - coğrafiyaşünas. Coğrafiya elmləri doktoru, professor. Azərbaycan Respubublikasının Əməkdar elm xadimi. Əsas tədqiqatları Naxçıvan MR-in təbii şəraiti, landşaftı, təbiətinin mühafızəsi, təbii sərvətlərindən istifadə olunması, toponomiyası və s. öyrənilməsinə həsr edilmişdir. **C.22**- 181, 193, 194, 195.

**1203. Səfiəddin Urməvi,** Səfiəddin Əbdülmömin ibn Yusif ibn Fakirəl-Urməvi (1230-1294) - Azərbaycan müsiqişünası, ifaçı, bəstəkar, xəttat. Onun yaradıcılığı Yaxın və Orta Şərq xalqları musiqisinin inkişafında yeni dövrün başlanğıcıdır. **C.14**- 5.

**1204. 8 Mart Beynəlxalq** qadınlar günü - iqtisadi, ictimai və siyasi bərabərlik uğrunda mübarizədə qadınların beynəlxalq həmrəylik günü.Beynəlxalq qadınlar gününün bayram edilməsi Klara Setkinin təklifi ilə 1910-cu ildə sosialist qadınların 2-ci Beynəlxalq konfransında (Kopenhagen) qərara alınmışdı. İlk dəfə bayram 1911-ci ildə bir sıra Avropa ölkələrində keçirilmişdir. Bu bayram Azərbaycanda isə 1917-ci ildən qeyd edilməyə başlanmışdır. **C.15**- 37-45; **C.19**- 217, 253-257, 258; **C.25-** 319-324.

**1205. Səməd Vurğun,** Səməd Yusif oğlu Vəkilov (1906-1956) - böyük Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın Xalq şairi. S.Vurğunun yaradıcılığı XX əsr Azərbaycan şeirinin inkişafında mühüm rol oynamışdır. S.Vurğun Azərbaycan Yazıçılar İttifaqının məsul katibi, sədri, Azərbaycanın Xarici Ölkələrlə Mədəni Əlaqə Cəmiyyətinin sədri, Azərbaycan MEA-nın vitse-prezidenti olmuşdur, iki dəfə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. **C.10-** 52-57; **C.12-** 276; **C.13**- 21, 29, 30, 31, 70, 80, 84, 98, 105, 125, 133, 297, 303; **C.14-** 19; **C.17**- 163, 190; **C.18**- 75; **C.19**- 130, 173; **C.21**- 103; **C.22**- 262; **C.23**- 321; **C.24**- 116, 121.

**1206. Səmədbəy Mehmandarov**, Səmədbəy Sadiqbəy oğlu Mehmandarov (1857-1931) - hərbi xadim. 1908-ci ildən artilleriya general-leytenantı. 1918-1920-ci illərdə Azərbaycan

Demokratik Respublikasının hərbi naziri olmuşdur. 1921-1928-ci illərdə Azərbaycan komandirlər məktəbində dərs demişdir. **C.10**- 332; **C.16**- 83, 84, 85.

**1207. Səmərqənd -** Özbəkistanda şəhər. Daşkənddən sonra Özbəkistanın ikinci sənaye və mədəniyyət mərkəzidir. Bir sıra tarixi abidələri - Şahizində xatirə kompleksi, Bibixanım məscidi, Registan meydan ansamblı, Gur-Əmir türbəsi və s. ilə məşhurdur. **C.10**- 193, 201.

**1208. Səmərqənd rəsədxanası,** Uluqbəy rəsədxanası - orta əsrlərin ən böyük rəsədxanalarından biri. Səmərqənd şəhəri yaxınlığında 1430-cu ildə Uluqbəy tərəfindən tikilmişdir. **C.10-** 201.

**1209. Sərəxs** - İran İslam Respublikasının şimali-şərqində şəhər. 1996-cı il mayın 13-də İran İslam Respublikasında Məşhəd-Sərəxs - Təcan dəmir yolunun Məşhəd hissəsi istifadəyə verilmişdir. Bu münasibətlə keçirilən təntənəli mərasimdə başda Azərbaycan Prezidenti Heydər Əliyev olmaqla Azərbaycan nümayəndə heyəti iştirak etmişdir. **C.10-** 59, 71.

**1210. Səttar Bəhlulzadə,** Səttar Bəhlul oğlu Bəhlulzadə (1909-1974) - görkəmli Azərbaycan rəssamı, müasir Azərbaycan boyakarlıq sənətində mənzərə janrının yaradıcılarından biri. Azərbaycan Respublikası Əməkdar incəsənət xadimi, Azərbaycanın Xalq rəssamı, Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. Bəhlulzadə yaradıcılığa “Kommunist” qəzetində Əzim Əzimzadənin rəhbərliyi ilə başlamışdır. Onun əsərlərində doğma torpağa və onu dəyişdirən zəhmət adamlarına hədsiz məhəbbət motivləri başlıca yer tutur. Azərbaycanın səfalı guşələri onun lirik mənzərələrində real əksini tapmışdır. Bəhlulzadənin mənzərələrində poetik əhvali-ruhiyyə və kompozisiya quruluşu, işlətdiyi boyalarda isə kolorit gözəlliyi çox güclüdür. Əsərlərində real mənzərə motivlərini rəssam təxəyyülünün məhsulu olan şərti təsvir formaları ilə əlaqələndirir. Mənzərələrinin koloritində açıq rənglərin vəhdəti əsas yer tutur. **C.15**- 152; **C.16**- 474.

**1211. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbistanı krallığı - Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon $km^2$, əhalisi

18,4 milyon nəfərdir. Paytaxtı ər-Riyaddır. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı Kraldır. Ölkədə bütün hakimiyyət Krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı Kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. **C.15**- 127-128, 129-130; **C.19**- 321-329; **C.28**- 179, 232.

**1212. Səyavuş Aslan,** Səyavuş Məmmədağa oğlu Aslanov (d.1935) - aktyor. Azərbaycan Respublikasının Xalq artisti. Müxtəlif illərdə Şıxəli Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrında, hazırda isə Azərbaycan Milli Dram Teatrının artistidir. Səyavuş Aslanın aktyor sənəti üçün zəngin mimika və obrazı ən xırda incəliklərinədək açmaq bacarığı, milli kolorit səciyyəvidir. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir. **C.17**- 141; **C.28**- 317, 320.

**1213. Səyyad Aran,** Səyyad Adil oğlu Salahlı (d.1952) - filoloq. 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatı olub.Türkiyənin İstanbul şəhərində Azərbaycan konsuludur. C.13- 68, 91.

**1214. Sibir** - Rusiya Federasiyasının Asiyadakı ərazisinin çox hissəsi. Sahəsi təqribən. 10 mil km$^2$, əhalisi 23,8 milyon nəfərdir. Sibir Qərbi Sibir və Şərqi Sibir hissələrinə bölünür. Ərazisinin çox hissəsində iqlim sərt, kəskin kontinentaldır. Orta temperatur yanvarda Qərbi Sibir düzənliyinin cənubunda -16 dan-20° C-yə, Yakutiyada - 40-dan- 48° C-yə (bəzən 71 C-dək) enir. **C.27**- 40, 101.

**1215. Si-En-En**, "Keybl Nyus Netuork" - ABŞ-da peyk-kabel informasiya televiziya kanalı. Əsası 1980-ci ildə Atlanta şəhərində qoyulmuşdur. Bütün sutka ərzində 150-yə qədər ölkəyə ingilis dilində xəbərlər yayımlayır. Dünyanın müxtəlif regionlarında 25 nümayəndəliyi var. **C.24**- 377; **C.25-** 267; **C.28**- 166, 168.

**1216. Sidqi Ruhulla**, Axundov Ruhulla Fətulla oğlu (1886-1959)-aktyor. SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. **C.10-** 55; **C.17**- 189; **C.18**- 18; **C.26-** 85.

**1217. Sidney** - Cənub-Qərbi Avstraliyada şahər. Yeni - Cənub Uelsin paytaxtı. Əsası 1788-ci ildə qoyulmuşdur. **C.24-** 428, 431.

**1218. Sikorski Vladislav** (1881-1943) - general, 1922-1923-cü illərdə Polşanın Baş naziri və hərbi naziri, 1939-1943-cü illərdə Polşa mühacirət hökumətinin Baş naziri olmuşdur. **C.16**- 65.

**1219. Sikstin kapellası,** Sikst kapellası - Vatikanda (Romada) Renessans dövrü italyan incəsənətinin ən görkəmli abidələrindən biri. Sikstin kapellasının yerləşdiyi bina 1483-cü ildə papa IV Sikst vaxtında müqəddəsləşdirilmişdir. **C.12**- 208.

**1220. Simonov Konstantin Mixayloviç** (1915-1979) - rus yazıçısı, ictimai xadim. Pyeslərin, ssenarilərin, publisistik oçerk və yol qeydlərinin, ədəbi-tənqidi məqalələrin müəllifidir. Simonova müharibə (1941-1945) dövrü lirikası daha çox şöhrət qazandırmışdır. Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı və 6 dəfə SSRİ Dövlət mükafatı laureatıdır. **C.26-** 314, 315; **C.28-** 344.

**1221. Sirus Təbrizli,** Sirus Xudadat oğlu Təbrizli (d. 1942) - Azərbaycan yazıçısı və publisist. Birinci (1995) və ikinci (2000) çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Yeni Azərbaycan Partiyasının sədr müavinidir. 1996-2001-ci illərdə Respublika Mətbuat və İnformasiya naziri olmuşdur. **C.13**- 17-25, 265, 266, 291; **C.24**- 69, 73, 74.

**1222. Sisyan nahiyəsi -** XYIII əsrin əvvəllərində Osmanlıların idarəsində olan Naxçıvan sancağının 14 nahiyəsindən biri. Sisyan nahiyəsi 42 yaşayış məntəqəsini əhatə etmişdir. **C.22**- 183.

**1223. Siyavuş Novruzov,** Siyavuş Dünyamalı oğlu Novruzov (d.1969) - hüquq elmləri namizədi. YAP Siyasi Şura və İdarə heyətinin üzvü, YAP icraçı katibinin müavini, 2000-ci ildən Milli Məclisin üzvüdür. **C.24-** 75.

**1224. Skalfaro Oskar Luici** (d.1918) - İtaliyanın siyasi və dövlət xadimi, hüquqşünas, Xristian Demokratik Partiyasının rəhbərlərindən biri. Bir neçə dəfə İtaliya parlamentinə deputat seçilmiş, 1992-ci ildə parlamentin sədri olmuşdur. 1966-1987-ci illərə qədər bir sıra nazirliklərə rəhbərlik etmiş,1992-ci ildə isə İtaliya Respublikasının Prezidenti seçilmişdir. Hazırda sabiq prezident kimi ömürlük senatordur. **C.12-** 201, 225, 234, 244, 248; **C.16-** 5; **C.25-** 170, 219.

**1225. Skuratov Yuri İliç** (d.1941) - hüquqşünas, hüquq elmləri doktoru. 1997-1999-ci illərdə Rusiya Federasiyasının Baş prokuroru olmuşdur. **C.18-** 287.

**1226. Slavneft** - Rusiyanın ən boyük neft şirkətlərindən biri. 1994-cü ildə yaradılmışdir. Şirkət tamamilə özəldir. "Slavneft" neftin çıxarılması və istehsalı ilə məşğuldur. **C.28-** 44, 60-61.

**1227. Slobadan Miloşeviç** (1941-2006) - 1992-1997-ci illərdə Serbiyanın 1997-2000-ci illərdə Yuqoslaviya Respublikası İttifaqının Prezidenti olmuşdur. 1999-cu ildə Miloşeviç Kosovanın muxtariyyətini ləğv etmiş və Kosovoda yaşayan müsəlman albanlara qarşı soyqırımı tətbiq etmişdir. Nəticədə milyona yaxın dinc əhali vəhşicəsinə öldürülmüşdü. Bunun qarşısını almaq üçün NATO hərbi qüvvələri Yuqoslaviyanın hərbi qüvvələrini Kosovodan çıxarmağa məcbur etdi. Məhz bu soyqırıma görə 2002-ci ildə yeni Serbiya hakimiyyəti Miloşeviçi Haaqa məhkəməsinə verməyə məcbur oldu. 2006-cı ildə məhkəmə başa çatmamış Miloşeviç həbsxanada ürək çatışmamazlığından öldü. **C.20** - 41, 42, 45, 46, 118, 119, 120, 219; **C.23**- 101; **C.27**- 20.

**1228. Slovakiya,** Slovakiya Respublikası - Şərqi Avropada dövlət. Sahəsi 49 min $km^2$, əhalisi 3.4 milyon nəfərdir. İnzibati cəhətdən 3 vilayətə bölünür. Dövlət başçısı President, qanunverici orqanı Milli Şuradır. Paytaxtı Bratislavadır. 1992ci ilin noyabrına qədər Çexoslovakiyanın tərkibində olmuşdur. **C.24**- 401-418.

**1229. Sloveniya,** Sloveniya Respublikası - Mərkəzi Cənubi Avropada dövlət. Sahəsi 20,3 min km$^2$, əhalisi 1,96 milyon nəfərdir.

Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı (Dövlət Şurası və Dövlət Məclisi) Parlamentdir. Paytaxtı Lyublyandır. **C.28**- 342.

**1230. Soçi** - Rusiya Federasiyasının Krasnodar ölkəsində şəhər. Qafqazın məşhur kurortlarından biri. **C.10**- 181.

**1231. Sofiya** - Bolqarıstanın paytaxtı. Əsası bizim eranın I əsrində qoyulmuşdur. 1382-1878-ci ilin əvvəllərinə qədər Osmanlı imperiyasının tərkibində olmuşdur. 1879-cu ildən Bolqarıstanın paytaxtıdır. **C.23**- 296, 299, 300, 301, 308, 312.

**1232. Sokrat** (e.ə.470/469-399) - qədim yunan filosofu. Sokrat söhbətlərə əsasən həqiqətin üzə çıxarılması kimi anlaşılan fəlsəfi dialektikanın banilərindən biri olmuşdur. Sokrata görə aləmin quruluşu, əşyaların fiziki təbiəti dərkedilməzdir. Sokratın fikrincə yaramaz hərəkətlər bilməməzlikdən törəyir və heç kəs bilərəkdən qəddar olmur. **C.13**- 68.

**1233. Solomintsev Mixail Sergeyeviç** (d.1913) - Rusiya Federasiyasının partiya və dövlət xadimi. İki dəfə Sosialist Əməyi Qəhrəmanı. 1971-1983-cü illərdə RSFSR Nazirlər Sovetinin Sədri, 1983-1991-ci illərdə Sov. İKP MK yanında Partiya Nəzarəti Komissiyasının sədri idi. **C.10-** 76, 115; **C.19-** 236; **C.25**- 256.

**1234. Soltan Hacıbəyov,** Soltan İsmayıl oğlu Hacıbəyov (1919-1974) - Azərbaycan bəstəkarı. SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı idi; **C.12-** 357.

**1235. Sonni Kallahan** (d.1932) - 1952-1954-cü illərdə ABŞ-ın Hərbi Dəniz Qüvvələrində xidmət etmişdir. 1971-1979-cü illərdə Nümayəndələr Palatasının, 1979-1983-cü illərdə Senatın Alabama ştatından (Demokratlar partiyasından) üzvü olmuşdur. 1984-cü ildən ABŞ Konqresi Nümayəndələr Palatasının Alabama ştatından (Respublikaçılar partiyasından) üzvüdür. Respublikaçıdır. **C.11-** 164.

**1236. Soni Media Uorld** - yapon şirkəti. Yüksək texnologiyası ilə beynəlxalq miqyasda tanınan bu korporasiya müasir dövrün tələblərinə cavab verən elektronika aparatları istehsal edir. **C.14**- 375-376.

**1237. Soros Corc** (d.1930) - məşhur amerikan maliyyəçisi, xeyriyyəçisi. 1966-cı ildən bizneslə məşğuldur. Dünyanın 25 ölkəsində onun xeyriyyəçi fondları fəaliyyət göstərir. Bu fondlar ancaq mədəniyyət və maarifə xidmət edir. Sorosun köməyilə Budapeştdə, Praqada, Varşavada, Mərkəzi Avropa universitetləri açılmışdır. **C.24**- 353.

**1238. Sovet İttifaqı Elmlər** Akademiyasının Azərbaycan filialı. SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsi 1935-ci ilin oktyabrında SSRİ EA Azərbaycan filialına çevrildi və 1945-ci ilin yanvarında Azərbaycan Elmlər Akademiyası yaranana qədər fəaliyyət göstərmişdir. **C.10**- 263.

**1239. Sovetlər İttifaqı**, Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) - 1922-1991-ci illərdə keçmiş Rusiya imperiyasının böyük hissəsində mövcud olmuş dövlət. Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) - 1922-1991-ci illərdə dünyanın ən böyük və qüdrətli dövlətlərindən biri. Tərkibində 15 müttəfiq respublika, 20 muxtar respublika, 8 muxtar vilayət olmuşdur. SSRİ-nin yaradılmasına dair Müqaviləyə (dek. 1922) əsasən onun tərkibinə Belorusiya (BSSR), Rusiya (RSFSR), Cənubı Qafqaz respublikaları (ZSFSR; 1936-cı ildən müttəfiq respublikalar - Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR və Ukrayna SSR, 1925-ci ildə Özbəkistan SSR, Türkmənistan SSR, 1929-cu ildə Tacikistan SSR, 1936-cı ildə Qazaxıstan SSR, Qırğızıstan SSR, 1940-cı ildə Moldaviya SSR, Latviya SSR, Litva SSR, Estoniya SSR daxil olmuşdular.1991-ci ilin dekabrında Belorusiya, Rusiya və Ukrayna SSRİ-nın mövcudluğunun dayandırıldığını elan edərək Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması haqqında Saziş imzaladılar (8 dekabr, Minsk). 1991-cı il dekabrın 21-də Azərbaycan, Ermənistan, Belorusiya, Qazaxıstan, Qırğızıstan, Moldaviya, Rusiya, Tacikistan, Özbəkistan, Ukrayna Alma-Atada

Bəyannamə imzalayaraq MDB-nin yaradılması haqqında məqsəd və prinsiplərə qoşulduqlarını bəyan etdilər. **C.10-** 8-10, 12, 13, 67, 75, 76, 83, 84, 86-88, 101-104, 110-112, 113, 130-133, 145, 161, 181-183, 193 194 197, 205-213, 224, 259, 260, 263, 266, 267, 270, 277, 284, 306, 309, 310, 324, 328, 338, 384; **C.11-** 11, 12, 34, 40, 50, 58, 80, 116, 119, 137, 237, 246, 249; **C.12-** 115, 122, 224, 225, 331, 333; **C.13-** 56, 83, 87, 88, 90, 101, 103, 105, 106, 114, 119, 142, 182, 220, 256, 264, 326, 359, 370; **C.14-** 14, 78, 83, 84, 152, 174, 176, 177, 179, 241, 288, 289, 421, 459; **C.15-** 5, 6, 9, 23, 34, 40, 61, 92, 173, 175, 195, 253, 291, 308, 312, 316, 326, 345, 355, 389, 452; **C.16-** 51, 85, 89, 115, 174, 176, 226, 228, 283, 287, 380, 384, 389, 400, 406, 418, 427, 428, 461, 466; **C.17-** 18, 19, 22, 23, 30, 31, 38, 39, 41, 45, 50, 58, 61, 62, 63, 161, 162, 163, 216, 223, 227, 246, 266-283, 284, 305, 352, 353, 360, 403, 404, 445; **C.18-** 85, 95, 242, 243, 282, 283, 304, 320, 335, 353, 355, 359, 360, 373, 380, 406, 407; **C.19-** 17, 65, 66, 68, 129, 130, 131, 150, 191, 193, 236, 247, 248, 250, 260, 261, 262, 296, 338, 344, 346, 380, 382, 411, 412, 413; **C.21-** 82, 90, 91, 161, 167, 227, 228, 232, 256, 411; **C.22-** 6, 13, 18, 24, 40, 58, 63, 66, 69, 78, 79, 92, 109, 110, 162, 231, 242, 243, 251, 253, 303, 307, 311, 323, 324, 328; **C.23-** 24, 25, 26, 70, 89, 90, 91, 92, 93, 98, 118, 175, 184, 186, 216, 245, 353, 408; **C.24-** 369, 391, 392, 427; **C.25-** 25, 38, 39, 40, 42, 43, 44, 47, 81, 82, 83, 85, 86, 97, 98, 101, 104, 118, 139, 142, 170, 202, 209, 212, 227, 253, 254, 259, 260, 262, 264, 265, 270, 273, 298, 307, 352, 356, 358, 359, 361, 379, 401; **C.26-** 11, 49, 99, 100; **C.27-** 39, 40, 41, 42, 46, 47, 80, 81, 82, 84, 99, 100, 101, 103, 120, 161, 188, 189, 197, 204, 221, 227, 264, 265, 266, 291, 300, 304, 305, 320, 328, 329, 330, 338, 358, 359, 360, 361, 363, 366, 368, 370, 380; **C.28**-5, 6, 15, 16, 23, 24, 25, 39, 89,108, 110, 136, 139, 141, 158, 166, 169, 188, 194, 200, 224, 226, 227, 230, 231, 236, 237, 238, 239, 249, 250, 253, 256, 260, 263, 267, 269, 279, 303, 304, 305, 312, 313, 327, 329, 361, 362, 378.

**1240. Soyuq müharibə** - bir tərəfdən SSRİ və onun müttəfiqləri, o biri tərəfdən ABŞ və onun müttəfiqləri arasında olan hərbi-siyasi konflikti bildirən termin. "Soyuq müharibə"yə sürətlə silahlanma, bir-birinə qarşı hərbi-siyasi blokların yaradılması, siyasətə təsir vasitəsi kimi hərbi qüvvədən istifadə, iqtisadi təzyiq vasitələrinin tətbiqi daxil idi. "Soyuq müharibə" 2-ci Dünya müharibəsindən sonra başladı və 80-ci illərin və 90-cı illərin əvvəlində SSRİ-də və başqa sosialist sisteminə daxil olmuş ölkələrdə sosial dəyişikliklər baş verdiyi zaman sona çatdı. **C.17**- 162; **C.22**- 109, 110, 275, 382; **C.23**- 245, 294, 322; **C.24**- 88; **C.27**- 114.

**1241.** "**Space**" - Azərbaycanda müstəqil teleşirkət. 1997-ci ildə yaradılmışdır. Dünyanın bir sıra - MSM, Fashion TV, SNN, NTV telekanalları, İHLAS agentliyi ilə əməkdaşlıq edir. **C.15**- 299; **C.27**- 213.

**1242. SSRİ, Sovetlər Birliyi** – bax: Sovetlər İttifaqı.

**1243. Stalin İosif Vissarionoviç** (1879-1953) - 1922-1953-cü illərdə SSRİ-nin partiya və dövlət rəhbəri. Sosializm quruculuğuna dair Lenin planını, SSRİ-nin Böyük Vətən müharibəsində (1941-1945) müdafiə qabiliyyətinin möhkəmləndirilməsində və s. rəhbər kimi iştirak etmişdir. Fəaliyyətində nəzəri və siyasi səhvlərin çoxluğu, kobud qanun pozuntuları, bəzi mənfi xüsusiyyətləri Stalinin şəxsiyyətinə pərəstişin yaranması ilə nəticələndi. 30-cu illərdə baş verən və milyonlarla insanın repressiyasına səbəb olan qanlı cinayətlər məhz onun səhvlərinin nəticəsidir. Təkcə 1937-ci ildə Azərbaycanda "xalq düşməni" kimi 29 min nəfər güllələnmiş və ya Sibirə sürgün edilmişdir. **C.10**- 336-337; **C.15**- 331, 332; **C.17**- 108, 109; **C.19**- 152, 263, 265, 355, 416; **C.21**- 114, 116, 363; **C.23**- 392; **C.24**- 70, 98; **C.27**- 47, 185, 305, 306, 307, 327; **C.28**- 8.

**1244. Stalinqrad vuruşması** (1942-1943) - Böyük Vətən müharibəsində sovet qoşunlarının Stalinqrad ətrafında alman-faşist qoşunlarını darmadağın etmək üçün müdafiə və hücum əməliyyatları. Sovet qoşunları müdafiə dövründə düşmənin əsas qüvvələrini məhv etmiş və hücuma keçərək alman qoşun-

larını mühasirəyə almışdı. Nəticədə general-feldmarşal F. Paulyus başda olmaqla 6-cı alman ordusu (91 min nəfər) əsir düşdü. Stalinqrad vuruşmasındakı qələbənin böyük strateji, siyasi və beynəlxalq əhəmiyyəti oldu. **C.15**- 354.

**1245. Stanev Yemilian** (1907-1979) - bolqar yazıçısı. Onun ən məşhur romanı "İvan Kondayev" 1923-cü il sentyabr antifaşist üsyanı dövründə bolqar xalqının həyat və mübarizəsindən bəhs edir. **C.23**- 321.

**1246. Statoyl** - Norveçin "Statoyl" şirkəti 1972-ci ildən fəaliyyət göstərir. Şirkət Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. İllik dövriyyəsi 15 milyard ABŞ dollarıdır. Yeni layihələrə illik investisiyalar 2 milyard ABŞ dolları səviyyəsindədir. Hazırda dünyanın 25 ölkəsində fəaliyyət göstərir. Şirkət 1994-cü ildən Azərbaycan neft layihələrində fəal iştirak edir. **C.10-** 120, 204; **C.11-** 250, 253; **C.13**- 182; **C.15**- 133-136; **C.16**- 363-364, 373, 377, 438, 484, 490; **C.17**- 185, 234; **C.20**- 90, 137; **C.21**- 391; **C.23**- 415, 416, 419; **C.25-** 127, 145; **C.28**- 43.

**1247. Stavanker şəhəri** - Norveç Krallığının əsas dəniz limanlarından biri. 1996-cı ilin aprelində Azərbaycan Prezidenti Heydər Əliyevin başçılığı ilə nümayəndə heyəti Norveçdə olmuş, burada ARDNŞ ilə Norveçin "Statoyl" şirkəti arasında "Xəzər dənizinin Azərbaycan sektorunun kəşfiyyatı və işlənməsi üzrə tərəflər arasında texnologiya və təcrübə mübadiləsinə dair əməkdaşlıq" haqqında saziş imzalanmışdır. **C.10-** 39.

**1248. Stiv Rozenfeld** - xarici siyasət üzrə görkəmli mütəxəssis, "Vaşinqton post" qəzetinin redaktor müavinidir. Qafqazdakı, xüsusilə Azərbaycandakı siyası vəziyyətlə maraqlanır. 907-ci düzəlişin ləğvi uğrunda ABŞ mətbuatında bir çox məqalələr dərc etdirmişdir. **C.11-** 116.

**1249. Strasburq** - Şərqi Fransada şəhər. X əsrdən Almaniya Krallığının hakimiyyəti altında olmuşdur. 1681-ci ildə Fransaya birləşdirilmişdir. Avrora Şurası bu şəhərdə yerləşir. **C.25-** 206, 373.

**1250. Strateji və Beynəlxalq** Araşdırmalar Mərkəzi (SBAM) - Amerika Birləşmiş Ştatlarının ən məşhur və nüfuzlu siyasi mərkəzlərindən biri. 1962-ci ildə yaradılmışdır. Əsasən ayrı-ayrı korporasiyalar tərəfindən maliyyələşdirilir. SBAM-ın əsas işi strateji təhlildən və ABŞ rəhbərliyinə müvafiq tövsiyələr verməkdən ibarətdir. Mərkəzin Xəzər hövzəsi dövlətləri üzrə (enerji və təhlükəsizlik məsələlərinə dair) xüsusi proqramları var. SBAM-ın əməkdaşları arasında tanınmış analitiklər və keçmiş dövlət xadimləri də var. **C.20**- 98-113.

**1251. Stroub Talbott** (d.1946)- Ohayo ştatının Deyton şəhərində anadan olmuşdur. 1968-ci ildə Yel universitetini bitirdikdən sonra üç il Oksford universitetində oxumuşdur. 1971-1984-cü illərdə "Taym" jurnalının diplomatik müxbiri işləmişdir. 1984-1989-cu illərdə "Taym" jurnalının Vaşinqtondakı bürosunun müdiri, 1989-cu ilin sentyabrından 1993-cü ilin martınadək "Taym" jurnalının redaktoru, 1993-cü ilin aprelindən 1994-cü ilin fevralınadək xüsusi tapşırıqlar üzrə səfir və Dövlət katibinin keçmiş Sovet İttifaqının yeni müstəqil dövlətləri üzrə xüsusi müşaviri olmuşdur. 1994-cü ilin fevralından ABŞ Dövlət katibinin müavini, 1997-ci ılin fevralından həm də Minsk konfransının həmsədri olmuşdur. Bir sıra kitabların müəllifıdir və mükafatlara layiq görülmüşdür. **C.11-** 23, 112, 115, 126, 187; **C.12-** 212.

**1252. Sudan,** Sudan Respublikası - Şimal-Şərqi Afrikada dövlət. Sahəsi 2,5 milyon km$^2$, əhalisi 31 milyon nəfərdir. İnzibati ərazisi 9 ştata bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı (parlament) Ali Milli Şuradır. Paytaxtı Xartumdur. **C.24**- 148.

**1253. Suxarto** (d.1921-2008) - İndoneziyanın siyasi, hərbi və dövlət xadimi. 1968-1998-ci illərdə İndoneziyanın Prezidenti olmuşdur. **C.13**- 318, 320.

**1254. Suxumi** - Abxaziya Muxtar Respublikasının paytaxtı, Qara dəniz sahilində port. Şəhər eramızın I əsrindən Romaya, VI əsrdən Bizansa, XII əsrdən Genuyaya, XVI əsrdən Türkiyəyə məxsus idi. 1806-1812-ci illər Rusiya-Türkiyə müharibəsində rus

qoşunları Süxumi qalasını ələ keçirmişdilər (1810). 1921-ci ildən Abxaziya MR-nın paytaxtıdır. **C.10-** 291.

**1255. Sulkeviç Məmməd bəy** (1865-1920) - hərbi xadim. Uzun müddət çar Rusiyası ordusunda xidmət etmiş, general-leytenant rütbəsinə qədər yüksəlmişdir. 1919-cu ilin martında Azərbaycana gəlmiş, Azərbaycan Xalq Cümhuriyyəti ordusunda Baş Ərkani hərb (Baş qərargah) rəisi olmuşdur. **C.12-** 83, 84; **C.16-** 84; **C.22**- 383.

**1256. Sultan Əbdulhəmid II** (Abdulhamid II) - (1842-1918) - Türkiyə sultanı (1876–1909). Gənc türklər inqilabı nəticəsində 1876-cı il Konstitusiyasını bərpa etmişdir (1908). 1909-cu il aprelin 27-də Gənc Türklər II Əbdülhəmidi əks-inqilabi çevrilişin təşkilində iştirakına görə taxtdan salmış və həbs etmişdilər. Həbsxanada ölmüşdür. **C.26-** 235.

**1257. Sultan Məhəmməd Təbrizi** ( (1470-ci illərin sonu -1555) - Azərbaycan rəssamı. XVI əsr Təbriz miniatür məktəbinin başçısı. S.Məhəmməd əlyazmaları üçün illüstrasiyalar, real həyat hadisələrini əks etdirən miniatürlər, portretlər yaratmış, süjetli xalçalar və bədii parçalar üçün eskizlər çəkmişdir. Azərbaycan miniatür sənətinin inkişaf zirvəsini təşkil edən Sultan Məhəmməd yaradıcılığı orta əsr mənbələrində, eləcə də muasir Avropa sənətşünaslığında yüksək qiymətləndirilmişdir. **C.14**- 5; **C.15**- 337; **C.16**- 133.

**1258. Sumitomo** - yapon şirkəti. Əsasən qara və əlvan metallurgiya, elektrotexnika, elektro-energetika, aerokosmik texnika, kimya sənayesi, yüngül sənaye və digər sahələr üzrə fəaliyyət göstərir. **C.14**- 348-349; **C.15-** 50.

**1259. Sumqayıt** - Azərbaycanda şəhər. Bakıdan 35 km şimal-qərbdə, Xəzər dənizinin qərb sahilində yerləşir. Sahəsi 83 $km^2$, əhalisi 231,1 min nəfərdir. Əvvəllər kiçik yaşayış məntəqəsi olan Sumqayıt, 1938-ci ildə Bakı neft sənayesini elektrik enerjisi ilə təmin edəcək İstilik Elektrik stansiyasının tikintisi ilə şəhər tipli qəsəbəyə çevrildi və get-gedə Bakıdan sonra ölkəmizin ikinci sənaye şəhərinə çevrildi. Sənayesində kimya

və metallurgiya sahələri əsas yet tutur. **C.19-** 337-342; **C.27-** 39, 80, 81, 227, 299, 324; **C.28-** 374, 377, 388, 389.

**1260. Suraxanı** - Abşeron yarımadasında yaşayış məntəqəsi. XIX əsrin əvvəllərində Suraxanıda neft sənayesi yaranmış və inkişaf etmişdi. 1825-ci ildə Suraxanıda 15 ağ neft quyusu var idi. 1859-cu ildə Suraxanıda ilk neftayırma zavodu istifadəyə verilmişdi. 1878-1880-ci illərdə Bakı-Suraxanı dəmir yol xətti çəkilmişdi. **C.20-** 448 - 459.

**1261. Surət Hüseynov,** Hüseynov Surət Davud oğlu (d. 1959) - 1993-1994-cü illərdə Azərbaycan Respublikasının baş naziri olmuşdur. 1994-cü ilin oktyabrında Azərbaycanın müstəqilliyinə, suverenliyinə qarşı yönəlmiş çevriliş cəhdinə rəhbərlik etmişdir. **C.10-** 289, 319, 350, 351; **C.12-** 90, 91, 92, 95; **C.13-** 280; **C.14-** 208, 264; **C.15-** 18, 115; **C.18-** 204, 238, 239; **C.20-** 320; **C.21-** 87, 333; **C.22-** 211, 214, 282, 283; **C.23-** 84, 85, 86; **C.24** - 50; **C.25-** 82, 408, 409, 418, 419, 420, 423; **C.27-** 342, 343, 344; **C.28-** 273.

**1262. Suriya,** Suriya Ərəb Respublikası - Asiyada dövlət. Sahəsi 185,2 min km$^2$, əhalisi 14,8 milyon nəfərdir. İnzibati ərazisi 10 mühafazə (qubernatorluğa) və Dəməşq munisipalitetinə bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Xalq Şurasıdır. Paytaxtı Dəməşqdir. **C.26-** 338.

**1263. Supsa limanı** - Qara dəniz sahilində liman. 1996-cı il martın 8-də Bakıdan Supsa limanına neft kəmərinin çəkilməsinə dair beynəlxalq saziş imzalanmışdır. 1999-cu il aprelin 17-də Bakı-Supsa ixrac boru kəməri, Supsa yerüstü terminalı istifadəyə verilmişdir. Açılışda Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyəti iştirak etmişdi. **C.10-** 139, 327; **C.11-** 26, 197, 342; **C.12-** 37, 71; **C.13-** 117, 187; **C.14-** 24, 185, 226, 379, 395, 396, 419, 444; **C.15-** 233, 427, 450; **C.16-** 22, 137, 141, 150, 286, 325, 364, 390, 396, 397, 432, 436, 443; **C.18-** 116, 145, 156, 435; **C.27-** 128.

**1264. Suslov Mixail Andreyeviç** (1902-1982) - SSRİ-nin siyasi xadimi. 1947-ci ildən MK katibi, MK üzvü, Siyasi Büronun üzvü olmuşdur. Suslov sovet cəmiyyətinin inkişafının

mühüm ictimai-siyasi və ideya-nəzəri məsələlərinin işlənib hazırlanmasında mühüm rol oynamışdır. **C.19**- 434, 435; **C.24**-101; **C.27**- 307.

**1265. Süleyman Dəmirəl** (d.1924) - Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993-2000-ci illərdə Türkiyə Respublikasının Prezidenti olmuşdur. 1993-cü il mayın 16-dan isə dövlətə rəhbərlik etmiş Süleyman Dəmirəlin siyasi həyatının mənasını Türkiyəni iqtisadi cəhətdən dinamik inkişaf edən, demokratik dəyərlərə əsaslanan, Avropa ilə qovuşan bir dövlətə çevirmək əzmi təşkil etmişdir. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur. Süleyman Dəmirəl: "Türkiyə həmişə Azərbaycanın yanındadır, Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir, onun inkişaf etməsi üçün əlindən gələn hər bir yardımı göstərmişdir və göstərməkdə də davam edəcəkdir" kəlamına əbədi sadiq dövlət xadimidir.S.Dəmirəl Türkiyə-Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif edilmişdir. **C.10-** 21; **C.12-** 83, 381, 383; **C.13**- 55, 113, 312-313; **C.14**- 79, 114, 214, 218, 221, 240, 243-245, 247, 251, 254, 256-258, 261, 262, 263, 268, 272, 273, 274, 275, 276-279, 284; **C.15**- 16, 223, 226, 234, 296-299, 300-303, 304-309, 312, 385, 442-443; **C.16-** 19, 29-32, 132, 273; **C.17**- 48, 251-254, 279, 286, 287, 290, 383; **C.18**- 28, 35, 100-101, 111-113, 121, 125, 127, 138, 139, 142, 158, 160, 235, 371, 412; **C.19**-33-37, 42-43, 47, 48, 52, 53, 54, 55, 58, 62, 69-70, 73, 76, 77, 78, 80, 83, 87, 91, 92, 93, 95, 96, 97, 99-100, 105, 106, 108, 109, 117-118, 119, 186, 187, 188, 192, 193, 194, 195, 281, 343, 347, 350, 412; **C.20**- 11-12, 198, 199, 214, 221, 225, 239, 240, 241, 245-252, 257, 258, 266, 267-268, 271, 278, 287, 288, 296, 297, 305-308, 309-312, 313, 322, 334, 338, 339, 340, 341, 346, 347, 356, 357, 358, 359, 360, 361, 362, 363, 471; **C.21**- 6, 31, 190, 192, 218, 220, 372, 410; **C.22**- 81, 114, 188, 208, 209,

224, 225, 226, 227, 240, 244, 290, 291, 309-334, 389-390, 394, 400-401, 402-459; **C.23**- 6, 8, 10-14, 78, 114, 142, 143, 148, 159-160, 191, 198, 213, 230, 240-272, 297, 377-378, 386, 403, 408, 409, 410; **C.24**- 7, 157, 166-184, 231, 241, 261, 307, 362; **C.25-** 15, 23, 25, 53, 54, 159, 160, 161, 163, 168, 189, 200, 247, 422; **C.26-** 17, 145, 147-148, 149, 150, 154, 156-182, 183-192, 193-207, 210, 212, 216, 217, 218, 219, 228, 232, 234, 235, 236, 280, 285, 356, 359, 361, 363, 364, 365, 367, 368, 395, 397; **C.28**- 44, 57, 116, 186, 189, 232, 233.

**1266. Süleyman Ələsgərov,** Süleyman Əyyub oğlu Ələsgərov (1924-2000) - Azərbaycan bəstəkarı, dirijor, pedaqoq. Azərbaycan Respublikasının Xalq artisti. Ü.Hacıbəyov adına Respublika mükafatı laureatı. Müxtəlif musiqi janrlarında əsərləri var. S. Ələsgərovun yaradıcılığında operetta janrı əsas yer tutur. Əsərləri üçün musiqi dilinin sadəliyi, səlisliyi, forma aydınlığı səciyyəvidir. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.15**- 83, 385; **C.17**- 191; **C.19**- 197-198, 259, 272; **C.27**- 66.

**1267. Süleyman Rəhimov,** Süleyman Hüseyn oğlu Rəhimov (1900-1983) - görkəmli Azərbaycan yazıçısı, ictimai xadim. Azərbaycanın Xalq yazıçısı. Sosialist Əməyi Qəhrəmanı. Onun əsərlərində Azərbaycan xalqının tam birəsrlik tarixi öz əksini tapmışdır. Azərbaycan Yazıçılar Birliyinin sədri olmuşdur. **C.13**- 32, 85, 105, 125; **C.15**- 228, 328; **C.17**- 163; **C.21**- 103.

**1268. Süleyman Rüstəm,** Süleyman Əliabbas oğlu Rüstəmzadə (1906-1989) - şair, dramaturq, ictimai xadim. Azərbaycanın Xalq şairi, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Respublikası Dövlət mükafatları laureatı. **C.10**- 199; **C.13**- 29, 32, 70, 84, 105, 125; **C.15**- 97-104, 228, 328, 332; **C.17**- 190; **C.23**- 321; **C.24**- 383; **C.27**- 323.

**1269. Süleyman Sani Axundov,** Süleyman Rzaqulubəy oğlu Axundov (1875-1939) - Azərbaycan yazıçısı. 1922-ci ildə Azərbaycan Ədib və Şairlər İttifaqının ilk sədri seçilmişdir. Əsərlərində tamahkarlıq, köhnə adət və ənənələr tənqid olun-

muşdur. Uşaqlar üçün gözəl hekayə və nağıllar yazmışdır. **C.17**- 344.

**1270. Süleyman Tatlıyev,** Süleyman Bayram oğlu Tatlıyev (1925) - Azərbaycan Ticarət-Sənaye Palatasının prezidenti. Müxtəlif illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri vəzifələrində işləmişdir. **C.20**- 341.

**1271. Süleymenov Oljas Öməroviç** (d.1936) - qazax şairi. Ümumittifaq Lenin komsomolu mükafatı laureatı. "Aziya" əsəri ilə məşhurlaşmışdır. Hazırda Qazaxıstan Respublikasının YUNES KO-da daimi nümayəndəsidir. **C.10-** 117; **C.19**- 233-239.

**1272. "Sülh naminə tərəfdaşlıq"** proqramı - NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi, 1994-cü il yanvarın 10-11-də NATO şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir. Azərbaycan Prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Xavyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. **C.11-** 144, 184. **C.12-** 29, 57, 73, 146, 291; **C.15-** 190, 193; **C.23**- 316, 322; **C.25-** 100, 167, 300, 373, 386; **C.26-** 403; **C.27**- 27; **C.28**- 160.

**1273. Sülhəddin Əkbərov,** Sülhəddin Bayram oğlu Əkbərov (d.1960) - 1992-1993-cü illərdə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi nazirinin müavini olmuşdur. **C.10-** 350.

**1274. Sviqun Semyon Kuzmiç** (1916-1982) - ordu generalı. 1963-1967-ci illərdə Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsində çalışmışdır. Sonrakı illərdə SSRİ

Dövlət Təhlükəsizliyi Komitəsinin birinci müavini olmuşdur. **C.12** 340.

**1275. Syanqan** (Honkonq) - Çinin cənub-şərqində ərazi. Szyulun yarımadasının çox hissəsini və onun yaxınlığındakı bir neçə kiçik adanı əhatə edir. 1842-ci və 1945-ci illərdə B.Britaniya tərəfindən işğal olunmuşdur. 1997-ci ildə isə Çin Xalq Respublikasına qaytarılmışdır. **C.10-** 232, 327.

**1276. Syerra-Leone,** Syerra - Leone Respublikası - Qərbi Afrikada dövlət. Sahəsi 72,3 min $km^2$, əhalisi 4,6 milyon nəfərdir. İnzibati ərazisi 3 əyalətə və qərb vilayətinə bölünür. Millətlər Birliyinə daxildir. Dövlət başçısı Prezident, qanun-verici orqanı - Nümayəndələr Palatasidır. Paytaxtı Fritaundur. **C.27-** 26.

**1277. Şah Abbas I** (1571-1629) - İran şahı. Səfəvilər sülaləsindəndir. Şah Abbas nizami ordu yaratmış, vergi işini qaydaya salmış, geniş tikinti işləri aparmışdı. O, Bəhreyn adalarını (1601-1602), Qəndəhar (1621), Hömrüz adalarını (1622), İraqı (1623-1638) tutmuşdu. I Şah Abbas Avropa ölkələri ilə siyasi və ticarət əlaqələri yaratmışdı. **C.22-** 383; **C.22-** 383; **C.25-** 312.

**1278. Şah İsmayıl Xətai** (1487-1524) - Azərbaycan Səfəvilər dövlətinin banisi. Dövlət xadimi və sərkərdə, şair. 1501-ci ilin payrzında Təbrizə daxil olan I Şah İsmayıl özünü Şah elan etdi. Bununla da paytaxtı Təbriz olmaqla Azərbaycan Səfəvilər dövlətinin əsası qoyuldu. I Şah İsmayılın dövründə Səfəvilər dövləti Yaxın Şərqin ən qüdrətli dövlətlərindən birinə çevrildi.I Şah İsmayıl "Xətai" təxəllüsü ilə Azərbaycan, fars və ərəb dillərində şeirlər yazmışdır. **C.14-** 5; **C.15-** 184; **C.17-** 342; **C.25-** 311.

**1279. Şahbuz rayonu -** Naxçıvan MR-də inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. 1963-cü ildə ləğv edilərək ərazisi əvvəl Naxçıvana (1978) sonra Babək rayonuna verilmişdi. 1965-ci ildən yenidən müstəqil rayondur. Sahəsi 0,82 min $km^2$, əhalisi 21500 nəfərdir. **C.22-** 183.

**1280. Şahin Əliyev**, Şahin Məhərrəmoğlu Əliyev (d. 1960) -hüquq elmləri namizədi. 1991-ci ildən Prezidentin İcra Aparatının qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri. **C.16**- 240.

**1281. Şahzadə Diana,** Diana Frensis Spenser (1961-1997)-1981-ci ildə Yels şahzadəsi Çarlza ərə getmiş və ictimai fəaliyyətlə məşğul olmuşdur. Yiyəsiz uşaqların aclığına və QİÇS-ə qarşı mübarizə proqramlarına, torpaqların minalardan təmizlənməsi ilə məşğul olan təşkilata rəhbərlik etmişdir. 1997-ci il avqustın 31-də avtomobil qəzasında həlak olmuşdur. **C.12**-- 131, 132.

**1282. Şaqal Mark Zaxaroviç** (1887-1985) - görkəmli fransız boyakarı və rəssamı. 1922-ci ilə qədər Rusiyada yaşamış, sonra isə Fransaya mühacirət etmişdir. Modernizmin ən güclü nümayəndələrindəndir. **C.16**- 65.

**1283. Şarl de Qoll** (1890-1970) - Fransanın görkəmli dövlət, hərbi və siyasi xadimi. İkinci Dünya müharibəsinə qədər müxtəlif hərbi rəhbər vəzifələrdə olmuşdur. Alman faşist qoşunları Parisə daxil olduqdan (14 iyun 1940) sonra B.Britaniyaya getmiş, Londonda "Azad Fransa" hərəkatının əsasını qoymuşdur. 1943-cü ilin noyabrından Fransa Milli Azadlıq Komitəsinin, 1944-cü ilin iyunundan isə Fransa Respublikası Müvəqqəti hökumətinin sədri olmuşdur. Fransada prezidentlik rejimi yarada bilmədiyindən istefaya çıxmışdı. 1958-ci ildə Əlcəzairdəki hərbi qiyamla yaranan siyasi böhranla əlaqədar Fransa parlamenti (1958) Şarl de Qollu yenidən hakimiyyətə gətirdi. Şarl de Qoll iki dəfə (1958,1965) Fransa Respublikasının Prezidenti seçilmişdir. **C.20**- 30; **C.21**- 50, 54; **C.26-** 200, 224, 229.

**1284. Şaymiyev Mintemir Şaripoviç** (d.l937) - Rusiya dövlət xadimi. 1985-1989-cu illərdə Tatarıstan MSSR Ali Sovetinin sədri, 1991-ci ildən Tatarıstan Respublikasının Prezidentidir. **C.17**- 104; **C.19**- 69.

**1285. Şekspir,** Vilyam (1564-1616) - dahi ingilis dramaturqu və şairi. Şekspir 37 pyesin, komediyaların, tarixi dram-

ların, faciələrin, poemaların, çoxlu sonetlərin müəllifidir. Dünya dramaturgiyasında faciənəvisliyin inkişafında Şekspirin əsərləri yeni mərhələdir. "Hamlet", "Otello", "Makbet", "Kral Lir", "Antoni və Kleopatra" faciələri dünya mədəniyyəti xəzinəsinə daxil olmuş, bütün xalqların sərvətinə çevrilmiş, müxtəlif dillərə tərcümə olunmuş, milli səhnələrdə təkrar-təkrar tamaşaya qoyulmuş, ekranlaşdırılmışdır. **C.13-** 172, 173, 175**;** **C.16**- 320-321; **C.26-** 314; **C.28**- 315.

**1286. Şell** - infrastrukturların formalaşdırılmasında, neft kəmərlərinin çəkilməsində, onların layihələrinin həyata keçirilməsində fəaliyyət göstərən şirkət. Dünyanın 100-dən çox ölkəsində şirkətləri var. Bu şirkətlər 50-dən çox ölkədə geoloji kəşfiyyat işləri aparır. Dünyanın 34 ölkəsində 53 neftayırma zavodu tam və ya qismən "Şell"ə məxsusdur. Şirkət respublikamızla sıx əlaqə saxlayır. Bakıda YUNİSEF-in keçirdiyi tədbirə sponsorluq etmişdir. "Şell" şirkəti Azərbaycanla uzunmüddətli əlaqələr qurmaq və ölkəmizə külli miqdarda sərmayə qoymaq niyyətində olduğunu bildirmişdir. **C.11-** 303; **C.16**- 299-300, 371, 379, 380, 477, 478; **C.18**- 415, 416; **C.25-** 184, 185; **C.28-** 42.

**1287. Şengelaya Nikolay Mixayloviç** (1903-1943) - gürcü rejissoru, kinodramaturq. SSRİ Dövlət mükafatı laureatı. Şengelayanın yaratdığı "Eliso" filmi gürcü səssiz kinosunun görkəmli nümunələrindəndir. **C.15**- 253.

**1288. Şenqelaya Eldar Nikolayeviç** (d.l933) - gürcü kinorejissoru, SSRİ xalq artisti, "Qeyri-adi sərgi" (1969), "Qəribə adamlar" (1974), "Ögey ana Samanişvili" (1978) kimi məşhur filmləri çəkmişdir. **C.22**- 59.

**1289. Şevardnadze Eduard Ambrosyeviç** (d.1928) - Gürcüstanın siyasi və dövlət xadimi. 1985-1990-cı illərdə SSRİ Xarici İşlər naziri, 1992-2003-cü illərdə Gürcüstanın Prezidenti vəzifəsində olmuşdur. **C.12-** 133, 289, 290, 374; **C.13**- 147; **C.14**- 167-188, 228, 277, 281, 298; **C.15**- 223, 224, 234, 279, 280, 282, 283, 284-285, 286-295, 297, 343, 347, 349, 352, 362, 264, 365; **C.17**- 91-93, 104, 109, 275, 404; **C.18**- 5-10; **C.19-**

121, 182, 241, 246, 395-397, 418, 419, 426, 427; **C.20**- 15-22, 23-24, 34, 93, 95, 129, 423, 445; **C.21**- 362, 363, 370, 376, 382, 404, 410; **C.22**- 38, 120; **C.23**- 148, 150-151, 225; **C.25-** 27, 51, 55, 56, 189, 214, 247, 248, 286, 385; **C.26-** 13-77, 78, 79, 208, 368, 395; **C.27**- 142, 260, 288.

**1290. Şevron şirkəti** - dünyanın ən iri beynəlxalq enerji və kimya şirkətlərindən biri. Baş ofisi Kaliforniyanın San-Fransisko şəhərində yerləşir. Neft və kimya sənayesinin bütün sahələrində iş görən "Şevron"un dünyanın 100-ə qədər ölkəsində 450 filialı, tərəfdaşı və birgə müəssisəsi fəaliyyət göstərir. Dünyanın müxtəlif ölkələrində 41 000 işçisi var. 1879-cu ildə "Pasifik Kost Oyl Kompani" adı ilə fəaliyyətə başlamışdır. 1996-cı ildə gəliri 43 milyard dollara yaxın olub. "Şevron" təbii qaz və maye enerji daşıyıcıları istehsalında dünyada birincilər sırasındadır. ABŞ-ın ən iri neft emalçılarından olan "Şevron"un ABŞ-da 6, xaricdə 2 neft emalı zavodu var. Bundan əlavə "Şevron"un "Kalteks" filialının dünyanın digər 13 neft emalı zavodunda payı var. O, həmçinin ABŞ-da ən iri yanacaq satıcısıdır. ABŞ, Kanada və İngiltərədə 8400 satış məntəqəsində emal etdiyi məhsulları satır. **C.10-** 139; **C.11-** 27, 72, 123, 149, 196, 212, 223, 236, 245, 247, 256, 383, 400; **C.12-** 124, 191; **C.13**- 192; **C.14**- 420; **C.17**- 42; **C.19**- 203-205; **C.20**- 70, 297- 300; **C.21**- 91; **C.24**- 358, 359, 371; **C.25-** 75, 122, 147, 162; **C.26**- 30; **C.28**- 41, 55.

**1291. Şevron-Tengiz** - Qazaxıstanın və bir sıra məşhur neft şirkətlərinin təşkil etdiyi neft konsorsiumu ("Şevron-Teksako", "Eksson-Mobil", "Likarko") 1995-ci ildə təşkil olunmuşdur. Qazaxıstanın Tengiz neft yatağında neftin kəşfiyyatı və emalı ilə məşğul olur. **C.14**- 63, 67.

**1292. Şeyx Şamil** (1797-1871) - Dağıstan və Çeçenistanda çar müstəmləkəçilərinə qarşı mübarizənin rəhbəri, imamlığın başçısı. 1835-ci ilin yayında imam seçilmiş və o vaxtdan dağlıların azadlıq mübarizəsinə başçılıq etmişdi. Təşkilatçılıq bacarığı və iradəsi sayəsində Şamil dağlıları birləşdirə, yerli feodalları özünə tabe edə bilmiş və hərbi teokratik dövlət -

imamlıq yaratmışdı. 1870-ci ildə Məkkəyə ziyarətə gedərkən, o, Məkkəyə çatmamış Mədinədə vəfat etmişdir. **C.12**- 365-366; **C.13**- 139-149; **C.15** - 333.

**1293. Şəfiqə Məmmədova,** Şəfiqə Haşım qızı Məmmədova (d.1945) - aktrisa. Azərbaycan Respublikasının Xalq artisti. SSRİ və Azərbaycan Respublikası Dövlət mükafatları laureatı. **C.10-** 56; **C.16**- 320; **C.25-** 313; **C.26-** 96-97.

**1294. Şəhidlər Xiyabanı -** Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də Sovet Ordusunun hücumu zamanı həlak olmuş onlarla adam "Dağüstü park"ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan "Şəhidlər Xiyabanı" adlanır. Xiyabanda eyni zamanda Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda qəhrəmancasına həlak olanlar da dəfn edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl-abidə qoyulmuşdur. **C.10-** 78; **C.17**- 45; **C.19**- 50, 51; **C.23**- 125; **C.24**- 88, 197, 224, 246, 254, 319; **C.26-** 191; **C.27**- 105; **C.28**- 25, 352.

**1295. Şəhriyar,** Məhəmmədhüseyn Hacı Mirağa oğlu (1906-1988) - görkəmli Azərbaycan şairi, XX əsr Cənubi Azərbaycan və İran poeziyasının ən böyük nümayəndələrindən biri. Azərbaycan və fars dillərində yazmışdır. Şairin "Heydərbabaya salam" poeması təkcə onun yaradıcılığında deyil, eləcə də bütün müasir Cənubi Azərbaycan poeziyasında yeni mərhələdir. Burada Cənubi Azərbaycan təbiətinin gözəllikləri, xalqın adət və ənənələri, ana yurduna tükənməz oğul məhəbbəti əlvan poetik boyalarla, canlı xalq dilində tərənnüm edilir. Poemada doğma yurdu Azərbaycanın 2-yə bölünməsini böyük ürək ağrısı ilə nəql edir. Poemanın ən böyük məziyyəti onun xəlqiliyindədir. Poema Cənubi Azərbaycanda anadilli poeziyaya geniş yol açmışdır. Şəhriyarın yaradıcılığı bütün Türk dünyasında böyük şöhrət qazanmışdır. **C.15**- 101, 152, 184-185; **C.21**- 116, 120, 121, 129, 177, 178, 179.

**1296. Şəmkir rayonu** (1930-1991-ci illərdə Şamxor rayonu) - Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Kiçik Qafqazın şimal-şərq yamacında, Gəncə-Qazax düzənliyində və Acmohur ön dağlığında yerləşir. Sahəsi 1656 8 km$^2$, əhalisi 183,5 min nəfərdir. **C.27**- 274, 275, 277, 278-292, 302, 356.

**1297. Şəmsəddin Eldəgəz** (?-1174, 1175) - Eldəgəz hökmdarı (1136-1175), Azərbaycan Atabəyləri - Eldəgəzlər sülaləsinin və Eldəgəzlər dövlətinin banisi, görkəmli dövlət xadimi, sərkərdə. Dərbəndin qul bazarından satın alınmış Ş.Eldəgəz bacarıq və qabiliyyəti sayəsində sürətlə yüksələrək 1132-ci ildə əmir titulu aldı və Səlcuqilər dövlətinin siyasi həyatında mühüm rol oynamağa başladı. Ayrı-ayrı əyalətlərin hakimi olan Səlcuq əmirlərini özündən asılı vəziyyətə salan Ş.Eldəgəzin dövründə Azərbaycanın şimal və cənub torpaqları (Şirvandan başqa) vahid dövlət tərkibində yenidən birləşdirildi. Bununla da Eldəgəzlər dövlətinin təşəkkülü başa çatdı və o, Yaxın Şərqin ən qüdrətli dövlətinə çevrildi. **C.22**- 269.

**1298. Şəmsəddin Xanbabayev**, Şəmsəddin Hüseynqulu oğlu Xanbabayev (d.1939) - 1992-2000-ci illərdə Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsində çalışmışdır. **C.10-** 395.

**1299. Şəmsi Bədəlbəyli,** Şəmsi Bədəlbəy oğlu Bədəlbəyli (1911-1986) - Azərbaycan rejissoru, Azərbaycan Respublikasının Xalq artisti. Fərhad Bədəlbəylinin atası. Müxtəlif illərdə Azərbaycan Milli Dram teatrında bədii rəhbər, direktor və quruluşçu rejissor, Azərbaycan Dövlət Musiqili Komediya Teatrında bədii rəhbər və direktor işləmişdir. Uzun illər Azərbaycan Teatr Cəmiyyətinin sədri olmuşdur. **C.17**- 190.

**1300. Şəmsi Rəhimov,** Şəmsi Nuru oğlu Rəhimov (1924-1994) - polkovnik. Azərbaycan Respublikası Prezidenti yanında Xüsusi İdarənin rəisi olmuşdur. 1994-cü ildə Azərbaycanın dövlətçiliyinə və müstəqilliyinə düşmən qüvvələr tərəfindən qətlə yetirilmişdir. **C.10-** 351; **C.20-** 319.

**1301. Şərəf Rəşidov**, Şərəf Rəşidoviç Rəşidov (1917-1983) - Özbəkistanın partiya və dövlət xadimi, yazıçı. İki dəfə Sosialist Əməyi Qəhrəmanı. 1959-1983-cü illərdə Özbəkistan KP MK-nın birinci katibi olmuşdur. **C.10**- 210; **C.19**- 236; **C.22**- 66; **C.23**- 100; **C.28**- 90.

**1302. "Şərqi-Rus"** - Tiflisdə Azərbaycan dilində həftədə üç dəfə çıxmış ictimai-siyasi, iqtisadi, elmi, ədəbi qəzet. İlk nömrəsi 1903-cü il martın 30-da, sonuncusu 1905-ci il yanvarın 15-də çıxmışdır. Naşiri və redaktoru M.Şahtaxtlı, son 45 nömrəsinin redaktoru isə C.Məmmədquluzadə idi. **C.26-** 89.

**1303. Şərur** - Naxçıvan MR-da şəhər. Naxçıvan şəhərindən 66 km şimal-qərbdə, Şərur düzündədir. Əhalisi 6315 nəfərdir. Şərurun salındığı tarix hələlik dəqiq müəyyənləşdirilməsə də, buranın hələ eradan əvvəl məskunlaşdırıldığı məlumdur. **C.21**- 83; **C.22**- 207.

**1304. Şiller İohann Kristof** Fridrix (1759-1805) - alman şairi, dramaturq, incəsənət nəzəriyyəçisi, tarixçi. Almaniyada maarifçiliyin görkəmli nümayəndəsi, yeni alman ədəbiyyatının banilərindəndir.

Şiller yaradıcılığı dünya dramaturgiyasının inkişafına güclü təsir göstərmişdir. **C.28**- 315.

**1305. Şimali Atlantika Müqaviləsi** Təşkilatı - bax, NATO.

**1306. Şimali Kipr Cümhuriyyəti** - 1974-cü ildə Yunanıstanda hakimiyyətə gəlmiş hərbi xunta Kiprin yunan irticaçıları ilə birlikdə Kipri Yunanıstana birləşdirmək məqsədilə ölkədə hərbi çevriliş etdilər və Prezident Makariosu hakimiyyətdən uzaqlaşdırdılar. Bundan narahat olan Türkiyə Respublikası Kiprin türk icmasını müdafiə etmək məqsədilə oraya hərbi qüvvələr yeritdi və türk icması yaşayan ərazini yunan irticaçılarından təmizlədi. 1975-ci ildə Türkiyə-Kipr administrasiyası bu ərazidə federativ türk dövləti - Kipr Respublikasını elan etdilər. 1983-cü ildə bu dövlətin qanunverici orqanı Şimali Kipr Türk dövləti (ŞKTR) - Kıbrıs elan etdi. **C.23**- 241, 255, 256, 271.

**1307. Şimali Osetiya (Alaniya)** - Rusiya Federasiyası tərkibində respublika. Sahəsi 8 min km$^2$, əhalisi 663,2 min nəfərdir. Paytaxtı Vladiqafqaz şəhəridir. **C.23**- 414, 419, 420.

**1308. Şirvanşahlar** - Şirvanşahlar hökmdarları sülaləsi. Ərəb işğalına qədərki Şirvan hakimləri ilk Şirvanşahlar adlanır. IX əsrdən hakimiyyət sürmüş Şirvanşahların isə elmi ədəbiyyatda son zamanlaradək Məzyədilər, Kəsranilər və Dərbəndilər adı ilə ayrı-ayn sülalələrdən ibarət olduğu göstərilirdi. Son tədqiqatlar hər üç sülalənin vahid xanədana mənsub olduğunu sübut edir.

Şirvanşahlar ərazisi, əsasən Şirvan tarixi vilayətini, ayrı-ayrı vaxtlarda isə qərbdə Şəki-Gəncə, cənubda Beyləqan əyalətlərini, şimalda isə Dərbənd və Xəzər dənizi sahilindəki əraziləri əhatə edirdi. Paytaxtı Şamaxı (bir müddət Bakı) olmuşdur. **C.21**- 131.

**1309. Şirvanşahlar sarayı** - Azərbaycan memarlıq kompleksi, Şirvan-Abşeron memarlıq məktəbinin görkəmli abidəsi. Bakının İçərişəhər hissəsindədir. Bakının XV əsrdə Şirvanşahlar dövlətinin paytaxtına çevrilməsilə əlaqədar tikilmişdir. 1420-1460-cı illər arasında salınmış Şirvanşahlar sarayı ansamblının binaları yerin relyefinə uyğun olaraq inşa edilmişdir. Ərazisinin ən hündür yerində olan Yuxarı həyətdə saray binası (1420-ci illər) və ona bitişik Divanxana (1450-ci illər), Aşağı həyətdə türbə (1435) və minarəli Şah məscidi (1442), Yuxarı həyətin yaxınlığında Seyid Yəhya Cəlaləddin Bakuvinin türbəsi (1450-ci illər) və ona bitişik kiçik məscid yerləşir. Türbə olan həyətin giriş baştağı Şimal darvazası (1585) tikilmişdir. Şirvanşahlar sarayı ansamblının yaxınlığında hamam, “Şah kəhrizi”nin qurtaracağında 500 min litr su tutan ovdan qalmışdır. **C.15**- 79-94.

**1310. Şirye Vera Karlovna** (d.1915) - Azərbaycan Respublikasının Xalq artisti. 1938-ci ildən Azərbaycan Dövlət Rus Dram Teatrının aktrisasıdır. Şiryenin yaradıcılığı üçün obrazın daxili aləmini aça bilmək məharəti, dramatizm, eyni zamanda qrotesk və incə yumorla səciyyələnir. Şirye bədii qiraət ustası

kimi də tanınmışdır. Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif olunmuşdur. **C.24**- 382-383; **C.26-** 444.

**1311. Şotlandiya** - Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının inzibati-siyasi hissəsi. Sahəsi 78,8 min $km^2$, əhalisi 5,2 milyon nəfərdir. Əsas şəhəri Edinburqdur. **C.16**- 446; **C.28**- 52-56.

**1312. Şovinizm və millətçilik** - a) Şovinizm millətçiliyin ifrat, mürtəce formalarından biridir. Şovinizm siyasəti guya "ikinci dərəcəli" millət və irqlər üzərində hökmranlıq etməli olan bir millətin müstəsnalığını təbliğ edir. b) Millətçilik milləti ictimai birliyin ali fövqəltarixi və fövqəlsinfi forması kimi izah edir, milli müstəsnalıq ideyası irəli sürür. Millətçilik bəzən rasizmlə yaxınlaşır, daxili və dövlətlərarası konfliktlərə çevrilir. **C.20**- 124.

**1313. Şöhrət Vəkilov,** Şöhrət Musa oğlu Vəkilov (d. 1957) - iqtisadçı. 1994-1999-cu ilə qədər. Azərbaycan Respublikası Baş Dövlət Vergi Müfəttişliyinin rəisi olmuşdur. **C.18**- 426.

**1314. Şövkət Ələkbərova,** Şövkət Feyzulla qızı Ələkbərova (1922-1993) - Azərbaycan müğənnisi. Məlahətli, yumşaq tembrli səsi olan Şövkət xanımın ifaçılığı üçün yüksək vokal mədəniyyəti, dərin emosionallıq və lirizm səciyyəvi idi. Məharətli gəzişmələr, improvizasiya ustalığı onun muğam yaradıcılığının əsas məziyyətlərindəndir. Azərbaycan Respublikasının Xalq artisti. **C.25-** 313.

**1315. Şövkət Məmmədova,** Şövkət Həsən qızı Məmmədova (1897-1981) - Azərbaycan müğənnisi, pedaqoq, musiqi xadimi, ilk azərbaycanlı professional qadın müğənni. SSRİ Xalq artisti. İki dəfə Milanda (1911,1927-1929) məşhur Qərb müğənnilərindən dərs almışdır. Güclü musiqi duyumu və yüksək vokal mədəniyyətinə, məlahətli, axıcı səsə malik olan Ş.Məmmədovanın ifası, həmçinin aktyorluq məharəti ilə fərqlənmişdir. O, Azərbaycan opera səhnəsində rus və dünya vokal sənətinin ən yaxşı ənənələrini milli musiqi xüsusiyyətləri ilə əlaqələndirmişdir. **C.17**- 191; **C.25-** 313.

**1316. Şövkət Səlimova,** Şövkət Şahbaz qızı Səlimova (1920-1999) - ilk azərbaycanlı qadın gəmi kapitanı. Azərbaycan Respublikasının Əməkdar iqtisadçısı. Səlimova əvvəlcə gəmi kapitanı köməkçisi, sonra isə kapitan vəzifəsində uzaq dənizlərə səfər etmişdir. Böyük Vətən müharibəsi dövründə Səlimovanın başçılıq etdiyi gəmi heyəti Xəzər dənizi vasitəsilə cəbhəni hərbi ləvazimat və yanacaqla təmin edirdi. **C.25-** 313.

**1317. Şri-Lanka,** Şri - Lanka Sosialist Demokratik Respublikası - Cənubi Asiyada dövlət. Millətlər Birliyinə daxildir. Sahəsi 65,6 min km$^2$, əhalisi 18,3 milyon nəfərdir. İnzibati ərazisi 25 əyalətə bölünür. Dövlət və hökumət başçısı Prezident, qanunverici orqanı Parlamentdir. Paytaxtı rəsmi olaraq Cayavar , faktiki isə Kolombodur. **C.25-** 8, 196.

**1318. Şuntlama** - tibbdə işemiya ürək xəstəliyi zamanı geniş istifadə edilən aorta koronar şuntlama cərrahiyyə əməliyyatı. Bu zaman aorta ilə vena arteriyasının aşağı hissəsinin daralan yerinə, yaxud okklyuziyaya şunt qoyulur. **C.20**- 166.

**1319. Şuşa –** Dağlıq Qarabağın ən böyük şəhəri. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Daglıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. Əhalisinin 90% azərbaycanlı idi.

1992-ci ildə erməni işğalçıları Azərbaycanın basılmaz qalası Şuşanı işğal etdilər. Hazırda Şuşa yadellilərin tapdağı altındadır. **C.21**- 18, 175; **C.23**- 105, 187; **C.27**- 221, 314; **C.28**- 329.

**1320. Tağı Tağıyev**, Tağı Əzizağa oğlu Tağıyev (1917-1993) - Azərbaycan rəssamı, müasir Azərbaycan boyakarlığının yaradıcılarından biri. Portret ustası kimi daha məşhurdur. Azərbaycan Respublikası Əməkdar incəsənət xadimi, Azərbaycanın Xalq rəssamı olmuşdur. **C.16**- 474.

**1321. Tahir Salahov,** Tahir Teymur oğlu Salahov (d. 1928) - görkəmli Azərbaycan boyakarı və qrafiki. Azərbaycan

və SSRİ-nin Xalq rəssamı. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Rusiya Rəssamlıq Akademiyasının həqiqi üzvü. 1973-ildən SSRİ Rəssamlar İttifaqı İdarə Heyətinin 1-ci katibi olmuşdur. Salahovun yaradıcılığı mövzu və janr zənginliyi, bədii forma əlvanlığı, estetik kamilliyi ilə səciyyələnir. Bu baxımdan muasir portret sənətinin ən kamil nümunələrindən olan "Bəstəkar Qara Qarayev"in portreti, eləcə də monumental divar rəsmini xatırladan "Abşeron qadınları" əsərləri xüsuislə fərqlənir. Azərbaycan Respublikası və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif olunmuşdur. **C.18**- 278-279; **C.19**- 131; **C.21-** 74; **C.27**- 165.

**1322. Tailand,** Tailand Krallığı - Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 514 min km$^2$, əhalisi 60 milyon nəfərdir. Dövlət başçısı Kraldır. Qanunverici orqanı ikipalatalı Milli Assambleyadır. İnzibati cəhətdən 73 çanqvata (əyalətə) bölünür. Paytaxtı Banqkok şəhəridir. **C.23**- 329.

**1323. Talbott Stroub** - ABŞ-ın dövlət xadimi. 1994-cü ilin fevralından ABŞ Dövlət katibinin müavini, 1997-ci ilin fevralından həm də Minsk konfransının həmsədri olmuşdur. **C.14**- 445; **C.22**- 152, 395.

**1324. Talışxanovlar sülaləsi** - Talışxanovlar nəslindən olan hərbçilər. Bunlardan Talış xanı və Talış qoşununun sərdarı Mir Mustafa xan Talışxanov (?-26.07.1814) general-leytenant; Mir Kazımbəy Talışxanov (1854-1938) general-leytenant; Əsəd bəy Talışxanov (7-1919) general-mayor rübtəsinə qədər yüksəlmişlər. **C.16**- 83.

**1325. Tallin** - Estoniyanın paytaxtı. 1219-1977-ci illərdə rəsmi adı Revel idi. XIII-XVI əsrlərdə əvvəlcə Danimarkanın sonra isə İsveçin hakimiyyəti altında olmuşdur. 1710-cu ildən isə Rusiyaya birləşdirilmişdi. 1918-ci ildən Estoniya Respublikasının paytaxtıdır. **C.25-** 226, 227, 235.

**1326. Tamara İliniçna Sinyavskaya,** (d.1943) - məhşur rus müğənnisi. Moskva Böyük teatrının solisti. Azərbaycan və SSRİ Xalq artisti. **C.12**- 355, 356, 357, 358, 359 **C.21**- 71-77

**1327. Tamilla Şirəliyeva,** Tamilla Xudadat qızı Şirəliyeva (d.1946) - Azərbaycan balet artisti. Azərbaycan Respublikasının Xalq artisti. SSRİ Dövlət mükafatı laureatı. **C.15**- 368; **C.17**- 192.

**1328. Tansu Çillər** (d.1946) - Türkiyənin siyasi və dövlət xadimi. 1991-ci ildən TBMM-nin üzvü, 1993-cü ildən isə "Doğru yol" partiyasının sədri, 1993-1995-ci illərdə Türkiyə Cümhuriyyətinin Baş naziri olmuşdur. **C.14**- 216; **C.25-** 227.

**1329. Tanzaniya,** Birləşmiş Tanzaniya Respublikası - Şərqi Afrikada dövlət. Sahəsi 945,1 km$^2$, əhalisi 29,0 milyon nəfərdir. İnzibati ərazisi 25 vilayətə bölünür. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı Prezidentdir. Qanunverici orqanı Milli Məclisdir. Paytaxtı Dolomadır. **C.26-** 375.

**1330. Tarkovski Andrey Arsenyeviç** (1932-1986) - böyük rus kinorejissoru. Lenin mükafatı laureatı. **C.13** - 23.

**1331. Tarya Holonen** (d.1943) - Finlandiyanın ictimai və siyasi xadimi. Müxtəlif illərdə - ədliyyə, sosial müdafiə və xarici işlər nazirliklərinə başçılıq etmişdir. 2000-ci ildən Finlandiya Respublikasının Prezidentidir. **C.12**- 286; **C.25-** 10.

**1332. TASİS** - 1991-ci ildə Avropa Şurası tərəfindən MDB dövlətlərinə texniki cəhətdən kömək etmək üçün yaradılan proqram. Proqram 2 hissədən - hər bir ölkəyə, o cümlədən Azərbaycana, region ölkələrinə texniki köməkdən ibarətdir.

Azərbaycan Respublikası TASİS proqramına 1992-ci ildə daxil olmuşdur. **C.15**- 190, 204; **C.16**- 157; **C.17**- 266; **C.18**- 89-92; **C.20**- 81, 329; **C.23**- 164.

**1333. Tatarıstan,** Tatarıstan Respublikası - Rusiya Federasiyası tərkibində federal vilayət. Sahəsi 68 min km$^2$, əhalisi 3773 8 min nəfərdir. **C.25-** 261, 387.

**1334. Tayvan -** Cənub-Şərqi Çində ərazi. Sahəsi 36 min km$^2$, əhalisi 21 milyon nəfərdir. İnzibati ərazisi 16 qraflığa (qəzaya), 7 şəhər munisi palitetinə bölünür. Tayvanın başçısı Prezident, nümayəndələr orqanı - Nümayəndələr Məclisi və Qanunverici Yuandır (Şura). Paytaxtı Taybeydir. **C.28**- 296, 305.

**1335. Texas** - ABŞ-ın cənubunda stat. Sahəsi 691,2 min km$^2$, əhalisi 19 milyon nəfərdir. Texas sənaye-aqrar ştatıdır. İnzibati mərkəzi Ostin şəhəridir. **C.17**- 123, 128.

**1336. Texas uşaq xəstəxanası** - məşhur "Beylr" tibb kollecinin nəzdində yaradılmış xəstəxana. 1954-cü ildən fəaliyyətə başlamışdır. 456 çarpayısı, olan xəstəxanada əldə olunan təcrübə telerabitə vasitəsilə dünyanın bir çox ölkələrinə operativ şəkildə çatdırılır. Xəstəxanada, həmçinin, tədris işləri aparılır. **C.11-** 312.

**1337. Tehran -** İranın paytaxtı. Ölkənin əsas siyasi, iqtisadi, ticarət-maliyyə və mədəniyyət mərkəzi. Mərkəz ostanının inzibati mərkəzi. Tehranın əsası IX əsrdə Rey şəhərinin yaxınlığında qoyulmuşdur. XIII əsrdə monqollar Reyi dağıtdıqdan sonra Tehran böyüməyə başladı. 1785-ci ildə İranın paytaxtı elan edilmişdir. **C.13**- 309, 312-386, 426; **C.14**- 222, 224, 225, 235, 236; **C.19**- 141.

**1338. Teksako** - neft şirkəti. Fəaliyyətini 1902-ci ildən Spinditor Hilldə (ABŞ,Texas ştatı) ilkin neft hasil olan vaxtdan başlamışdır. O vaxtdan genişlənərək "Teksako" şirkəti dünyanın ən nəhəng beynəlxalq enerji şirkəti sırasına çıxmışdır. Dünyanın təxminən 150 ölkəsində neft və qaz sənayesi sahəsində fəaliyyət göstərir. İllik gəlirini 30 milyarddan çox ABŞ dolları təşkil edir. **C.11-** 300; **C.16**- 477, 478; **C.25-** 122; **C.28**- 44.

**1339. Telman Adıgözəlov**, Telman Abbasqulu oğlu (1953-2010) - aktyor. Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan Milli Dram Teatrının aktyoru olmuşdur. Komik aktyor kimi tanınmışdır. **C.28**- 319, 320.

**1340. Telman Orucov,** Telman Xəlil oğlu Orucov (d.1940) - 1991-1992-ci illərdə Azərbaycan SSR Ali Sovetinin Sədri olmuşdur. C.10- 364.

**1341. TEMA,** Türkiyə Eroziya ilə Mübarizə, Yaşıllaşdırma və Ətraf Mühitin mühafizəsi Vəqfi - 1992-ci ildə yaradılmışdır. Bu vəqf torpaq eroziyası ilə mübarizə, torpaqların şoranlaşmasının qarşısının alınması ilə məşğul olur. **C.23**- 241-250.

**1342. Terexov Vyaçeslav** - "Exo Moskvı" müstəqil radiostansiyasının müxbiri. **C.10**- 284.

**1343. Tereza xanım** - Zahid xan Xoyskinin həyat yoldaşı. Polşa mənşəlidir. **C.12**- 178.

**1344. Terri Devid Adams** (1938) - görkəmli ingilis mühəndis-neftçi, geoloq. Əmək fəaliyyətinə 1963-cü ildə başlamışdır. 1969-cu ildən "Britiş Petroleum" şirkətinin bir çox ölkələrdə nümayəndəsi olmuşdur. **C.13-** 179, 190, 197; **C.16-** 305, 310, 312, 315, 316; **C.19**- 172; **C.22**- 100, 101, 104.

1994-1998-ci illərdə Azərbaycan Beynəlxalq Neft Konsorsiumunun ilk prezidenti olmuşdur.Azərbaycanda səmərəli fəaliyyətinə görə 1997-ci ildə Britaniya krallığının "Müqəddəs Mixail və Georgi", 1998-ci ildə isə Azərbaycan Respublikasının "Şöhrət" ordenləri ilə təltif olunmuşdur. **C.13-** 179, 190, 197.

**1345. Teymur Rəcəbov,** Teymur Boris oğlu Rəcəbov (d. 1987) - beynəlxalq qrossmeyster. Dünyanın böyüklər arasında 100 ən yaxşı şahmatçıları arasında 12-ci, gənclər arasında 20 ən yaxşı şahmatçıları arasında 1-ci yeri tutur. 2004-cü il Dünya şahmat çempionatında 3-cü, 2005-ci il Avropa çempionatında 2-ci yeri tutmuşdur. **C.18**- 446-447.

**1346. Teymurləng,** Teymur, Əmir Teymur, Topal Teymur (1336-1405) - Orta Asiyada görkəmli dövlət xadimi, sərkərdə, əmir. Teymurilər imperiyasının banisi. Türkləşmiş barlas tayfasından idi, sağ çiynindən və dizindən aldığı zədədən ayağı qatlanmadığına görə "Teymurləng" (Topal Teymur) ləqəbi ilə tanınmışdır. Teymurləng üç yürüşündə (1386-1387; 1392-1397; 1399-1404) Azərbaycanda olmuşdur. Əlincə qalası uğrunda 14 il mübarizə aparan Teymurləng buraya 4 dəfə (1387, 1393, 1397, 1400) yürüş etmiş, ciddi döyüşlər aparsa da məqsədinə nail ola bilməmişdi. **C.14**- 74; **C.22**- 192.

**1347. Təbriz** - İranda şəhər. Cənubi Azərbaycanın ən böyük şəhəri, iqtisadi və mədəniyyət mərkəzi, Şərqi Azərbaycan ostanının inzibati mərkəzi. Əhalisi 1,1 milyon nəfərdir.

Təbriz Azərbaycanın ən qədim şəhərlərindəndir. “Təbriz” sozünün etimologiyası və şəhərin salınma tarixi haqqında müxtəlif fikirlər mövcuddur. Təbriz Rəvvadilər dövlətinin (852), Eldəgəzlər dövlətinin(1174),Agqoyunlular dövlətinin (1468), Səfəvilər dövlətinin (1501) paytaxtı olmuşdur. XV-XVII əsrlərdə Təbriz Yaxın Şərqin mühüm sənətkarlıq və ticarət mərkəzlərindən idi. Təbrizi,“ Şərqin paytaxtı” da adlandırırdılar.

1826-1828-ci illər Rusiya-İran müharibəsi nəticəsində Türkmənçay müqaviləsinə (1828) görə Təbriz İranın hakimiyyəti altında qaldı. **C.21**- 112, 113, 116, 118, 119, 120, 124, 126, 127, 128, 129, 134, 135, 136, 137, 165, 166, 169, 173, 174, 175, 179; **C.22**- 172, 305; **C.28-** 72.

**1348. Təzəpir məscidi** - Azərbaycan memarlıq abidəsi. Bakıdadır. 1905-1914-cü illərdə tikilmişdir (memarı Zivərbəy Əhmədbəyov). Kvadratplanlı Təzəpir məscidinin baş fasadındakı üçtağlı eyvanı, cinahlarındakı minarələr və gümbəz aydın və dəbdəbəli memarlıq kompozisiyası əmələ gətirir. Məscidin böyük ibadət zalı sferik gunbəzlə örtülmüşdür. İbadət zalının iç məkan quruluşu yerli memarluq konstruksiyalrı ilə işlənmiş, günbəzi saxlayan çatmatağ formalarından istifadə olunmuşdur. Təzəpir Bakı-Abşeron dini tikililəri arasında xüsusi yer tutur. **C.25-** 312.

**1349. Tiflis** - Gürcüstan Demokratik Respublikasının (1918-1921) paytaxtı. Şəhərin meydana gəldiyi ərazi eramızdan əvvəl 4-3-cü minilliklərdə mühüm yaşayış məskənlərindən biri olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması haqqında İstiqlal bəyannaməsi Tiflisdə elan edilmiş, 10-cu hökumət kabinəsinin təşkili və ilk dövlətçilik tədbirləri burada həyata keçirilmişdi. **C.15**- 391, 392; **C.22**- 198, 286; **C.27**- 369.

**1350. “Tiflis əxbarı”** - “Tiflisskiye vedomostı” qəzetinin (1828-33) Azərbaycan dilində buraxılan variantı. 1832-1933-cü illərdə Tiflisdə nəşr olunmuşdur. Neçə nömrəsi çıxdığı məlum deyil. “Tiflis əxbarı”nda Azərbaycan dilinə tərcümə olunmuş

rəsmi hökumət xəbərləri, dövlət qərarları, daxili və xarici xəbərlər dərc olunurdu. **C.26-** 87.

**1351. Tofiq Ağahüseynov**, Tofiq Yaqub oğlu Ağahüseynov (d.1923) - artilleriya qoşunları general-polkovniki. Böyük Vətən müharibəsi zamanı 1-ci Belorusiya cəbhəsində Visla-Oder və Berlin əməliyyatlarında iştirak etmişdir. 1975-ci ildən Bakı Hərbi-Hava Müdafiə dairəsi komandanının birinci müavini və Azərbaycan Ali Sovetinin deputatı olmuşdur. **C.16-** 90.

**1352. Tofiq Bayram,** Tofiq Qulam oğlu Bayramov (d. 1934-1991) - görkəmli Azərbaycan şairi. 1959-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar incəsənət xadimi olmuşdur. **C.13**- 70; **C.17**- 339-340.

**1353. Tofiq Əzizov**, Tofiq Müseyib oğlu Əzizov (1932-1999) -1990-1995-cı illərdə Azərbaycan Respublikası Ali Sovetinin deputatı, 1995-1996-cı illərdə Dövlət Əmlak Komitəsinin sədri, 1995-1998-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin müavini olmuşdur. **C.10-** 386.

**1354. Tofiq Kazımov,** Tofiq Səməd Mənsur oğlu Kazımov (1923-1980) - rejissor. Azərbaycan Respublikasının Xalq artisti, Azərbaycan Respublikası Əməkdar incəsənət xadimi, M.F. Axundov adına respublika mükafatı laureatı. Müxtəlif illərdə Azərbaycan Milli Dram Teatrının rejissoru, baş rejissoru olmuşdur. **C.17**- 190; **C.28**- 351.

**1355. Tofiq Quliyev,** Tofiq Ələkbər oğlu Quliyev (1917-2000) - görkəmli Azərbaycan bəstəkarı. Azərbaycan Respublikasının Xalq artisti. Tofiq Quliyev Azərbaycan estrada musiqisinin yaradıcılarındandır. Yaradıcılığında lirik mahnılar əsas yer tutur. 1973-2000-ci illərdə Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin birinci katibi olmuşdur. Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif olunmuşdur. **C.10-** 50; **C.13**- 165-166, 214-215; **C.15**- 152, 319, 384; **C.17**- 191

**1356. Tofiq Zülfüqarov,** Tofiq Nadir oğlu Zülfüqarov (d.1959) - diplomat, fövqəladə və səlahiyyətli səfir. 1993-1994-cü illərdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində

idarə rəisi işləmiş, 1994-cü ildə Azərbaycan Xarici İşlər nazirinin müavini və Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi üzrə danışıqlarda Azərbaycan Respublikası nümayəndə heyətinin başçısı olmuşdur. 1998-1999-cu illərdə Azərbaycan Respublikasının Xarici İşlər naziri vəzifəsində işləmişdir. Azərbaycan Respublikasının Latviyada səfiridir**. C.15**- 22, 30; **C.20**- 81, 329.

**1357. Toğrul Nərimanbəyov,** Toğrul Fərman oğlu Nərimanbəyov (d.1930) - görkəmli Azərbaycan rəssamı. Məişət, portret, mənzərə və natürmort janrlarında, monumental boyakarlıq, illüstrasiya və teatr rəssamlığı sahələrində fəaliyyət göstərir. Yaradıcılığında monumental boyakarlıq mühüm yer tutur (Azərbaycan Kukla Teatrının foyesindəki panno). "Nəsimi dastanı" xoreoqrafik poemasına, "Qobustan kölgələri", "Yeddi gözəl", "Min bir gecə" baletlərinə verdiyi bədii tərtibat Azərbaycan teatr rəssamlığının qiymətli nümunələrindəndir.Azərbaycanın Xalq rəssamı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatıdır. **C.15**- 318-319.

**1358. Tokay Məmmədov,** Tokay Həbib oğlu Məmmədov (d.1927) - Azərbaycan Respublikası Xalq rəssamı və Əməkdar incəsənət xadimi. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü, Azərbaycan Rəssamlar İttifaqı İdarə heyətinin sədri (1970-1972) olmuşdur. Monumental heykəltəraşlıq T.Məmmədovun yaradıcılığında mühüm yer tutur. **C.19-** 437.

**1359. Tokio -** Yaponiyanın paytaxtı, ölkənin əsas sənayemaliyyə mərkəzidir.Tokio IV əsrin ortalarında salınmış (ilk adı Edo) sonralar Tokuqava hakimlərinin iqamətgahı. İmperator iqamətgahı Kiotadan Edoya köçürüldü, şəhər Tokio adlandırıldı və Yaponiyanın paytaxtı oldu. **C.14**- 325-458.

**1360. Tomas Klestil** (d.1932) - Avstriyanın Prezidenti. 1987-1992-ci illərdə XİN-nin Baş katibi olmuşdur. **C.19**- 212.

**1361. Tomen** - yapon şirkəti. 1920-ci ildə yaradılmış şirkət dünyanın bir çox ölkələri ilə geniş əlaqələr qurmuşdur və dünyanın 100-dən çox ökəsində fəaliyyət göstərir. Şirkət əsa-

sən ticarət, xammal emalı, tikinti işləri və vasitəçilik məsələləri ilə məşğul olur. **C.14**- 332-333; **C.15**- 50.

**1362. Toni Bleyer,** Entoni Çarlz Linton (d.1953) - Böyük Britaniyanın siyasi və dövlət xadimi. 1997-ci ildən Böyük Britaniyanın Baş naziridir. **C.10**- 231; **C.12-** 91, 132; **C.16**- 277, 333, 337-346, 349, 350, 351, 352-356, 369, 373, 376, 378, 382, 398, 407, 415, 416, 436, 441, 447-454, 462, 463, 472, 472, 479, 481, 482, 483; **C.17**- 14, 129, 276; **C.19**- 179; **C.20**- 216; **C.21**- 410; **C.22**- 123, 124; **C.28**- 54, 56, 147.

**1363. Topuridze** - Sumbatov Yuvelyan Davidoviç (1889 -1956) - general leytenant. 1934-1938-ci illərdə Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olarkən Azərbaycan xalqının minlələ vətənpərvər övladına "xalq düşməni" damğası vurmuş, görkəmli elm, sənət, mədəniyyət xadimlərini, ziyalıları fiziki və mənəvi repressiyalara məruz qoymuşdur. **C.10**- 335.

**1364. Toşiba** - Yaponiya şirkəti. Əsasən, energetika, tibbi avadanlıq və tikinti sahəsində fəaliyyət göstərir. - 344, 348, 388.

**1365. Total** - məşhur fransız neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. **C.14**- 66; **C.21**- 22, 53, 54, 379; **C.26**- 230; **C.27**- 252.

**1366. Tövrat** (yəhudicə - təlim, qanun) - Bibliyanın ilk beş kitabı, Əhdi ətiqə daxildir. Tövrata Varlıq, Axirət, Ruhani (Levit), Rəqəm və İkinci qanun kitabları daxildir. **C.23**- 125.

**1367. Transxəzər qaz kəməri** - Xəzər dənizi vasitəsilə Azərbaycandan Gürcüstana və Türkiyəyə Orta Asiya qazını nəql edəcəkdir. Türkiyədən isə Avropa bazarlarına çatdırılacaqdır. **C.20**- 20, 110, 241, 246; **C.21-** 373; **C.23**- 51, 52, 82, 159, 161, 162, 210, 213, 228, 237, 300, 306, 307; **C.24**- 229, 233, 240, 241, 262, 340, 342, 348, 349, 351, 352, 358, 362; **C.25-** 64, 66, 69, 70, 71, 106, 113, 127, 184, 185, 186, 187, 188, 189, 192, 197, 198, 365; **C.26-** 159, 364; **C.27**- 407; **C.28**- 70.

**1368. Transxəzər nəqliyyat dəhlizi** (TRASEKA) – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizını Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. **C.22**- 106, 360, 368; **C.23**- 164, 299, 300, 301, 303, 305, 306, 313, 315, 323; **C.25-** 97, 208, 369, 372, 393; **C.26-** 29, 118, 127, 134, 143, 152, 153, 158; **C.28-** 95, 118, 127, 135.

**1369. Transqafqaz nəqliyat dəhlizi** (TRASEKA) - Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transqafqaz nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. **C.12.**- 258, 297, 307, 311**; C.13-** 118, 194, 249, 253, 254, 260**; C.14-** 66, 67, 69, 185, 272, 278, 283, 323, 340, 359, 366, 369, 443, 450**; C.15-** 47, 144, 187, 190, 193, 204, 436, 443, 446 , 448, 453**; C.16-** 14, 15, 32, 34, 137, 142, 146, 157, 162, 165, 187, 212, 335, 340, 345, 356, 371, 378, 430, 443, 484**; C.17**- 37, 52, 89, 90, 92, 94, 97, 99, 105, 178, 183, 244 - 292; **C.18**- 7, 8, 9, 89-92, 262, 449; **C.19-** 156**; C.20**- 23-24, 81, 82, 84, 94,139, 243, 254, 329, 412**; C.21**- 11, 15, 263, 356**; C.24**- 328, 330, 404, 405, 415.

**1370. Transneft** - neft şirkəti. 1992-ci ilin noyabr ayında Rusiya Prezidentinin fərmanı ilə birtipli səhmdar cəmiyyəti şəklində yaradılmışdır. Şirkət xam neftin Rusiyanın neftayırma zavodlarına və eləcə də xarici ölkələrə nəql olunmasını təmin edir. Şirkətin magistral neft kəmərləri Rusiyada hasil olunan neftin 95,5 faizinin nəqlini təmin edir. **C.11-** 122; **C.22**- 25, 28.

**1371. TRAO** - bax: Türkiyə petrolları.

**1372. TRASEKA** - bax: Avropa -Qafqaz-Asiya nəqliyyat dəhlizi; Transqafqaz nəqliyyat dəhlizi; Transxəzər nəqliyyat dəhlizi.

**1373. Trend** - 1995-ci ildə təşkil edilən özəl beynəlxalq kütləvi xəbər-informasiya agentliyi. Agentliyin ONLAYRI xəbər buraxılışları - ingilis, rus, fars və ərəb dillərində dərc olunur və saytda "Trend", həmçinin öz abunəçilərinə video və

fotomateriallar, ilin, ayın və həftənin əsas siyasi və iqtisadi hadisələrinin daxil olduğu analitik məlumatları və məqalələri təqdim edir. **C.27**- 213.

**1374. Trumen Harri** (1884-1972) - ABŞ-ın 33-cü Prezidenti (1945-1953) Xirosima və Naqasakiyə atom bombasının atılması haqqında sərəncam vermişdir. NATO təşkilatının yaradıcılarından biri. **C.13**- 245.

**1375. Tszyan Tszemin** (d.1926) - Çinin partiya və dövlət xadimi. 1989-cu ildən Çin KP MK-nın baş katibi, 1993-cü ildən Çin Xalq Respublikasının sədridir. **C.10**- 232, 327; **C.15**- 95; **C.17**- 240, 276; **C.22**- 87, 89; **C.28**- 17, 288, 291, 292, 294, 299, 307.

**1376. Tunis**, Tunis Respublikası - Şimali Afrikada dövlət. Sahəsi 164,2 min km$^2$, əhalisi 9 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici hakimmiyyət Nümayəndələr Palatasına (parlament) məxsusdur. Paytaxtı Tunis şəhəridir. **C.23**- 19.

**1377. Tur Heyerdal** (1914-2002) - Norveç etnoqrafı və arxeoloqu. Köhnə dünya (Asiya, Avropa, Afrika) və Yeni Dünya (Amerika) arasında xalqların transogean miqrasiyasının mümkünlüyünü tədqiq etmişdir. 1969 və 1970-ci illərdə papirusdan hazırlanmış "Ra" və "Ra-2" qayıqlarında Afrikadan Amerikaya, 1977-1978-ci illərdə qamışdan qayrılmış "Tiqris" qayığında Əlkürna (İraq) - Cibuti marşrutu ilə ekspedisiyalar təşkil etmişdir. 2 dəfə Azərbaycanda olmuş, Qobustan qaya təsvirlərinə, qədim Şabran şəhərinin qalıqlarına baxmış, bu abidələr barədə qiymətli mülahizələr söyləmişdir. **C.21**- 394, 395; **C.22**- 112; **C.24**- 357; **C.25**- 227; **C.27**- 204; **C.28**- 43.

**1378. "Turan"** informasiya agentliyi - 1990-cı ildə yaradılmışdır. Agentlik tərəfindən KİV-lər, digər hüquqi və fiziki şəxslər üçün informasiyaların toplanması və yayılması həyata keçirilir. **C.23**- 102, 103, 296; **C.24** -188; **C.27** - 213.

**1379. Turqut Özal,** Özal Turqut (1927-1993) - Türkiyənin dövlət və siyasi xadimi. 1980-1982-ci illərdə Dövlət naziri, 1983-1989-illərdə Türkiyənin Baş naziri, 1989-1993-cü illərdə

Türkiyənin Prezidenti olmuşdur. **C.14**- 79; **C.15**- 312; **C.19**- 412; **C.20**- 258; **C.26-** 149, 216, 361.

**1380. Tuti Bikə** (?-1786) - Quba xanlığının siyasi həyatında mühüm rol oynamış qadın. Fətəli xanın arvadı, Qaraqaytaq hakimi Əmir Həmzənin bacısı. 1776-cı ildən Dərbənd şəhərinin idarəsi Tuti Bikəyə tapşırılmışdı. Çavduşan vuruşmasında (1774) Tuti Bikə Dərbəndin müdafiəsinə şəxsən rəhbərlik etmişdi. **C.25-** 312.

**1381. Tükəzban İsmayılova,** Tükəzban Məhərrəm qızı İsmayılova (1923-2008) - Azərbaycan Respublikasının Xalq artisti. Böyük Vətən müharibəsinin iştirakçısı. Uzun müddət Filarmoniyanın, Azərbaycan Dövlət Televiziya və Radio Şirkətinin solisti olmuşdur. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.19**- 259, 269, 273; **C.25-** 313.

**1382. Türk Dövlətlər Birliyi** (TDB) -1992-ci il oktyabr ayının 30-31-də Ankarada Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan dövlət başçılarının iştirak etdikləri toplantıda yaradılmışdır. TDB-nin nizamnaməsi türkdilli xalqların sosial-mədəni bənzərliyini nəzərə alaraq ortaq mədəni irsin araşdırılmasını, genişləndirilməsini, tanıdılmasını tövsiyə edir. **C.14**- 9; **C.26-** 156- 162, 178, 184, 193, 194, 300, 361, 363; **C.28**- 116, 121.

**1383. Türk petrolları,** Türkiyə petrolları TRAO - 1954-cü ildə Türkiyənin neft və qaz sənayesinin inkişafı üçün yaradılmışdır. Karbohidrogen istehsalı və emalı sahəsində Türkiyənin ən böyük şirkətidir. TRAO hazırda MDB, Şimali Afrika və Orta Şərqdə fəaliyyət göstərir. Azərbaycana gələn ilk xarici neft şirkətlərindəndir. **C.13**- 182; **C.14**- 21, 24, 249, 271; **C.15**- 429; **C.17**- 185, 234; **C.20**- 249, 463; **C.22**- 294, 426; **C.28**- 44.

**1384. Türkan Şoray** (d.l947) - məşhur türk kino aktrisası. 1960-cı ildən kinoda çəkilir. T.Şoray əsasən kimsəsiz, alçaldılmış, adət və qanunların əsiri olan, lakin əksər hallarda ictimai bərabərsizliyə qarşı etirazını bildirən türk qadınlarının obrazlarını yaradır. T.Şoray 203 filmdə çəkilmişdir. **C.22**- 138.

**1385. Türkeş Alparslan** (1917-1997) - Türkiyənin görkəmli hərbi və siyasi xadimi. 1965-1969-cu illərdə Cümhuriyyətçi Köylü Millət Partiyasının, 1969-cu ildə Milliyyətçi Hərəkat Partiyasının, 1987-ci ildə isə Milliyyətçi Çalışma Partiyasının Baş Bakanı olmuşdur. **C.26-** 366.

**1386. Türkiyə Böyük Millət Məclisi** (TBMM) - Türkiyənin ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır. BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. BMM iki palatadan ibarətdir: Senat (yuxarı palata) və Milli Palata. BMM məclis üzvlərindən respublika Prezidentini seçir. **C.18**- 102-103, 133, 139; **C.19**- 38-39, 47, 107; **C.20**- 237, 238-239, 267, 288, 359, 462; **C.22**- 392, 428, 433; **C.23**- 244; **C.26-** 396; **C.28**- 214; **C.25-** 14-27; **C.27**- 376, 401, 402, 404.

**1387. Türkiyə Cümhuriyyəti** - Qərbi Asiyada və Avropanın cənub-şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 62,7 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı Prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. **C.13**- 35, 55, 56, 78, 79, 93, 113, 114, 118, 127, 132, 134, 167, 182, 192, 193, 200, 250, 312-313, 413; **C.14**- 14, 20, 21, 22, 23, 24, 25, 26, 27, 28, 60, 61, 62, 75, 78, 79, 85, 89, 114, 119, 120, 185, 213, 215, 216, 221, 226, 240, 285, 363, 379, 380, 399, 404, 412, 419, 420, 427, 444, 453, 454; **C.18**- 28, 34, 35, 36, 40, 45, 94-166, 184, 199, 200, 235, 238, 239, 240, 241, 244, 371, 373, 374, 411, 412, 413, 414, 415, 416, 439, 477; **C.19**- 22, 33-102, 104, 105, 106, 107, 108, 109, 117-118, 119, 151, 185-196. 281, 340, 343, 347, 350, 351, 404-417, 425; **C.20**- 10, 11-12, 13-14, 19, 20, 35, 48, 69, 73, 84, 97, 105, 110, 115, 144, 185, 198, 199, 213-216, 220, 221, 223, 224, 225, 231, 237-314, 321, 328, 334, 335, 337, 338, 341, 342, 346, 351, 378, 384, 399, 400, 414, 416, 462, 463, 471; **C.21**- 6, 107, 125, 140, 190-191, 192, 213-220, 251, 361, 366, 367, 372, 373, 410; **C.22**- 29, 65, 80, 81, 96, 101, 114, 137, 138, 158, 184, 188, 189, 208, 209, 224, 225, 226, 227, 239-246, 249, 272, 289-296, 309-334, 340, 389-459; **C.23**- 5-14, 15-17, 31, 51, 72,

78, 81, 82, 86, 97, 114, 134-193, 198, 205, 206, 209-238, 240-272, 287, 297, 307, 308, 355, 377-378, 379, 386, 401-411, 415; **C.25-** 14-27, 43, 44, 49, 50, 51, 52, 53, 54, 55, 67, 71, 96, 105, 116, 126, 127, 134, 146, 153, 159-164, 169, 184, 185, 186, 193, 197, 199, 200, 247, 251, 274, 293, 343, 409; **C.26-** 17, 24, 32, 45, 46, 55, 65, 68, 80, 81, 121, 122, 130, 145, 147-148, 149, 150, 154, 156-182, 183-192, 193-207, 209-221, 232-238, 244, 280, 285, 312, 313, 314, 335, 352-370, 376-399, 400-405, 432-436, 437-440; **C.27**- 24, 25, 53, 54, 68, 129, 155-157, 207, 399-409.

**1388. Türkmənçay müqaviləsi** (1828) - XIX əsrin əvvəllərində Rusiya-İran müharibələri başa çatdıqdan sonra, Təbriz yaxınlığındakı Türkmənçay kəndində bağlanmış müqavilə. 16 maddədən ibarət olan Türkmənçay müqaviləsinə əsasən Cənubi Qafqaz əraziləri, o cümlədən Şimali Azərbaycan Rusiyaya birləşdirildi, Cənubi Azərbaycan torpaqları isə İranda qaldı. Türkmənçay müqaviləsinin 3-cü maddəsinə əsasən Araz çayının o tayı və bu tayı üzrə İrəvan və Naxçıvan xanlıqları Rusiya imperiyasının tam mülkiyyətinə keçdi. **C.22**- 195, 196; **C.25-** 303; **C.26-** 98

**1389. UEFA** - Avropa Birləşmiş Futbol Assosiasiyası. **C.27**- 207.

**1390. Uilyam Deyli** (d.1949) - ABŞ-ın ticarət naziri. Çikaqoda Con Marşall hüquq institutunu və Loyola universitetini bitirmişdir. 1988-ci ildə Albert Qorun seçki kampaniyası üzrə müşaviri olmuşdur. Çikaqo Birləşmiş Bankının vitse-prezidenti (1989), sonra isə həmin bankın prezidenti (1990-1993) işləmişdir. 1997-ci ilin yanvarında ABŞ-ın Ticarət naziri vəzifəsinə təyin olunmuşdur.**C.10-** 209, 269, 270, 276, 284, 338, 394, 401; **C.20**- 141, 142, 144, 145, 147, 148, 152, 153-154, 350, 352.

**1391. Uilyam Kohen** (d.1940) - 1962-ci ildə Boduen kollecini (latın dili üzrə bakalavr) bitirmişdir. 1965-ci ildə Boston universitetinin hüquq fakültəsini (hüquq bakalavrı) qurtarmışdır. 1973-1979-cu illərdə Nümayəndələr Palatasının,

1979-1997-ci illərdə ABŞ Senatının üzvü olmuşdur. Bir sıra qanun layihələrinin qəbul edilməsində mühüm rol oynamışdır. 1987-1991-ci illərdə Beynəlxalq Əlaqələr Şurasının üzvü olmuş, 1996-cı ildən Şuranın tərkibində Yaxın Şərqi öyrənən qrupun sədri işləmişdir. 1995-ci ildən təhlükəsizlik sahəsində siyasət üzrə Münhen konfransında ABŞ nümayəndə heyətinə rəhbərlik etmişdir. 1997-2000-ci illərdə ABŞ-ın müdafiə naziri idi. Bır çox mükafatların laureatı, səkkiz kitabın müəllifidir. **C.11-** 184, 186, 238, 285; **C.25-** 166-167, 191, 244, 300, 364, 366.

**1392. Ukrayna,** Ukrayna Respublikası - Cənub-şərqi Avropada dövlət. Ərazisi 603,7 min km$^2$, əhalisi 51,3 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Respublikası daxildir. Dövlət başçısı Prezident, qanunverici orqanı - Ali Radadır. Paytaxtı Kiyev şəhəridir. **C.17**- 21-66, 80, 81, 82-99, 100-112, 131, 169, 172, 176-179, 220, 244, 256, 309, 421, 444; **C.21**- 111, 141, 142, 148, 151, 206-210, 263, 351-359, 363; **C.22**-119, 343, 370; **C.23**- 115, 231, 273-289; **C.25-** 132, 232, 233, 350, 367-406; **C.27**- 49, 81, 84, 161, 162, 240-248, 288, 340, 353.

**1393. "Ulduz"** - Azərbaycan Yazıçılar Birliyinin ədəbi-bədii, ictimai-siyasi aylıq jurnalı. 1967-ci ildən Bakıda nəşr edilir. Jurnal, əsasən, gənc yazıçı, şair və publisistlərin əsərlərini, ədəbi-bədii yazılara rəylər və s. dərc edir. **C.13**- 8, 50, 52, 68, 73, 74, 75, 76, 87, 90, 111, 126, 226.

**1394. Usmanxocayev İnamcan Buzrukoviç** (d.1930) - Özbəkistanın partiya və dövlət xadimi. 1978-1983-cü illərdə Özbəkistan SSR Ali Soveti Rəyasət Heyətinin Sədri, 1983-1988-ci illərdə Özbəkistan KP MK-nın birinci katibi olmuşdur. **C.10**- 210.

**1395. Uşaqları Beynəlxalq Müdafiə** Günü - uşaqları müharibə təhlükəsindən qorumaq, onların sağlamlığı, tərbiyəsi, təhsili, hərtərəfli inkişafı qayğısına qalmaq məqsədilə qeyd edilən gün. 1949-cu ildə Beynəlxalq Demokratik Qadınlar Federasiyası Şurasının qərarına əsasən hər il iyunun 1-də qeyd olunur. **C.10-** 35-37.

**1396. Uzaq Şərq** - Şərqi Asiyada ərazi. Buraya Rusiya, Çin, Koreya (KDXR və Koreya Respublikası) və Yaponiya ərazilərinin şərqi aiddır. Bəzən Filippini də Uzaq Şərqə aid edirlər. **C.18**- 335, 478; **C.22**- 61, 64; **C.24**- 85.

**1397. Uzun Həsən** (1423/24-1478) - Ağqoyunlu hökmdarı (1468-1478), görkəmli sərkərdə və diplomat. 1467-ci ildə Cahan şahı məğlub edən Uzun Həsən Qaraqoyunlu dövlətinə son qoyaraq mərkəzi Təbriz şəhəri olmaqla "Xorasandan Qaramana qədər uzanan" Ağqoyunlu dövlətinin əsasını qoymuşdur. **C.12-** 42; **C.14**- 5; **C.22**- 383; **C.25-** 311.

**1398. Ülvi Rəcəb Şaşıq** oğlu **(**1903-1938) - aktyor. Azərbaycan Respublikasının Əməkdar artisti. Azərbaycan xalqının ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiyası qurbanlarındandır. **C.10-** 55; **C.17**- 189.

**1399. Ümid körpüsü -** bax:Həsrət körpüsü.

**1400. Ümumi dövlət** - ATƏT-in Minsk qrupu həmsədrlərinin (ABŞ, Fransa, Rusiya) Azərbaycana etdiyi təklif; yəni Azərbaycan ərazisində yeni bir erməni dövlətinin yaradılması. Beynəlxalq hüquqda isə "ümumi dövlət" adında anlayış yoxdur. Azərbaycan Dağlıq Qarabağa ancaq öz daxilində yüksək özünüidarəetmə statusu verə bilər. **C.20**- 27, 40, 79, 87, 254, 445, 446; **C.21**- 273, 290, 293, 301, 302, 371, 381, 397; **C.22**- 292; **C.23**- 115, 231, 273-289; **C.24**- 8.

**1401. Ümumdünya Bərpa və** İnkişaf Bankı (ÜBİB) - BMT-nin ixtisaslaşdırılmış müəssisəsi, dövlətlərarası valyuta-maliyyə təşkilatı. Əsası 1944-cü ildə qoyulmuşdur. 1946-cı ildən fəaliyyətə başlamışdır. ÜBİB üzvləri ancaq Beynəlxalq Valyuta Fondunun üzvləri ola bilər. İdarə heyəti Vaşinqtondadır. Orta müddətli və uzunmüddətli kredit verir. **C.14**- 9.

**1402. Ümumdünya Səhiyyə Təşkilatı** (ÜST) - BMT-nin ixtisaslaşdırılmış dövlətlərarası idarəsi, məqsədi bütün dünya xalqlarının sağlamlığını yüksək səviyyəyə qaldırmaqdır. 1946-cı ildə yaradılmışdır. ÜST ağır və infeksion xəstəliklərə qarşı mübarizə aparmaqda müxtəlif ölkələrə kömək göstərir, dərman

preparatlarına, narkotik dərmanlara və s. nəzarət edir. Qərargahı Cenevrədədir. **C.16-** 26, 27; **C.28-** 92.

**1403. Ümumdünya Ticarət Təşkilatı** - 1947-ci ildə qəbul edilmiş müqavilə 23 ölkənin beynəlxalq ticarətdə gömrük rüsumlarının aşağı salınmasına və başqa çətinliklərin aradan götürülməsində hökumətlərarası qəbul etdiyi çoxtərəfli müqavilədir. Bu müqavilə 1995-ci ildə beynəlxalq ticarətdə rüsumlar haqqında qəbul edilmiş müqavilənin hüquqi varisidir.

Təşkilatın əsas prinsipi bütün iştirakçılar üçün münasib mühit yaratmaqdır. Təşkilata 130 ölkə daxildir. **C.14-** 409; **C.16-** 155, 356; **C.17-** 182; **C.21-** 153; **C.26-** 51; **C.28-** 92.

**1404. Üzeyir Hacıbəyli (Hacıbəyov),** Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli (1885-1948) - dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional müsiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. **C.12-** 5, 42, 140, 174-177, 356; **C.13-** 107, 222, 295, 297, 301, 302, 303, 304, 305; **C.15-** 53, 152, 331, 391, 397, 398; **C.16-** 41, 59; **C.17-** 138, 163, 190, 191, 344; **C.18-** 325-332, 357, 390; **C.19-** 173, 197, 487; **C.21-** 103, 388-389; **C.22-** 262, 383; **C.25-** 271; **C.26-** 91, 438; **C.27-** 214, 369; **C.28-** 266, 271.

**1405. Vahid Axundov** (d.1942) - iqtisadçı, elmlər doktoru, professor. 1993-cü ildən Azərbaycan Respublikası İqtisadi siyasət üzrə Dövlət müşaviridir. **C.14-** 93, 94; **C.16-** 468.

**1406. Vahid Ələkbərov**, Vahid Yusif oğlu Ələkbərov (d. 1950) - 1993-cü ildən Rusiyanın ən böyük neft şirkətlərindən olan "LUKoyl"un prezidentidir. **C.10-** 250; **C.22-** 12-41, 91-96; **C.28-** 39.

**1407. Vaqif Axundov,** Vaqif Əlibala oğlu Axundov (d. 1950) - general-leytenant. 1993-cü ildən Azərbaycan Respublikası Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanları Baş Mühafizə İdarəsinin rəisidir. **C.15-** 418.

**1408. Vaqif Cəbrayılzadə,** Vaqif Yusub oğlu Cəbrayılov (d.1949) - Azərbaycan şairi. Mirzə Cəlil mükafatı laureatı. **C.13**- 47.

**1409. Vaqif Molla Pənah (**1717-1797) - Azərbaycan şairi, dövlət xadimi. Klassik Şərq şeirini dərindən bilən Vaqif qəzəl, müxəmməs, müstəzad və s. formalarda əsərlər yazmışdır.**C.10**-131; **C.13**- 16, 27, 82, 107, 109, 303; **C.15**- 66; **C.17**- 163; **C.19**- 173; **C.21**- 18; **C.23**- 321.

**1410. Vaqif Mustafayev,** Vaqif Behbud oğlu Mustafayev (d.1953) - kinorejissor. Azərbaycan Respublikasının Xalq artisti. Bir çox filmlərin, o cümlədən Prezident Heydər Əliyev haqqında filmin rejissorudur. Avropa-Asiya Tele-“Space” radio Akademiyasının vitse-prezidenti. “SPASE” müstəqil tele-radio şirkətinin prezidentidır. Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. **C.22**- 54-73.

**1411. Vaqif Sadıqov,** Vaqif İsmayıl oğlu Sadıqov (d. 1956) - diplomat, fövqəladə və səlahiyyətli səfir. 1995-ci ildən Azərbaycan Respublikasının Avstriya Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında Azərbaycan Respublikasının daimi nümayəndəsidir. **C.15**- 26.

**1412. Vaqif Vəkilov,** Vaqif Səməd oğlu Vəkilov (d. 1939) - Azərbaycanın Xalq şairi, dramaturq, publisist, ictimai xadim. Azərbaycanın Əməkdar incəsənət xadimi. “Bəxt üzüyü” və “Yaşıl eynəkli adam” və s. pyeslərin müəllifidir. Bir çox şeir kitabları çıxmışdır. Vaqif Vəkılov 2000-ci ildən Milli Məclisin üzvüdür. **C.18**- 386; **C.19**- 130

**1413. Vaqif Yusifli,** Vaqif Əziz oğlu Yusifov (d.1948) - tənqidçi, ədəbiyyatşünas, Əməkdar mədəniyyət işçisi. **C.13**-66-77.

**1414. Valeh Ələsgərov** (d.1946) - neftçi mühəndis. SSRİ Nazirlər Soveti yanında Xalq Təsərrüfatı Akademiyasını bitirmişdir. Müxtəlif illərdə neft sənayesi sahəsində rəhbər vəzifələrdə çalışmışdır. 2005-ci ildən Milli Məclisdə sədr müavinidir. Qubkin adına Qızıl medal və Azərbaycan Respublikasının

"Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.19**- 201; **C.20**- 463 **C.21**- 31; **C.22**- 22; **C.23**- 226; **C.26-** 17, 233.

**1415. Valentin Yudaşkin** (d.l963) - məşhur rus modelyeri, 1991-ci ildən onun modelləri dünyanın bir çox ölkələrində nümayiş etdirilir. Rusiyanın əməkdar incəsənət xadimi, Sosial Elmlər Akademiyasının həqiqi üzvü, Rusiya Bədaye Akademiyasının fəxri üzvüdür. **C.28**- 278-284.

**1416. Validə Tutayuk,** Validə Xaspolad qızı Tutayuk (1914-1980) - botanik. Biologiya elmləri doktoru, professor. Azərbaycan MEA-nın akademiki. Elmi tədqiqatı, əsasən, çiçəkli bitkilərin morfologiya və anatomiyasına, Azərbaycan dentroflorasının, çiçəyin teratologiyasının öyrənilməsinə həsr edilmişdir. **C.27**- 311, 312.

**1417. Valter Şvimmer** (d.1942) - Tanınmış Avstriya dövlət xadimi. 28 il Avstriya parlamentinin üzvü, 1999-2004-cü illərdə isə Avropa Şurasının Baş katibi olmuşdur. **C.20**- 374.

**1418. Van Kalitski** (d.1948) - ABŞ hökumətinin yeni müstəqillik qazanmış ölkələr üzrə energetika və ticarət məsələlərinə dair əlaqələndirici, ticarət nazirliyinin xüsusi müşaviridir. **C.27**- 136-145.

**1419. Varna -** Bolqarıstanda Qara dəniz sahilində şəhər və liman. **C.23** -305.

**1420. Varşava müqaviləsi (paktı)** - 1955-ci il mayın 14-də Varşavada sosialist ölkələrini qorumaq, Avropada sülh və təhlükəsizliyi təmin etmək məqsədilə yaradılmışdı. Bura ADR, Albaniya, Bolqarıstan, Macarıstan, Polşa, Rumıniya, SSRİ və Çexoslovakiya daxil idi. 1991-ci ildə SSRİ süqut etdikdən sonra bu təşkilat da öz-özünə dağılmışdır. **C.10**- 370; **C.20**- 52, 257; **C.23**- 81, 82, 89, 136, 175, 184, 185, 204, 230; **C.27**- 114.

**1421. Vasif Adıgözəlov,** Vasif Zülfü oğlu Adıgözəlov (1936-2006) - bəstəkar. Üzeyir Hacıbəyli adına BMA-nın professoru. Azərbaycan Bəstəkarlar İdarə heyətinin 1-ci katibi. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. O, bir çox musiqi əsərinin, 1 operanın, 5 musiqili komediyanın, 3 orato-

riyanın, vokal-simfonik əsərlərin müəllifidir. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.17**- 140.

**1422. Vasif Talıbov,** Vasif Yusif oğlu Talıbov (d.1960) - dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respulikası Ali Məclisinin deputatı, 1995-cı ilin dekabrından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. **C.10-** 395; **C.16**- 255; **C.17**- 144; **C.18**- 176, 199; **C.19**- 149; **C.21**- 118, 126; **C.22**- 165, 175, 190, 237, 240, 247, 255, 256, 267, 272-288.

**1423. Vaşinqton post -** ABŞ-da gündəlik qəzet. Əsası 1877-ci ildə qoyulmuşdur. Tirajı təxminən 500 min nüsxədir. **C.20**- 117-130, 183; **C.25-** 117-123, 191.

**1424. Vaşinqton şəhəri** - Amerika Birləşmiş Ştatlarının paytaxtı. Ölkənin iri siyasi, elm və mədəniyyət mərkəzi. Şəhər 1791-ci ildə salınmış və ABŞ-ın ilk Prezidenti C.Vaşinqtonun şərəfinə adlandırılmışdır. **C.10-** 20, 46, 233, 237; **C.11-** 5, 42, 47, 112, 179, 219, 229, 241, 283, 296, 303, 391, 401; **C.12-** 17, 37, 94, 97, 143; **C.19**- 352, 448, 449, 457; **C.20**- 31, 32, 50, 51, 52-166, 179, 181, 183, 203, 204, 214, 216, 218, 219, 224, 228, 231, 232, 241, 242, 253, 254, 274, 276, 277, 285, 290, 327, 328, 337, 350, 352, 383, 414, 424, 442; **C.22**- 46, 47, 51, 106, 140, 330, 336, 337, 354, 363, 378, 379, 398, 427; **C.25-** 63, 64, 68-164, 166-173, 174, 175, 179, 197, 199, 229, 243, 282, 285, 287, 299, 300, 301, 362.

**1425. Vatikan**, Avropada Papa dövləti - şəhər. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsindədir. Roma katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir. Vatikan teokratik monarxiyadır.Dövlət başçısı Roma Papasıdır. **C.12-** 179, 203, 238-240; **C.27**- 208.

**1426. Vatslav Havel** (d.1936) - Çexiyanın görkəmli siyasi və dövlət xadimi, dramaturq. Kommunist rejimi zamanı ölkədə hüquq müdafiəçilərinin liderlərindən biri olmuşdur. Dəfələrlə həbs edilmişdir. 1989-cu ildən "Vətəndaş forumu" hərəkatının başçısı idi. 1989-1992-ci illərdə Çexoslovakiyanın, 1993-cü ildən isə Çexiyanın Prezidentidir. **C.14-** 146.

**1427. Vayominq** (ABŞ da ştat) **- C.20-** 142.

**1428. Venediktov Aleksey Alekseyeviç** - "Exo Moskvı" müstəqil radiostansiyasının baş direktoru **C.10-** 284.

**1429. Veto** - qanunverici orqanların qərarını dayandırmaq və ya ləğv etmək hüququ. **C.23-** 73.

**1430. Vəcihə Səmədova,** Vəcihə Əli qızı Səmədova (1924-1965) - Azərbaycan boyakarı. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi idi. Portret, mənzərə və tematik tablolar çəkmişdir. Mənzərə və tematik tabloları ("Azərbaycan bəstəkarları", "Mahnı", "Goygölün sahilində", "Kürün sahilində", "Xəbər gözləyənlər") zəngin milli koloriti, lakonikliyi və kompozisiya aydınlığı ilə fərqlənir. **C.25-** 314.

**1431. Vəfa Quluzadə,** Vəfa Mirzəağa oğlu Quluzadə (d. 1940) - diplomat, 1969-cu ildən SSRİ Xarici İşlər Nazirliyinin əməkdaşı olmuş, 1975-ci ildən Azərbaycan KP MK-da mədəniyyət şöbəsinin müdiri vəzifəsində işləmişdir. 1990-cı illərdə Azərbaycan Respublikası Prezidentinin xarici siyasət məsələləri üzrə dövlət müşaviri olmuşdur. **C.15-** 26, 32; **C.20-** 359, 445, 505; **C.21-** 361; **C.22-** 97, 104.

**1432. Vəhhabilik** - ortodoksal islamda yaranmış dini-siyasi cərəyan. XVIII əsrin axırlarında Nəcddə yayılmışdı. Banisi Məhəmməd ibn Əbdül-Vəhhabdır. Başlıca ehkamı vahid Allaha inamdır. Vəhhabilər Quranı qəbul etsələr də, islam dinində müqəddəslərə pərəstişi, dərvişliyi rədd edir, cihada böyük diqqət verirlər. Səudiyyə Ərəbistanında hakim ideologiya olan vəhhabilik Hindistan, Əfqanıstan, İndoneziya və bəzi Afrika ölkələrində də yayılmışdır. **C.16-** 21; **C.24-** 274; **C.25-** 73; **C.28-** 232, 233.

**1433. Vəli Axundov Yusif** oğlu (1916-1986) - Azərbaycanın partiya və dövlət xadimi. 1959-1969-cu illərdə Azərbaycan KP MK-nın birinci katibi olmuşdur. Azərbaycan SSR EA akademiki idi. **C.10-** 340; **C.23-** 93.

**1434. Vəli Əliyev,** Vəli Hüseyn oğlu Əliyev (d.1936) - tarixçi-arxeoloq. Tarix elmləri doktoru, professor. 1997-ci ildən N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin

ümumi tarix kafedrasının müdiridir. O, Naxçıvan MR-in maddi mədəniyyət abidələrinin əsas tədqiqatçısı və Naxçıvan arxeoloji ekspediyasının rəhbəridir. **C.19**- 153.

**1435. Vidadi Molla Vəli** (təqr.1709-1809) - Azərbaycan şairi. Ədəbi irsinin az qismi məlumdur. Feodal zülmündən, xanlıqlar dövrünün hərc-mərcliyindən doğan kədər və ümidsizlik, mənəvi tənhalıqdan şikayət Vidadi yaradıcılığının əsas motivləridir. Vidadi lirikası yüksək bədii sənətkarlıq nümunəsidir. **C.26-** 315.

**1436. Vilayət Quliyev,** Vilayət Muxtar oğlu Quliyev (d. 1952) - filoloq, diplomat. Filologiya elmləri doktoru. 1996-2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. 1999-2004-ci illərdə Azərbaycan Respublikası Xarici İşlər naziri vəzifəsində çalışmışdır. Hazırda Azərbaycan Respublikasının Polşa Respublikasında Fövqəladə və Səlahiyyətli səfiridir. **C.23**- 213; **C.24**- 205; **C.25-** 226, 227; **C.26-** 239-296; **C.28**- 74.

**1437. Vladivostok** - Rusiya Federasiyasında (1880-ci ildən) şəhər, Primorsk diyarının mərkəzi, Sakit okean sahilində liman. **C.18** – 335; **C.22** - 61

**1438. Vladimir Nikolayeviç Pletnyov** (d.1946) - balet artisti. Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Azərbaycan Dövlət Opera və Balet teatrının solisti olmuşdur. Pletnyovun ifası üçün plastiklik, güclü musiqi duyumu, virtiozluq səciyyəvidi. **C.17**-192.

**1439. Volqa** - Don kanalı, Volqa-Don gəmiçilik kanalı - Volqa və Don çaylarını birləşdirən kanal. 1948-1952-ci illərdə çəkilmişdir. Uzunluğu 101 km.**C.10**- 237, 328, 329, 411.

**1440. Volski Arkadiy İvanoviç** (d.1942) - Rusiyanın ictimai və siyasi xadimi. 1988-ci ildə Sov. İKP Siyasi Bürosunun və SSRİ Ali Sovetinin Dağlıq Qarabağ Muxtar Vilayətində nümayəndəsi olmuşdur. 1989-cu ildə isə Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində üzdəniraq Xüsusi İdarəetmə komitəsinin sədri təyin edilmişdir. Erməni-pərəst mövqe tutduğundan Dağlıq Qarabağın ermənilər tərəfindən işğalına kömək

etmişdir. Hazırda Rusiya sənayeçiləri və iş adamları Şurasının prezidentidir. **C.14**- 87; **C.24**-22.

**1441. VVAQ,** ZAQS - vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı şöbəsi. **C.19** -314; **C.20**- 422.

**1442. Vyaçeslav Qordeyev** (d.1948) - rus balet artisti, baletmeyster, SSRİ Xalq artisti. 1984-cü ildən Moskva balet ansamblının rəhbəridir. 1995-1997-ci illərdə Böyük Teatrda balet truppasının bədii rəhbəri olmuşdur. **C.16**- 67-68, 75.

**1443. Vyana** - Avstriyanın paytaxtı. **C.20**- 437, 443.

**1444. Yakovlev Aleksandr Nikolayeviç** (d.1923) - Rusiyanın siyasi xadimi. 1987-1990-cı illərdə Sov.İKP MK-da Siyasi Büronun üzvü olmuşdur. "Yenidənqurma" dövründə M. S.Qorbaçovun ən yaxın silahdaşlarından olmuşdur. 1991-ci ildə Sov.İKP sıralarından xaric edilmişdir. 1993-cü ildən Rusiya Federasiyası Prezidenti yanında Siyasi repressiya qurbanlarının reabilitasiya komissiyasının sədridir. **C.14**- 400.

**1445. Yakuşev Sergey İliç** (1910-1995) - aktyor, Azərbaycan Respublikasının xalq artisti. 1948-ci ildən S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında çalışmışdır. Müxtəlif xarakterli rolların ifaçısıdır. Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur. **C.17**- 190.

**1446. Yaqub Mahmudov,** Yaqub Mikayıl oğlu Mahmudov (d.1939) - tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü. Müxtəlif illərdə Azərbaycan Sovet Ensiklopediyasında, Bakı Dövlət Universitetində, Ali Attestasiya Komissiyasında məsul vəzifələrdə çalışmışdır. 2004-cü ildən Azərbaycan MEA Tarix İnstitutunun direktorudur. Tədqiqatları Azərbaycanın orta əsrlər tarixinə (Ağqoyunlu və Səfəvi dovlətlərinə), diplomatiya tarixinə və ümumdünya tarixinə aiddir. 2000-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. **C.19**- 259, 269.

**1447. Yaqub Məmmədov,** Yaqub Cavad oğlu Məmmədov (d.1941) - tibb elmləri doktoru, professor. MEA-nın müx-

bir üzvü. Əməkdar elm xadimi. 1983-1992-cı illərdə Azərbaycan Tibb Universitetinin rektoru, 1990-1995-ci illərdə Milli Məclisin deputatı, 1992-ci ildə MM-in sədri olmuşdur. **C.24**-46.

**1448. Yalta** - Ukraynada kurort-şəhər, Qara dəniz sahilində liman. **C.17**- 22, 82-99, 104, 107, 110; **C.21**- 351-359, 361, 362, 363, 364, 368, 382, 398; **C.25-** 144, 371, 384.

**1449. Yalta konfransı**, Krım konfransı (1945) - İkinci Dünya müharibəsində üç müttəfiq dövlət başçılarının - İ.V. Stalin (SSRİ), F.D.Ruzvelt (ABŞ) və U.Çörçilin (Böyük Britaniya) görüşü. Yalta konfransında faşist Almaniyasının tamamilə məğlub edilməsi ilə müttəfiqlərin hərbi planları razılaşdırılmışdı. Konfransın qərarına görə Almaniyanın silahlı müqaviməti qırıldıqdan sonra müttəfiq dövlətlərin ordularının hərəsi onun ərazisində (həmçinin Fransanın) müəyyən zonanı tutmalı idi. Yalta konfransı BMT-ni yaratmaq və müharibədən sonra sülhün təminatı haqqında qərar qəbul etdi. **C.21**- 357, 358, 364, 368.

**1450. Yan Kalitski** (d.1948) - ABŞ-ın yeni müstəqillik qazanmış dövlətlərlə enerci-ticarət sahəsində əməkdaşlığın əlaqələndircisi. **C.10-** 46. **C.11-** 195, 201; **C.12**- 16; **C.18**- 115; **C.20**- 19, 154.

**1451. Yaponiya** - Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min $km^2$, əhalisi 126 milyon nəfərdır. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. **C.14**- 322-468; **C.18**- 6, 37, 462-469; **C.20**- 275, 381; **C.22**- 87, 101, 115, 139, 146-151, 347-349; **C.26-** 114; **C.27**- 158, 271, 295.

**1452. Yaponiya Beynəlxalq Əməkdaşlıq** Agentliyi (CAYKO) - ikitərəfli əlaqələr çərçivəsində əsasən texniki əməkdaşlıq və əvəzsiz yardım proqramları ilə məşğul olan rəsmi orqan kimi hökumətin strukturuna daxildir. Ölkənin ən nüfuzlu qurumlarından sayılan CAYKO yüksək ixtisaslı ekspertlərin köməyi ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə xüsusi diqqət verir. **C.14**- 338; **C.15**- 51.

**1453. Yaponiya Xarici Ticarətin** İnkişafı Təşkilatı (CETRO) - 1958-ci ildə yaradılmış qeyri-kommersiya təşkilatıdır və hökumətin himayəsi altında fəaliyyət göstərir. Əsas vəzifəsi beynəlxalq ticarətin ahəngdar inkişafına nail olmaq üçün xarici ölkələrlə ticarət əlaqələrini möhkəmləndirməkdir. CET RO-nun təklif etdiyi informasiya və xidmətlər pulsuzdur və maraqlanan bütün şəxslər, şirkətlər, təşkilatlar bunlardan istifadə edə bilərlər. **C.14**- 339-340.

**1454. Yasir Ərəfat** (1929-2004) - 1969-cu ildən Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri, 1996-cı ildən Fələstin Milli administrasiyasının rəhbəri və Fələstin hərbi qüvvələrinin Baş komandanıdır. Nobel mükafatı laureatıdır. **C.13**- 326-327; **C.21**- 144; **C.23**- 46

**1455. Yasnaya Polyana** - Lev Tolstoyun anadan olduğu və təxminən 60 il yaşadığı malikanəsi. Burada o "Hərb və sülh", "Anna Karenina" romanlarını, çoxlu povest, hekayə və məqalələrini yazmış, kəndli uşaqları üçün məktəb açmış, "Yasnaya Polyana" jumalını nəşr etdirmişdir. 1921-1986-cı illərdə L.N.Tolstoyun Dövlət Muzey malikanəsi, 1986-cı ildən Lev Tolstoyun Dövlət memorial və qoruq "Yasnaya Polyana" muzey malikanəsi adlanır. **C.17**- 134.

**1456. Yaşar Əliyev**, Yaşar Tofiqi Əliyev (d.l948) - cərrah həkim, professor, diplomat. 1990-cı ildən Azərbaycan Respublikası Ali Sovetinin, 1994-cü ildən isə Milli Məclisin deputatı olmuşdur. Hazırda Çin Xalq Respublikasında Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiridir. **C.21**- 120, 121, 122; **C.22**- 306.

**1457. Yaşar Nuriyev,** Yaşar Məmməd Sadıq oğlu Nuriyev (d.1951) - Azərbaycan Respublikasının Xalq artisti. Professor. Azərbaycan Milli Dram Teatrının aparıcı aktyorlarından biri. Kino və televiziya filmlərində də çəkilir. İki dəfə Azərbaycan Dövlət mükafatı laureatıdır. **C.12-** 177; **C.28**- 316, 317, 320.

**1458. Yazov Dmitri Timofeyeviç** (d.l924) - Sovet İttifaqı marşalı. 1987-ci ildən SSRİ Müdafiə Naziri olmuşdur.

Yazov 1990-cı ilin yanvarında Bakıda baş verən Qanlı Yanvar faciəsinin təşkilatçılarından biridir. **C.17**- 46, 110; **C.19**- 66; **C.28**- 223, 224.

**1459. Yeganə xanım** - Zahid xan Xoyskinin qızı. Hazırda ABŞ-da yaşayır. **C.12**- 178.

**1460. Yeqor Stroyev**, Yeqor Semyonoviç Stroyev (d. 1937) - 1996-2001-ci illərdə Rusiya Federasiya Şurasının sədri olmuşdur. Hazırda Oryol vilayətinin qubernatorudur. **C.10-** 246, 247, 248, 252, 302; **C.14-** 164-166.

**1461. Yelisey Sarayı** - Parisdə Fransa prezidentlərinin iqamətgahı. **C.28**- 236.

**1462. Yemelyanov Stepan Fyodoroviç** (1902-1985) - general-mayor. 1939-1953-cü illərdə Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığının və Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olmuşdur. Respublikanın vətəndaşlarına, milli ziyalı nümayəndələrinə xüsusi qəddarlıq göstərmişdir **C.10-** 335, 339; **C.15**- 330, 331, 332.

**1463. "Yeni Azərbaycan"** - gündəlik ictimai, siyasi qəzet. 1993-cü ildən nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanıdır. Təsisçisi Prezident Heydər Əliyev olmuşdur. **C.18**- 38.

**1464. Yeni Azərbaycan Partiyası** (YAP) - Azərbaycanda ən kütləvi-siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatında birləşən 180 min üzvü var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) o vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləmiş mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. **C.13**- 262-292; **C.14**- 287, 309; **C.15**- 266; **C.16**- 221; **C.17**- 32, 67; **C.18**- 227-257;

**C.21**- 309-338; **C.23**- 387, 388; **C.24**- 41-80, 166; **C.27**- 69-90, 310; **C.28**- 64.

**1465. Yeni Zelandiya** - Sakit okeanın cənub-qərbində dövlət. Sahəsi 270,5 min km$^2$, əhalisi 3,62 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət başçısı Böyük Britaniya Kraliçası. Onu ölkədə general-qubernator təmsil edir. Qanunverici orqan Parlamentdir. Paytaxtı Vellinqtondur. **C.25-** 81.

**1466. Yerevan,** bax: İrəvan.

**1467. Yermolov Aleksey Petroviç** (1777-1861) - rus dövlət və hərbi xadimi, infanteriya və artilleriya generalı. Bir sıra müharibələrdə və yürüşlərdə artilleriya rəisi, diviziya, korpus komandiri kimi iştirak etmişdir. 1816-cı ildən əlahiddə Gürcüstan (sonralar Qafqaz) korpusunun komandiri, Gürcüstanda baş komandan və eyni zamanda İranda fövqəladə və səlahiyyətli səfir olmuşdur. Qafqaz canişini olarkən amansız müstəmləkəçilik və işğalçılıq siyasəti yeritmişdir. **C.22**- 17.

**1468. Yesenin Sergey Aleksandroviç** (1895-1925) - böyük rus şairi. Şair ilk vaxtlar incə lirik şair, dərin psixoloji peyzaj ustası, kəndin və kəndlilərin ilhamçısı kimi çıxış edir. 1919-1923-cü illərdə imajinistlər qrupuna daxil olur və tamamilə ictimai həyatdan uzaqlaşır. 1924-1925-ci illərdə Bakıda olmuş, birmüddət Mərdəkanda yaşamışdır. Bır sıra görkəmli əsərlərini burada yazmışdır. Azərbaycana da həsr edilmiş şeirləri var. Dərin yaradıcılıq böhram nəticəsində intihar etmişdir. **C.24**- 33; **C.28**- 181.

**1469. Yəmən**, Yəmən Respublikası - Ərəbistan yarımadasının cənub hissəsində dövlət. Sahəsi 532 min km$^2$, əhalisi 16,6 milyon nəfərdir. İnzibati ərazisi 17 əyalətə (qubernatorluğa) bölünür. Dövlət başçısı Prezident Şurasıdır. Paytaxtı 1990-cı ildən Sənadır. **C.27**- 253.

**1470. Yıldırım Akbulut** (d.l935) - Türkiyənin siyasi və dövlət xadimi, hüquqşünas. Ana Vətən Partiyasının yaradıcılarından biri. 1983-cü ildə TBMM-nin sədr əvəzi, 1984-1987-ci illərdə Türkiyə daxili işlər naziri, 1987-2005-ci illərdə TBMM-nin sədri, Baş nazir vəzifələrində çalışmışdır. 2005-ci ildə

TBMM-nin deputatıdır. **C.22**- 392, 418; **C.25-** 14-27, 52, 159, 163; **C.26-** 233.

**1471. Yosif Rotter** (?-?) - XIX əsrin ikinci yarısı - XX əsrin birinci yarısında yaşamış alman rəssamı. 1906-1914-cü illərdə "Molla Nəsrəddin" jurnalında əməkdaşlıq etmişdir. O, jurnalın ideya ruhuna, dərin məzmunlu felyetonlarına illüstrasiya və karikaturalar çəkmişdir. **C.26-** 90.

**1472. Yuqoslaviya hadisələri** - 1980-ci illərdən başlayaraq Yuqoslaviyada (Yuqoslaviya Federativ Sosialist Respublikası) ciddi iqtisadi və siyasi çətinliklərlə qarşılaşdı. 1991-ci ildə millətlərarası qarşıdurma nəticəsində YFSR parçalandı. Federasiyanın tərkibindən Sloveniya, Xorvatiya, Bosniya və Hersoqovina, Makedoniya çıxdı və müstəqil dövlət oldular. 1992-ci ildə Serbiya və Çernoqoriya Yuqoslaviya Respublikasını (SRY) yaratdılar. 1999-cu ildə Serb hökuməti tərəfindən Kosovoda (Serbiyanın tərkibində) yaşayan albanlara qarşı zorakılığa başlandı və nəticədə etnik qarşıdurma yarandı. Buna görə də NATO aviasiyası tərəfindən bombardman edildi. Məhz bundan sonra Yuqoslaviya öz ordusunu Kosovodan çıxartdı və NATO-nun sülh məramlı ordusu albanları şerblərdən qorumaq üçün Kosovaya girdi. 2002-ci ildə SRY Serbiya və Çernoqoriya adı ilə adlandırıldı. 2006-cı ildə keçirilən referendum nəticəsində Çernoqoriya da Serbiyadan ayrıldı və müstəqil dövlət yaratdı. **C.19**- 403; **C.20**- 33, 49, 53, 56, 57, 87; **C.21**- 284, 303; **C.23**- 75, 101, 174; **C.25-** 301; **C.27**- 16, 20.

